ISSN 2789-4606

QƏRBİ KASPİ UNİVERSİTETİ

ELMİ XƏBƏRLƏR

Humanitar elmlər seriyası

SAY 2 – 2019

WESTERN CASPIAN UNIVERSITY

SCIENTIFIC BULLETIN

The Series of Humanitarian Sciences

№ 2 - 2019

BAKI - 2019

Redaksiya heyəti

Baş redaktor: Hüseynqulu Bağırov, Qərbi Kaspi Universitetinin fəxri prezidenti, t.ü.f.d., professor

Məsul katib: Gülnarə Seyidova, fil.ü.f.d.

1. Adilə Əsədova, fil.ü.f.d., dosent
2. Afaq Həsənova, r.ü.f.d., dosent
3. Andris Leitas, Qərbi Kaspi Universitetinin rektoru
4. Azad Məmmədov – fil.ü.e.d.
5. Colin Love - Qərbi Kaspi Universitetinin fəxri professoru (Böyük Britaniya)
6. Elçin Əliyev, sən.ü.e.d., professor
7. Elmira Hacıyeva, h.ü.f.d., dosent
8. Elnarə Cəfərova, b.ü.f.d.
9. Ədalət Kərimov, r.e.d., professor
10. Fikrət Sadıxov, Qərbi Kaspi Universitetinin fəxri professoru
11. Fuad Məmmədov – t.ü.e.d., professor
12. Günel Bahəddinova, a.ü.f.d., dosent
13. Könül Hilal, i.ü.f.d
14. Maurus Roller – fil.ü.f.d.
15. Münəvvər Abdullayeva, f.ü.f.d., dosent
16. Nərgiz Axundova - AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
17. Pərviz Qurbanov, i.ü.f.d., professor
18. Randall Barker – Qərbi Kaspi Universitetinin fəxri professoru (Amerika Birləşmiş Ştatları)
19. Rauf Həsənov, t.ü.f.d.
20. Samir Həmidov, s.e.ü.f.d., dosent
21. Svetlana Quliyeva, r.ü.f.d., dosent
22. Şahin Xəlilli – fil.ü.e.d., professor
23. Ülviyyə Allazova - fil.ü.f.d.
24. William Fierman - professor (Amerika Birləşmiş Ştatları)

Redaksiyadan

Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı 2017-ci ildən oxucularla görüşə davamlı yeniliklərlə gəlməkdədir. Bu da jurnalın qarşısına qoyduğu inkişaf hədəfi ilə bağlıdır.

Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Diqqətinizə çatdırmaq istəyirik ki, cari ildən "Elmi xəbərlər" jurnalına göndərilən məqalələr redaksiyanın peşəkar ekspert heyətinə resenziyaya göndəriləcək, yalnız elmi-tədqiqat tutumlu əsərlərin dərc olunması mümkün olacaq.

Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalının redaksiya heyətinin məqsədi yerli və xarici tədqiqatçılar, alimlər tərəfindən aparılan fundamental və tətbiqi araşdırmaları, pedaqoji, metodoloji və metodiki məsələləri əhatə edən, elm və təhsilin inkişafına xidmət göstərən elmi tutumlu yazıları geniş oxucu auditoriyasına çatdırmaqdır.

Həmçinin, "Elmi xəbərlər" jurnalı digər universitet və institutların dissertant və elmi işçilərinin elmi əsərlərini dərc etməyə açıqdır.

Ümid edirik ki, "Elmi xəbərlər" jurnalı ictimai və humanitar sahələrdə həyata keçirilən elmi tədqiqatların yayılmasında, məqalələrin geniş oxucu kütləsinə çatmasında bir növ vasitəçi rolunu oynayacaq. "Elmi xəbərlər" jurnalının redaksiya heyəti mütəxəssisləri, elm adamlarını, o cümlədən, gənc tədqiqatçıları əməkdaşlığa və jurnalda elmi məqalələrlə çıxış etməyə dəvət edir.

From the editorial office!

In 2017 the journal "Scientific News" of "Western Caspian" University, is looking forward to welcoming its readers with great innovations.

The journal "Scientific News" was included in the publication list, which was approved by the Higher Attestation Commission under the President of the Azerbaijan Republic.

The journal's main objective is to inform a wide range of readers about research conducted by local and foreign scientists in the fields of fundamental and applied science - pedagogy, psychology, methodology and another reserch, included in the development of science and education.

We hope that "Scientific News" journal will play the role of an intermediary for a wide readership through the dissemination of scientific research in the social and humanitarian fields.

Editorial experts for the journal "Scientific News", scientists, especially young researchers are invited to cooperate with the journal. We want to note that our journal is open to cooperation with scientists and researchers from other universities.

We would like to draw your attention to the fact that in the current year all the articles of the "Scientific News" journal will be sent for consideration to professional experts, and only works of scientific and research potential will be published.

MÜNDƏRİCAT

D İ L Ç İ L İ K

1. Ruhiyyə NAĞIYEVA
Bədii əsərdə onomastik vahidlərin rolu. 7
2. Buludxan XƏLİLOV
Azərbaycan dilindəki bəzi antroponimlər və fitonimlər barədə..... 12
3. Lalə QULİYEVA
Rus ada dialekti Azərbaycan toponimiyasının mənbəyi kimi...... 17
4. İsmayıl KAZIMOV
Bəydili tayfası və onunla bağlı onomastik vahidlər. 22
5. Aidə MİRZƏYEVA
Metaforik etnonimlərin ana dilinə tərcümə etmək problemləri.....29
6. Məhərrəm HÜSEYNOV
Onomastik vahidlərin poeziya dilində potensial inikas imkanları. 41
7. Məmmədxan SOLTANOV, Samirə ƏMRAHOVA
Xızır antroponimi haqqında......48
8. Tünzalə Baxşiyeva
Peşə, məşğuliyyət bildirən leksik vahidlər əsasında yaranan etnonimlər. 53
9. İlhamə Muxtarqızı Ağazadə
Xanımana Əlibəylinin pyeslərindəki onomastik vahidlər. 60
10. Sərdar ZEYNAL
Tivi kəndinin onomastik vahidlərinin linqvistik xüsusiyyətləri...... 66
11. Vəfa HACIYEVA
Xüsusi adların stilistik-semantik özəllikləri haqqında.....72
12. Elmira ƏHMƏDOVA
"Kitabi –Dədə Qorqud" dastanında etnonimlər...... 89
13. Solmaz Ələsgərova.
M.F.Axundzadənin komediyalarında antroponimlər. 101
14. Ülviyyə HACIYEVA
Müasir ingilis dilində mövcud olan toponimlərin yaranmasında xarici elementlərin rolu. 108
15. Aytən MURADOVA
Şərqi slavyan dillərində qiymətli daşların adları oykonimlərin komponentləri kimi 112
16. Nərgiz HACIYEVA
Şəxs adlarında üslubi xüsusiyyətlər......117

17. Jalə QƏNİYEVA
Müasir Azərbaycan dilində somatik komponentli onomastik vahidlər. 126
18. Reyhan HƏBİBLİ
Regional toponimika və topokonseptlər. 130
19. Səadət BAYRAMOVA
Onomastik vahidlərin «Poetik-üslubi pasportu» 137
20. Sevinc SADIQOVA
Arxaik vahidlərdən törənən onomastik leksika. 144
21. Rasim HEYDƏROV
Qafqaz ərazisi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsərində işlənən toponimlər və onların tədqiqi 149
22. Zülfiyyə QULİYEVA
Naxçıvan toponimlərinin transliterasiyası 155
23. Təhminə İSMAYILOVA
Müasir Azərbaycan dilində onomastik normalar. 165
24. Həmzə ƏLİYEV
Onomastik vahidlər obrazlı düşücə işığında. 172
25. Aysel TALIBOVA
Q. Q. Markezin "Yüz ilin tənhalığı" əsərində onomastik vahidlərin bədii-ideoloji istiqaməti *180*
27. Elnarə ƏHMƏDOVA
Qubadlı rayonunda apelyativlərdən yaranmış oykonimlər. *185*
28. Hüsniyyə ÇOBANOVA
Etnonimik oykonimlər 188
29. İradə KƏRİMOVA
Ərəb apelyativli Azərbaycan toponimləri 194
30. Təbərrük CAHANGİRLİ
Azərbaycan dilində antroponimlər və toponimlərin önəmi *200*
31. Telli SƏLİMLİ-MÜRŞÜDOVA
İsa Hüseynovun "Kollu koxa" əsərində ləqəblər. *204*

UOT 81

BƏDİİ ƏSƏRDƏ ONOMASTİK VAHİDLƏRİN ROLU

Ruhiyyə Sedreddin NAĞIYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Qərbi Kaspi Universiteti

ruhiyye.nagiyeva.81@mail.ru

Xülasə

Onomastikanın əsas və ən geniş yayılmış sahəsini antroponimika təşkil edir. Bu termin dilçilikdə "insan adları haqqında elm" mənasında işlənir. Bədii üslubda digər ono- mastik vahidlər kimi antroponimlər də, bütövlükdə əsərin ideyasına, süjet xəttinə, hadisələrin inkişafına xidmət edir. Əlbəttə, sənətkar antroponim seçərkən daha çox yaşadığı dövrün, mühitin səsinə qulaq asır, çünki "dil xalqın malıdır və bu cəhətdən, tamamilə təbiidir ki, hər bir dil mənsub olduğu xalqın tarixi ilə bağlıdır.

Açar sözlər: antroponimika,onomastika,dil,bədii əsər

Role of onomastic units in artistic work

Summary

One of the major and the most widespread fields of onomastics is anthroponymy. This term is used in linguistics in the meaning of "study of personal names". As all the onomastic terms antropononyms describe main idea of the written work, main plot and sequence of events. Surely, when choosing an antroponym, writer focuses on current situation and events "because language belongs to the nation". Therefore, it is very natural that language is closely related to nation's history.

Key words: antropononym, onomastics,language, art work

Onomastikanın əsas və ən geniş yayılmış sahəsini antroponimika təşkil edir. Bu termin dilçilikdə "insan adları haqqında elm" mənasında işlənir.

Antroponimika insan adlarının əmələ gəlməsini, inkişafını, təkmilləş-məsini bir sözlə, adların keçmişini və müasir vəziyyətini öyrənir.

Mühitin təzahüründə bütün əşyalar kimi insanları da adlandırmaq, fərqləndirmək, çağırmaq, ehtiyacı yaranmışdır ki, buradan da zəngin xüsu-si adlar sisteminə daxil olan adlar, ləqəblər, müxtəlif cür adlandırmalar əmə-lə gəlmişdir (2, s.24).

Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni ünsiyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir. Azərbaycan mədəniyyyətinin və ədəbiyyatının qədim abidəsi kimi Kitabi Dədə Qorqud dastanından tutmuş müasir dövrümüzə qədər olan əsərlərimizdə öz əksini tapır. Bədii üslubda digər onomastik vahidlər kimi antroponimlər də, bütövlükdə əsərin ideyasına, süjet xəttinə, hadisələrin inkişafına xidmət edir. Əlbəttə, sənətkar antroponim seçərkən daha çox yaşadığı dövrün, mühitin səsinə qulaq asır, çünki "dil xalqın malıdır və bu cəhətdən, tamamilə təbiidir ki, hər bir dil mənsub olduğu xalqın tarixi ilə bağlıdır. Dil elə bir güzgüdür ki, xalqın tarixi bu və ya digər şəkildə öz əksini tapır" (1, s.200). Antroponimlər bədii ədəbiyyatda müxtəlif vəzifələr daşıyır:

1. Antroponimlər vasitəsi ilə personajlar fərdiləşdirilir.
2. Antroponimlər əsərə millilik gətirir.
3. Obrazların mənəvi keyfiyyətləri çox zaman adlarla səciyyələndirilir.
4. Sənətkar əsərin ideyasının təsirli çıxması üçün antroponimlərdən istifadə edir
5. Düzgün ad seçimi oxucunun marağını artırır.
6. Personajların antroponimləri onların yaşadıqları dövr haqqında məlumat verir (2, s.32).

XX əsrin sonu Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri də S.Əhmədli olmuşdur. S.Əhmədli yaradıcılığını şərti də olsa, iki hissəyə bölmək olar: sənətkarın sovet dövrü və müstəqillik dövrü ədəbiyyatı. Ədəbi yaradıcılığa hələ tələbə ikən başlayan S.Əhmədlinin ilk qələm məhsulu olan "Poçtalyon" hekayəsi "Pioner" jurnalında dərc edilmişdir. Bundan sonra ardıcıl olaraq "Bir payız axşamı", "Aran", "Pillələr", "Görünməz dalğa", "Dünyanın arşını", "Yamacda nişanə", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz", "Yanvar hekayələri", "Gedənlərin qayıtmağı", "Kütlə", "Axirət sevdası", "Şəhid ruhu", "Uyuq" və s. kitabları işıq üzü görmüşdür. Sabir Əhmədli zamanın nəbzini tutan, onun qarşıya qoyduğu problemləri vaxtında duyan, hətta hardasa zamanı qabaqlayan bir yazıçı idi. Ona görə də keçən əsrin əllinci illərindən başlayaraq heç bir hadisə onun yazıçı nəzərindən uzaq düşmədi.

Yazıçıdan obrazın xarakterinə uyğun ad seçmək tələb olunur. Xarakterə uyğun olmayan bir ad oxucunu cəlb etmir, onu düşündürmür. S.Əhmədli bədii əsərlərində antroponim seçmək, antroponimi tanıtmaq üsulları müxtəlifdir, və üslubi məqsədə xidmət edir. "Yaşıl teatr" romanının qəhrəmanı zooparkın xidmətçisi Şiraslan və sifarişlə evdə işləyən Kainatdır. İctimai sosial mühitin yetişdirdiyi Kişibəyov kimilərin diktatorluğu ilə bu mühitdə çabalayan Kainatın ağıllı və insanları sevən düşüncələri qarşılaşdırılır. Mühitin eybəcərliyindən yararlana Kişibəyov "Qadir Şeytanlar" adlı qeydləri ilə insanları da heyvanlaşdırmaq, sosial mühitdə cansız insanlar yaratmaq istəyir. Romanda Kişibəyov

çirkin, ifrat duyğularının və mənəvi diktatorluğunun cəzasını çəkir. S.Əhmədov bilərəkdən zərərli və təhlükəli antiqəhrəmana qarşı qarşı Kainat obrazını qoyur. Yazıçı müsahibələrinin birində bildirir ki, "Yaşıl teatr" jurnalda da bir xeyli qalmışdı. Onda "Azərbaycan" dərgisinin baş redaktoru Cəlal Məmmədovdu. "Doroqoy" ayaması ilə bu kəs qatı mürtəce kimi tanınırdı.

Qəribədir, bu adam roman barədə mənə elə məsləhətlər verdi, olduqca yetərli!

Romanı ilk dəfə oxuduqdan, cavabı yubatdıqdan sonra onunla görüşmüşdüm.

O mənə dedi: "Sən təsvir etdiyin adamların əməyini də gətir əsərə. Onlardan ötrü bir iş tap". Ağlabatan məsləhətdi. Romandakı həyətdə özümüz kirayədə qalmışdıq. "Lermontov" küçəsində qaldığımız evdi. O evin bir yanı "Yaşıl teatr", bir yanı "Drujba" restoranı, Dağüstü park, bir yanı Bayılda zoopark, onun yaxınlığında Doğum evi və məhkəmə idi. Mən bu yerləri qovuşdurmağa, yalnız hadisə ilə deyil, içəridən, mənaca, mahiyyətcə bağlamağa çalışmışdım.

Buradakı insanları yaxşı tanıyırdım. Baş redaktor doğru tutmuşdu. Bu adamlar əsərin ilk variantında işsiz, əməlsiz, avara idilər. Bəs mən onların əmək səhnəsini haradan, necə tapım gətirim? Birdən yadıma düşdü. Biz oradan, Çəmbərəkənddən mənzil alıb Yasamala köçdükdən sonra təzə binada qonşu, beşinci mərtəbədə bir iri ailə yaşayırdı. Balkonlarımız açıq, bir-birinə bitişikdi. Divarın o üzü onlar, bu üzü bizdik. Səmimi, yaxşı insanlardı, birevli təki qonşulardı. Arvadın beş qızı vardı. Evin ağsaqqalı kişi də bizimlə yaxındı. Balkonda, yanaşı yaşamağımızla mehribanlaşmışdıq. Qonşular olduqca zəhmətkeş insanlardı. Qızlar anaları ilə birgə bütün günü eyvanda çalışırdılar. Gördükləri iş də bu idi: onlar "evə iş" sexindən mal götürürdülər. Bu olurdu xalça, örtük, şal. Gətirib evdə onun qalan işlərini görürdülər, saçaq bağlayırdılar, tirmə çəkirdilər. Şal, xalça-örtük, süfrə onların üstəlik əməyilə tamamlanır, bitirdi. Lapca yerinə düşürdü. Elə mən orada "Yaşıl teatr"dakı Kainat xanımı bütünlüklə belə bir əməklə bağlaya bilərdim. Belə də elədim. Qonşuların gördükləri iş sonra mənə gərək olacaqmış. Onlar toxumuş, hörmüş, mən də öz eyvanımızda dayanıb, oturub onları izləmiş, öyrənmişdim.

Mənim əməkçi insana böyük rəğbətim var. İş görən, zəhmətə qatlaşan, istehsalla bağlı neftçiyə, əkinçiyə, taxılçıya, kimin əlləri cibində deyilsə, işləyirsə, belə insanlara böyük ehtiramım var. Deyirlər, yer kürəsi iki öküzün buynuzunda qərar tutub. Yox, yer kürəsi əməkçi insanın əlləri üstədir.

Yazıçının xüsusilə seçilən romanlarından biridə " Kütlə" romanıdır. 90-cı illərin ortasından etibarən Azərbaycan ədəbiyyatı yeni mövzularla tanış oldu və.s. S.Əhmədovun da yaradıcılığında yeni bir mərhələ başladı.Dövrün nəbzini tutmaqla yazıçı mürəkkəb və ziddiyyətli meydan hərəkatı haqqında yazdığı yeni romanıyla hadisələrə sadəcə bir ədəbiyyatçı gözü ilə baxmamış eyni zamanda bir vətəndaş kimi hadisələri təhlil etmək, qiymətləndirmək istəmişdir. S.Əhmədovun meydan hərəkatı, milli azadlıq mübarizəsi haqqında yazdığı

"Kütlə" romanı bu baxımdan spesifikdir. Əsərin adının "Kütlə" qoyulması da çox mənalıdır. Yazıçı, bununla bir millətin, bir xalqın hərəkatından deyil, mənafeələri birləşən, ancaq çox fərqli məqsədi, dünyagörüşü, ideologiyası, hətta təmənnaları olan insanların kütlə halında meydana çıxmalarını, meydanın əslində görünənlər tərəfində deyil, görünməyən qüvvələr tərəfindən idarə olunduğunu göstərmək istəmişdir. Ancaq bu kortəbii surətdə başlamış azadlıq hərəkatıdır, milli dirçəliş, milli özünəqayıdışdır. "Bədii əsərlərdə mənfi və müsbət surətlərə verilən ad birinci növbədə yazıçının həmin surətə münasibəti, əsərin janrı ilə bağlıdır. Bunu toponimər haqqında da demək olar. Bədii əsərlərdə onomastik vahidlərin seçilməsinə yazıçılar şüurlu münasibət bəsləyir, onları əsərin ideyası ilə uyğunlaşdırmağa çalışırlar. Sabir Əhmədlinin əsərlərinində onomastik vahidlərin işlənmə xüsusiyyətləri rəngarəngdir. S.Əhmədli həyati gerçəklikləri təqdim edərkən onomastik vahidlərin köməyilə oxucu üçün bədii mühitin tam şəkildə həqiqət kimi dərk olunmasına münbit şərait yaratmış. Azadlıq meydanı adlandırılan Meydan da böyük amallar uğrunda çarpışan insanların doğru-düzgün nicat yoluna çağırışlarını deyil, sadə insanların etiraz səsini yaymaq üçün tribuna vasitəsidir. Romanda surətlərin çoxu Meydan hərəkatından tanıdığımız Nemət, Sabir Rüstəmxanlı, o dövrün partiya işçiləri olan Ə.Vəzirov, M.Qorbaçov, Axundov kimi və.s konkret şəxsiyyətlərin obrazlarıdır. Onlar haqqında söylənən fikirlər sadəcə ayrı-ayrı şəxsiyyətlərin keyfiyyətləri haqqında deyil, ümumiyyyətlə dövrün, mühitin səciyyəvi xüsususiyyətləri barədə təsəvvür yaratmağa kömək edir. Romanda işlənən toponimlər 90-cı illər Azərbaycanın vəziyyətindən xəbər verirdi. Bu toponimər yazıçının yaxın tarixlə səsləşən problemləri həllini tapmaq yolunu göstərməyə xidmət edir.

Onun son romanları içərisində Qarabağ müharibəsindən söz açan «Ömür urası» xüsusilə fərqlənir. «Bağlar sovulanda yığılan axır bara el arasında «peşxurd», «meşari» deyirlər. Biçilmiş zəmidən düşən tək-tük sünbül «başaq» adlanır. Bos- tan, dirrikdən qalma son məhsulsa «ura»dır. Məsəl var: «Gedər bostan urası, qalar üzün qarası». İnsan ömrünün sovulan çağına da «ura» söyləmək olar. Oxuculara çatdırılan bu romanda yazıçı ömrünün son yetirməsi «ura»dır. Bundan sonra nə yazsa, həmin ad altında gedəcək» Roman çox maraqlı və orijinal bir tərzdə yazılıb. Belə ki, romanda keçmişlə gələcək vəhdətdə təsvir edilir. Cəbrayılın işğala məruz qaldığı 1993-cü il, rayonun sanki məlum ssenari üzrə verilməsi bir daha acı təəssüf hissi ilə qeyd edilir. Ancaq romanda elə bu xətlə yanaşı Cəbrayılın azad edilməsindən sonrakı ilk günləri də təsvir olunur. Bu nədir? Oxucu üçün bir anlaşılmazlıqmı? Bəlkə fantaziya, yuxu, irreal bir görünüş? Yox, nə fantaziya, nə yuxu, nə də irreal bir mənzərə… Bədii ədəbiyyat-söz sənəti əgər təsir və təlqin xüsusiyyətinə malikdirsə, onun ehya gücü varsa, nə üçün də illər boyu ürəyimizdə yatıb qalan Qarabağ dərdi özünün sehriylə, möcüzəsiylə bir çarə bulamasın? Sehr və möcüzə isə yaxında, uzaqda, davayla ya sülh yoluyla başa gələcək qələbəni arzudan həqiqətə çevirməkdir. Bu həqiqət S.Əhmədlinin romanında özünün ilkin obrazını tapıb. Roman dü-

şüncələr axarı formasında qələmə alınıb. Yəni burada sırf ədəbi qəhrəman, yaxud da bu qəhrəmanla bağlı personajlar axtarmaq əbəsdir. Bütün hadisələr və reallıqlar təhkiyəçi ob- razında təmərküzləşib. Əslində, bu təhkiyəçi S.Əhmədlinin özüdür. L.Cəbrayıllı "525"-ci qəzetində nəşr olunan məqa- ləsində yazırdı. "Yeni romanımın adı "Ura"dır. Ura - qədim sözümüzdür, kənddə-kəsəkdə indi də işlənir. Bostanın son məhsuluna, ən axıra qalanına deyilir. Axır məhsul şirin olur, əvəzsiz olur... Bu gün çox işlək olan məşhur "Ura!"- kəlməsi ilə bir yaxınlığını da duyuram, o da son, finiş, axır deməkdir, ola bilər ki, bu söz elə türk dilindən gəlmədir... "-Sabir Əhmədli romanının adını ilk dəfə "Şans"a demişdi. Ad qəribəydi, heç bilmirdik yazaq, yoxsa yox, yadımdadır, uzun-uzadı müzakirələri, axır ki, rəhmətlik Hüseyn Əfəndi yekunlaşdırdı: "Uralamaq feli dilimizdə var -axıra qalanı yığmaq, son məhsulu toplayıb seçmək, ayırmaq deməkdir, onda elə kök də ura-dır". Sabir müəllim yazdı, mətbuat yazdı, söz işləkliyini qaytardı, indi hamı işlədir, rahat yazır.

Ədəbiyyat:

1. Axundov A.A. Ümumi dilçilik. Bakı: Maarif, 1979. s. 256
2. Ə.N.Mikayılova. Onomastik vahidlərin üslubi imkanları Bakı, 2008, s. 302
3. Əhmədov.S. Kütlə. Bakı.1999. s. 274
4. Əhmədov.S. Yaşıl teatr. Bakı.Yazıçı.1978. s. 210
5. Hüseynova.H.Bədii əsərlərdə onamatik vahidlərin rolu. Bakı. 2017. s. 190
6. Məmmədova.Z. Bədii ədəbiyyatda şəxs adlarının xarakterioloji əhəmiyyəti. Bakı. №1. 2005. s. 345
7. L.Cəbrayıllı "525"-ci qəzet. 23.04.2009

UOT 81

AZƏRBAYCAN DİLİNDƏKİ BƏZİ ANTROPONİMLƏR VƏ FİTONİMLƏR BARƏDƏ

Buludxan Əziz XƏLİLOV

Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedoqoji Universiteti

buludxan.xalilov@mail.ru

XÜLASƏ

Məqalədə antroponimlərin mənasının və məzmununun oynadığı rola diqqət yetirilir. Azərbaycan dilinin antroponimlər sistemində yer almış mənasız adların olduğu da qeyd olunur. Bundan başqa, Azərbaycan dilinin fitonimlər sistemini öyrənməyin və bu sahəyə aid lüğətin çapı məqsədəuyğun sayılır.

Açar sözlər: adların mənası, Azərbaycan dili, bitkilərin adı, söz modelləri, dilin potensial imkanı.

ABOUT SOME AUTHROPONYMS AND PHYTONYMS IN THE AZERBAIJANI LANGUAGE

SUMMARY

This article deals with the role of the authroponyms meaning and content. It is noted that there are insignificant words which are taken place in the authroponymic system of the Azerbaijani language.

In addition, it is considered reasonable studying of phytonyms system of the Azerbaijani language and printing dictionaries for this area.

Key words: meaning of the names, Azerbaijani language, name of the plants, word models, potential opportunity of the language.

Ad mənalı və gözəl olmalıdır. Bəzən ad insanın məzmununu, yəni kimliyini əks etdirə bilir. Onu da qeyd edək ki, hər bir insanın doğum və ad günü fərqlidir. Doğulduğu gün insanın dünyaya gəldiyi gündür. Ad günü isə ona ad verilən gündür. Bunlar bir-birindən fərqli günlər, tarixlərdir. Ancaq insanların böyük əksəriyyəti ad günü dedikdə doğum gününü nəzərdə tutur. Ona görə də *doğum gününü təbrik edirəm* ifadəsi *ad gününü təbrik edirəm* ifadəsindən daha düzgündür.

İnsan ilk dəfə tanıdığı adamın adı səslənəndə onun adına və adının mənasına diqqətini yönəldir. Ad mənalıdırsa, həmin insana ilk münasibət xoş, yəni yaxşı olur. Sonra həmin adı daşıyan adamın kimliyi gəlir. Hər halda kimlik addan sonra gəlir. Kimlik adın arxasında gizlənə bilir. Kimlik aşkar olunduqdan sonra, kimlik tanındıqdan sonra adın mənası ilə birləşir (2, s.213). Adının mənası yaxşı təsir bağışlayan və kimliyi yaxşı olan adamlar xoşbəxtdir. Adlarının mənası yaxşı təsir bağışlayan, ancaq kimliyi yaxşı olmayan adamlar adına yaraşmayan adamlardır. Adlarının mənası yaxşı olmayan və kimliyi yaxşı olmayan adamlar isə bədbəxt adamlardır.

V.Humboldt "Bir millətin dili ruhudur, ruhu da dilidir" demişdir. Buna baxmayaraq, bəzən *Məhəmməd* adını *Məmməd,* daha sonra *Mamed* şəklinə salırıq. Özümüzü yormamaq üçün *Məhəmməd* əvəzinə *Məmməd,* yaxud da *Mamed* deyirik. Əgər bunu canımıza cəfa verməmək üçün ediriksə, bəs onda gülünc mənası olan adları niyə istifadə edirik? Həmin mənası olmayan gülünc adları tarix boyu övladlarımıza vermişik, ad sistemində yaşatmışıq. Məsələn: *Bədil, Bircan, Bəzək, Dəxil, Dəfinə, Çervon, Çələng, Cılğız, Cicigül, Cərulla, Cığa, Cazilə, Carçı, Camo, Canrülə, Canəssa, Düymə, Ehsan, Əbabil, Əbi, Əbiş, Əda, Əcəb, Əhya, Ələs, Əlim, Əmanət, Ərəb, Ərçə, Əyalət, Əyal, Ətir, Fəti, Fərmayiş, Gerçək, Gorus, Güldan, Haqq, Həddad, Həkkak, Həmza*t və s. adlar ad sistemini gülünc bir vəziyyətə salır. Hətta mənaları gülünc doğuran *Dalğın, Dilənçi, Fağır, Fani* və s. kimi adlar da yersiz işlənmiş adlardır. Bunların hamısının ad sistemindən çıxarılması vacibdir (1, s.79).

Adlarımız içərisində elələri var ki, mənaları gülüş doğurmaya bilmir. Məsələn: *Almadərən, Almaxanım, Malagedən, Yaralı, Axan* və s. Bu qəbildən olan adların bəziləri sonradan soyadı kimi də işlənmişdir. Məsələn: *Yaralıyev, Qarabığov, Axmaqov//Axmağov, Sailov* və s. Bəzi adlarımız və soyadlarımız isə daha qədim dövrlərlə səsləşir, onların mənası çoxlarına aydın olmadığı üçün ya qəbul olunmur, ya da anlaşılmır. Məsələn: *Şivilov, Şelemenov* (rus dilindəki Solomentçev soyadı da bu kökdəndir), *Alqazax* (şəxs adı), *Alqazaxov* (soyadı) və s. Dilimizdəki bəzi adlar təkcə məna baxımından deyil, həm də məntiqi baxımdan ad sisteminə xələl gətirir. Məsələn: *Müxtəsər, Mülkədar, Tədbir* və s. Yeri gəlmişkən *Tədbir* adı ilə bağlı bir hadisəni söyləmək istəyirəm. Bir dəfə Neftçala rayonunda "Dədə Qorqud"la bağlı tədbir təşkil olunmuşdu. Tədbirdən sonra bir yaşlı adam qonaqlara (bizə) yaxınlaşdı və tədbirin yaxşı keçdiyini dedi. Başqa birisi də bizə dedi ki, bu yoldaşın adı *Tədbirdir*. Və fürsətdən istifadə edib zarafatla onu da əlavə etdi ki, *Tədbir* deyir ki, *tədbir* yaxşı keçdi. Bu hadisə hamıda gülüş yaratdı. *Mülkədar, Müxtəsər, Cahil, Qumuş (qız adı), Umuş (qız adı), Dədəbacı, Narsut, Meydanağa, Dekabr, Dədəbala, Yanvar, Xozeyin* və s. adlar da dilimizin milli ruhuna toxunan adlardır. Belə adlar da ad sisteminə nüfuz gətirmir [1, s.79-80]. Təsadüfi deyilməmişdir ki, türk dili hünər dilidir. Təbii ki, Azərbaycan dili də bu hünər dilinin bir qoludur. Türk dillərində, o cümlədən Azərbaycan dilində adlar sistemində olan sözlərin mayası hünərdən

yoğrulmuşdur. Məhz mayası hünərdən yoğrulmuş adlarımızı işləkliyə gətirmək lazımdır. Bunu etsək, dilimizin adlar sistemindəki qüsurları düzəltmiş olarıq və adlarımızın ruhunu özünə qaytarmaq yolunda uğurlu iş görərik.

Bəzilərimiz qoynunda yaşadığımız təbiətin, üstündə gəzdiyimiz torpağın dilini bilmirik. Təbiətin qoynundakı, torpağın üzərindəki bitkilərin adını tanımırıq. Gəlin görək təbiətdə olan bu dağ pencərlərinin adını hamımız bilirikmi? (1, s.66-70)

Güntürük yaz vaxtı torpaqdan zoğ formasında baş qaldırır, çəhrayi və yaşıl rəngin qarışığında olur. Dadı acıtəhərdir. Yağda qovrulur və sarımsaqlı qatıqla yeyilir. Mədə-bağırsaq sisteminə faydalıdır.

Süddü ispanağa oxşar bitkidir. Yazda bitir. Yağda qovrulur və sarımsaqlı qatıqla yeyilir.

Qulançar ağacın puçuru formasında olur. Yazda bitir. Qovrulur və sarımsaqlı qatıqla yeyilir.

Əvəlik əkin-biçin sahələrində bitir. Çox faydalıdır. Qurudulur və qışda istifadə olunur. Ondan əvəlikaşı (əvəlikliisti), kətə və s. bişirilir. Mədə-bağırsaq üçün böyük faydası vardır.

Əmənköməci yazda bitir. Kətə, qutab bişirilir. Həm də qovrulub sarımsaqlı qatıqlı yeyilir. Bundan sulu xörək də hazırlanır. Belə ki, pörtlədilir, acı suyu çıxarılır (sıxılaraq), qaynadılmış suda kartof və düyü ilə birgə bişirilir, üzərinə yağ, soğan dağ edilir.

Tərpətöyün bostanın qırağında, yol kənarında, yurd yerlərinin kənarında bitir. Qovrulur və sarımsaqlı qatıqla yeyilir.

Lilpar su (bulaq) başında, ətrafında bitir. Qovrulur və sarımsaqlı qatıqla yeyilir.

Sozu sarımsağın cücərdilmiş göy hissələrinə oxşayır. Yazda bitir və yağış yağdıqdan sonra baş qaldırır. Sarımsaq dadı verir. Bişirilmədən yeyilir.

Qıjı bişirilmədən yeyilir.

Sirkən ən çox alaq otlarının arasında bitir. Bostan bitkilərinin arasında və kənarında olur. Pörtlədilir, suyu sıxılır və qovrulduqdan sonra sarımsaqlı qatıqla yeyilir.

Tirpək üz qabığı soyularaq yeyilir.

Dəvədabanı körpə vaxtı yeyilir. Üz qabığı soyularaq istifadə olunur.

Şıppırın dadı turşməzə olur. Yarpaqları iri olur. Qovrulur və sarımsaqlı qatıqla yeyilir. Bu bitki həm saplaqdan, həm də iri, dairəvi yarpaqdan ibarətdir. Əsasən çay kənarlarında bitir. Ancaq onun saplağından istifadə olunur. Saplağının üstü soyulur və sonradan saplaq bişirilərək istifadə olunur.

Şıppırın yarpağında sərinlik olan bitkidir. Ona görə də ərzaq məhsullarını yayda bir yerdən başqa yerə aparanda *şıppırının* yarpaqlarından istifadə olunur. Ərzaq onun yarpaqlarına bükülür. Məsələn, ət məhsulları, bal, yağ, şor, pendir və s.

Baldırğan bitkisinə bəzi şivələrdə *özək* də deyilir. Yazda bitir. Üz qabığı soyulur və sonra yeyilir. Baldırğandan turşu (şoraba da) hazırlayırlar.

Çaşır iki cür olur. Biri əsl çaşırdır. Bu çaşır yeyilir. Hətta ondan turşu (şoraba da) tutulur. İkinci çaşır isə dəli çaşırdır. Ondan istifadə olunmur. Ən çox çaşır dağdöşündə, xırlıq, qayalıq olan yerdə bitir.

Cəkləm əsasən çəpərlərdə bitir. Boyu alçaq olur. Onun kökü fındığın ləpəsinə oxşayır. Yerdən qazılıb çıxardılır. Üz qabığı palıd rəngində olur. Üz qabığı soyulur və yeyilir. Onun üz qabığı soyulduqdan sonra o, ağ rəngində olur. Gövdə hissəsi isə bir növ şüyüdü xatırladır.

Quzuqulağı turş olur. Yerdən qopardılıb yeyilir. Duzlanıb yeyildikdə daha dadlı olur.

Yolotu (buna xalq arasında *yaloytu* da deyilir) yuyulduqdan sonra duzla ovulub yeyilir. Eyni zamanda xörək kimi də hazırlanır. Suda pörtlədilir. Yağ, soğan, düyü, kartofla birgə bişirilir. Bunu qurudub qışa azuqə kimi də saxlayırlar. *Yolotu* yurd yerlərində və onun kənarında daha çox bitir.

Qazayağı qazın ayağına bənzəyir. Bu bitki *yolotuna* qatılıb bişirilir və yeyilir.

Cincilim yurd yerlərində bitir və ondan kətə bişirilərkən istifadə olunur.

Adoyul əkin sahələrində olur. Əkin sahələri şumlandıqdan sonra şumun altından üzə çıxır. *Adoyul* fındıq boyda və bəziləri ondan bir az iri olur. Yerdən yığıldıqdan sonra yuyulub yeyilir.

Gicitkən əsasən çəpərlərin ətrafında bitir. Yuyulduqdan sonra duzla ovulub yeyilir. Hətta ondan sulu yemək də hazırlanır. Çox faydalı bitkidir.

Yemlik otlaq sahələrində, əkin-biçin sahələrində bitir. Duzla ovulub yeyilir. Faydası çoxdur.

Alaf mal-qoyunun yemi, otu mənasında işlənir.

Alaq//alax əkin sahəsində, bostanda bitən artıq otdur.

Təbiət ahəng və gözəllik üzərində qurulubdur. Ancaq bu ahəngi və gözəlliyi hələ də elm öyrənib sona çatdıra bilməmişdir. Elm təbiəti öyrənə-öyrənə bir həqiqəti də etiraf edir ki, elmin ən böyük müəlliflərindən biri təbiətin özüdür. Doğrudan da, təbiətin özü çox yetkin bir əsərdir. Bunu təbiətin özündən başqa, heç kəs bu cür yaza bilməz, qoruya bilməz və gələcək nəsillərə çatdıra bilməz. Təbiəti öyrənməyən, bilməyən, onunla ünsiyyətə girməyi bacarmayan heç insanlarla da ünsiyyət, əlaqə qurmağı bacarmaz. Təbiətin qədrini bilməyən, təbiətə sadiq olmayan insanların da qədrini biləməz, onlara sadiq olmaz. Dünyada heç nə insan könlünü təbiət qədər fəth edə bilməz. Bizim hər birimiz əhəmiyyətinə varmadan təbiətdən mənəvi və maddi cəhətdən qidalanırıq. Ancaq bununla belə, təbiətin maddi və mənəvi qidası tükənmir, əksinə, insanlara səxavətlə xidmət edir. İnsanlar isə bunun müqabilində təbiətin yetirdiklərini öyrənmir, onların adlarını bilmirlər. Məsələn:

Bulğur ağ buğdadır, qurudularaq qış üçün tədarük edilir. Hədik kimi bişirilir.

Bulul biçin yerində bir yerə topa-topa yığılmış ot.

Çeyil//Cil bataqlıqda, sulu yerdə, torflu sahələrdə bitən ot.

Cumbuz//Çimbiz bitkilərin kökləri ilə bərkimiş torfdur. Onu kvadrat formada kəsirlər.

Cacıx yeməli, yabanı bitkidir.

Camax suyun içində bitən yağlı otdur. Balıqlar onu yeyir.

Cincilim yabanı bitən yeməli bitkidir.

Danaqıran Novruz bayramından sonra qarın altından çıxan çiçək.

Kağan tikanın bir növüdür. Düzənlikdə bitir.

Öküz möçüyü yeməli, özəkli bitkidir.

Pazı çuğundurdur.

Tubulğa dağda bitən koldur.

Dil bir modeldir. Həm də elə bir modeldir ki, o, dünyada mövcud olanların hər birinin məfhum adını özündə cəm edir. Yəni həyatda, məişətdə, təbiətdə, mühitdə nəyi görürüksə, nəyi varlıq kimi anlayırıqsa, onların hər birinin adı dildə bir söz modeli kimi olur (1, s.70). Ona görə də insanların heç birindən asılı olamayaraq söz modellərinin obyektiv real formaları dilin özündə yaranır. Sonralar bu söz modellərinin fonetik, leksik, semantik, qrammatik və s. xüsusiyyətləri mütəxəssislər-dilçilər tərəfindən araşdırılır. Ancaq mütəxəssislər - dilçilər də dilin bütün potensial imkanlarını son həddə qədər qiymətləndirə bilmirlər. Bunun səbəbi onunla bağlıdır ki, dilin potensial imkanlarının yalnız bir qismi aktiv olur, diqqəti cəlb edir və nəticədə mütəxəssis-dilçini düşündürür. Ancaq dilin potensial imkanlarının başqa bir qismi isə passiv olur, diqqəti cəlb etmir və nəticədə mütəxəssisi - dilçini düşündürmür. Məsələn, passiv olan, diqqəti cəlb etməyən mütəxəssisi - dilçini düşündürməyən nümunələr: *çilikağac* (oyun adı), *aşıq-aşıq oyunu* (oyun adı), *sənək, güyüm* (qab-qacaq adı), *arxalıx* (kişilərin geyindiyi ətəkli, yüngül paltar), *araxcın//araxşın* (başa qoyulan papaq), *urğan* (kəndir), *tütyə* (mis qab) və s. Bu qəbildən olan sözlər həyatımızda, məişətimizdə istifadə olunmayan, ya da çox az istifadə olunan məfhumların, anlayışların adlarıdır. Məhz obyektiv reallıq belə sözlərin tədqiqini arxa plana keçirir. Ona görə də belə sözlərin heç olmasa, aid olduğu sahələr üzrə lüğətini tərtib etməliyik. Əks təqdirdə, bu qəbildən olan sözləri gələcək nəsillər bilməyəcəkdir.

Ədəbiyyat:

1. Buludxan Xəlilov. Dil mədəniyyəti. Bakı, “Papirus NP”, 2016, s.192
2. Buludxan Xəlilov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, “Nurlan” nəşriyyatı, 2008, s. 442

UOT 81

РУССКИЙ ОСТРОВНОЙ ГОВОР АЗЕРБАЙДЖАНА КАК ИСТОЧНИК ТОПОНИМИИ РЕГИОНА

Лала Гусейн кызы ГУЛИЕВА

Доктор филологических наук, профессор
Бакинский Государственный Университет

lalaquli@rambler.ru

РЕЗЮМЕ

Лексика русского островного говора активно участвует в топонимообразовании региона, заимствования из азербайджанского языка также отмечены в составе русских топонимов. Несмотря на нивелировку русского говора, большие переименования, русские топонимы останутся в лингвокультурном пространстве Азербайджана как памятники истории.

Ключевые слова: островной говор, топоним, заимствования.

RUS ADA DİALEKTİ AZƏRBAYCAN TOPONİMİYASININ MƏNBƏYİ KİMİ

XÜLASƏ

Azərbaycanda rus şivələri toponimlərin yaranmasında iştirak edir. Azərbaycan dilindən alınma sözlər (coğrafik nomenlər, antroponimlər) rus toponimikasında fəal iştirak edir. Rus şivələrinin tədricən itməsi və ad dəyişmələrinə baxmayaraq, rus toponimləri Azərbaycanın linqvokulturolojı məkənında tarixi abidələr kimi qalacaqdır.

Açar söz: ada dialekti, toponim, alınma sözlər

RUSSİAN İSLAND DİALECT AS A SOURCE OF REGİON TOPONYMY.

SUMMARY

The article deals with the vocabulary of the Russian island dialect that takes an active part in the formation of toponyms of the region. The words borrowed from the Azerbaijani language (geographical nomens, anthroponyms) take part in the Russian toponymy. It is noted that despite the levelling of the

Russian dialect, considerable renaming the Russian toponyms will remain in the linguoculturological space of Azerbaijan as the historical monuments.

Keywords: island dialect, toponim, loan words

Русский островной говор Азербайджана (РОГА) относится к говорам территорий позднего заселения, возник в связи с переселением на данную территорию русских крестьян, сектантов, раскольников и др. из южных губерний России в первой трети Х1Х века [2, с.17-52].

Диалектологические экспедиции в русские села Азербайджана проводились с конца 50-х годов прошлого столетия. Собранный полевой диалектный материал нашел свое отражение в «Словаре русского островного говора Азербайджана» [1] и в «Лексиконе русского островного говора Азербайджана» [3].

Русский островной говор Азербайджана представляет собой одну из групп южновеликорусского наречия. Его ареал представлен дискретными иррадирующими зонами на территории Азербайджана. Изучение русского островного говора имеет большое научное значение для истории русского языка, необходимость его фиксации вызвана тем, что он постепенно нивелируется. Его нивелировка связана с изменениями социального характера (с начала 90-х годов прошлого столетия усилилась миграция русского населения, изменился национальный состав некогда чисто русских сёл и т.д.).

Особенностью русского островного говора является то, что с самого начала своего существования на данной территории он находился в тесном иноязычном (азербайджанском) окружении. Результатом такого окружения явилось влияние азербайджанского языка на русский говор, проникновение значительного количества азербайджанских слов в лексику последнего.

Заимствованные из азербайджанского языка слова, проникшие в островной говор, благодаря непосредственным контактам с местным населением, стали элементами лексической системы исследуемого говора; они отсутствуют в русском литературном языке и составляют специфику русского островного говора Азербайджана, существенно отличая его от говоров метрополии. Ценность изучения русских говоров в иноязычном окружении с точки зрения междиалектных процессов двух контактирующих разносистемных языков подчеркивается многими исследователями [4, с.18].

Л.Г.Гулиева, исследовавшая русскую топонимию Азербайджана [2, 2010], выделяет заимствованную из азербайджанского языка специальную лексику–географические номены, показывает их роль в топонимооб- разовании, адаптацию азербайджанских топонимов и географических номенов в русском говоре, отмечает, что особенность русской топонимии состав-

ляют гибридные названия– сложные образования, происхождение которых связано со взаимодействием двух топонимических систем – русской и азербайджанской. Например: *села Васил**оба**, Андрей**абад**, Мясников**абад**, Мирон**абад**, Михаил**абад**, г Киров**абад**.*Такое сочетание древних тюркских компонентов *–оба, -абад*, обозначающих «поселение, населенный пункт», связанных с кочевым бытом, и русских антропонимов, является результатом двуязычия и характеризует позднейший стратиграфический пласт топонимии Азербайджана.

Естественно, что процесс заимствования тесно связан с непосредственным отражением новых реалий, с необходимостью более точной передачи конкретных понятий. Наименования новых предметов материальной культуры, неизвестные русским до переселения в Азербайджан, проникали в местный говор и с различной степенью интенсивности использовались в речи носителей говора.

Заимствование географических номенов было естественным процессом, поскольку было вызвано ежедневной необходимостью ориентации в новом жизненном пространстве, стремлением более точной передачи информации, а в составе топонимов географические номены выполняли свою основную адресную функцию. Заимствованные топонимы органично вошли в говор переселенцев. Например, названия двух речек *Карачай* и *Ахчай* в говоре села Владимировка (Кубинский район) активно употребляются жителями села, иногда в адаптированном, варианте: *Карачайка* и *Ахчайка.*

В микротопонимии отдельных сёл наряду с преобладающим большинством русских названий непременно встречаются азербайджанские названия, в местном употреблении приобретшие русифицированные формы: *Абдул**кин** сад* (с. Наримановка), *Агбиль**ский** угол* (с. Владимировка), *Азрат**кин** Клин* (с .Алтыагач), *Амсар**ская** гора* (с. Наримановка), *Балабек**ова** степь* (с. Алтыагач), *Габиб**ов** сад, Игрых**ская** канава* (Наримановка), *Ирек**ское** поле* (Владимировка), *Кас**ын** роднмк* (Михайловка), *Мирз**уев** лес* (Родниковка, Низовая), *Мулл**ова** мерджс* (Владимировка), *Таг**ин** аул* Новосаратовка), *Шайтан-шишка* (Владимировка) и др.

В местном говоре отмечены случаи переосмысления заимствованных микротопонимов: в селе Русские Борисы микротопоним *Сопун-гора* (азербайджанское *sabun-* ’мыло’; там добывалась специальная глина, используемая как мыло при стирке) ассоциируется у носителей говора со словом *сопеть- Сопун-гора.* Микротопоним *Дуван* (азерб. *divan*) ассоциируется с русским *дуть- Дуван* – возвышенное место, открытое всем ветрам. Азербайджанское название горы – *Quruq-təpə (Гуруг-тэпэ)* связывается со словом *круг-Круглая горка.*

Русская топонимия, русский островной говор являются мигрантами на территории Азербайджана. Русский ономастикон Азербайджана формировался на базе русского островного говора на данной территории.

Исследование семантической структуры онимов и апеллятивов раскрывает видение мира носителями данного языка (говора). Специфика каждого языка проявляется в способе членения общего семантического пространства, в отражении менталитета конкретного этноса в концептуальной картине мира, составляющейся из взаимосвязанных универсальных концептов. На уровне региональной ономастики концепты репрезентируются различными ономастическими знаками, а на диалектном уровне–лексемами, несущими знания регионального характера. Как отмечают исследователи, «диалектные концепты маркируются в концептосфере региональных онимов и обеспечивают концептуальную основу для возникновения оппозиций на разных языковых уровнях. С помощью диалектных и ономастических концептов структурируется знание о регионах, их культурной и языковой специфике… региональный оним закрепляет и отражает территориальные отличия в ономастической системе…» [6, с.17]. Поскольку связь ономастических и диалектных концептов несомненна, то в процессе исследования выявляются лакуны в концептосферах с обеих сторон, что, естественно, отражает объективную картину семантических полей в системе говора. Когнитивный подход к исследованию онимов вызван необходимостью осмысления образности имени собственного [7, с.18].

Диалектная ономастика является носителем фоновой информации, связана с лингвокультурологией, сохраняет фоновые знания. Фактически ономастический материал подтверждает консервацию определенного пласта лексики, которая может считаться архаической, не употребляемой из-за отсутствия ее носителей (естественный процесс, уход из жизни старшего поколения); диалектный ономастикон является хранителем исторического, этнического знания.

В топонимической системе РОГА диалектная апеллятивная лексика, по словам Н.И.Толстого, «является одной из основных резервуаров для топонимики» [5, с.17].

Русская микротопонимия Азербайджана базируется непосредственно на местной диалектной основе. В состав диалектной лексики и в состав микротопонимии входит одна и та лексико-семантическая группа слов – это местные географические апеллятивы. Происходит совпадение, совмещение репрезентации апеллятива и онима; в топонимообразовании помимо географических номенов (*Большая балка, Змеиная гора, Евтеева круча*), участвует лексика, не имеющая непосредственное отношение к рельефу (*Корастилёв клад, Чапаева шапка, Красные салазки).* В этих названиях проявляется такой фактор, как ментальные образы в наречении,

метафорические переносы. При совпадении апеллятива и онима происходит смещение репрезентации из одной концептосферы в другую. К примеру, апеллятив *котел* «стоячая вода» (с. Низовая), от которого образованы микротопонимы: озерцо *Котел* и название поля *У котлов (У Котла).* В говоре села Ивановка (Гядабяйский р-н) отмечено слово *котел* со значением «туман». В данном случае смещение апеллятива из одной сферы в другую вызвано непосредственно реалией: туман всегда поднимался из котла – места, называемого *Котлом.* Исследование говора позволяет говорить о репрезентации содержания определенного диалектного концепта в онимах.

Изменения в политической и социальной сферах конца прошлого столетия привели к изменениям и в топонимической системе нашего региона, вплоть почти до полной нивелировки русского стратиграфического пласта. Как памятник истории этот пласт не может не оставить определённый след в топонимической системе Азербайджана Русские онимы (топонимы) ещё не скоро перестанут быть значимыми, поскольку останутся в памяти ныне живущего поколения и, естественно, в справочной литературе и др., то есть останутся в лингвокультурном пространстве Азербайджана.

Литераратуры:

1. Гулиева Л.Г.Мамедбейли Ф.Г.Гейдарова Э.А.Керимова Г.О. Словарь русского островного говора Азербайджана, изд. 2, Баку, 2006.
2. Гулиева Л.Г. Русская топонимия Азербайджана: история и современность. – Баку, 2010.
3. Гулиева Л.Г., Гейдарова Э.А. «Лексикон русского островного говора Азербайджана» Баку, 2014.
4. Тагиев М.Т. К принципам составления словаря русских говоров в Азербайджане //Ученые записки АГУ им. С.М.Кирова, 1967, Серия языка и литературы, № 3, с.18
5. Толстой Н.И, Некоторые проблемы и задачи изучения славянских географических терминов// Местные географические термины в топонимии. Тезисы докладов и сообщений. М., 1966, с.17.
6. Щербак А.С., Когнитивные основы региональной ономастики, АДД, Тамбов, 2008, с.17.
7. Щербак А.С. Диалектная ономастика в традиционном и когнитивном аспектах// Вопросы когнитивной лингвистики, № 4 (041), 2014, с.18.

UOT 81

BƏYDİLİ TAYFASI VƏ ONUNLA BAĞLI ONOMASTİK VAHİDLƏR

İsmayıl Babaş oğlu KAZIMOV
Filologiya elmləri doktoru, professor
AMEA Nəsimi adına Dilçilik İnstitutu

XÜLASƏ

Məqalədə türk dünyasının bir çox bölgələrinə səpələnmiş bəydililər və onunla əlaqədar olan onomastik vahidlərin struktur-semantik xüsusiyyətləri təsvir edilmişdir. Tədqiqatın nəticələri göstərir ki, Boqdili etnosu tarixən Türkiyənin, İranın, Azərbaycanın, Suriyanın ərazilərində məskunlaşmışlar. Onlar həmin ərazilərdə Beqdili kənd yol, arx və digər yer adlarına transformasiya olunmuşdur.

Açar Sözlər: Bəydili tayfası, Bəydili kəndi**,** Bozok, bodun, bəylik

TRAİLS OF WAYDILLS AND RELATED TOOMASTIC UNITS

SUMMARY

The article contains many scattered Baidillis and in this connection, which describe the features of the structural-semantic onomastic units in the regions of the Turkic world. The results of the study showed that the Bekdili ethnos historically lived in the territories of Turkey, Iran, Azerbaijan, and Syria. In these territories, the name of the ethnos Bekdili transformed into the names of villages, roads, canals and other onomastic units.

Key words: Bekdılı tribe, Bekdili village, Bozok, bodun, apology

ПЛЕМЯ БЕКДИЛИ И СВЯЗАННЫЕ С НИМ ОНОМАСТИЦЕСКИЕ ЕДИНИЦЫ

РЕЗЮМЕ

В статье исследованы структурно-семантические особенности ономастических единиц, связанных с бекдили, разбросанными по многим регионам тюркского мира. Результаты исследования показали, что этнос бекдили исторически проживал на территориях Турции, Ирана, Азербайджана, Сирии. На данных территориях наименование этноса бекдили тран-

сформировалось в названия сёл, дорог, каналов и другие ономастические единицы.

Ключевые слова: племя Бекдили, село Бекдили, Бозок, бодун, бекство

Mahmud Kaşğarinin «Divan»ından Orta Asiyada Bəydili boyunun (Bektili: MK, I, 56) varlığı bilinməkdədir. XI əsrin ortalarında böyük türkoloq və tarixçi Mahmud Kaşğarlı öz dövrünün ensiklopediyası olan «Divanü Lığat it-Türk» adlı əsərində oğuzların türkmən olduğundan bəhs etmişdir [1, s. 55].

Fərqli mənbələrdə bəydililər barədə fərqli məlumatlar verilmişdir. Oğuzlar 24 boydan meydana gəlmişdir ki, Bəydili də həmin tayfalardan biridir. Bəydililər bozoklardandır. Onlar tarixdə Oğuz ordusunun ən güclü və döyüş-kən, şücaətli qolunu təşkil etmişlər. Döyüşdə həmişə fərqlənmişlər. «Bəydili sa-vaşçıları» ifadəsi o zaman Osmanlı dövlətinin təşkilində geniş yayılmışdır. 1071-ci ildə Malazgird Meydan müharibəsinin qələbə ilə başa çatmasında ən böyük rolu Bəydili türkləri oynamışdır. Bəydili əsgərləri bu qələbədə tarix səhnəsində igidlikləri ilə qalmışlar.

Bəydililər oğuzlardır. Bozoklar böyük oğuzlardır. Bozok deyilən etno-nim oğuz türkmənlərinin 12 boyundan biridir. Bozoklar oğuzların sağ qanadın-dandır. Boz sözü rəng mənasında deyil, «tayfa», «tirə», «xalq» anlamındakı qədim türk sözü olan *b o d (bodun)* sözünün sonradan formalaşan fonetik görün- tüsüdür (bu barədə *bozacı* etnoniminə bax) [2, s.79]. Bəydililər də böyük oğuzların sağ qoluna daxildir. Bozoklar tarixdə Hun xan, Ya xan, Yıldız xan olmaqla üç yerə bölünmüşlər. Yıldız xana mənsub boylardan biri Avşarlar, biri Karkın, biri Çarıklı, biri isə Bəydililər olmuşlar. Oğuzlar hər boyunun öz damğasını müəyyənləşdirmişlər: **Beg-Tili damğası.**

Bu damğa bəydililərin hissini, duyğusunu, kəlmələrini xalqına çatdırmasından ötrü bir vasitədir.

Çoxlu ərazi adı bəydililərin adı ilə bağlıdır: Bəydili kəndləri, Bəydili yörəsi, Bəydili qayası, Bəydili güneyi, Bəydili yeri, Bəydili arxı və s.

Mənbələr təsdiq edir ki, Bəydili boyu ovçuluq, heyandarlıq, əkinçiliklə məşğul olublar, at, qoyun, dəvə, sığır kimi heyvanları saxlayıblar. Onların atlı orduları çox güclü olub. At üstündə savaşlarda qələbə qazanıblar. At arabaları düzəldərək, həm daşıma işlərində, həm də yarışda, istifadə etmişlər. Onların bəslədiyi atlara «Tanrı Atı» deyiblər və bu mövzuda şeirlər yazıblar.

Qürbətdə yaşayan bir bəydili qızının göndərdiyi şeirdə deyilir:

Ben verdiler dünyanın bir köşesine.
Çok uzaktaki yabançı bektili beyinek
Bunlar yuvarlak keçe otağda yaşıyorlar.
Et yiyip, ayran, kımız içiyorlar.

Doğduğum yeri çok özledim.
Kuğu gibi kanadım olsa
Kendi ülkeme uçup gitsem.

Tarixi bəydililərin yaşadığı ərazilərdə dağılmış, məhv olmuş qəbiristanlıqlar və onların istifadə etdiyi avadanlıqlar, xüsusən də döyüş, silah qalıntıları qalmaqdadır.

M.ö. 60-cı illərdə bəydililər Roma imperatorluğunun təsiri altında qalmışlar. Bəydililərin bir bölümü başqa oğuz boyları ilə birlikdə Səlcuqlu dövlətinin qurulmasında və Anadolunun işğalında iştirak etmişlər. Mənbələrdə Bəydili adı yazılış baxımdan fərqli olaraq *Beqtili, Bağtili, Beydilli* biçimlərində işlənmişdir. Mahmud Kaşğari bu adın *«sözü dəyərli, böyüklər kimi əziz»* mənaya malik olduğunu göstərmişdir.

Bəydililər türk dünyasının bir çox ərazilərinə səpələnmişlər. Türkiyədə irili-xırdalı 24 Bəydili kəndi (köyü) vardır. Göründüyü kimi, Bəydili boyu kənd adına transformasiya olunmuşdur (çevrilmişdir) Daha doğrusu, bu boy kənd adlarının yaranmasında ən fəal iştirak edən onomastik vahidlərdən olmuşdur. Kəndlərin adında fərqli fonetik cəhətlər özünü göstərməkdədir (*Bəydili, Bəydilli, Badilli, Begdilli, Begdili, Bəydeli, Bəydilü* və s.).

Bəydililərin xüsusi seçilən şivəsi vardır. Bu şivəyə Türkiyənin Yöresel bölgəsi şivəsinin təsiri çox olmuşdur. Daha doğrusu, bəydililərin ləhcəsində dilin müəyyən səviyyələrində müəyyən dəyişmələr özünü göstərmişdir.

İndi Türkiyədə mövcud Bəydili adları mənbələrdə göstərildiyi kimi belədir: Beydili (Ankara, Nallıhan), Beydili (Gorum, Gorum Merkez), Beydili (Gorum, Bayat), Beydili (Gazianter, Araban), Beydili (Sivas, Hafik), Beydili (Sivas, Kan- gal), Beydili (Mersin, Gülnar), Beydili (İsparta, Sütçüler), Beydili (Karabuk, Ovajık), Beydili (Karaman, Karaman Merkez), Beydili (Denizli, Çivril).

Bəydililər öz tarixi, dili və ənənələrini qoruyan boylardan olmuşlar. Onlar XII əsrin ortalarında Xorasanda Səlçuqlu hökmdarı Sultan Səncəri əsir almış, daha sonra Monqol istilasından qaçaraq (XIII əsrdə), Azərbaycan və Doğu Anadoluya köç etmişlər. Monqol istilasının yayılması ilə türkmənlər ilə birlikdə Suriyaya gedərək yeni qurulan Məmluk dövlətinə sığınmışlar. XIV əsrdə Bəydili boyuna, Gazzeden Kozan və Diyarbakırda uzanan bölgələrdə yaşayan türkmən boyları arasında rast gəlinməkdədir. Monqol zülmünün aradan qalxması ilə (XIV əsr) hərəkətə keçən Suriya türkmənləri ilə birlikdə Bəydili boyunun əksəriyyəti bir hissəsi (bölümü) Suriyadan ayrılaraq Güney və Doğu Anadoluya və İrana getmiş, Dulkadiroğulları, Ramazanoğulları bəyliklərinin, Ağqoyunlu və Səfəvi dövlətlərinin qurulması və inkişafında mühüm rol oynamışlar.

Bəydilli boyu Azərbaycan türklərinin, Anadolu türklərinin, İraq və Suriya türklərinin, Türkmənlərin etnogenezində iştirak etmişdir.

Bəzi mənbələrdə göstərilir ki, Bəydilli kəndinin adı Şahsevən tayfaları ilə əlaqədar yaranmışdır. Belə ki, Şahsevən tayfalarından birinin adı Bəydilli olub və bu tayfa indi Türkiyə ərazisindən XVI yüzildə Ərdəbil bölgəsinə gələrək məskunlaşıb. Başqa Şahsevən tayfaları kimi onlar qışı Muğan düzündə, yayı isə Savalan dağı ətəklərində keçirməklə köçəri həyat sürmüşlər. XIX yüzilin axırlarında İran ilə sərhəddə köçəri Şahsevən tayfalarının hərəkətlərini izləmək üçün Biləsuvara göndərilən Oqranoviç yazır ki, Şahsevənlərin ilk əcdadı sayılan Yunsur Paşanın XVI yüzildə altı oğlundan biri olan Sanxan bəyin oğullarından birinin adı Bəydili olmuşdur [3, s.59].

Tədqiqatçıların fikrincə, Muğan ərazisində Anadoludan köçüb gələn Bəydili tayfası başqa İnallu tayfası kimi ayrıja bir tayfa olub və Yunsur Paşa ilə bərabər Muğan və Ərdəbil arasında məskunlaşıblar. Bəydili və İnallu tayfaları bu mənada Yunsur paşa ilə buralara Türkiyədən köçüb gəlmədilər. Onların bir sıra oymaqları bəllidir:

Qurd bəyin qrupu: Taleş Mikelli, Xələfli, Muğanlı, Udulu, Moradlı, Zərgər və s.

İnallu: Pir-Evatlu, Kələş, Kor-Abbaslu, Geyikli, Yurtçı, Dursun-Xocalu.

Bəydili: Acırlı, Haccı-Khoşallu, Yeddi Oymaq, Arabli, Çaxırlu, Qobadlu [3, s.61].

Göründüyü kimi, tarixçilər Şahsevən tayfalarından biri olan bəydililərin mənşəyi barədə fərqli fikirlər söyləyiblər. Amma qaynaqlar bir-birindən fərqlənsə də, həmin tayfanın da Anadoludan köç etməsi faktdır.

Bəydililər XVI yüzildə Səfəvilər dövlətinin təşkilində və onun idarə olunmasında mühüm önəmə malik olan Şamlu tayfaları içərisindən bir çox tanınmış şəxsiyyətlərinə görə fərqlənmişlər. I Şah Abbasın zamanında Bəydililərin bir hissəsi Girman və Şiraza köçmüşlər.

Bəydililərin Qədirli, Qubadlu, Ərəblu, Ulaşlı, Xəlfəli, Tatalı, Eyvazılılar kimi oymaqlarının olması qeyd edilir.

Bəydililərin əsas məşğuliyyət sahələrindən biri kəhriz çəkmə, suvarma kanallarının çəkilişində fəal iştirak etmələridir. Onlar Biləsuvar zonasında indi Əzizbəyovun adı ilə adlanan kanalın çəkilişində iştirak etmişlər. Bolqarçayın ərsəyə gəlməsindəki zəhmətləri isə inkaredilməzdir.

Bu tayfanın adı ilə əlaqədar Türkiyədə bir çox təxəllüslər işlədilir: *Esra Emrullah Beydili, Emre Beydili, Emrah Beydili, Beydili Taş İş Veren.*

Ədəbiyyat adamı Cəlal Məmmədov da Bəydilli təxəllüsü ilə tanınmışdır. (Bax: Cəlal Bəydili. Hamımız tənhayıq."Ədəbiyyat" qəzeti)

Bəydililər orta əsrlərdə başqa türk tayfaları ilə birlikdə Orta Asiyadan Azərbaycana və Yaxın Şərq ölkələrinə də gəlmişlər. Azərbaycanda qalan bəydililər öz adlarını olduğu kimi saxlamışlar. Su təsərrüfatı, heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar.

Bir çox araşdırıcılar (İ.Şopen və b.) bəydililəri Kəngərli (Kəngərlər) tayfasının qolu sayırlar. Şərur rayonunun Qarabağlar kəndində (Naxçıvan MR) bəydililərin hazırda bir məhəllədə kompleks yaşamaları barədə məlumlar vardır.

Bəydilli adlı kənd Azərbaycan Respublikasının Biləsuvar rayonunun inzibati ərazi vahidini təşkil edir. Bu kənd həmin rayonun şimal-qərb istiqamətində yerləşir.

Biləsuvarda bir neçə kəndi birləşdirən avtomobil yolunun adı *Zəhmətabad-Bəydili* adlanır.

Bəydili Salyan rayonunda da kənd adıdır. «Azərbaycan toponimlərinin ensiklopedik lüğəti»ndə Salyan rayonunun Sarvan inzibati ərazisindəki Bəydili kəndi haqqında belə bir məlumat verilmişdir: Bala Kür çayının sahilində. Tam adı Puta Bəydili («Puta ərazisində yaşayan bəydililər»). Çox vaxt Bəydilli variantında da yazıya alınmışdır [4, s.23].

Yevlax rayonunda Bəydili adlı oykonim mövcuddur. «Yevlax sənədlərdə və yaddaşlarda», Bakı, 2001: s.80-81 (Vidadi İsayev) kitabda oxuyuruq: «Bəzən Bəydili toponimini sözün əvvəlindəki bəy sözü ilə əlaqədar titul bildirən terminlərdə oronimlərin birləşməsindən əmələ gələn toponimik qrupa aid edirlər. Əslində isə Bəydili X-XIII əsrlərdə Azərbaycana gəlmiş səlcuq türk-oğuz tayfalarından biri olmuşdur. Bu kimi tayfalar Azərbaycana gələndə burada Azərbaycan xalqı, Azərbaycan dili vardı.

Bəydili adının mənası barədə Mahmud Kaşğari, Rəşidəddin, Yazıçıoğlu, Salar Baba, Abulqazi, Berezin, Kononov və başqaları müəyyən fikirlər söyləmişlər. «Yaşlıların sözünə hörmət edən» (Rəşidəddin), «mülayim dilli» (Salar Baba), «sözü hörmətli və dövlətli» (Abılqazi), «bəylərin hörmətli sözü» (Yazıçı oğlu), «böyüklər kimi hörmətli» (İ.Berezin) «Salnamələr toplusu»nda «böyük insanların dili kimi ehtiram edilən» və s.

Türkmən dilçisi Soltanşa Atanıyazov yazır ki, bekdili – «beqler uruqına deqişli il» mənasındadır. Adın quruluşu: *beq, bek+ti+li* formalarından ibarətdir.

M.Maxpirov –lı şəkilçisindən bəhs edərkən Begtili adını begti+li hissələrinə ayırır (o cümlədən, Qang+li), burada etnoqrafik mənsubiyyətin mövcudluğunu nəzərə çatdırır [5, s.118].

Ədəbiyyatçı alim Axmet Bekmıradovun fikrincə, bu adın əsli «bek dilli» yəni «sirr saxlayan» mənasındadır [2, s.70].

Bəzi mənbələrdə bəydililərin şamlılardan olduğu qeyd olunur. Şamlılar İranda çoxluq təşkil edir və mənsəb sahibdirlər.

Rəvayətə görə, bəydili boyunun bəyi İskanbaşı Firuz bəy (Feruz) bu fəna yerlərdə- yandırıcı Rəqqa çöllərində yaşamağa dəyməz deyərək, bəzi obalarla birlikdə Əcəmə – İrana köçmüşlər.

İranda onlar türk əsilzadələri cərgəsinə daxil edilərək, yük- sək vəzifələrlə təmin edilmişlər.

Bəydililər və başqa türk oymaqları sonralar dövlət tərəfindən sürgün yeri olaraq qəbul edilən Rəqqa bölgəsində yalnız susuzluq və qovurucu istilərlə

deyil, ərəb tayfaları ilə mübarizə aparmaq məcburiyyətində qalmışlar. Vəhşi ərəb qəbıı- lələrinə qarşı bəydililərin igidliklə mübarizə aparması mənbə- lərdə öz əksini tapa bilmişdir.

Mənbələr 1764-cü ildə bəydililərin 12 000 çadır olduğu yazırlar. Bəydililər Abbas Paşaya məğlub olurlar. Bəydililərin şeirlərində onların həyat və mübarizə dolu tarixi tərənnüm olunur. Faruk Sümərin bir şeirndə bu məğlubiyyət təsvir olunur:

Gözüm yaşı sinələrə töküldü,
Dağıldı əşirətim, bəndim söküldü,
Dağıtdın Gülabı, sən Abbas Paşa.

Bəydililər məğlub olduqlarını görərək, Gülabı tərk edərək dağılırlar. XIX yüzildə baş verən bu hadisə Rəqqanı tərk edən bəydililərin əsas bir his- səsinin Antəbin cənub yörəsinə yerləşdiklərini göstərirlər. Onlardan altı obanın kəndləri Suriya torpaqlarında məskunlaşırlar. Bəydililər oturaq həyata keçirlər.

Boz ulus. Arasındakı bəydili qolunun Şimali Suriyada yaşayan ana bəydili boyundan ayrılmış bir oymaq olduğu mənbələrdə göstərilir. Qanuni dövründəki boz ulus arasında ya- şayan bəydili oymağı 200 vergi evi qədərdir. II Səlim zama- nında bu oymaq daha güclü idi [6, s.448].

Çin mənbələrində bəydililərin özlərinə xas damğaları, dili və yazıları olduğu bildirilir. Bu dil Türk dilinə oxşar bir dil olmuşdur. Bəydili dilində mək- tubların yazılması haqqında da mənbələrdə bəzi məlumatlara təsadüf olunur. «Ksik» kurğanından əldə edilən iki sətirlik bir mətndə bəydililərə xas sözlər vardır. Yazı formaja Göktürk yazılarına bənzəyir (Türkcəyə aid ilk mətnlər m.ö. VIII-V əsrlərə aid edilir. Bəydili dilinə məxsus sözlərdən biri *«boz» (bod=xalq), «bozkır», «baraq», «ulaş», «əşirət», «beyğam (ğamsız), beynatıs (danışmayan), beyşara (biçarə), beypilavuz (ağzı bozuk)* sözləridir.

Beləliklə, müxtəlif mənbələr bəydililərin də bizim babalarımız olduğu- nu və tarixinin çox-çox qədimlərə dayandığını söyləməkdədir. Onların mədə- niyyətləri, adət-ənənələri nə qədər qədimə gedib çıxır, indi Türkiyədə, Azərbay- canda və digər ərazilərdə yaşayan bəydillililərin nə qədər zəngin bir boy oldu- ğunu sübut edir.

Bəydililər belə bir fikri də əski dönəmlərdə söyləmişlər: «Biz türklər, otaq qurub içində yaşayarkən çox boylar qaya qovuqlarında, mağaralarda yaşa- mışlar. Biz özümüzə paltar toxuyarkən, geyərkən çox boylar ağac yarpaqlarına bürünmüşlər, örtünmüşlər. Qopuzla şarkı çalıb oynayarkən çox boy musiqidən xəbərsiz olmuşlar. Pendir düzəldib kımız içərkən çox boy süddən yararlamağı daha bilmirdilər. Çox gözəl ənənələrlə qonağı ağırlayarkən çox boy bu ənənələ- rə hələ alışmamışdı…» (Azər- baycan dilinə tərcümə)

Ədəbiyyat:

1. Divanü Luğat it-Türk tercümesi (çeviren: Besim Atalay). 1.3. baskı. Türk Tarih Kurumu Basımevi. Ankara, 1992
2. Ataniyazov Soltanşa. Şecere (Türkmenin nesil daraqtı- Türkmen etnonimlerinden oçerkler). «Turan-ı» neşiryatı, Aşqabat, 1992
3. Tapper Richard. Frontier nomad sof İran: a political and social history of the Shahseven. Cambridge University Press, 1997
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilddə. I jild, Bakı, «Şərq-Qərb», 2007
5. Махпиров В.У. Древнетюркская ономастика (Имена собственные в «Дивану лугат-ит тюрк Махмуда Кашгарского). Алма-Ата, «Гылым», 1990
6. Faruk Sümər. Oğuzlar (türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları. Bakı, MVM, 2013

UOT 81

ПРОБЛЕМА ПЕРЕВОДА МЕТАФОРИЧЕСКИХ ЭТНОНИМОВ НА РОДНОЙ ЯЗЫК

Аида Акиф кызы МИРЗАЕВА

Западно-Каспийского Университет
Диссертант, преподаватель кафедры
«Английский Язык и Литература»

a_mirzoyeva@yahoo.com

РЕЗЮМЕ

В настоящее время представляется актуальным изучение специфики перевода метафорических этнонимов на родной язык. Этнонимы отражают историю народа, своеобразие его культуры и быта, описывают человека и его сферы деятельности.

Этнонимы в английском языке, сформившиеся в настоящее время в фразеологизмы, имеют полное историческое подтверждение, что говорит об отсутствии выдумки англичан. Именно произошедшие исторические события оказали влияние на межгосударственные и межнациональные стереотипы, которые в свою очередь являются национальной картиной мира. Почти все народы, с которыми контактировали британцы и американцы англо-саксонского происхождения, начиная с XVII века, а также народы, которые были в определенные периоды наиболее опасными экономическими конкурентами получили этнические прозвища.

Несмотря на то, что английские этнонимы не отражают принципов политкорректности и толерантности, о которых говорили именно англичане, они являются следствием культурной картины мира, поэтому должны существовать в языке.

Ключевые слова: перевод, метафорические этнонимы, стереотип, значение

THE PROBLEM OF TRANSLATING METAPHORICAL ETHNONYMS INTO THE NATIVE LANGUAGE

SUMMARY

At present, it seems relevant to study the specifics of translating metaphorical ethnonyms into the native language. Ethnonyms reflect the history of a nation, the originality of its culture and way of life, describe a person and his sphere of activity.

The ethnonyms in English, which have now been formed into phraseological units, have a full historical confirmation, which indicates the absence of fiction by the English. It is the historical events that took place that influenced interstate and interethnic stereotypes, which in turn are a national picture of the world. Almost all nations contacted by British and Anglo-Saxon Americans since the 17th century, as well as nations that were at certain times the most dangerous economic rivals, received ethnic nicknames.

Despite the fact that English ethnonyms do not reflect the principles of political correctness and tolerance, which were spoken about by the English, they are a consequence of the cultural picture of the world, therefore they must exist in the language.

Keywords: translation, metaphorical ethnonyms, strereotypes, meaning

METAFORİK ETNONİMLƏRİN ANA DİLİNƏ TƏRCÜMƏ ETMƏK PROBLEMLƏRİ

XÜLASƏ

Hazırki zamanda metaforik etnonimlərin ana dilə tərcümə olunma xüsusiyyətlərinin öyrənilməsi aktualdır. Etnonimlər xalqın tarixini, onun mədəniyyətinin və məişətdəki həyatının özünəməxsusluğunu ehtiva edir, insanı və onun fəaliyyət sahələrini təsvir edirlər.

İngilis dilinin etnonimləri və bu günə formalaşmış frazeoloji birləşmələr tam tarixi əsasa malikdirlər, bu isə ingilislərin uydurmalardan uzaq olmasına bir sübutdur. Məhz baş vermiş tarixi hadisələr dövlətlərarası və millətlərarası stereotiplərə öz təsirini göstərmişlər. Britaniyalıların və anqlo-sakson mənşəli amerikanlıların XVII əsrdən etibarən əlaqədə olduqları demək olar ki, bütün xalqlar, habelə müəyyən zamanlarda daha təhlükəli iqtisadi rəqiblər olmuş millətlər etnik təxəllüslər qazanmışlar.

İngilis etnonimləri məhz elə ingilislərin bəhz etdikləri siyasi tolerantlıq prinsiplərinə zidd olsalar da, dünyanın mədəni mənzərəsinin məntiqi nəticəsi olduğuna görə dildə mövcud olmalıdırlar.

Açar sözlər: tərcümə, metaforik etnonimlər, stereotip, məna

Проблема перевода метафорических этнонимов-это одна из наиболее трудных задач, стоящих перед переводчиком. Можно выделить следующие трудности, возникающих при переводе метафорических этнонимов:

1) отсутствие в переводящем языке соответствия (эквивалента) из-за отсутствия у носителей этого языка обозначаемого этнонимом;

2) необходимость, наряду с предметным значением (семантикой) этнонима, передать колорит (коннотацию), а также ее национальную и историческую окраску.

При выборе наиболее подходящего приема перевода необходимо учитывать способ подачи метафорического этнонима автором текста оригинала и средства, используемые им, чтобы довести до сознания читателя ее семантическое и коннотативные содержание.

Самым эффективным способом перевода метафорических этнонимов является приближенный перевод. Он заключается в подыскании ближайшего по значению соответствия. Такого рода приблизительные эквиваленты лексических единиц можно назвать «аналогами»..

Применяя в процессе перевода "аналоги", следует иметь в виду, что они лишь приблизительно передают значение исходного слова и в некоторых случаях могут создать не вполне правильное представление о характере обозначаемого ими предмета или явления. Учитывая это, опытные переводчики при использовании "аналогов" дают требуемые пояснения в комментариях к переводу.

При передачи значения метафорических этнонимов также используется контекстуальный перевод. Этот прием сходен по своему принципу с приближенным переводом и противопоставлен словарному, поскольку переводимое слово при использовании этого приема может иметь соответствия, отличающиеся от приведенных в словаре. В данном случае основной ориентировкой переводчика служит контекст, поэтому сам способ «заключается в замене словарного соответствия при переводе контекстуальным, логически связанным с ним».

Еще один способ передачи значения метафорических этнонимов-описательный перевод. Он заключается в раскрытии значения лексической единицы при помощи развернутых словосочетаний, раскрывающих существенные признаки обозначаемого данной лексической единицей явления, то есть, по сути дела, при помощи ее дефиниции (определения).

Некоторые исследователи (например, Влахов и Флорин) также выделяют прием замены реалии, приведенной в исходном тексте, на реалию языка перевода [1, с.101]. Тем не менее, следует отметить, что такая замена ведет к своего рода подстановке колорита и резкому выделению реалии на фоне всего текста. Смена колорита при подстановке реалий может акцентировать внимание читателя на детали, которая, возможно, по мнению автора, не является ключевой и не несет в себе важной для повествования смысловой нагрузки.

Рассматривая фразеологические единицы с позиций переводоведения, обратимся к делению, предложенному В.С. Виноградовым, который выделяет следующие группы устойчивых словосочетаний:

1) лексические, семантически соотносимые со словами;

2)предикативные законченные предложения, закрепившиеся в языке в виде устойчивых формул;

3)компаративные, закрепившиеся в языке как устойчивые сравнения.

С. Влахов и С. Флорин объединяют фразеологизмы по их структурно-семантическому типу, колориту, метафоричности, стилистической окраске в следующие группы:

1) образные/необразные;

2) пословичного типа/непословичного типа;

3) национальные/заимствованные/интернациональные;

4) имеющие колорит/не имеющие колорита;

5) народные/авторские;

6) первообразные/авторизованные.

Вышеперечисленные показатели в значительной мере определяют способы перевода фразеологической единицы.

Основываясь на основных принципах классификации реалий-слов, можно выделить основные способы перевода реалий-фразеологизмов.

1) Использование абсолютного эквивалента.

Этот прием возможен, если фразеологизмы в исходном языке и языке перевода содержат интернациональную реалию (свою для одного из пары языков или чужую для обоих): «Все дороги ведут в Рим»-«All roads lead to Rome». «The Dutch have taken Holland!»-«Открыл Америку!»

2) Использование эквивалента с максимально близким планом содержания. Такой способ ограничен в применении, так как подразумевает замену реалии исходного языка реалией языка перевода. Такой перевод возможен в тех случаях, когда национальный или временной колорит не играют роли и самым важным элементом является план содержания. Наиболее известным примером является перевод русской пословицы «Идти в Тулу со своим самоваром» английским эквивалентом «To carry coal to Newcastle».

3) Использование нейтрального по колориту слова или словосочетания. Используется при отсутствии в языке перевода эквивалента или в случае, когда подмена колорита приведет к искажению смысла или резкому несоответствию фразеологизма самому тексту. Иллюстрацией этого способа может служить перевод английского выражения «when Queen Anne was alive» (дословно «когда была жива королева Анна») нейтральной русской фразой «в незапамятные времена». Этот способ может быть ограничен авторским замыслом, если выражение употребляется в прямом

смысле и является указанием на определенную историческую эпоху («при дворе королевы Анны») [3, с.133].

4) Пословный перевод с пояснением в сноске можно использовать для сохранения колорита фразеологизмареалии и одновременно для передачи плана содержания. Этот прием является удачным, так как помогает достичь главной цели при переводе такого рода языковой единицы, но имеет недостаток из-за дословности перевода, который может оказаться не вполне естественным.

5) Приведение фразеологизма на языке оригинала с переводом и пояснением в сноске. Данный прием используется относительно редко, в основном, в случаях, аналогичных приведенным при описании предыдущего способа. Такой прием усиливает колорит речи героя или автора, а также, в соответствии с авторским замыслом, указывает на знание героем иностранного языка (это касается фраз, приведенных в тексте на иностранном для оригинала языке).

6) Использование полукальки с заменой национального компонента заключается в создании на основе имеющегося в исходном языке материала новой для языка перевода фразеологической единицы. Таким способом в русский язык была внесена пословица «Москва не сразу строилась» (англ. «Rome was not built in a day»). Также примером можетслужить перевод русской пословицы «копейка рубль бережет» фразой «take care of the kopecks and the roubles will take care of themselves» на основе английского выражения «take car of the pennies and the pounds will take care of themselves».

Согласно А.Д. Швейцеру, принимая во внимание функциональную роль реалии в сообщении, переводчик может «снять реалию» в нескольких особых случаях:

1) если она несет незначительную нагрузку в смысловой структуре текста;

2) если она упоминается лишь эпизодически;

3) если она выполняет не денотативную, а экспрессивную функцию и, следовательно, не может вызвать конкретные образнее ассоциации у читателя текст перевода [8, с.251].

Рассматривая достоинства и недостатки каждого из перечисленных способов, необходимо подчеркнуть, что в практике переводческой работы они применяются не изолированно, а в сочетании друг с другом. Исключительно использование только одного из них имеет следствием либо перегрузку переводного текста иноязычным словесным материалом или «экзотизмами» (при транслитерации и транскрипции), либо непомерное расширение текста (при описательном, перифрастическом способе), либо ведет к полной утрате национальной специфичности (при уподобляющем

переводе), либо к обеднению вещественного смысла (при гиперонимической передаче).

Чтобы выявить проблему перевода метафорических этнонимов, необходимо понять факторы, влияющие на их формирование и пути передачи их значений на родной язык.

Этнонимы не появляются как данность в готовом виде, а в течение длительного времени развиваются на фоне сложных социальных отношений, впитывая в себя любые изменения в экономической и политической жизни народов.

Современная лингвистика уделяет огромное внимание изучению особенностей стереотипов в английском языке, формирующихся на национальной основе. В английском языке очень много национальных стереотипов, которые негативно отражают особенности шотландцев, валлийцев или ирландцев, несмотря на то что все они являются частью одного королевства. Примерами этнонимов негативного отношения между соседними народами могут быть такие фразеологические единицы английского языка, как [5, с. 296].

Scotch coffee–кипяток, подкрашенный горелым сухарём»;

to Scotch a deal – тормозить соглашение; Welsh comb – пятерня вместо расчески;

to Welsh on a bet –не заплатить, если проиграл в пари;

to get one’s Irish up – разозлиться, выйти из себя; Irish hoist – пинок под зад;

Irish evidence – лжесвидетельство.

Отдельного внимания заслуживает фразеологическая единица French leave – уход без прощания, дезертирство, которая стала следствием особенностей французов покидать гостевой дом без прощания с хозяевами или держателями дома, при этом такая особенность была свойственна самим англичанам.

Помимо того, что англичане считают французов крайне негостеприимными, представители немецкой культуры также считаются негостеприимными, что подчеркивается таким фразеологизмом, как sichfranzösisch verabschieden и sich auf Französisch empfehlen. Подобного мнения англичане являются относительно испанцев, что проявляется в фразеологизме despedirse a la francesa [6, с. 213].

Интересной особенностью национальных стереотипов, которые касаются особенностей приема гостей дома и покидания дома, является то, что, французы, немцы и русские считаются негостеприимными только в английской культуре – тем самым, отсутствует истинное доказательство такой точки зрения. Однако сами англичане также считаются крайне негостеприимными и далеко не вежливыми, что выражается одновременно в лексике нескольких культур, а именно [7, с.13]:

–в русской культуре существует понятие уйти по - английски, которое означает, что человек покидает место не попрощавшись, молча, без предупреждения и объяснений;

–во французском языке существует такой фразеологизм, как filer à l'anglaise;

–в итальянском языке также существует фразеологизм, выражающий невежливость англичан: partire all'inglese.

Возникает мнение, что ФЕ с этнонимами возникли на основе недопонимания и незнания языка, поэтому не всегда правильно отражали ментальные и национальные различия. Однако с течением времени и разъяснением данные этнонимы остались в неизменном виде и так же сохранили свой смысл.

Помимо того, что англичане внесли в свой лексикон большое количество фраз, негативно описывающих различные народы и культуру, в большинстве примеров англичане также сформировали представление о людях, сильно зависящих от алкоголя, наркотиков, из-за чего возникли сленговые единицы в английском языке, как Indian list – список лиц, которым не следует продавать алкоголь;

to see Indians – опьянеть;

Chinese tobacco – (сленг) опиум;

Indian hay/grass – марихуана.

На основе вышесказанного, можно сделать вывод о том, что формирование ФЕ с этнонимами у англичан основывалось на негативном впечатлении об особенностях представителей других наций, которые проявлялись в пороках, отрицательном поведении, негативном соседстве или колонизации, отсутствии принятых на территории Великобритании стандартов и т.п

Наиболее употребительным этнонимом из рассмотренных этнонимов является Dutch (голландский).

Неудивительно, что практически во всех значениях ФЕ с этнонимом Dutch прослеживается негативно -оценочная характеристика. Чаще всего, компонент Dutch символизирует нечто "плохое, ненастоящее, ненадежное". Примеры:

and I'm a Dutchman – используется, для того чтобы высказать недоверие:

"I've got a date with Claudia." "Oh yeah, and I'm a Dutchman.

"У меня свидание с Клаудией." "Провалиться мне на этом месте, если это так."

The Dutch cure – суицид:

Well, Bob took the Dutch cure last month. It is hard to believe.

Представляется интересным проанализировать немногочисленные фразеологизмы с этнонимом Greek (грек, греческий). Как отмечает М.Н.

Лапшина, в древнеанглийском языке слово Greek имело нейтральное значение, но в результате последующего пейоративного сдвига появилось представление о греках как о веселых, легкомысленных, склонных к мошенничеству людях [4, с.59]. Данное устойчивое представление эксплицируется в таких выражениях, как: *Gay Greek* – merry fellow; merry drinking companion (веселый собутыльник);

- *Greek gift* – подарить подарок с намерением обмануть, причинить вред:

"I can't believe Melanie brought me cookies today, when we've been fighting for weeks." "Beware of Greeks bearing gifts"

"Не могу поверить, что Мелани принесла мне печенья сегодня, мы не разговаривали неделями." "Будь осторожна с подарком."

- *the Greek calends* – время, которое, как ожидается, никогда не прибудет или не произойдет. Ссылка на день новолуния и первый день месяца в древнеримском календаре, который греки не соблюдали:

You lent that leech John more money? It'll be at the Greek calends when he pays you back

Ты одолжил пиявке Джону денег? Ну, обещанного три года ждут.

Фразеологизмы с положительной оценочностью нем- ногочисленны. Интересен тот факт, что положительную интеллектуальную оценочность содержит ФЕ с этнонимом British: *The Best of British* – said in order to wish someone luck. Выводы напрашиваются сами собой: самосознание у нации высокое, и соответственно, сами себя негативно они не характеризуют. Англичане считают себя законопослушными, вежливыми, великодушными, галантными, стойкими и справедливыми. Еще одним примером ФЕ с положительной оценочностью является ФЕ The *American dream* – the belief that everyone in the US can be rich and successful if they work hard enough (американская мечта). Как видно, данный фразеологизм содержит этноним American. К американцам у англичан особое отношение. Согласно социологическим опросам Американцы им, в общем, нравятся и нравились бы еще больше, если б не кичились так своим, так называемым, американством. Англичане считают американцев тоже англичанами, только превратившимися во что-то не совсем понятное в результате неудачного стечения обстоятельств и всеобщего недопонимания. Англичане воспринимают остальной мир как игровую площадку, где взаимодействуют некие команды -группы народов, каждый со своими обычаями и культурой - можно на все это либо смотреть со стороны и развлекаться, либо использовать себе во благо, либо просто списать со счетов за ненадобностью - в зависимости от желания. Печальный опыт научил англичан всегда ожидать от других худшего, так что они бывают приятно удивлены, если ничего подобного не происходит; ну а если их дурные

предчувствия все же оправдались, они с удовлетворением отмечают свою правоту [2, с.5].

Выражения с этнонимом Spanish характеризуют испанцев как: хулиганов: *to spanish* присвоить чью-то еду иди какую-то вещь; *Spanish Monkey*–синяк; заядлых болельщиков: *Spanish commentary*–лучшее комментирование игры (в особенности футбола) в мире. Делает любое соревнование более интересным и захватывающим; негодяев: Spanish Barry – тот, кто обращается с кем-то плохо, в бесчеловечной и унижающей достоинство форме; бессовестных людей: *Spanish exit* – вместо того, чтобы оплатить счет в ресторане, человек перекладывает свою долю на друзей; *Spanish money* – «одни только слова!»; людей, принимающих наркотики: *Spanish homework* –«подпольный» термин для обозначения марихуаны. Обычно используется при общении подростков между собой, в присутствии взрослых (родители, учителя); нерях: *Spanish shower* – использовать большое количество одеколона, чтобы скрыть запах немытого тела; невежественных, глупых людей: *Spanish Teacher* – необразованный человек; тот, кто учит вымышленным идеям.

walk Spanish – заставить кого то уйти, выкинуть за шиворот, данное выражение относится к действиям пиратов.

"Why are you home so early?" "Well, they made me walk Spanish."

“Ты почему так рано дома?” “Они выкинули меня за шкирку.”

- *The Spanish inquisition* − чрезмерный, необычный или обширный допрос или допрос над чем-то мирским. Нет пыток в настоящее время, однако. Назначенная роль папской инквизиции, созданной в 15 веке в Испании, для расследования и наказания обращенных евреев и мусульман, считающихся неискренними. Также тех, кто подозревается в ереси и не остается в рамках предписанных догм.

“Where were you last night?” “At home.” “Why didn't you answer my calls?” “My phone was dead.” “Well why didn't you call?” “Damn! what the hell is this? the Spanish inquisition?”

“Где ты был прошлой ночью?” “Дома.” “Почему не отвечал на телефон?” “Села батарея на телефоне.” “Почему не позвонил?” “Что это, допрос (Испанская Инквизиция)?”

На протяжении длительного периода европейской истории евреи олицетворяли товарно-денежные отношения в недрах натурального хозяйства. Развитие товарно-денежных отношений было объективной закономерностью, которая не зависела от чьей-либо злой и доброй воли. Но процесс этот был весьма болезненным. Задолженность и разорение легко ассоциировались в отсталом сознании с образом еврея-ростовщика или еврея-торговца, который становился, таким образом, символом всяческих неприятностей и способствовал возникновению большого количества этнических стереотипов с негативной коннотацией в адрес евреев.

worth a Jew's eye – очень ценное, данное выражение берет начало с тех времен, когда жестоким способом отнимали деньги у евреев.

Have you seen that painting? It's an original, so it must be worth a Jew's eye.

Ты видел картину? Это оригинал, так что это должно стоить много денег.

В отношении жителей жаркой Италии существует немало стереотипных представлений. Что касается самого этнонима Italian, то тут мы обнаружили такую трактовку: *Italian* – красивый, умный человек, готовящий вкусную еду, любящий семью и жизненные ценности; *Italian person* – человек, который высказывает свое мнение чересчур громко.

- *a fine Italian hand* – красивый разборчивый подчерк, изысканный стиль письма, который заменил готический шрифт в некоторых частях Европы, начиная с 17-го века:

I can't understand any of the old Gothic texts we're archiving. Thank goodness for the ones written in a fine Italian hand that I can actually read!

Я не могу понять ни одного из старых готических текстов, которые мы архивируем. Слава Богу что, кто – то написал это прекрасным подчерком и можно разобрать.

- *Italian bath* – распылить на себя большое количество одеколона, вместо того чтобы принять ванну:

Can you feel the smell? Guess John took an Italian bath.

Чувствуешь этот запах? Кажется Джон распылил на себя большое количество одеколона.

Итальянцев наделяют следующими качествами: неряшливость: *Italian bath* – распылить на себя большое количество одеколона, вместо того чтобы принять ванну; *Italian sub* – неприятно пахнущий человек; красивая внешность: *Italian beast* – привлекательный мускулистый мужчина; эмоциональность: *Italian Emotion* – состояние, которое испытываешь, когда жизнь посылает трудности (может состоять из печали, ярости, тоски и решимости); *Italian divorce* – разорвать брачные отношения, наняв киллера, чтобы он устранил супруга / супругу. Выражение *Italian mausoleum* – «багажник», касается стереотипного представления о жертвах итальянской мафии, которых прятали в багажник машины. С этнонимом Italian связывают что-то плохое, неудавшееся: *Italian cruise ship* – большой провал.

Полякам приписывают следующие характеристики:

отсутствие воспитания: *Polish Exit/ Polish Goodbye* – уйти внезапно, без предупреждения, не сказав никому «до свидания»;

лень: *Polish Holiday* – отсутствие начальника в рабочий день;

глупость: *Polish Moment* – мгновенная вспышка глупости;

неряшливость: *Polish Shower*–пользоваться одеколоном вместо того чтобы помыться;

любовь к веселью, праздникам: *Polish Birthday*– день рождения, который длится не один, а несколько дней;

любовь к спиртному: *Polish martini* – рюмка виски и стакан пива.

Polish parliament - Выражение «Польский парламент» означает хаос, беспорядок, когда во время сессии невозможно принять решение. Корни выражения уходят в 17-18 вв., когда любой член польского парламента имел право наложить вето, поэтому для решения любого вопроса требовался полный консенсус, достичь которого было практически невозможно. Сегодня это выражение используется, чтобы подчеркнуть невозможность эффективного обсуждения проблем, когда в законодательном собрании представлено слишком много партий. Выражение популярно во всех скандинавских языках [9, с.82].

- *Polish moment* – мгновенная вспышка глупости:

It was a Polish moment, when I said "No" to his invitation. I'm so stupid.

Это была мгновенная вспышка глупости, когда сказала "Нет" на его приглашение. Я такая глупая.

- *Polish martini* – рюмка виски и стакан пива:

I have a bad hang - over, after yesterday's Polish martini.

У меня жуткое похмелье после вчерашнего выпитого виски и стакана пива.

Следующие примеры иллюстрируют отношение англичан к ирландцам.

- *get (one's) Irish up*–стать или вызвать злость, враждебность, защиту или раздражительность:

Bred got his Irish up when his parents brought up the subject of college.

Бред становится злым, когда поднимается вопрос о колледже.

- *Luck of the Irish* - удача связана с ирландским на родом:

"How did you manage to do it?" "It's the luck of the Irish, I guess."

" Как ты справился с этим?" "Я думаю это просто удача."

Таким образом, в данной статье были приведены примеры перевода английских метафорических этнонимов, в которой содержались позитивные, негативные и нейтральные коннотации, а также черты этноса характеризующие рассматриваемые выражения.

На основе этих примеров, можно рассмотреть пример реализации национального стереотипа в английском языке.

Литераратура:

1. Влахов С.И., Флорин С.П. Непереводимое в переводе, 2006 с.101
2. Вострых М. Л -Английские фразеологические единицы с этнонимами как показатель отношения англичан к другим нациям, 2010
3. Казакова Т.А. Практические основы перевода. СПБ., Союз, 2002. – с.133
4. Лапшина, М.Н. Семантическая деривация в когнитивном аспекте: автореф. дисс
5. Лебедева Л. А. Устойчивые сравнения русского языка во фразеологии и фразеографии: дис. д-ра филол. наук / Л. А. Лебедева. – Краснодар, 2013. 296 с.
6. Пантюхова П. В., Решетова И. С. Фразеологизмы-этнонимы как элементы языкового кода в лексико-семантическом пространстве английского языка // Филологические науки: СКФУ, 2015. – С. 210-213
7. Стернин И. А. Речевая номинация и варьирование лексического значения слова // Проблемы семантики русского языка. – Ярославль: Гос. Пед, Ин-т, 2016. – С. 3-13
8. Швейцер А.Д. Теория перевода, 1973, с.251
9. Шитова Л.Ф., Carry Coals to Newcastle: 350 geographical idioms and more, Санкт Петербург, 2002, с.82
10. Цебровская Т.А. Особенности перевода этнонимов, диссертация

UOT 81

ONOMASTİK VAHİDLƏRİN POEZİYA DİLİNDƏ POTENSİAL İNİKAS İMKANLARI

Məhərrəm Abbaseli oğlu HÜSEYNOV

Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedogoji Universiteti

XÜLASƏ

Məqalə şeir dilində onomastik vahidlərin obrazlı sözə çevrilməsi prosesinin əsas məsələlərinə həsr edilmişdir. Burada H.Kürdoğlunun şeirlərindən alınmış konkret nümunələr əsasında onomastik vahidlər obrazlılıq yaratma imkanları təhlildən keçirilmişdir. Poeziya dilində onomastik vahidlərin yaratdığı obrazlılığın linqvistik əsasları geniş estetik sistem daxilində nəzərdən keçirilmiş, poetik dilin milli qaynaqlarının, dərin köklərinin fəallığında onomastik materialların poetik düşüncəni müəyyən məcraya yönəldilməsindəki roluna diqqət yetirilmişdir.

Açar sözlər: şeir, dil, onomastika, üslub, söz

POTENTIAL INIKAS CAPABILITIES OF ONOMASTIC UNITS IN POETRY

SUMMARY

The article deals with the main issues of the process of transforming of onomastic units into figurative words in the poetic language. Here, the possibility of creating onomastic units, based on concrete examples derived from Kurgoglu's poems, has been analyzed. The linguistic basis of the image created by the onomastic units in the poetry language has been studied in a wide aesthetic system. The role of onomastic materials in poetic thinking in a certain direction in the activity of national sources and deep roots of poetic language was paid attention.

Key words: poem, language, onomastic, style, word

Şeir sənəti tarixinin bütün dövrlərində şair sözü gözəllik qiyafəsində, yaraşıqlı libasda araya-ərsəyə gəlmiş, sözə təmənnasız xidmət edənlər sözü əbədiyyətə qovuşdurduqları üçün özləri də mənsub olduğu xalqın qəlbinə köçmüşlər. Şair kəlamı həmişə misilsiz mənəvi sərvət hesab olunmuşdur ki, bu da şeir dilinin bədii imkanlarının tükənməzliyini təsdiq edir. Dil poeziyanın ilkin yaradıcılıq simasıdır. Bədii hadisələrə həqiqi sənət meyarları ilə yanaşmağın birinci

şərti dil faktorundan, söz seçimindən asılıdır. Ədəbi təcrübə dönə-dönə sübut etmişdir ki, söz duyumundan məhrum olanların nümunəvi poeziya yaratmaq cəhdləri heç bir səmərə verə bilmir. Başqa sözlərlə desək, şeir estetikasının əsasları məhz sözdən istifadə meyarlarından asılılığı həmişə təsdiqlənir.

Təcrübə göstərir ki, dilimizin lüğət tərkibindəki bütün sözlər kimi onomastik vahidlərinin misralara süzülüb canlı obraza keçid prosesi də poeziya hadisəsidir. Onomastik vahidlər şeir dilinin komponenti olaraq bütünlükdə bu hadisənin daşıyıcısı, poetik bir keyfiyyət halında meydana çıxması istiqamətində ən tükənməz estetik güc mənbəyidir.

Görkəmli bədii söz ustadı Hüseyn Kürdoğlunun şeir dilində üslubi fəallığı ilə diqqət çəkən coğrafi adların keyfiyyət halında miralarda təzahürü əyani formada belə bir fikri təsdiqləyir ki, poeziyada onomastik vahidlərin durğunluq vəziyyəti yoxdur. Burada hər bir onomastik vahid hərəkətdə olan sözdür. Onlar söz sənətkarının iç dünyasından, köksündən qopan duyğuları ifadə etməklə dinamizm qazanır, sənət amilinə çevrilərək şeir mətninin formalaşdırılmasında fəallıq göstərir. Məsələn:

Ay aman, gözümdən, könlümdən yenə
Qarabağ, Qarabağ, Qarabağ *keçir.*
Ziyarət, İşıqlı, Qırxqız, Mıxtökən,
Gözəl ***Gəlinqaya, Dəlidağ*** *keçir.* [5, s.7]

"Qarabağ"ın təkrarı, göründüyü kimi, şeir dili üçün çevik, rasional və təsirli ifadə üsuludur. Şairin eyni onomastik vahidi təkrarlanma səyləri daha artıq təsvir-tərənnüm obyektini təsirli lirik formada əks etdirmə bacarığı ilə əlamətdardır. Musiqi ahəngi ilə müşaiyət olunan təkrar dil rəvanlığının miqyasını genişləndirir, melodik səslənmənin vüsətinə təkan verir. Eyni onomastik vahidin təkrarı fikir bəzəyinə xidmət edən güclü poetik kateqoriya siqləti qazanır. Qarabağla bağlı coğrafi adların eyni bənddə sadalanması isə dilin vokal xüsusiyyətlərini, ritm və intonasiya zənginliklərini aparıcı mövqeyə qaldırır, ahəngdar melodika fonunda tərənnüm obyektinə poetik təhlil obyektinə çevirir. Onomastik vahidlərlə ifadə olunmuş cümlə üzvlərinin həmcinsliyini intensivləşdirmək yolu ilə poetikləşdirmək H.Kürdoğlu üslubunda özünəməxsus çalarlarla meydana çıxır, bədii fikrin dəyərli ifadə vasitəsi kimi öz poetik orijinallığını təmin edir.

Xaqani Şirvani, Mücir, Fələki,
Şeir bağı salıb, inci götürmüş.
Nizami Gəncədən bir günəş kimi
Doğmuş, gündoğana şöhrət gətirmiş.
Alimi, şairi sevir **Urmiya,**
Zərdüştün *vətəni mehmannəvisdir* [5, s.266].

Bu nümunədəki şəxs adları da, coğrafi adlar da fikrin tutumlu təqdimatından ötrü bədii təəssüratın bütün güşələrinə işıq salır, obrazlı təfəkkürün işığında müəllif tarixi reallıqları bütün incəlikləri ilə poetik biçimdə fırçaya alır.

H.Kürdoğlunun onomastik vahidlərdən təşkil olunmuş həmcins üzvlərdən istifadə ölçüsü genişdir; onun kəmiyyətcə çoxluğu yaratdığı keyfiyyət dərəcəsinə uyğundur. Ümumiyyətlə, həmcins onomastik vahidlər şeirin bədii sintaksisində aparıcı mövqedədir. Tekstoloji müşahidələr belə bir təkzibolunmaz faktı üzə çıxarır ki, nəsr və dramaturgiya ilə qarşılaşdırmada onomastik həmcins üzvlərin işlənmə nisbəti şeirin xeyrinədir. Aşağıdakı nümunə timsalında belə aşkarlıq hasil olur ki, şeir dilinə sadalanan onomastik vahidlərin nüfuzu məhdud çərçivə daxilində yox, geniş kontekst miqyasındadır və bu genişlik həmcinslik təşkil edən xüsusi adların üslubi vəzifəsi ilə üst-üstə düşür. "Vətəndaş" şeirindən bir parçaya diqqət yetirək:

Neçə min ildirsə xalqımın yaşı,
O qədər zamanın vətəndaşıyam.
Göy yaylağım oldu dağların başı
***Şirvanın, Muğanın** vətəndaşıyam.*

*Xan **Arazın** oğlu, gah **Kürün** oğlu,*
*O **Qorqud** ozanın, o Qoç **Koroğlu,***
Yerlərə yaraşıq, göylərə bağlı
Nə qədər dastanın vətəndaşıyam.

Savalan, Dəlidağ, İşıqlı, Qırxqız,
Çiynindən paylayır günəş, ay, ulduz.
Dənizim, çayım da yaşamaz onsuz.
*Mən **Azəristanın** vətəndaşıyam.*

*Gərək **Nizamiyə** dünya baş əyə,*
*Şeir qürurlandı **Füzuli** deyə,*
Bu yerdə zəkalar ucaldı göyə
Mən elmin-ürfanın vətəndaşıyam. [5, s.10]

Diqqət yetirildikdə aydın olur ki, onomastik vahidlərin sıxlığı və tündlüyü ilə yaranan ifadə formasını müəyyənləşdirən amil bədii məzmundur. Şeirin ideya məzmununun açılmasına yönəldilmiş onomastik vahidlər konkret mündəricəni, psixoloji vəziyyəti canlandırmaq qayəsinə tabedir. Bu səbəbdən də onlar şeir dilinin təsvir və ifadə tərzinə təravət və rəngarənglik gətirir [3, 79], müxtəlif üslubi vasitələrin eyni mətn daxilində kəsişib çulğalaşmasına yol açır. Güclü vurğu altında deyilib ritmin güclənməsinə xidmət edən həmin xüsusi

adların ayrılıqda misra siqləti kəsbetmə qabiliyyəti də vardır ki, bədii nitq öz qüvvə və kəsərini ondan alır.

Şeir dili canlı ünsiyyət dilinin dərin qatlarına nüfuz etdikcə onomastik vahidlər, xüsusilə antroponimlər də fəallaşır və təbii haldır ki, deyim tərzində milli kolorit də güclənir. Daha effektli ahəngdarlıq və üslubi gözəllik yaratmaq naminə onomastik vahidlər bədii qayə ilə öz arasında daxili vəhdətə nail olmaq üçün eyni sintaktik quruluş daxilində işlənirlər. Bu da fikrin dürüst ifadəsi ilə yanaşı, deyim tərzinə xüsusi dolğunluq, tutumluluq qazandırır:

*Atam **Koroğlu** dağı,*
*Telli **Nigar** oylağı,*
*Çağla **Həcər** bulağı*
Sən mənim vətənimsən [6, s.71]

Onomastik vahidlərin yaratdığı koloritli təsvirin əhəmiy- yətindən söhbət açmağa ehtiyac yoxdur. Şeir dilini antroponim, toponim, hidronim və digər onomastik vahidlərin emosional- ekspressiv xassəsindən təcrid etməyin mümkün- süzlüyünü nəzərdən qaçırmadan belə düşünmək olar ki, şeirdə onomastik leksikanın fəallığı daimi üslubi prosesdir. Şeir dilinin obrazlı məntiqi tələb edir ki, mətnin üslubi məna tutumu xüsusi adların işlənmə tezliyini tənzimləyir və fikrin maksimum aydınlığına xidmət etdirir. Buna görə də şeirdə onomastik vahidlərin kəmiyyət məhdudiyyətini müəyyənləşdirmək mümkün deyil. Şeirin poetik tələbini ödəmək baxımından bu məsələyə yanaşıldıqda onomastik leksikanın hüdudlarının genişləndirilməsinə haqq qazandırmaq olur, üslubi tələb onomastik vahidlərin şeir mətninə daxil etmə meyarı kimi çıxış edir. Fikrimiz predmetsiz olmasın deyə "Astara-Urmiya yolu" adlı şeirin bir fraqmentinə nəzər salaq:

*Çıxırıq yolları, budur **Ərdəbil,***
***Savalan** ucadır, zirvəsi dümağ.*
Qurub ziyasında gülür elə bil.

Dağların sultanı bu möhtəşəm dağ.
***Şeyx Səfinin** yurdu, Vətən şöhrəti*
*Fikrimdə **İsmayıl** qılınc oynadır.*
Dünyaya səs saldı onun qüdrəti

O şanlı günlərə tarix aynadır.
*... Dan üzü, **Urmiya**, işığa bir bax,*
*Yanır **Avestanın** sətirləri tək. [5, 262]*

Poetik qənaətləri əhatəli təsviretmə istəyindən asılı olaraq onomastik vahidlərin kəmiyyət artımı özünü onda göstərir ki, təfsilat şəxsi adların köməyi ilə aydınlıq tapsa, onomastik vahidlər aparıcı mövqeyə qalxır. Belə hallarda geniş assosiativ-metaforik laylar da fəallaşır. Beləliklə, bədii təsvir obyetinin tutumlu çərçivədə təcəssümünə nail olmaq üçün, obrazı tam aydınlığı və dolğunluğu ilə oxucu təsəvvüründə canlandır- maqdan ötrü söz sənətkarı tərəfindən onomastik vahidlərin genişləndirilməsi lirik təhkiyə və tərənnümün yaratdığı bədii ab-havanın incə cizgilərini ön plana çəkir, həmin cizgilər öz tutumluluğu ilə düşüncə axarına hopdurur.

Adi danışıq və ünsiyyət funksiyasından fərqli olaraq onomastik vahidlər bədii yaradıcılığın materialı olaraq öz daxili semantikasında böyük və cazibəli əsrarəngsizliklər gizlədir, ifadəlilik potensiallığı gözlənilməz bədii-estetik icadlar üçün həmişə etibarlı bünövrə, qüdrətli özül rolunu oynayır. Onların bədii təsvir və ifadə vasitəsi vəzifəsinin icrası zamanı yeni-yeni üslubi çalarlarla təzahürü spesifik qanunauyğunluqlarla şərtlənir. Söz ustadının istedad dərəcəsindən estetik dünyabaxışından, söz üzərindəki düşüncələrinin səmərəliliyindən asılı olaraq özünü müxtəlif üslubi məziyyətlərlə göstərə bilir. Onomastik vahidlərin məcazlaşdırılması və bədii təsvir vasitələrinin yaranmasında fəal iştirakı bunun ən bariz nümunəsidir.

H.Kürdoğlu onomastik vahidin semantik mütəhərrikliyindən məharətlə istifadə edərək gözlənilməz üslubi rənglərlə təzahür etdirmişdir. Onun qələmi ilə onomastik vahidlər mətn mühitində öz lazımi yerinə düşəndə semantik imkanları hərəkətə gəlir, uğurlu deyim qəliblərində canlanan obrazların estetik tutumu genişlənir. Epitet, bənzətmə, metafora, sineqdoxa, metonimiya və s. bədii təsvir vasitələrinin formalaşdırılmasında fəallıq göstərən onomastik vahidlər poetik kəşf təəssüratları yaradır, bədiiləşdirmə prosesinin fəal iştirakçısı olur:

*Dünya **Kərəm** dünya, **Lələ** dünyadır,*
Dərdi belimizdə şələ dünyadır.
İçəridə beşik, qapıda tabut,
Həm elə, həm də ki, belə dünyadır [5, s.351]

***Həkəri** qəzəblə çoşub-çağlayır,*
Kimsəsiz çeşmələr camaq bağlayır.
***Qarqarın** fəryadı düşür dağlara*
Gör daşdan, qayadan nə sayaq keçir [5, s.7]

Antroponimlərdən epitet, hidronimlərdən metafora qismində istifadə göstərir ki, poeziya dilində onomastik vahidlər ancaq işarələrin şərti forması olaraq məhdudlaşmır, onlar özündən yeni və rəngarəng üslubi çalarlar da şüalandırır. Ona görə də dilin nəhəng vahidləri içərisində onun yerini təyin etmək, ən ümdəsi isə onun bədii düşüncəyə təsirini lazımi səviyyədə dəyərləndirmək xüsusi filoloji fəhm tələb edir.

Onomastik vahidlərin məcazi sözə çevrilməsi, onun bədii təsvir və ifadəlilik vaitəsi gerçəkliyin inikası və obrazlı qavra- nılmasına xidmət edir. Onomastik leksikadan obraza keçid şeirin linqvistik təşkili prinsipləri çərçivəsində dil materiallarının müəyyən vəhdəti daxilində həyata keçirilir. Aşağıdakı nümunələrdən görmək olur ki, həyat materialları, fikir və düşüncələrin, hiss-həyəcanların hamısı onomastik vahidlərdə də təcəssüm olunur. Metonimiya və sineqdoxaya çevrilmiş onomastik leksikanın daxili dinamikasında, onların bir-biri ilə qarşılıqlı bağlılığında və vahid məqsədə istiqamətləndirilməsində özünü birüzə verir. Poetik mündəricənin bütövlüyünün təmin olunmasında aparıcı mövqedə dayanır.

Bu kaman, bu şeir ağladır məni,
Öz dərdini deyir, ağladır məni,
***Şubert** də, **Motsart** da heyran eyləyir,*
*Ancaq ki, **Üzeyir** ağladır məni [6, s.144].*

Kimlər ayaqladı namusu, arı,
*Dustaqdır **Koroğlu, Nəbi** diyarı.*
***Zakir** haraylayır mərd oğulları*
Meydana çiynində yar-yaraq keçir [5, s.7]

*Kitab təşnəsidir təbrizli **Fatma,***
*Göndər **Ələsgəri**, **Vaqifi** deyir.*
Dilində nə qədər şirindir şeir [5, s.275]

Göründüyü kimi, dilin müxtəlif leksik yarusları, o cümlədən onomastik vahidlər şeir misralarında üslubi təmasda, poetik tamın bütün komponentləri ilə ahəngdar şəkildə çulğaşır. Ən əsas meyar onomastik vahidin şeirdə bədii mətləbin uğurlu ifadə vasitəsinə çevrilə bilməsi və bədii ifadə üsulları içərisində yer tutma qabiliyyətinə yiyələnməsidir.

Onomastik vahidlərin məcazlaşdırılması üslubi keyfiyyətdir. Sənətkarın yaradıcılıq qayəsi onun poetik təfəkkürünü əyaniləşdirən obrazlarında – obrazlı onomastik vahidin siqlətin- dədir. Onomastik vahid əsasında yaradılan məcazi sözün əmələ gətirdiyi obrazlılıq şeirdə əyaniliyin maksimum dərəcəsinə nail olmaq istəyinin məhsuludur. H.Kürdoğlunun qələmində məcazlaşan onomastik vahidin uğuru onun yeniliyindədir. Yenilik meyarı isə sənətkarın onomastik vahidin poetik mahiyyətinə nüfuzu və onun dərinliklərindəki obrazlı rəngləri aşkarlamaq istedadıdır. Aşağıdakı nümunələrdə olduğu kimi:

Ac tülkünün mişarından qorxmuram,
Lal suların daşarından qorxmuram.
*Canım olsa **Əzrayılın** haqqı var*
***Əzrayılın** oxşarından qorxuram[5, 471].*

Laçının, Qarabağın *həsrətindən yanıram,*
Məni söndürə bilməz ***Dəclə*** *də,* ***Nil*** *də gəlsə[5, 480].*

Beləliklə, onomastik vahidlərin bədiilik siması onların kon- kret bədii qayəni nə səviyyədə əks etdirməsi və estetik təsiri ilə ölçüyə gəlir. Bütün hallarda bir məziyyət aparıcıdır: onomastik vahidlərin iştirakı ilə yaradılan obrazlı düşüncə qayəyə müvafiqdirsə, təbii və cazibəlidir. Belə olduqda onlar təsvir-tərənnüm obyekti haqqında dolğun təsəvvür yaradır, bədii nitq mühitinə ekspressivlik gətirir və mətnin poetik ab-havasına uyğunlaşır.

H.Kürdoğlunun qələmində onomastik vahidlərin yaratdığı kiçik bir cizgi də vacib təfsilata keçə bilir. Onomastik leksikanın yaratdığı üslubi şəraitdə təsvir obyektini yüksək ideya-estetik səviyyədən, idraki-fəlsəfi baxış zirvəsindən canlandırmaq zərurətini reallaşdırır.

Ədəbiyyat:

1. Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı, Gənclik, 1983, 136 s.
2. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. Bakı, ADU nəşriyyatı, 1987, 86 s.
3. Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı, Səda, 2005, 171 s.
4. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universitetinin nəşriyyatı, 1991, 312 s.
5. Kürdoğlu H. Yurduma qurbandır sözüm. Bakı, Sabah, 2005, 516 s.
6. Kürdoğlu H. Bu dünya bir karvan yolu. Bakı, Yazıçı, 1989, 184 s.
7. Горбаневский М.В. В мире имен и названий. Москва, Изд-во «Знание», 1989

UOT 81

XIZIR ANTROPONİMİ HAQQINDA

Məmmədxan Cəmil oğlu SOLTANOV

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru

Samirə Adəm qızı ƏMRAHOVA

Cəlilabad rayonu, Göytəpə şəhər1 saylı
V.Mürsəlov adına tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllim

afrodita2014@gmail.com

XÜLASƏ

Həyatda hər bir əşyanın özünəməxsus fərqləndirici əlaməti, onu başqalarından ayıran adı vardır. Bu adların bir qismi ümumi səciyyə daşıyıb eynicinsli canlı və cansız varlıqlara verilir. Bir sıra canlılara, eləcə də bəzi cansız əşyalara isə onları başqa canlı və cansız varlıqlardan fərqləndirən konkret adlar verilir ki, bu adlar xüsusi adlar hesab olunur. Müasir Azərbaycan dilçiliyində onomastik vahidlər kimi qəbul edilən xüsusi adlar yalnız adlandırdığı konkret əşyaya verilir və həmişə böyük hərflə yazılır. Belə xüsusi adlardan dilçilikdə antroponimlər - ayrı-ayrı şəxslərə verilən adlar, toponimlər – yer-yurd adları, hidronimlər – su obyektlərinin adları və s. kimi öyrənilir. Bu məqalədə mifik obraz olan Xızır haqqında danışılır, bu xüsusi adın etimoloji kökü açiqlanır.

Açar sözlər: onomastik vahid, xüsusi ad, antroponim, toponim, hidronim, təxəllüs, ləqəb, etimologiya

ABOUT ANTHROPONYMY KHIZIR

SUMMARY

Each object has its own identity, name in life, which separate it from the others. Some of the names were similar nature and are granted animate and inanimate beings. A number of animate as well as some inanimate beings are

given specific names that distinguishes them from other animate and inanimate beings, these names are considered specific names. In modern Azerbaijani language specific names which considered onomastic units is given only specific items and always written with a capital letter. A special name from the names, place names, names of objects being studied as hidronimlər water and shelter - individuals - anthroponomy in linguistics. So specific names are studied in linguistics as anthroponymy-names given to individuals, toponyms- place names, hidronims - names of water objects. In this article are spoken about the mythical image of the Khizira, etymological root of this special name is disclosed.

Key words: Onomastic units, specific names, anthroponymy, toponym, hidronim, pseudonym, nicknames, etymology.

ОБ АНТРОПОНИМИ ХЫЗЫР

РЕЗЮМЕ

Каждый объект имеет свою собственную иденитичность, имя в жизни, которые отделяют его от других. Некоторая часть этих имен, которые носят общий характер, дается однополым живым и неживым существам. Ряд живых, а также некоторых неодушевленных существ, приведены конкретные имена, которые отличает их от других живых и неживых существ, эти имена считаются конкретные имена. В современном азербайджанском языке, считаются принятые как ономастические единицы специальных имен которые даются только конкретным предметам и всегда пишется с большой буквой. Такие специальные имена изучаются в лингвистике как антропонимымена выданные отдельным лицам, топонимы- Названия местоположения страны, гидронимыназвание водных объектов и т.д. В этой статье говорится о Хызыр являющийся мифическим образом, раскрывается этимологический корень специального имени.

Ключевые слова: ономастическая единица, личные имена, антропоним, топоним, гидроним, псевдоним, кличка, этимология

Aşıq poeziyasındakı maraqlı antroponimik vahidlərdən biri mifik anlamlı Xızır xüsusi dil vahididir. Aşıq yaradəıcılığında tez-tez bu xüsusi ada rast gəlmək olur. Məsələn:

Bir yanım borandı, bir yanım duman,
Qalmışam piyada, halım çox yaman,
Yetiş imdadıma, Xızır, ələman,
Qəribəm, vətənə sən yetir məni. (1, s.168.)
(«Aşıq Qərib» dastanından)

Qurban deyər: yarsız günə gün dəmən,
Xızrə yetər ləblərindən gündəmən,
Ziyarətin hüsnə varan gündə mən,
Tamam günlərimiz ay adinnədir? (2, s.276.)
(Məlikballı Qurbani)

O gün idi, zərrəsindən ay oldu,
O ümmandı, qətrəsindən çay oldu,
Xızır idi, bu dünyada hey oldu,
Cəbrayıldı, ona qəbir qazar, hey! (2, s.365.)
(Dollu Mustafa)
İsgəndər atlandı, çıxdı zulmatdan,
Qasım, Xızr içdi abi-həyatdan,
Bəhs düşsə igiddən, qılıncdan, atdan,
Süfrəni hamsınnan kübar deyərlər. (2, s.114.)
(Xəstə Qasım)
Qış çiləsi Xıdır İlyas gələndə,
Hərlənər gərdişi, ay elər qıj-qıj.
Qar selə dönəndə, yaz açılanda,
Şaqqıldar leysanı, ay elər qıj-qıj. (3, s.29.)
(Aşıq Hüseyn Şəmkirli)

Xızır/Xızr xüsusi adı tarixi nöqteyi-nəzərdən əfsanəvi İlyas peyğəmbərin ləqəbidir. Dirilik çeşməsini tapıb suyundan içməklə guya əbədi həyat qazanmış bu peyğəmbər böyük sürətlə hərəkət edir, qeybdən zühur edərək səhralarda azanlara, dara düşənlərə əl yetirir, kömək edir. Bu xüsusi ad həm də klassik ədəbiyyatımızda əbədi həyat, yaşıllıq, daimi dirilik, xeyirxahlıq rəmzi kimi metaforik səviyyədə çox işlək olan əfsanəvi antroponimdir. Qədim rəvayətlərdən birində deyilir ki, Xızır peyğəmbər zülmətdə dirilik suyunu axtarıb tapır və həmin sudan içməklə əbədi ömür qazanır. Başqa bir rəvayətdə isə göstərilir ki, Xızır zülmət dünyasına İsgəndərlə birlikdə gedir və onlar iki bulağa rast gəlirlər. Bunlardan biri şəffaf sulu şahanə bulaq, digəri isə adi su təsiri bağışlayan sadə bir bulaq olur. İsgəndər şahanə bulağın görkəminə əsaslanıb onu dirilik suyu hesab edir və həmin sudan içir, Xızır isə adi bulaq suyu ilə kifayətlənməli olur. Sonradan məlum olur ki, dirilik suyu məhz Xızırın içdiyi adi bulaq suyudur.

Xızır antroponiminin ilkin əsasında Xıdır sözü dayanır. Xıdır xüsusi adı hal-hazırda da Azərbaycan antroponimik sistemində kişi adı kimi işlənməkdədir. Bu xüsusi ad hərfi mənada «yaşıl, yaşıllıq» anlamlarını ifadə edir, məcazi mənada isə «dada yetişən, köməyə gələn» deməkdir (4, s.238.).

Bu adı ilk daşıyan mifik şəxsiyyət isə Xıdır İlyasdır, nağıllarda Xıdır Nəbi də adlandırılır (5, s.236.).

Xızır antroponiminə ilk dəfə şifahi xalq ədəbiyyatında möhtəşəm abidəmiz sayılan «Kitabi-Dədə Qorqud» eposunda rast gəlirik. «Dirsə xan oğlu Buğacın boyu»nda öz atası tərəfindən oxlanmış Buğacı Xızır xilas edib ona məlhəm göstərir:

«Oğlan yenə dedi: «Ana, ağlama, qorxma, bu yaradan mənə ölüm yoxdur. Boz atlı Xızır yanıma gəldi, üç dəfə yaramın üstündə əl gəzdirdi. «Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə anan südü sənə dərmandır», - dedi». (6, s.24.)

Klassik ədəbiyyatımızda isə ilk dəfə dahi şairimiz Nizami bu adı Xızır şəklində qəbul etmiş və İlyasdan ayırmışdır. Qeyd etməliyik ki, bu fərqləndirmə heç də səbəbsiz deyildir. Xızır türkdilli xalqların, o cümlədən azərbaycanlıların mifologiyası ilə əlaqədar mifik bir kultdur, xüsusi addır. Hətta bəzi rəvayətlərə görə Xıdır İlyas da Xızır ilə zülmətə getmiş, dirilik suyundan içmiş, indi də guya Xızır quruda, Xıdır İlyas isə suda yaşayır (5, s.101). Təsadüfi deyil ki, M.Seyidov, Ə.Fərzəliyev və başqaları da Xızır sözünü sırf Azərbaycan mifoloji kultuna aid etmiş, sözün etimoloji mənasını da məhz Azərbaycan (türk) dili əsasında şərh etməyə çalışmışlar. Bu təşəbbüs ilkin olaraq M.Seyidov tərəfindən irəli sürülmüş, sonra ayrı-ayrı alimlər tərəfindən davam etdirilmişdir. M.Seyidov Xızır antroponimini iki komponent - xız və ır hissələri əsasında izah edir, xız sözünü «istilik, hərarət», ır hissəsini isə «ər, kişi» anlamlarında qəbul edərək Xızır antroponimini atəşpərəstliklə, odla, atəşlə bağlayır. Deyilənləri yekunlaşdıraraq biz də belə fikirləşirik ki, M.Seyidovun dediyi kimi, Xızır təmiz Azərbaycan sözüdür və xalqımızın mifik təfəkkürü, milli təbiəti ilə, Odlar yurdu Vətənimizlə bağlı milli onomastik vahiddir.

Verilən fikirlərlə müəyyən qədər razılaşsaq da, bunlara belə bir fikir əlavə etmək istərdik ki, bizcə, Xızır onomastik vahidi konkret şəxs adı kimi meydana çıxmamış, «həmişəyaşar» anlamında mövhumi-mifik ləqəb kimi yaranmış və İlyas sözünün əvvəlinə artırılmışdır.

Xızır İlyas və Xıdır Nəbi onomastik vahidləri də eyni olmayıb ayrı-ayrı mifik-əfsanəvi şəxsləri bildirən adlardır. Bəzən aşıq yaradıcılığında bunlar ayrı-ayrı antroponimlər kimi yanaşı da işlənir:

Xızır İlyas, Xıdır Nəbi hər ildə,
On gün qonağımsan qışda, çilədə.
Yarma, qorğa, qovudun da gətir, gəl,
Sən gələndə şad xəbərlər gətir, gəl (7,s.181).
(Zəki İslam)

Bakı şəhərindən 80 km. şimalda Beşbarmaq adlı dağ vardır ki, xalq arasında bu dağa Xıdırzində adı verilmişdir və həmin dağ ziyarətgah hesab olunur. Burada böyük bir ərazidə andiçmə məqamında «Xıdırzində baba haqqı» ifadəsi işlədilir. Xıdırzində onomastik vahidinin birinci hissəsi olan Xıdır kom-

ponenti Xızır sözünün bir şəklidir, ikinci «zində» komponenti isə tat dilli vahid olub, «diri» mənasını ifadə edir. Deməli, Xıdırzində - «Diri Xıdır» mənasını daşıyır. Əlavə olaraq bir cəhəti qeyd etməliyik ki, Beşbarmaq dağı ilə paralel olaraq Xəzər dənizinin sahilə yaxın hissəsində də ada şəkilli bir dağ vardır ki, bu da yaxın ərazi əhalisi içərisində əfsanənin yaranmasına səbəb olmuşdur. Həmin əfsanəyə görə, Xıdır İlyasla Xıdır Nəbi qardaş olmuşlar. Xıdır İlyas namaz qılmaq üçün kiçik qardaş Xıdır Nəbini su gətirməyə göndərmiş, o isə dənizdə çimməyə başlamış, suyu gətirib çıxarmamışdır. Böyük qardaş Xıdır İlyas namazını qıla bilməmiş və qardaşının ardınca: «Səni görüm elə orda qalasan» - demişdir. Beləliklə də, Xıdır Nəbi dənizdə qalmışdır.

Ədəbiyyat:

1. Azərbaycan folkloru antologiyası. Bakı, 1968
2. Azərbaycan aşıqları və el şairləri. I cild. Bakı, 1983
3. Aşıq Hüseyn Şəmkirli. Bakı, 1971
4. O.Mirzəyev. Adlarımız. Bakı, 1986
5. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Bakı, 1993
6. Kitabi-Dədə Qorqud. Bakı, 2004
7. Zəki İslam. Əlim tanrı ətəyində. Bakı, 1995

UOT 81

PEŞƏ, MƏŞĞULİYYƏT BİLDİRƏN LEKSİK VAHİDLƏR ƏSASINDA YARANAN ETNONİMLƏR

Tünzalə Lətif qızı BAXŞİYEVA

Filologiya elmləri doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu

XÜLASƏ

Azərbaycan onomastikasının ən maraqlı, ən vacib və lazımlı sahələrindən birini etnonimlər təşkil edir. Etnonimlərdə xalqın tarixi ilə bağlı qiymətli məlumatlar öz əksini tapmışdır. Onomastik vahidlərin içərisində etnonimlər dilin ən qədim, davamlı leksik vahidlərindən hesab olunur. Onlar dil tarixi ilə bağlı linqvistik informasiyanı öz tərkiblərində qoruyub saxlayır.Məqalədə Azərbaycan sənət, peşə, məşğuliyyət bildirən sözlər əsasında formalaşan etnonimlərdən yurdçu, sabunçu, şatır, kəpənəkçi, yəhərçi araşdırılır və onlardan yaranan toponimlər qeyd olunur. Bu onomastik vahidlər tarixin müxtəlif dövrlərində yaranmışdır. Tədqiqata cəlb edilən etnonimlərin tərkibində rast gəlinən qədim peşə adlarının bir qismi müasir Azərbaycan dili baxımından arxaikləşmişdir. Onların mənasını mənbələrə, müasir türk dillərinə, dialekt və şivələrinə müraciət etməkləizah etməklə mümkündür. İndiyə qədərAzərbaycan onomastikasında etnonimlərlə bağlı müəyyən qədər tədqiqatlar aparılmışdır. Lakin bu sahədə müəyyən qədər linqvistik baxımdan tədqiqat aparılsa da hələ də həll olunmalı problemlər çoxdur. Qarşıda duran problemlərdən biri də etnonimləri toplamaq, onların elmi cəhətdən düzgün izahını vermək, yayılma areallarını müəyyən etməkdir.

Açar sözlər: etnonim, onomastika, leksik vahid, etimologiya, mənbə, tədqiqat

ETNONYMS FORMED ON THE BASIS OF LEXICAL UNITS DENOTING AN OCCUPATION, PROFESSIONS

SUMMARY

Ethnonyms are one of the most interesting, important and necessary directions of Azerbaijani onomasticism. Ethnonyms contain valuable information about the history of the people. Ethnonyms among onomastic units are considered one of the most ancient and stable lexical units of the language. They retain

linguistic information related to the history of the language; the article examines ethnonyms formed on the basis of artistic and professional expressions of Azerbaijan, such as Yurdu, Sabunchu, Shatyr, Kepenekchi, Eherchi, as well as toponyms formed on their basis. These onomastic units were created in differrent periods of history. Some of the oldest names of the professions found in the ethnonym involved in the study are archaic from the point of view of the modern Azerbaijani language. Their significance can be explained only when referring to the sources of modern Turkic dialects and dialects. So far, some studies have been conducted on ethnonymy in Azerbaijani onomasticism. However, although some linguistic research is being carried out in this area, many problems remain to be solved. One of the tasks before them is to collect ethnonyms, give them a scientific explanation and determine the range of distribution.

Keywords: ethnonym, onomastics, lexical unit, etymology, source, research

ЭТНОНИМЫ, СФОРМИРОВАННЫЕ НА ОСНОВЕ ЛЕКСИЦЕСКИХ ЕДИНИЦ ОБОЗНАЮЩИХ РОД ЗАНЯТИЙ, ПРОФЕССИЙ

РЕЗЮМЕ

Одним из наиболее интересных, важных и необходимых направлений азербайджанской ономастики являются этнонимы. Этнонимы содержат ценную информацию об истории народа. Этнонимы среди ономастических единиц считаются одной из самых древних и устойчивых лексических единиц языка. Они сохраняют лингвистическую информацию, связанную с историей языка, в статье исследуются этнонимы, сформированные на основе художественных, профессиональных выражений Азербайджана, такие как юрдчу, сабунчу, шатыр, кепенекчи, ехерчи, а также топонимы, сформированные на их основе. Эти ономастические единицы были созданы в разные периоды истории. Некоторые из самых старых имен профессий, обнаруженных в этнониме, вовлеченном в исследование, являются архаичными с точки зрения современного азербайджанского языка. Их значение возможно объяснить только при обращении к источникам современных тюркских диалектов и диалектов. До настоящего времени были проведены некоторые исследования по этнонимии в азербайджанской ономастике. Однако, хотя в этой области проводятся некоторые лингвистические исследования, предстоит решить еще много проблем. Одна из стоящих перед ними задач - собрать этнонимы, дать им научное объяснение и определить диапазон распространения.

Ключевые слова: этноним, ономастика, лексическая единица, этимология, источник, исследование

Azərbaycan onomastikasının ən maraqlı, ən vacib və lazımlı sahələrindən birini etnonimlər təşkil edir. Etnonim yunan mənşəli – etimos (xalq) və onima (ad) sözlərindən yaranmışdır. Etnonimlərə xalq, tayfa, qəbilə, qəbilə birliklərinin adları, millət, nəsil adları aiddir. Etnonimlərdə xalqın tarixi ilə bağlı qiymətli məlumatlar öz əksini tapır. Onomastik vahidlərin içərisində etnonimlər dilin ən qədim, davamlı leksik vahidlərindən hesab olunur. Onlar dil tarixi ilə bağlı linqvistik informasiyanı öz tərkiblərində qoruyub saxlayır. Azərbaycan onomastikasında etnonimlərlə bağlı müəyyən qədər tədqiqatlar aparılmışdır. Lakin bu sahədə həll olunmalı problemlər çoxdur.

Ümumilikdə etnonimika digər elm sahələri ilə də bağlıdır. Bir çox tarixi mənbələrdə, qaynaqlarda, məxəzlərdə, tarixçilərin, coğrafiyaşünasların əsərlərində etnonimlərə bağlı fikirlər vardır. Etnonimika etnonimlərin semantikasını, yaranma tarixini, işlənməsini, areallarını öyrənir. Etnonimlərdə xalqın tarixi, təfəkkürü, mədəniyyəti, dünyagörüşü, dil xüsusiyyətləri bağlı informasiyalar öz əksini tapır. Etnonimlər müxtəlif dövrlərdə yaranmışdır.

Xalqın etnogenezini araşdırarkən etnonimlər etibarlı mənbələrdəndir. Etnonimlərin tədqiqi Azərbaycan xalqının formalaşmasında iştirak etmiş tayfaların, dilimizin yaranmasında həlledici rol oynamış konkret etnosların adlarını müəyyən- ləşdirmək baxımından əhəmiyyətlidir. Etnonimlərin bir qismi əsrlər boyu daşlaşmış formada qorunub saxlandığı halda bir qismində dəyişikliklərə rast gəlinir. Etnonimlərin araşdırılması ümumilikdə türkologiya üçün əhəmiyyətlidir. Onomastik sistemdə linqivistik baxımdan maraq doğuran üzərində tədqiqat aparılmasına ehtiyac duyulan etnonimlər çoxdur. Qədim türklərdə etnonimlər antroponimlərlə və toponimlərlə sıx bağlıdır. Bir çox türk qəbilələri adlarını özlərinə totem, əcdad hesab etdikləri heyvan adlarından götürmüşdür. Onomastik lüğətlər elmi tədqiqatlar aparılmasında əhəmiyyətlidir. Onomastik lüğətlər onomastikanın müxtəlif sahələrini (toponimləri, antroponimləri, mifonimləri, etnonimləri, hidronimləri, kosmonimləri və s.) əhatə edir. Onomastik lüğətlərin arasında etnonimlər lüğətləri xüsusən dəyərlidir. Etnonimləri lüğətlərdən seçmək, verilən izahlarda lüğətə əsaslanmaq dilçilikdə əhəmiyyətlidir. Gənc tədqiqatçıları düzgün istiqamətləndirməkdə etnonimlər lüğətləri əvəzsiz rol oynayır.

Lüğətlərdə etnonimlər əlifba sırası ilə yazılır, linqvistik şərhləri verilir. Bu zaman daxili əlifba da gözlənilir. Əlifba sırası lazımlı sözün axtarışını asanlaşdırır. Linqvistik şərh verilərkən sözün fonetik, qrammatik, semantik cəhətləri qeyd olunur. Etnonimlərin etimoloji izahı verilir, xüsusi adın mənşəyi müəyyənləşdirilir. Etimoloji araşdırmada sözün yaranma tarixi, müxtəlif dəyişikliklərə uğraması, paralelləri və s. qeyd olunur. Etnonimlər lüğətində etnonimlərin tarixi, yayılması barədə məlumat verilir. Lüğətlərin köməyi ilə etnonimlərin qədim və müasir formalarının təhlilini aparmaq, müxtəlif tarixi dövrlərdə onların yayılma arealını dəqiqləşdirmək imkanı yaranar. Etnonimlərin tədqiqi dia-

lektologiya sahəsi üçün dəyərli faktlar verir. Azərbaycan etnonimləri antroponimlər, zoonimlər, totemlər, dini xarakterli sözlər, zahiri əlamət, rəng bildirən sözlər, sənət, peşə, məşğuliyyət bildirən sözlər və s. əsasında formalaşmışdır. Etnonimlər araşdırılması dil tarixi baxımından çox əhəmiyyətlidir. Bəzi etnonimlərin tərkibində işlənən sözlərin mənasını müasir Azərbaycan dili baxımından izah etmək mümkün deyil. Bu adlarda qədim türk dillərinə, eləcə də sonrakı dövrlərdə onlar əsasında formalaşmış türk dillərinə və dialektlərinə aid çoxlu leksik vahidlərə təsadüf olunur. Etnonimlərin araşdırılması Azərbaycan dilinin yaranması və formalaşması baxımından əhəmiyyət daşıyır.

Toponimlərin yaranmasında etnonimlər fəal iştirak etmişlər. Etnotoponimlər xalqın tarixi ilə sıx bağlıdır. Hər hansı bir tayfanın, qəbilənin tarixi xalqın, onun dilinin, mədəniyyətinin tarixidir. Tarix boyu müxtəlif türk tayfalarının bir-birinə qaynayıb qarışması, miqrasiyası Azərbaycanın toponimik sistemində öz izlərini qoymuşdur. Etnonimlərin arasında qədim peşə, sənət bildirən sözlər əsasında yaranan onomastik vahidlərə rast gəlirik. Onların bir neçəsinə diqqət yetirək: *Yurdçu.* A.Bağırov Şərur rayonu ərazisində yerləşən Yurdçular oykonimin tayfa adı ilə bağlı yarandığını yazır [1, s.76]. Tarixi mənbələrdə Şərur rayonunda yerləşən bu kəndin adı Yurdçu-Gildəsər şəklində qeyd olunur. Sonralar kəndin adında dəyişiklik edilərək ixtisar baş vermişdir. Qədim yurdçu peşəsinin adı ilə bağlı olaraq etnonim yaranmışdır. «Hülakülər dövlətinin ordusunda inaq, bakaul, yasaul, yurdçu, bəxşi və s. məmurlar xidmət edirdi. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər – yurdlar yurduçular tərəfindən salınırdı» [2, s.337]. Yurdçular etnonimi belə izah edilir: «Yurdçular –kəngərli tayfasının bir tirəsi. Keçmişdə Naxçıvanda yaşamış yurdçular bir neçə kəndin əsasını qoymuşlar [3, s.182]. *Sadak.* Azərbaycanın qədim sakinləri arasında Sadak tayfaları var idi. Q.Qeybullayev bizim eranın ilk əsrlərində Albaniya ərazisində sadak tayfasının yaşadığını göstərir [4, s.251]. Fikrimizcə, sadak etnonimi sadak sözü əsasında yaranmışdır. Hazırda Gürcüstan ərazisində bu etnonimlə bağlı Sadaxlı kəndi vardır. XIX əsrdə Tiflis quberniyasının Duşet qəzasında Sataq –uri kənd adı mövcud olmuşdur.Sadak qədim türk sözüdür. Bu arxaik söz «ox qabı» mənasında işlənmişdir [5, s.148]. Sadaq leksik vahidinə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir:

Qara polad üz qılıncın vergil mana!
Sadağında səksən oxun vergil mana!
Ağ tozluca qatı yayın vergil mana!
Kafirə mən varayın.

Qorçu. Azərbaycan Respublikasının Laçın rayonu inzibati ərazi vahidində Qoçu, Şərur rayonu ərazisində Qorçulu oykonimlərivardır**.** Qorçu - XIV-XVIII əsrlərdə Azərbaycanda xüsusi mühafizə dəstələrinin döyüşçülərinə, saray qvardiyaçılarına deyilirdi. Qorçu dəstələri əsasən azərbaycanlılardan təşkil olu-

nurdu. Ayrı-ayrı qorçu dəstələri bir tayfanın nümayəndələrindən təşkil edilir, onun və ya ərazinin adı ilə adlanırdı (Məsələn, Naxçıvan Qorçiləri, Şamlı Qorçiləri, Əfşar Qorçiləri) [6, s.215]. Qorçu peşə adı əsasında yaranan etnonimin yayılma arealı genişdir.

Tədqiqatçılar yazırlar ki,«qorçi» sözü Azərbaycan mənşəli «qorumaq» felindən yaranmışdır. Qorçilər arasında nizam - intizamın yüksək olmasından ötrü və orta əsrlərdə tez-tez üzə çıxan tayfa ixtilaflarının baş verməsinin qarşısını almaq məqsədilə hər qorçi dəstəsinin üzvləri yalnız bir tayfa nümayəndələrindən ibarət olmuşdur. Şahların xüsusi mühafizəçiləri olan qorçilər müharibə vaxtı ehtiyatda qalır, yalnız ən çətin məqamlarda döyüşə çıxarılırdılar. Şücaətli qorçi göstərdiyi xidmət müqabilində əmirlər zümrəsinə də daxil edilirdi. Qorçibaşı vəzifəsinin sahibi dövlətin ən etibarlı şəxsiyyətlərindən biri olmuşdur. Qorçibaşı qorçilər üzərində böyük ixtiyara malik idi. Müəyyən şikayəti olan hər bir qorçi yalnız qorçibaşı vasitəsilə öz şikayətlərini hökmdara çatdıra bilərdi, əks təqdirdə o, qorçilikdən kənar edilirdi [7, s.45].

Sabunçu. Bakının şəhərində Sabunçu adlı qəsəbə, Azərbaycan Respublikasının Zaqatala rayonunu ərazisində Sabunçu kəndi vardır. XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında Sabunçu dağ adı qeydə alınmışdır. Sabunçu tayfası ilk dəfə 1588-ci ilə aid mənbədə Gəncə sancağının tərkibində «Sarı Sabunçu eli» kimi xatırlanır. 1728-ci ilə aid mənbədə isə Sarı-Sabunçu camaat adı Tiflis əyalətinin Dəmirçi Həsənli nahiyəsində çəkilir [8, s.360].

M.İsmayıl Bakı və Zaqatala yaxınlığındakı Sabunçu kəndlərinin hələ eramızın ilk yüzilliklərində mövcud olduğunu yazır. Müəllif Səfəvi şahlarından Sultan Hüseynin fərmanına əsasən Aranda, Muğanda, İrəvan ətrafında Azərbaycan dilində danışan otuz altı soydan birinin sabunçu adlandığını göstərir [9, s.276].

Türk xalqları əkinçiliyə böyük diqqət yetirmişlər. Əkin- çilik onların həyatında böyük yer tutduğundan onu bayram səviyyəsində qeyd edirlər. Bəzi türkdilli xalqlarda Sabantuy xalq bayramı («Saban»–«kotan+tuy, toy») qeyd olunur. Etiqada görə, Sabantuy günündə gələcək bol məhsulun əsası qoyulurdu. Yaz tarla işlərinin başlanğıcı olan Sabantuy torpağın şumlanma- sından əkinədək davam edirdi [10, s.242].

Yəhərçi. Sənət, peşə, məşğuliyyət bildirən sözlər əsasında formalaşan etnonimlərə yəhərçi etnonimini aid edə bilərik. Oturaq həyat keçirən sənətkarlıqla məşğul olan tayfalar zaman keçdikcə bu peşələri ilə bağlı adlandırılmışlar. Yəhərçi tayfası da belə tayfalardandır. Azərbaycan Respublikasının Goranboy rayonu Yəhərçi Qazaxlar kəndi vardır. Etnotoponim qazax tayfa birliyinə daxil olan yəhərçi tayfasının məskunlaşması nəticəsində yaranmışdır.

Şatır. Şatır/şatırlı etnonimi qədim şatır peşə adını özündə yaşadır. Tədqiqatçılar orta əsrlərdə Anadoluda şatır tayfasının yaşadığını göstərirlər [4, s.436]. Keçmişdə şatır peşə adı olmuşdur. Orta əsrlərdə onlar əsasən hökmdarların yazılı məktubunu və şifahi sözlərini çatdırırdılar. Şatır qasid və xəbər

gətirən mənasında da başa düşülməlidir. Fransız alimi Şardenə görə, şatır sözü şahın piyada nökəri mənasındadır. Səfəvilər hakimiyyəti dövründə isə şatırlar peşəkar kimi yetişirdilər. Fransız səyyahı Tavernye yazır ki, iranlılar (o cümlədən azərbaycanlılar) şatır saxlamağı şan-şöhrət əlaməti kimi qiymətləndirdiklərinə görə, şöhrətli adamların daha çox şatırı olurdu. Şatırlıq peşəsi atadan oğula irsi keçirdi. Uşaqlar 6-7 yaşlarında sürətlə yortma yerimək və qaçmağı məşq edirdilər. Orta əsrlərdə gecə səfərə çıxan varlıların atlarının qabağında nökərlər məşəl tutub yortma gedirdilər [11, s.20].

Orta əsrlərdə Azərbaycan ailələrində uşaqlara müəyyən yaşdan etibarən çovqan oynamaq, ova getmək, at çapmaq, qılınc oynatmaq və s. öyrədilirdi. Onlar bu idman növlərindən bayramlar, toy mərasimləri və digər el şənliklərində məharətlə istifadə edir, yarışlar təşkil edirdilər. Bununla da böyüdükdən sonra gənclər zorxana oyunçuları və şatır kimi yetişə bilirdilər. Bu da fiziki cəhətdən daha möhkəm olmağı təmin edirdi [12, s.182].

F.Xalıqov şatır sözünün etimologiyası ilə bağlı yazır: «Azərbaycan dilinin dialekt və şivələrində qeydə alınan hərəkəti ifadə edən şortlaxlamax (Ağdaş) və şortdama (Zaqatala) leksik vahidləri şatır sözünün mənasının mərkəzində durur və «dördayaq qaçmaq», «iri addımla yerimək» mənaları verir. Şatır sözünün bu günkü formaya düşdüyü inkişaf yolunu şortraxlamax <şortdamax<şortraxmax<şartmax<şatır formalarında təsəvvür etməklə onun isimləşmiş feil olduğu qənaətinə gəlmək mümkündür [13, s.71].

Cəlilabad rayonu ərazisindəki Şatırlı oykonimi orta əsrlərdə mövcud olmuş məşhur şatır peşə adını özündə yaşadan etnosun adını əks etdirir. XIII əsrə aid mənbələrdə Gəncə yaxınlığında Şutur, az sonra Həmdullah Qəzvini tərəfindən Xanəgah-Şutur adlandırılan, başqa müəllif tərəfindən Şatar kimi qeyd edilən yaşayış məntəqəsinin adlarına rast gəlinir. Türk xalqları yaşayan ərazilərdə satır sözü ilə bağlı toponimlərə təsadüf olunur: Türkiyənin Malatya vilayətində Şatır oba, Əfqanıstanda Kabul vilayətində Şatır, Paktiyada Şaturi, Qəznidə Şaturi, Pərvanda Şaturi oykonimləri. Bu da şatırlı tayfasının nə qədər geniş arealda yayıldığını göstərir.

Kəpənəkçi. Sənət, peşə, məşğuliyyət bildirən sözlər əsasında formalaşan etnonimlərdən biri də kəpənəkçi tayfa adıdır. Hazırda Azərbaycanda Zaqatala rayonu ərazisində Kəpənəkçi kənd adında bu etnonim mühafizə olunmuşdur. Gürcüstan ərazisində Bolus Kəpənəkçisi kəndi olmuşdur. Bu ad dəyişdirilərək KvemoBolnisi (gürcücə mənası Aşağı Bolnisi) halına salınmışdır. XIX əsrdə Tiflis quberniyasının Borçalı və Telaviqəzalarında Kəpənəkçi kənd adları qeydə alınmışdır. "Kitabi-Dədə Qorqud" dastanında kəpənək sözü "yapıncı" mənasında işlənmişdir. Dəxi kəpənəgindən qurumsı edüb yarasına basdı [5, s.118]. Kəpənəkçi etnonimi "yapıncıtikən" mənasındadır.

İndiyə qədər Azərbaycan onomastikasında etnonimlərlə bağlı müəyyən qədər tədqiqatlar aparılmışdır. Lakin bu sahədə müəyyən qədər linqvistik baxımdan tədqiqat aparılsa da hələ də həll olunmalı problemlər çoxdur. Qarşıda duran prob-

lemlərdən biri də etnonimləri toplamaq, onların elmi cəhətdən düzgün izahını vermək, yayılma areallarını müəyyən etməkdir. 2017-ci ildə E.Əhmədova "Azərbaycan dilinin etnonimlər lüğəti"ni tərtib etmişdir. Bu lüğətdə etnonimlərin bir qismi öz əksini tapmışdır. Bütövlükdə Azərbaycan etnonimlərinin izahlı lüğətinin tərtibi məsələsi öz həllini gözləməkdədir.

Ədəbiyyat:

1. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, s.286
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı, Azərnəşr, 1994, s.688
3. Azərbaycan Sovet Ensiklopediyası. V c., Bakı: 1981, s.592
4. Гейбуллаев Г. К этногенезу азербайджанцев. т.I, Баку: «Элм», 1991, s.552
5. "Kitabi-DədəQorqud"un izahlı lüğəti. Bakı: "Elm", 1999, s.203
6. AzərbaycanSovetEnsiklopediyası. III c., Bakı: 1979, s.599
7. Fərzəliyev Ş. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003
8. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: "Oğuzeli", 1998, s.452
9. İsmayılov M. Sənin ulu baban. Bakı: "Azərnəşr", 1991, s.302
10. Azərbaycan Sovet Ensiklopediyası. VIII c., Bakı: 1986, s.608
11. Əliyev A. Şatır oyunu // "Elm və həyat", 1995, №1, s.20-24.
12. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı, 2012. "Elm", s.384
13. Xalıqov F. Folklor onomastikası. II hissə, Bakı: "Elm", 2000,

UOT 81

XANIMANA ƏLİBƏYLİNİN PYESLƏRİNDƏKİ ONOMASTİK VAHİDLƏR

İlhamə Muxtarqızı AĞAZADƏ

Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

iahmadova@inbox.ru

XÜLASƏ

Xanımana Əlibəylinin əsərlərindəki bədiiliyi şərtləndirən vasitələrdən biri də yazıçının yaratdığı onomastik vahidlərdir. O, obrazların səciyyəsini açmaq üçün adlardan bir vasitə kimi istifadə etmişdir. Sənətkar kiçikyaşlı oxuculara çatdırmaq istədiyi əsas fikrini insan, heyvan, bitki və ya əşya obrazlarına verdiyi rəmzi, məcazi adlarla ifadə etmişdir. Folklor motivləri əsasında yazılmış "Aycan" iki pərdəli nağıl-pyesində həm alleqorik, həm də real hadisələr fonunda qələmə alınmış, təbiət mövzusu əsas götürülmüşdür. Dramaturqun sənətkarlıqla yaratdığı Qanqal, Pıtraq, Çayır kimi adlar ideyaya, məqsədə daha açıq xidmət edirsə, Aycan, Gülyaz, Qərənfil, Çobyas, İncigülü, Sevincgülü, Qızılgül kimi adlarda əsas fikir arxa planda verilmişdir.

Açar sözlər: nağıl-pyes, onomastik vahid, bədii obraz, insan və təbiət

ONOMASTIC UNITS IN KHANUMANA ALIBEYLI'S PLAYS.

SUMMARY

One of the means for making art in Khaniman Alibeyli's artistic feature is the onomastic units created by the writer. She used the names as meanings for opening the characteristic of the images. The main idea that an artist wanted to convey to younger readers has expressed her ideas with human, animal, plant, or symbolic, figurative names. Written on the base of folklore motives in a two-dimensional fairy tale "Aycan", which was written in the background of both algebraic and real events the theme of nature is taken as a basis. Names such as Gangal, Pitrag, Chayir, created by the dramatist art if services more to open aims, names such as Aycan, Gulyaz, Garanfil, Chobyas, Incigulu, Sevincgulu, Gullulgul the main idea is given in the background.

KeyWords: tale-plays, onomastic unit, artistic image, human and nature

Azərbaycan uşaq dramaturgiyasının tanınmış simalarından hesab olunan Xanımana Əlibəyli (1920-2007) öz orijinal üslubu və uşaqların qəlbini ələ ala bilmək bacarığı ilə seçilmişdir. Kiçik tamaşaçıların çox sevdiyi "Dovşanın ad günü", "Aycan", "Gözəllər gözəli", "Kənd həkimi", "Cunquş", "Ləpələrin nağılı", "Nişanlı quş" pyesləri ilə uşaq dramaturgiyasının əvəzsiz nümunələrini yaratmışdır. X.Əlibəylinin pyesləri uşaqların həyatını, taleyini, sevinc və kədərini sadə, aydın bir dildə təqdim edərək onlarda həyat, təbiyət və cəmiyyət haqqında ilkin təsəvvürlər formalaşdırmışdır.

X.Əlibəyli obrazların səciyyəsini, xarakterik cəhətlərini, daxili aləmini açmaq üçün müxtəlif adlardan-antroponimlərdən istifadə etmişdir. Əsərlərdəki bədiiliyi şərtləndirən, uşaqlara sevdirən vasitələrdən biri də şairənin fərdi onomastikasıdır. "Yazıçı və şairlər yaratdıqları obrazların adlarına həmişə ehtiyyatla yanaşmış, surətin səciyyəsini açmaq üçün ondan bir vasitə kimi istifadə etmişlər." (4, s.16) X.Əlibəyli də bu məsələyə çox həssaslıqla yanaşmışdır. Folklor motivləri əsasında yazılmış "Aycan" iki pərdəli nağıl-pyesi həm alleqorik, həm də real hadisələr fonunda qələmə alınmışdır. Burada təbiət mövzusu əsas götürülmüşdür. Müəllif balacaların təlim-tərbiyəsi üçün əhəmiyyətli olan bir sıra məsələlərə diqqət çəkir. İxtisasca həkim olan X.Əlibəyli güllərin, çiçəklərin faydasını yaxşı bilirdi. "Aycan" pyesində bu bilgilərdən yaradıcı şəkildə faydalanan şairə bitkilər aləmi, onların bəzi şəfaverici xüsusiyyətləri ilə uşaqları tanış edir. Qərənfil, Çobyas, İncigülü, Sevincgülü, Qızılgül və s. çiçək və bitki adlarından bir bədii obraz kimi bəhrələnməklə məcazlar sistemi yaratmış, öz məqsədinə uyğun adlar seçmişdir. Şairə istər mövcud real adlardan, istərsə də özünün yaratdığı qeyri-real adlardan fərdi deyim tərzinə uyğun olaraq poetik vasitə kimi istifadə etmiş, fikirlərinin obrazlı şəkildə oxucular a çatdırılmasına nail olmuşdur:

Bu şən nağılda söhbət
Gedir güldən, çiçəkdən.
Gülər gözəl təbiət,
Sevərsiniz ürəkdən.
Bax, açıldı Qızılgül,
Ətir saçır hər yana.
Çobyas, İnci, Qərənfil,
Şəfa verir insana. (3, s. 58)

"Aycan" adının sərlövhədə verilməsinə baxmayaraq, əsərin əvvəlində kobud hərəkətləri ilə oxucuda hiddət doğuran Aycan obrazı hadisələrin sonrakı inkişafında iştirak etmir. Aycan çəmənlikdə yuxuya getdikdən sonra baş verənlər qeyri real dünyada davam edir. Məlum olduğu kimi, çox zaman bədii əsərin adı onun məzmunu, ideyası, daxili münasibətləri ilə uyğun götürülür. Əsərin adının düzgün seçilməsi əsərin ilk uğuru hesab olunur. Burada şairə

rəğbət bəsləmədiyi – qanqala bənzətdiyi Aycanın adını sərlövhəyə çıxarıb. Azərbaycan dilinin izahlı lüğətində Aycan sözü Aya bənzər, Ay ruhlu, Ay canlı, Ay kimi gözəl mənalarında verilmişdir. Çox güman kı, müəllif Aycan kimi soyuq, təbiətə, ətrafındakılara laqeyd münasibət bəsləyən insanları islah etmək məqsədi güdmüşdür. Bacısı Gülyazın adının mənası bahar gülü, yaz gülü anlamına gəlir. X.Əlibəylinin pyeslərinə nəzər yetirdiyimiz zaman aydın olur ki, istər müsbət, istərsə də mənfi surətlər üçün seçdiyi ad şairənin həmin surətə münasibətindən doğur. Pyesdəki hər bir surət əsərin ümumi qayəsinə uyğun seçilmişdir. Həyatı, təbiəti, çiçəkləri sevən, göz bəbəyi kimi qoruyan Gülyazın adı ilə əməli arasında tam uyğunluq olduğunu görürük. Hər il yaz gələndə yeni-yeni faydalı güllər, çiçəklər əkib becərir. "Güllərim xoş ətriniz Ruh verir təbiətə" -deyə onları əzizləyir. Qardaşı Aycan isə kobud, təbiətə, güllərə qarşı amansız münasibət bəsləyən biridir. Odur ki, bacısı onu qanqal adlandırır:

"Mən qanqal dedim sənə!
Çünki, qanqal da səntək
Qoymur açsın gül-çiçək"(3, s. 57)

Müəllifin xüsusi məqsəd üçün seçdiyi "Qanqal" adı Aycanın da qanqal kimi ziyankar bir xarakterə malik olduğunu ön plana çəkməkdən ötrüdür. "Üslubi əhəmiyyət daşıdığı üçün bədii əsərlərdə personajlara verilən adlar adi adlardan fərqlənir. Bədii əsərdə personajlara ad seçmək həyatda doğulan körpəyə ad vermək qədər mühüm əhəmiyyətli bir hadisədir. Lakin bunlar bir-birindən kəskin şəkildə fərqlənir. Çünki valideyn övlada adətən, gözəl ad verdiyi halda, müəllif personaja xarakterinə uyğun ad verir. Müsbət obrazlara sevdiyi adları, mənfi obrazlara isə xoşu gəlməyən adları verir, bəzən də özü uydurma adlar yaradır. Obrazların adlandırılmasında hər bir sənətkarın öz üslubu, öz yolu olur" (2, s. 66).

Şairə fikirlərini rəmzi adlar, eyhamlar vasitəsilə bildirir. Pyesdə rəmzi simvolik məna daşıyan Qərənfil obrazı yadları - qanqalları, alaqları çəmənlikdən-vətənindən qovur. Yazıçı əsərdə balaca qanqalın dilindən verilmiş misralarda Qərənfili "azadlıq gülü" adlandırır: "Adını azadlıq gülü qoymusan, Məni soğan kimi soymusan" (3, s.65) Müəllif burada 1990-cı ilin 20 yanvarında xalqımızın başına gətirilmiş müsübətə işarə edir, o zaman qərənfil bir gecədə şəhidlərin al qanından cücərmiş "azadlıq gülünə" çevrildi. Bu "azadlıq gülü" öz qanı, canı bahasınına düşmən tanklarının qabağında sipər olan vətən övladlarının bir gecədə qazandığı adıdır.

"Qoy hazır olsun hərə.
Düşmənimiz yamandır,

Ayıq olun amandır” (3, s. 67) –deyə haray qoparan Qərənfilin dilindən verilən bu fikir uşaqları düşmənə qarşı ayıq-sayıq olmağa səsləyir. Qərənfil gülü ağ-qırmızı rəngli xoş ətirli çiçək olmasına baxmayaraq, onun xarakteri pyesdə sonradan qazandığı ada-“azadlıq gülü”nə daha çox uyğun gəlir. X.Əlibəyli çox böyük məharət və sənətkarlıqla bu hadisəni xatırlatmaqla uşaqların təfəkkür tərzinin, mənəvi-əxlaqi tərbiyəsinin inkişafına, onlarda vətənpərvərlik duyğularının formalaşmasına çalışmışdır.

Adın üslubi mahiyyət daşıması sənətkarın istəyinin, təxəyyülünün tərcümanıdır. Dramaturqun sənətkarlıqla yarat- dığı Qanqal, Pıtraq, Çayır kimi adlar ideyaya, məqsədə daha açıq xidmət edirsə, Qərənfil, Çobyas, İncigülü, Sevincgülü, Qızılgül kimi adlarda əsas fikir arxa planda verilmişdir. Göründüyü kimi, xeyirli çiçəklərə düşmən olan Qanqal, Pıtraq, Çayır və bayquşun adı da bu cəhətdən maraqlı görünür. Bu obrazların daxili aləminin çirkinlikləri onlara münasibəti formalaşdırır, adlar münasibətin ifadəçisinə çevrilir.

Burada xeyir işlər carçısı olan obrazlara müəllifin əsər boyu rəğbəti müşahidə olunur, şəri yayanlar isə pislənir. Bu da əsərin öyrədici, tərbiyəedici cəhəti kimi diqqəti çəkir və X. Əlibəylinin dramaturgiyasının əsas xüsusiyyətlərindən biri kimi görünür. Müəllif mənfi qəhrəmanlarına verdiyi adlar ilə demək istəyir ki, xarabalıqda təsvir olunan “ziyankar alaqlar”müsbət qəhrəmanları nə qədər çıxılmaz vəziyyətə salmağa çalışsalar da, sonda hökmən haqq, ədalət, birlik qələbə qazanır. Bu cür ideya və mətləblər uşaq təfəkküründə həyatın əbədiliyi haqqında ilkin təsurat yaradır, xeyirxahlığın, mərdliyin, doğruluğun əbədi və zəruri olması barədə onların qəlbində ümid çırağı yandırır. “Yazıçıdan obrazın xarakterinə uyğun ad seçmək tələb olunur. Xarakterə uyğun olmayan ad oxucunu cəlb etmir, onu düşündürmür” (7, s. 45). X.Əlibəyli də insanın bədii təcəsəssümü olan obrazları yaradərkən işi, xeyirxah əməl və arzuları, yüksək idealları olan xarakterlərə üstünlük vermiş, onları xüsusi qayğı ilə təqdim etmişdir. Təsvir etdiyi mühitə, vəziyyətə uyğun adlar yaratmışdır. Göründüyü kimi, şairə diqqəti daha çox uşaqları düşündürən adların mahiyyətinın açılmasına yönəltmişdir. Məhz o baxımdan da X.Əlibəylinin dramaturgiyasında yer almış onomastik vahidlər, sadəcə olaraq, ad olaraq qalmır, müəllif amalının daşıyıcısına çevrilir. Əsərdəki Sevincgülü belə adlardandır.

“Dostlarım! Bir gizli söz deyim sizə,
Böyük bir xoşbəxtlik üz verib bizə.
Sevincgülümüzün toxumu gəlib,
Daha gül-çiçəyin canı dincəlib”. (3, s.81)

Burada məcaza çevrilmiş Sevincgülü adı daşıdığı səciyyəyə görə - vətəni düşmənlərdən, dardan qutaran, ona sevincli günlər, səadət bəxş edən qəhrəman oğullar mənasında başa düşülür və bu cür adı, əməli, xarakteri uyğun olan obrazlar əsərin bədii təsir gücünü daha da artırmışdır. Pyesdə ədəbiyyatımızda qə-

dim dövrlərdən mövcud olan xeyirlə şərin, çirkinliklə gözəlliyin daimi mübarizəsi və bu mübarizədə xeyir əməlin, gözəlliyin qələbəsi öz əksini tapır.

Qanqalların əlində əsir olan Sevincgülü "İstəyir üstümə lap atəş yağa, Getmərəm, bağlıyam mən bu torpağa" (3, s.100) deyə vətənə olan sevgisini nümayiş etdirir. Göründüyü kimi, sənətkar bu adları məcaza çevirə bilmiş, öz fikir və məqsədini onlarla ifadə etmiş, uşaqlar tərəfindən bu gün də sevilən, oxunan, maraqla izlənilən əsərlər yaratmışdır. Bu misraları oxuyan, dinləyən uşaqlarda vətənə sevgi, yurda məhəbbət, bağlılıq, vətənin hər qarışını, daşını, çiçəyini göz bəbəyi tək qorumaq kimi müqəddəs hisslər oyanır.

Böyük qanqalın dediyi "Güllər hardan aldı belə qüvvəti? Kim verdi onlara bu fərasəti?" sualına əks-səda "İnsan və həyat!" deyə cavab verir. Təbiət alleqoriyasının üstünlük təşkil etdiyi "Aycan" əsərindəki əsas ideya da bundan ibarətdir. Bəşərin əşrəfi hesab olunan insan həyatın, təbiyətin ruh verici qaynağı, yaradıcısıdır. Xanımana Əlibəylinin yaradıcı təxəyyülündə əxlaqi-didaktik görüşlərin tərcümanına çevrilmiş təbiət və insan motivləri demək olar ki, əksər əsərlərində geniş şəkildə əks olunub.

Əsərdə adı ilə əməli, xarakteri arasında böyük ziddiyyət olan obraza rast gəlmirik. Bir sıra obrazların öz adından əlavə əməllərinə görə sonradan qazandığı adlara da rast gəlirik: məsələn "azadlıq gülü", "zəhər gülü", "xoşbəxtlik gülü", "qanqal" və s. obrazların daxili aləminə, cəmiyyətdə qazandığı nüfuza görə sonradan qazandıqları adlar əksini tapmışdır. "Bədii əsərlərdə onomastik vahidlərin seçilməsinə yazıçılar şüurlu münasibət bəsləyirlər, onları əsərin ideyası ilə uyğunlaşdırırlar" (1, s.505). Şübhəsiz ki, adın müvəffəqiyyətli seçilməsi obrazın, bütövlükdə isə əsərin uğurlu olmasından, bədii təsir gücünün yüksək səviyyəsindən xəbər verir. Bu sənətkarlıq məsələsidir və yazıçının sənət qüdrətini formalaşdıran, onu bəyan etməyə yardımçı olan elementidir. Hər bir ad yazıçının həmin obraza münasibətindən formalaşır, daha doğrusu obrazla ad arasında bir bağlılıq olur.

Uşaq psixologiyasını və xarakterini dərindən bilən Xanımana Əlibəylinin "Aycan" pyesinin səhnə həyatı da uğurlu olmuşdur. Bu münasibətlə 1991-ci ildə başda X.Əlibəyli olmaqla yaradıcı heyətin üzvləri rejissor Ulduz Rəfili, bəstəkar Şəfiqə Axundova və baletmeyster Nailə Nəzirova Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. Bu cür hər dövr üçün aktual olan tamaşaları seyr edən uşaqlar özünü təsvir edilən hadisələrin içərisində hiss edir, hadisələrin baş verdiyi məkanı doğma hesab edir və bədii gerçəkliyin içərisində özünü, özünə münasibəti və öz mövqeyini aydın hiss edir.

Bu deyilənlərdən aydın olur ki, şairənin dramaturgiyası onomastik mənbə olmaq baxımından öz zənginliyi ilə diqqəti çəkir. Yuxarıda adlarını sadaladığımız pyeslərin hamısında onomastik leksika üslubi mahiyyət kəsb edərək obrazlılıq, emosionallıq keyfiyyətləri yaratmışdır. Onomastik vahidlərin onun əsərlərində yerinə düşməsi, necə poetik məna kəsb etməsi isə şairənin yaradıcılığının sənətkarlıq məsələsidir və yazıçının üslubunu müəyyənləşdirən

poetik faktor kimi təzahür edir. Çünki bədii əsərlərdə bütün sözlər poetik mənaya yüklənir və həmin məna fəal mövqedə olur. Uşaqlarla yaxın təmasda olan X.Əlibəyli onların daxili aləminə nüfuz etməyi bacarmış, uşağa həyatın müəyyən sirlərini öyrətməyi qarşısına məqsəd qoymuşdur. Bu da çox şübhəsiz ki, onun dramaturgiyasında fikrin parlaq ifadəsini, forma gözəlliyini şərtləndirən amilə çevrilmişdir. Uşaq dünyasını dərindən bilən, müxtəlif xarakterə malik varlıqların həyat tərzinin real müşahidəçisinə çevrilən şairənin əsərləri öz oxunaqlığı ilə bu gün də seçilir və sevilir.

Ədəbiyyat:

1. A.Qurbanov. Azərbaycan dilinin onomalogiyas. Bakı. 1988. s505
2. H.Hüseynova. Bədii əsərlərdə onomastik vahidlərin rolu. ADPU nəşriyyatı. Bakı. 2017. 190 səh.
3. X.Əlibəyli. Əsərləri. İki cilddə. II cild. Bakı, “Avrasiya press”, 2008, 240 səh
4. Q.Mustafayeva. Adların üslubi imkanları. Bakı. APİ. 1990. S16
5. R.Əliyev. Bədii adların üslubi xüsusiyyətləri. AOP.K.M. Bakı. 1987.
6. Z. Xəlil. F. Əsgərli. “Uşaq ədəbiyyatı” (Dərslik) Bakı. ADPU-nun nəşri. 2007. 490 səh
7. Z.Məmmədova. Bədii ədəbiyyatda şəxs adlarının xarakteroloji əhəmiyyəti. Bakı. APİ. AOP, N1. 2005. S45)

UOT 81

TİVİ KƏNDİNİN ONOMASTİK VAHİDLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Sərdar ZEYNAL

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya elmləri doktoru

XÜLASƏ

Məqalədə Naxçıvan MR, Ordubad rayonunun Tivi kəndinə aid onomastik vahidlərin linqvistik xüsusiyyətlərindən bəhs olunur.

Açar sözlər: oronim, oykonim, onomastik vahid, hidronim, linqvistika

LİNGUİSTİC VİEW OF THE TİVİ VİLLAGE ONOMASTİC UNİTS

SUMMARY

The article deals with linguistic features of the onomastic units belonging to Tivi village of Nakhchivan AR, Ordubad region.

Keywords: oronim, oikony, onomastic unit, hydronym, linguistics

Dərindən fikirləşəndə görürük ki, dünyada gözlə görünən, yaxud, gözlə görünməyən nə varsa hamısı sözdür, sözdən ibarətdir. Söz olmasa nə dağı dağdan, nə bulağı bulaqdan, nə də insanı insandan ayırmaq mümkün olar. Həyatda hər nə varsa, hər birini tapmaqda ilk növbədə köməyimizə çatan söz olur. O söz ki, onun arxasında insan düşüncəsi dayanır, çay dayanır, bulaq, dağ, qaya ağac dayanır. Bir balaca düşüncəyə daldıqda görürük ki, ətrafımızdakılarla bərabər, özümüz də sözük, sözdən ibarətik. Hər bir kəsin kimliyinin, nəçiliyinin hansı peşə sahibi olduğunun harada yaşadığının önündə söz dayanır. Biz o sözdən tutub axtardığımız nöqtənin kəşfinə nail oluruq.

Bizi dünyada yaşadan, digər xalqlardan seçən, fərqləndirən, özəlliyimizi, gözəlliyimizi ortaya qoyan, onu qabarıq şəkildə nəzərə çarpdıran da sözlərimiz – həmin sözlərdən ibarət olan dilimizdir. Dilimizi təşkil edən sözlər isə ifadə etdikləri mənaya, məna yaxınlığına, bir – birinə oxşar, eyni məzmun daşıyan varlıq və anlayışları bildirmək cəhətdən müəyyən qruplara bölünür, müxtəlif anlayışlar adı altında qruplaşdırılıb, aydınlaşdırılırlar. Bunların hamısı

birlikdə isə Azərbaycan ədəbi dilinin onomastik sistemində öz əksini tapıb aydınlaşdırılır. Bu sahədən söhbət düşəndə biz akademik T.İ.Hacıyev, A.M.Qurbanov, Q.İ.Məşədiyev, E. Əzizov və digərlərinin adını fəxarətlə çəkə bilərik.

Bu yazıda biz akademik Afad Qurbanovun onomostik vahidlərlə bağlı bölgüsünü əsas götürərək Ordubad rayonunun ərazisində yerləşən, öz zəngin keçmişi, qonaqpərvərliyi və füsunkar gözəlliyi ilə görənlərin yaddaşından əbədi olaraq silinməyən Tivi kəndi ərazisinə daxil olan toponimlərdən bəhs edəcəyik.

Tivi kəndinə aid ərazilərdə olan yer – yurd adlarının hər birində bir tarix, bir rəvayət, bir qəhrəmanlıq dastanı gizlənir. Xalqımızın tarixi keçmişini özlərində yaşadan bu adların toplanması və izahı bir çox örtülü məqamların aydınlaşdırılıb ortaya çıxarılmasında, bəlkə də, müstəsna əhəmiyyətə malik olacaqdır. Və bu adların izahı onların əski türk sözlərindən ibarət olduğunu, bu torpaqların bizim ulu babalarımız olan qədim türk tayfalarının əbədi məskəni olduğunu bir daha təsdiq edəcəkdir.

Nəzərdən keçirnək istədiyimiz toponimlərin izahına başlayarkən biz akademik Afad Qurbanovun fikirlərini və toponimlərə aid bölgüsünü, əsas götürərək bu işi yerinə yetirməyə çalışacağıq. Akademik bu sahədən bəhs edərkən yazır: "Toponimlərin genetik və etnolinqvistik təhlili göstərir ki, müxtəlif dövrlərdə coğrafi obyektlərin adlandırılmasında müəyyən meyllər olmuşdur. Belə ki, yaşayış məskənləri və başqa yer adları müəyyən dövrdə ancaq hər hansı bir şəxsin adını daşımışdır. Başqa bir dövrdə bu adlandırma tayfa və qəbilələrin adı əsasında formalaşmışdır. Beləliklə yer adları şəxs, tayfa, qəbilə, heyvan, bitki, səma cisimləri, su obyektlərinin və s.adını daşımaqla ortaya çıxarılmışdır" [1, s.322].

Akademik əmələ gəlmə yollarını nəzərə almaqla toponimləri antropotoponimlər, etnotoponimlər, hirotoponimlər, zootoponimlər, fitotoponimlər, ictimai-siyasi xarakterli toponimlər, memuar – xatirə toponimləri, kosmotoponimlər və təsviri toponimlər adı altında doqquz qrupa ayırmşdır. Bu bölgüyə əsaslandıqda görürük ki, Tivi kəndi ərazisinə aid olan toponimlərin əksəriyyətini antrotoponimlər və təsviri toponimlər təşkil edir.

Tivi sözü Mahmud Kaşgarinin "Divanü lüğat – it türk" (1072) əsərində verilmiş 318 atalar sözü və məsələlərindən birinin tərkibində (Tivi boynu əğri tir - Dəvə boynuna əyri de- yirlər) dəvə mənasında işlənmişdir. Tivi kəndinin yatmış dəvəyə bənzər Sarı qayanın ətəyində yerləşdiyindən, ola bilsin ki, ona verilən bu ad elə o yatmış dəvəyə bənzədilən Sarı qayanın formasına oxşadılaraq verilmişdir. Gözəl şairimiz Sabir Rüstəmxanlının qələmə aldığı nəsr əsərində isə bu atalar sözü kitabın bolmələrindən birində epiqraf kimi verilmişdir. (Tivi adının işlənmə arialının çox geniş olması, bu adda şəhər və kəndlərin çox qədim tarixə malik olması haqqında xeyli materiallar vardır ki, bunlardan sonrakı yazılarımızda bəhs edəcəyik).

Tivi kəndi mşhur Gəmiqaya zirvəsi ilə bir aşırımla birləşən Qara pir və Bibqətəl zirvələrinin ətəklərindən axıb gələn bulaqların suyundan yaranan Xır-

da çayın sağ və sol sahillərində yerləşir. Əhalisinin sayına görə Ordubad rayonunun üçüncü böyük kəndi sayılır. 1727 – ci il tarixli "Naxçıvan sabcağının müfəssət dəftərində" adı çəkilən bu kəndin o zamanlar Aazadciran nahiyyəsinə aid olduğu ildə 7199 ağça vergi verdiyi qeyd olunur. Onun ətrafında yerləşdiyi qeyd edilən bu gün də qəbristanlıqları qalan, Dəmirci, Puccu, Gürcü, İslami kəndləri haqqında isə heç bir məlumat yoxdur. "Naxçıvan sancağının müfəssət dəftəri"ndə "İslami" kəndinin adı çəkilsə də, "Müfəssət dəftəri"ndə Dəmirçi və Puççu kəndləri haqqında heç bir məlumat verilməmişdir.

Akademik A.Qurbanov toponimlərlə bağlı yazır: "Dilimizdəki toponimik vahidlər əks etdirdiyi obyektin görünüşü və xüsusiyyətinə görə aşağıdakı kimi təsnif olunur.

1.Oronimlər – relyef quruluşu formalarının (dağ, təpə, dərə, aşırım) adını bildirən onomastik vahidlər.

2. Oykonimlər – yaşayış məntəqələrinin adı [2, 258].

Tivi kəndinin ərazisində yerləşən yer – yurd adlarının əksəriyyəti onların relyef quruluşu və formalarına görə verilmişdir. Məsələn:

Gen dərə - Qarapır dağının arxasında yerləşir, bir tərəfi dağın döşü ilə Xırda çayın mənbəyini, digər bir tərəfi isə Nazağanın arxası ilə Astanalıbəy darı əkəni bir – birinə birləşdirir. "Gen" və "dərə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Qaranlıq dərə - dərin olduğundan işıqlıq dərəcəsi düzənlik sahələrdən müəyyən qədər fərqləndiyinə görə belə adlandırılır. Qaranlıq və dərə sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Sarı dərə - torpağının rənginə görə belə adlandırılan sarı, sifəti ilə dərə isminin birləşməsi vasitəsi ilə əmələ gələn oronim.

Qızıllı bulaq – hansı əlamətlərinə görəsə belə adlandırılan bu dərənin kənarında sonralar "Ağdərə" adlanan qəsəbə salınmış və Bibqətəl dağının ətəyində qazılmış şaxtalardan əldə olunmuş qızıl, gümüş, mis burada istifadəyə verilmiş fabrikdə istehsal olunmuşdur. Birinci növ təyini söz birləşməsindən ibarət olan bu toponimin birinci tərəfi qızıl ismi ilə "lı" sifətdüzəldən şəkilçisinin birləşməsi, ikinci tərəfi isə bulaq sözündən ibarətdir.

Zəy dərəsi – Tivi kəndinin şimalında yerləşir. Burada "zəy" (İkiqat sulfat turşuları kristallarından ibarət daş) çıxdığına görə bura Zəy dərəsi adlanır. Ulu babalarımızdan başlayaraq son günlərə qədər buradan çıxan zəydən müxtəlif məişət işlərinin yerinə yetirilməsində istifadə olunurdu. Zəy də mənsubiyyət şəkilçisi qəbul etmiş dərə sözlərinin birləşməsindən əmələ gələn bu orqanın öz istəkliyini bu gün də qoruyub saxlamaqdadır.

Tivi kəndinin ərazisinə daxil olan sahələrdə bir çox su mənbələri vardır ki, bunların axarı olmadığından bunlar bulaq yox, gözə adlanır. Gözə sözü Azərbaycan dilinin izahı lüğətində sulu, nəmiş otluq, yaşıllıq yer rütubətli çəmənlik (III cild, səh.184) kimi aydınlaşdırılır. Tiviyə aid ərazilərdə isə ikinci tərəfi gözə sözündən də xalq tərəfindən istifadədədir.

Qanqallı gözə - qanqal ismi + lı sifətdüzəldən şəkilçi + gözə çeşmə isminin birləşməsindən əmələ gələn bu onomastik vahid Bibqətəl dağının ətəyindən axan bulağa verilən addır. Gözə leksik vahidi yalnız axmaz su mənbələrinə aid olsa da, Qanqallı gözə gur suya malik bir bulaqdır. Ətrafında sıx tikanlı qanqallar bitdiyinə görə Qanqallı gözə adlanır.

Xan Pəri gözəsi – bu su mənbəyi Bibqəfəl dağı ilə qabaq – qənşər dayanan Qarapır adlanan dağın döşündən çıxan su mənbəyinə verilən addır. Adında bir zənginlik bir qədimlik yaşadan bu oranın xan titulu ilə Pəri antroponiminin birləşməsindən ibarət olub ikinci tərəfi gözə ismi ilə si mənsubiyyət şəkilçisindən ibarət olan ikinci növ təyini söz birləşməsinin ikinci tərəfini təşkil edir.

Cilliyin gözə - bu ad həmin gözəyə görünüşü relyef quruluşuna görə verilən addır. Hər tərəfi çil otlarla örtülmüş sahənin ortasından çıxdığına görə belə adlandırılmışdır. Birinci tərəfi ismin yiyəlik halında olan çillik, ikinci tərəfi gözə sözündən ibarət olan bu oranim əslində ikinci tərəfi mənsubiyyət şəkilçisini itirmiş ikinci növ təyini söz birləşməsindən – cil – lik – in – göz- və ə mortemlərindən ibarətdir.

İstisytyun gözə - oronimi də birləşməsindən ibarətdir. Bu birləşmənin digər söz birləşmələrindən fərqi bu söz birləşməsinin birinci tərəfinin birinci növ təyini söz birləşməsindən ibarət olmasıdır. Gözənin suyu isti olduğuna görə bu cür adlandırılan bu gözə ən qarlı və şaxtası havada belə ətrafında qar saxlamır qar əriyib gedir.

древнюю историю, обычаи и традиции народа. С этой точки зрения одним из важнейших вопросов является анализ этнонимов, употребленных в "Китаби-Деде Горгуд". В статье дан этимологический анализ каждого из них в отдельности.

Ключевые слова: этноним, топоним, эпос, турецкие, племенное имя

Toponimik vahidlərin formalaşmasında, inkişafında etnonimlər də böyük rol oynayır. Məlumdur ki, etnonimlər həmin xalqın həyatı, məişəti, təfəkkürü və adət-ənənəsi ilə bağlı olmuşdur. Müasir etnonimlərin izi ilə qədim areallar həmişə araşdırılmışdır. Zaman keçdikcə bəzən də adlar unudulur, areallar, tarix də yaddan çıxır. Bununla da etnik təfəkkür də yox olub gedir. Odur ki, etnonimlərin düzgün istiqamətdə tədqiq olunması təkcə tariximiz, keçmişimiz üçün yox, indiki günümüz və gələcəyimiz üçün vacib və aktual məsələdir. Bu baxımdan Azərbaycan dastanlarındakı etnonimlərin tədqiqi tarixi, mənşəyi, işlədilmə məqamları və leksik-semantik qruplarının sistemli şəkildə araşdırılmasına ehtiyac vardır. Bunu bir çox tədqiqatçılar da təsdiqləyir və yazırlar ki, "Dədə Qorqud dastanında xalq idrakı, təfəkkür tərzi, gözəllik, əxlaq kateqoriyaları, psixologiya, toponimiya və s. bu kimi məsələlər hələ də öz həllini tapmamışdır" [22, s.18]. Odur ki, dastanlardakı etnonimlərin tarixi, etimoloji təhlili bizim dilçiliyimiz, tariximiz üçün zəruri, vacib məsələlərdəndir.

"Kitabi-Dədə Qorqud" dastanındakı etnonimləri dəqiq, hərtərəfli şəkildə tədqiq etmədən, qədim türk dövlətçilik quruluşunu və onun siyasi tarixini dərindən öyrənmək qeyri- mümkündür. Çünki həmin etnonimlərdə siyasi tariximiz daşlaşmış vəziyyətdədir. Buna görə də deyə bilərik ki, dastanda adları çəkilən, işlənən etnonimlər Azərbaycan türkünün qədim dövlətçilik sistemi strukturlarının müəyyənləşdirilməsində böyük əhəmiyyətə malikdir.

Azərbaycan türkünün etnogenezində mühüm rol oynamış və həmin dastanda xatırlanan bir çox etnonimlər – *Aqsaqa (ağ saka-axısqa), Boyat, Bozaqlar, Eləklər (İləklər), Qanlılar (Qanlı Qoca), Qayılar, Qıpçaqlar, Oğuzlar, Salurlar, Səlcuqlar, Təkurlar, Türkmənlər, Uçaklar, Yusunlar, Albanlar, Bulqarlar, Səlcuqlar* və s. etnonimlərin bəziləri ləqəb, bəziləri isə sırf etnonim funksiyalıdırlar. Həmin etnonimlərin sistemli şəkildə işlənməsi, xüsusilə Azərbaycan toponimlər sistemində eyni və ya müəyyən fonetik dəyişikliklərlə mövcudluğu tədqiqatçılarımız tərəfindən inandırıcı faktlarla təsdiqlənmişdir. "Dədə Qorqud" dastanlarındakı etnonimlərdən bəhs edən alimlərimiz, tədqiqatçılarımız (A.Qurbanov, T.Əhmədov, A.Əskərov, Q.Qey- bullayev və b.) Azərbaycan ərazisindəki türk mənşəli toponimlərin məhz "Dədə Qorqud" dakı etnonimlər əsasında yarandığını və onlarla səsləşdiyini əsaslı faktlarla sübuta yetirmişlər.

Beləliklə, etnonimlərin sistemli şəkildə tədqiq olunması vacib və aktual məsələlərdəndir. "Kitabi-Dədə Qorqud" dastanlarında işlədilən etnonimlərin

məna və mənşəyini, hansı məqsədlərlə işlədilməsini müəyyənləşdirmək üçün onları ayrı-ayrılıqda nəzərdən keçirək və təhlil edək:

Avar etnonimi – "Dədə Qorqud" qəhrəmanı Bamsı Beyrəyin nitqində Avar etnoniminin adı çəkilir. Bamsı Beyrək güvəndiyi sılahı olan yayına belə deyir: "Tiltulada gəzdiyim tulu Avarı, duxarlıya qovduğum, ayğır verib aldığım, tozlu qatı yayım" (7, s.109). Deməli, Beyrək on altı illik ayrılıqdan sonra öz ox-kamanı ilə avarlara divan tutduğu səhnəni beləcə xatırlayır. Qorqudşünas Ş. Cəmşidov da bunu belə şərh edir: "Drezden mətninin özündə yüngül bir təhriflə yazılmış bir parça Dədə Qorqud qəhrəmanlarının real-tarixi sərgüzəştlərini əks etdirir Gördüyümüz kimi, burada doxarlarla yanaşı, "Şəhriyar və Sənubər" dastanında düşmən kimi adı çəkilən tuli, yəni "quldur", "yolkəsən" avarlara qarşı mübarizə də təsvir olunur. Avarların VI əsrdə Azərbaycan ərazisinə basqınları tarixi ədəbiyyatda da qeyd edilmişdi" [6, s. 113].

D.Yeremeyev bunu təsdiq edərək belə yazır: "568-ci ildə Avarlar Suvarları əzirlər, bundan sonra da Suvar qəbilələri Albaniyaya (yəni Azərbaycana) köçüb sakin olurlar. Mənbələrdə onların Xosrov Ənuşirəvan tərəfindən böyük bir hissəsinin əzildiyi, öldürüldüyü göstərilir. Qalan on min nəfəri isə Arazla Kür arasında sığılıb qalmışlar" [26, s. 55].

İlk orta əsrlərdə Azərbaycan ərazisinə Avarlar Şimaldan gəlib məskunlaşmışlar. Mənbələrdə həmin tayfaların müəyyən hissələrinin buraya gəlməsi qeyd olunur, lakin məhz hansı tayfaların gəlməsi və Azərbaycanın hansı zonalarında məskunlaşması haqqında heç nə deyilmir. Yalnız etnotoponimik tədqiqatlar həmin tayfaların adlarını və areallarını müəyyən etməyə imkan verir.

"Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Avar tayfa adı respublikamızın müxtəlif yer-yurd adlarında qorunub saxlanmaqdadır. "Azərbaycan Toponimləri Ensiklopedik lüğəti" ndə Avar etnonimi ilə bağlı, bu etnonimdən yaranmış iki toponim qeydə alınmışdır [3, s.11]. Qusar rayonu ərazisində yerləşən dağ adında (Avaran dağı) öz qədim izini saxlamışdır. Tədqiqatçıların fikrincə, oronim "Avar" türk tayfası adından və "-an"cəmlik, məkan bildirən şəkilçidən ibarət olub, "avarlara mənsub yer" mənasında işlənmişdir. Eramızın əvvəllərində Hunların tayfa İttifaqına qəbul olmuş türkdilli avarlar // abarlar VI əsrdə Şimali Qafqazdan Zaqafqaziyaya gəlmişlər.

B.Budaqov, Q.Qeybullayev "Ermənistan-Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" adlı kitabında Avar etnonimi ilə düzələn toponimlərdən geniş bəhs etmişlər. Lüğətdə deyilir: "Abaran–İrəvan xanlığında mahal adı. Mahal xanlıqdan əvvəl İrəvan əyalətinin Abaran nahiyəsini əhatə edir. Nahiyə oradakı Baş Abaran kəndinin və Abaran çayının adı ilə adlanırdı. 1935-ci ildə isə bu kənd "Aparan" adlandırılmışdır [5, s. 96].

Abaran qədim türk mənşəli tayfanın adıdır, mənşəcə Abar (Avar) tayfası ilə bağlı olmuşdur. Eramızın II-III əsrlərində Kür sahilində Obaren adlı tayfanın olması qeyd olunur. Mənbələrdə bu tayfanın "Aparan" olduğu göstərilmişdir. Abaran adlı türk mənşəli tayfanın mövcud olması XVI əsrdə Rəvan əyalətində

Abaranoğlu kəndinin adı ilə də təsdiqlənir. Beləliklə, araşdırmalarımızdan aydın olur ki, Avar etnonimi "Dədə-Qorqud" dastanlarından çox-çox əvvəllər yaranmışdır, müxtəlif fonetik formalarda Azərbaycan ərazilərində toponimlərin tərkibində mühafizə olunmuşdur (Avar, Abar, Avaran, Abaran və s.).

Bayat etnonimi – "Kitabi-Dədə Qorqud" dastanında tarixi izlərini qoruyub saxlayan etnonimlərdən biri də Bayatdır. Dastanın "Giriş" hissəsi Allahın adı ilə belə başlayır: "Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyundan, Qorqut ata deyərlər, bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə, olurdu. Qayibdən dürlü xəbər söylərdi. Naq Tala onun könlünə ilham edərdi" [13, s. 19].

Göründüyü kimi, dastanda "Bayat" boyunun adı çəkilir. Dədə Qorqud zamanında tayfaya, qəbiləyə "bay" deyirmişlər. Oğuzun müdrik bilicisi Qorqud da "Bayat" boyundan çıxmışdı.

Mənbələrdə Bayat etnonimi haqqında müxtəlif fikirlərə, araşdırmalara rast gəlirik. Türkmən alimi Z.B.Muxamedova belə yazır: "Rəşidəddinə görə, Bayat Gün xanın ikinci, ya da üçüncü oğludur". Adın mənası da "xoşbəxt, mərhəmətli, lütfkar" deməkdir. Bəzi mənbələrdə Bayat Ay xanın birinci oğlu kimi də göstərilmişdir.

"Dədə Qorqud" dastanında Bayat Oğuz tayfalarından biri kimi də göstərilmişdir. Bayatlar IX-X əsrlərdə Qay tayfası ilə yanaşı, Şimali Qazaxıstan çöllərində Oğuzlara başçılıq etmiş türk-oğuz tayfalarındandır. R.Yüzbaşov, K.Əliyev və Ş.Sədiyevin "Azərbaycanın coğrafi adlar lüğəti" kitabında göstərilir ki, bayatlar əvvəllər Türküstanda yaşamış, XIII əsrdə Çingiz xanın ordusuna qoşularaq Kiçik Asiyaya gəlmiş və Səlcuq türkləri ilə qarışmışlar, bir hissəsi isə Azərbaycana köçürülmüşdür [20, s.44].

Bayad / bayat komponentli etnonimlərə ən çox Türkiyə ərazisində rast gəlinir. Azərbaycanda isə Ağcabədi, Neftçala, Ucar, Şamaxı rayonlarında kənd adında və Şabran rayonundakı Sincan Bayat, Uzunbayat kənd adlarında indiyə qədər mühafizə olunmaqdadır. Bundan başqa, bayatlara Burdalık (Amu-Dərya) və Cərconun ətrafında da rast gəlmək olur.

Cığatay və uyğur dillərində isə bayat "Allah, Tanrı" deməkdir. Bu məna, eyni zamanda, Maqaris, Ərçis, Van və Balıkəsir türkləri tərəfindən də "Allah" kimi qəbul edilir. İzmir və onun ətrafının sakinlərinin dilində də "bayat" – "xoşbəxt" deməkdir. B.B.Radlova görə osmanlı və azərbaycanlıların dilində bu söz "köhnə" mənasında işlənir.

Bayatlar digər tayfa və qəbilələr kimi Azərbaycanın özündə əhalinin mühüm hissəsini təşkil edirlər. Teymur yürüşləri dövründə onların çoxu yenidən Azərbaycana qaytarılmış, "Bayat", "Şam bayat", "Şamlı" və "Bayat şamlı" adı ilə bu ölkənin müxtəlif vilayətlərində sakin olmuşlar. Onların bir qismi Xorasanın vilayətlərində yerləşmişlər. Bayatlar həm də Həmədan, Tehran ərazilərində məskən salmışlar. Xacə RəşiddədinFəzlullah öz əsərində bayatları Oğuzların 24 əsl tayfasından biri kimi qeyd etmişdir. XVI əsr məlumatına görə

bayatların sayı 42 olmuşdur. Nəticə olaraq deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Bayat tayfaları ən qədimdən Azərbaycanın köklü sakinləri olmuş, onların bu gün də ölkəmizin onomastik sistemində yaşaması bu reallığı təsdiqləyir.

Duxarlı etnonimi – "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı Bamsı Beyrəyin dilində "...duxarlıya qovduğum..." ifadəsində (13, s.122) "Duxarlı" tayfasının adı xatırlanır. Hələ V əsrdə Qafqaz Albaniyası ilə İberiya arasında, Göyçə gölünün şimal hissəsində "Duxar", yaxud "Toxar" adında vilayət və onun mərkəzi –Toxar qalası mövcud olmuşdur. V əsrdən əvvəl bu yerlər "Kəngərli" və sonralar isə "Peçeneqlər ölkəsi" adlanmışdır. Duxar, doxar, toxar şəklində mənbələrdə göstərilmişdir. Bunlar arasında həmişə qanlı toqquşmalar olmuşdur.

Qədim türk tayfalarından hesab edilən "doxatlı", "duxarlı", "toxarlı" etnoniminin kökü "dux", "dox", "tox" sözləridir. Qıpçaqların qədim tayfalarından birinin adı da tox, dox olmuşdur. Etnonimin -ar və -lı hissələri isə düzəltmə şəkilçilərdir.

Ə.Dəmirçizadə "50 söz" kitabında Xəzər etnonimindəki - ər şəkilçisini cəmlik bildirən əlamət kimi izah edir [9, s.37]. Bu fikirlə razılaşmaq olar, çünki bir çox etnonimlərin və etnotoponimlərin yaranmasında cəm şəkilçisi -lar, -lər böyük rol oynayır (qurdlar, aşkarlar, Tatlar, Şıxlar, Ağbaşlar, Qovlar və s.).

-Ar, -ər şəkilçisinin ən qədim variantları - qar, -kər, -ğar, -qal bəzi toponim və etnonimlərin tərkibində qalmaqdadır. Məsələn, Kəngər, Bolqar, Şonqar, Basqal və s.

Ə.Tanrıverdiyev belə bir nəticəyə gələrək (Daxar, toxar etnonimi ilə bağlı) "Kitabi-Dədə Qorqud" dastanında "Duxa" şəklində olan antroponimin ilkin forması "Takan" olduğunu təsdiqləmişdir. Onun ilk hissəsi "vur", "day" ansamblı asemantik "tak" feili olduğunu göstərmişdir [20, s.65].

Üçak etnonimi – "Kitabi-Dədə Qorqud" dastanında "Üçok" qəbilə adı kimi göstərilmişdir. Qorqudşünaslar qeyd edirlər ki, İç oğuzlar Üçok qəbilələridir. Dastanda İç oğuzlar əleyhinə Çol oğuzların üsyanı və Beyrəyin öldürülməsi boyunda (XII boyda) təşrif olunmuşdur: "Üç ox, boz ox yığnaq olsa, Qazan evin yağmaladardı. Qazan geri evin yağmalatdı. Amma Daş oğuz belə bulunmadı. Hamı İç oğuz yağmaladı" [7, s.153].

Elmi ədəbiyyatlarda da üçok etnonimi ilə bağlı bir-birindən maraqlı müxtəlif fikirlər irəli sürülmüşdür. Türkoloq F. Zeynalov oğuz sözündə -ok ünsürünün olduğunu qeyd edir. O yazır: "Oğuz sözünün mənşəyi haqqında vahid bir fikir yoxdur. Əksər türkoloqlar bu sözü qəbilə, tayfa mənası əks etdirən "ok" və kəmiyyət şəkilçisi "uz" şəklində şərh etmişlər. Oğuz sözünün bu şəkildə təhlili daha ağlabatandır. Belə ki, tarixən iki böyük dil ailəsinə bölünən oğuzların bir qolu "boz-ok", ikinci qolu isə "üç-ok" adlanmışdır. Oğuz sözü əslində "oklar", "ok" tayfaları mənasını əks etdirir. Oğuz sözündəki "ğ" samitini "k" samitinin cingiltiləşmiş variantı kimi qəbul etmək mümkündür.

Türk dillərinin Oğuz qrupunda kar samitlərin cingiltiləşməyə çox meyl etməsi şübhə doğurmur" [24, s.94].

A. Qumilyovun fikrincə, üçoq etnonimi "Oğuz" termini ilə ifadə olunmuşdur. Bu sahədə qiymətli əsərlərin müəllifi olan A. Qumilyov yazır ki, qonşuların sıxışdırdığı kiçik tayfalar (onları qəbilələrlə eyniləşdirmək olar) ittifaq qurdular. Həm də bu cür icmaların adı "Oğuz" termini ilə ifadə olunurdu. Doqquz oğuzlar – uyğurlar və üç oğuzlar – karluklar etnonimi də buradan yaranmışdır [16, s.75].

Dastanında Rəşidəddinin verdiyi məlumata görə Oğuzun altı oğlu və iyirmi dörd nəvəsi olmuşdur. Nəvə adlarının hamısı da oğuz tayfa adlarına çevrilmişdir. Bu tayfalar tarixən və indi də Azərbaycan etnotoponimiyasında, etnonimiyasında, o cümlədən dastanlarımızda da öz adlarını yaşatmaqdadır [19, s.11].

A. Qumilyev bu məsələyə dair mövcud ədəbiyyata tənqidi aspektdən yanaşan A.N.Kononova əsaslanaraq, Oğuz termininin səthində onun fikirlərini aşağıdakı kimi verir: "Oğuz etnik adının əsasını "qəbilə", "tayfa" mənasında işlənən "ok" təşkil edir, bu anlayış isə, öz növbəsində, qədim türk sözü olan "oğ" – "ana" ilə birbaşa bağlıdır. "Oğul", "nəsil" mənasında işlənən "oğul" və "qohum" mənası verən "oğuş" sözləri də həmin kökdən yaranmışdır. Beləliklə deyə bilərik ki, "Oğuz" sözü ilk vaxtlar, sadəcə, "tayfa", yaxud "tayfa ittifaqı" anlamında işlənmişdir. Məlum təsadüflərdə isə həmin etnonim artıq zəruri determinativ kimi müəyyənləşdi. Məsələn, "doqquz oğuz" – yəni "doqquz (müxtəlif) tayfa, "üç oğuz", yəni üç müxtəlif tayfa şəklində işlənmişdir" [16, s. 75-76].

Bu barədə T.Hacıyevin fikri belədir: "Bir sıra müəlliflər, haqlı olaraq, işkuz (aşkenaz) etnonimi ilə "Kitabi-Dədə Qorqud"dakı iç oğuz arasında uyğunluq görürlər (oğuz və quz //küz sözləri və etnonimləri eynidir). Bir daha qeyd edək ki, üçoq etnonimindəki "oq" hissəsi "Oğuz" termininin tərkibindədir. T. Hacıyev bu qənaətə gəlmişdir ki, "Oğuz" sözü müxtəlif xalqların yazılı mənbələrində, həmçinin qədim etnotoponimlərdə quz//kuz/kas, az/uz/us/iz/is və başqa fonetik formalarda məlumdur. Eyni zamanda, Oğuzun tərkibində oq/ok/ox hissələri də var – həm də -ok "damğa", həm də -oğ "doğma" mənalarında işlənmişdir və sadaladığımız leksik-fonetik xüsusiyyətlər etnonimlərdə daha aydın görünür" [18, s. 126-127].

N.Əskərov da, haqlı olaraq, üçok etnoniminin birinci tərəfindəki "üç" sözünü sakramental – müqəddəs say kimi qəbul edir və yazır: Oğuz etnoniminə müəyyən miqdar saylarının əlavəsi ilə mürəkkəb tərkibli ad əmələ gəlmişdir" [18, s. 228].

Tədqiqatlardan göründüyü kimi, bəzən onlara üç, yeddi, doqquz saylarının artırılması ilə üç oğuz, yeddi oğuz, doqquz oğuz etnonimləri formalaşmışdır. Sual oluna bilər ki, nəyə əsasən bu saylar iştirak edir? Orxon-Yenisey abidələrində bir neçə say (üç, yeti, tokuz, otuz) adı miqdar, kəmiyyət bildirmək-

dən başqa, sakramental say kimi də işlənmişdir. Abidələrdə yalnız o saylar tayfa, xalq, bəzən də yer adı ilə birgə işlənir ki, onlar türk xalqlarında və ümumiyyətlə, dünya xalqlarında müqəddəs say kimi qəbul edilmişdir. Məsələn, tokuz (doqquz) sayının məhz oğuz xalqına, tayfasına aid edilməsi, görünür, təsadüfi deyil.

Bəllidir ki, oğuzlar türk xalqları və tayfaları içərisində qoçaqlığı, döyüşkənliyi, qonşu dövlətlərdə vahimə, qorxu yaratması, həm də sayca çoxluğu ilə seçilirdi. Beləliklə, "Dədə Qorqud" dastanında Üçak etnonimi "üç" və "oğuz" komponentlərindən ibarətdir. Burada "üç" sayı rəmzi məna daşımışdır. Çox güman ki, qədim türklər "doqquz" rəqəmindəki müqəddəs xüsusiyyətləri "üç" sayına da şamil etmişlər.

Bozok etnonimi – Bu etnonimin adı İç oğuzla Çöl oğuz arasında döyüşü təsvir edən hissədə qeyd edilir: "Onlar (Aruz və Daş oğuz bəyləri – E.Ə.) da qoşun toplamağı əmr etdi, ...barağızdan Qazana qarşı gəldilər. Üç ox, Bozox qarşılaşdılar" [7, s. 153].

M.Məlikova "Dədə Qorqud" kitabında dövlət və hüquq haqqında ideyalar məqaləsində yazır: "Epos belə faktı qeyd edir ki, Bayandur xan İç və Çöl oğuzları birləşdirə bilmişdi. Bu zaman belə təsəvvür edilir ki, Bayandur xan həmin qəbilələri öz ətrafında suveren - hüquqi əsasda birləşdirmişdi. Eposun materiallarının təhlili qəbilələr arasında vassal münasibətlərinin olması haqqında nəticə çıxarmağa əsas verir, çünki qəbilələrarası münasibətlər suverenlik-vassallıq prinsipi üzrə qurulmuşdur" [18, s. 126-127]. Eposdan göründüyü kimi, xanlar xanı Bayandur xan qəbilə ittifaqına başçılıq edir. Eposda başında qəhrəman bəylərin durduğu müxtəlif qəbilələr, İç və Çöl oğuzlar haqqında danışılır.

Tarixi materiallar türk qəbilələrinin qədimdə "sol" və "sağ" qonaqlara bölünməsi haqqında xəbər verir. Sol qonağa XIV-XV əsrlərdə Kiçik Asiyada hökmran mövqe tutan Bayandur qəbiləsi başçılıq etmiş, "sağ" qanadın başında isə "qayı" qəbiləsindən olan bəylər durmuşdu.

"Kitabi-Dədə Qorqud" dastanında coğrafi mühitlə bağlı tədqiqat işləri aparan Ş.Cəmşidov yazır: "Kitabi-Dədə Qorqud"da oğuzun, əsasən, coğrafi məfhum olaraq işləndiyini görürük. Bu coğrafi adlar dastanda ayrı-ayrı laylarda "İç oğuz", "Daş oğuz", "Oğuz", "Qalın oğuz" və "Oğuz elləri" şəklində qeyd edilmişdir [6, s. 19].

On ikinci boyda "İş oğuza Daş oğuz ası olub, Beyrək öldüyünü bəyan edər" sərlövhəsindən bəlli olur ki, haqqında danışılan "İç oğuz" və "Daş oğuz" bir-biri ilə əks mövqedə duran və oğuzun daxili qəbilələri bölgüsünü göstərən coğrafi məfhumlardır. Bu əkslik "İç" və "Daş" sifətlərinin əks münasibətləri ilə təzahür edir. Bu boyda İç oğuz ilə Daş oğuz, eyni zamanda, "Boz oq" və "Üç oq" şəklində də işlədilir və bunlar eyni iki coğrafi obyektin ikili adları olub, eyni məfhumu ifadə edir. Apardığımız axtarışlardan və xüsusilə on ikinci boyda hər iki sözün yanaşı işlənməsinin izahından qəti qərara gəlmək olur ki, İç oğuz – Boz oğdur, Daş oğuz – Üç oqdur.

"İç oğuz"un "Boz oq" və "Daş oğuz"un "Üç oq" olduğunu oğuzlar haqqındakı məşhur rəvayətdə Boz oq hakim, Üç oq isə ona tabe olan hissədir. Deməli, Oğuzun başçısı, hakimi "Boz oq" da, ona tabe olan hissənin başçısı isə "Üç oq"da olmalıdır.

"Dədə Qorqud" boylarında Qazan xan İç oğuzda, ona tabe olan dayısı Aruz isə Daş oğuzdadır. Deməli, mətnin prinsipinə görə də Qazan xanın yerləşdiyi sahə Boz oq, Aruzun yerləşdiyi sahə isə Üç oq olmalıdır [7, s. 117-118].

"Oğuz"u bəzi tədqiqatçılar coğrafi sahə kimi (oğuz elini) ən çox Anadolu sahəsində yerləşdirməyə çalışırdılar. Hal-hazırda Azərbaycanda da Dədə Qorqudla səsləşən çoxlu sayda toponimlər qeydə alınmışdır. Bizcə, müasir zəmanəmizə qədər gəlib çıxan Bozlu (Laçın rayonu), Bozlu (Kəlbəcər rayonu), Bozalqanlı (Tovuz rayonu) və s. kənd adlarının mənşəyi "bozaq" etnonimi ilə bağlıdır.

E.Abışov yazır ki, Azərbaycan xalqının etnik təşəkkülündə iştirak edən oğuz türklərindən bəhs edən "Kitabi-Dədə Qorqud boylarında da ayrı-ayrı türk mənşəli soylardan ibarət qəbilələrdən biri Bozoq adlanırdı" [1, s.60-61]. Qaynaqlarda Bozoq etnoniminin ikinci hissəsini təşkil edən -oq komponentinin ulus, qəbilə anlamını ifadə etməsi də göstərilir. Bu mülahizə F. Rəşidəddinin "Oğuznamə" və s. S.Rzasoyun "Bozoq və Üçoq etnonimlərinin struktur-semantik təhlili" adlı məqaləsində öz əksini tapmışdır.

Q. Qeybullayev hələ XV əsrdə Anadoluda "Boz ulus" adlı türk tayfa birləşməsinin mövcud olduğunu göstərmişdir. R. Sümər bu haqda ətraflı məlumat verərək Hələb türkləri, Dulqədirli oymaları (qəbilələri) və Diyarbəkr türk mənbələrindən meydana gəlmiş bozoq adlı qəbilənin XV əsrin ilk illərində Yozqat bölgəsində yurd saldığını, bu elin tərkibinə daxil olan oymaqların XVI əsrin əvvəllərində Ankara bölgəsinə qədər gəldiyini göstərmişdir. Sonra o, bozaqların adını Səfəvi dövlətinin təşəkkülündə iştirak edən tayfalar arasında çəkir.

Qeyd edək ki, Xəzərlərin Qaraçarlı tayfasının bir qolunun adı da "Bozlu" olmuşdur. Bu sahədə ətraflı araşdırmalar aparan E.Abışov fikrinə davam edərək yazır ki, F.Sümər də haqqında danışdığımız bozaqların adını həm də "boz ulus" kimi işlədir. Məsələn, XIV əsrdə bozoq türkləri Yozqat bölgəsində yurd saldılar [1, s.60-61].

Dülqədirli elindən bir çox oymaqlar İrana getmiş, ona mənsub bir qol isə Diyarbəkirdəki boz uluslara qarışmışdır. Beləliklə, bu qənaətə gəlmək olar ki, hər iki qəbilənin eyni ad daşıması, onların türk – oğuz mənşəli olmaları bu ulusların, yəni Türkiyə ərazisində mövcud olmuş bozaqlarla "K.D.Q."da adı çəkilən bozaqlar eyni köklü, eyni mənşəli qəbilələrdir və ya birinci ikincinin qalıqlarıdır.

Bozoqların belə geniş ərazidə yayılmasını iki cəhətdən izah etmək olar:

Birincisi boz ulusların müəyyən müddət köçəri həyat sürməsi ilə (F.Sümər Bozoqların meydana gəlməsində iştirak edən Dülqədirli elinin tam köçəri olduğunu yazır);

İkinci onların həm Azərbaycan, həm də Türkiyə ərazilərini əhatə edən sərhədlərinin geniş olması ilə (bu haqda məlumat verən F. Rəşidəddin sağ qol olan bozoqların yaylaqlarının Sayrım sərhədlərindən və Başqırd dağlarından Qarabağa qədər olduğunu bildirir).

E.Abışov çox düzgün olaraq Bozoqların 800-1000 il əvvəl Azərbaycanda sakin olduğunu göstərərək yazır ki, mənbələrdə Boz ulusların Türkiyədə mövcud olması yalnız XV-XVI əsrlərə aid edilirsə, bu qəbilələrin (boz ulusların) Azərbaycan ərazisində yaşamaları və onların etnik təşəkkülündə iştirak etdiklərini göstərir [1, s.60-61]. Deməli, əvvəl Azərbaycanda məskun olmuş bozaqlar sonra isə Türkiyə ərazilərinə qədər edib çıxmışlar. Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanında xatırlanan "bozoq" etnonimi azərbaycanlıların etnogenezində iştirak edən boz uluslar- boz oğuzlardır. Adın Azərbaycan ərazisində geniş arealda yayılması mülahizələrimizin həqiqi olduğunu sübut edir.

Tatarlar etnonimi – "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən etnonimlərdən biridir. Dastanda Qazan xan və onun oğlu Uruza kafirlər "tatar oğlu" deyirlər: "Qarı düşmən tatar oğlu əlimizə girmişkən cəza ilə öldürəlim" [7, s.88].

Tatar etnonimi ilk dəfə VI-IX əsrlərdə Baykal gölündən cənub-şərqdə köçəri həyat sürən monqol tayfaları arasında meydana gəlmişdir. N. Vəlişov tatar etnoniminin mənşəyi haqqında belə yazır: "Tatar monqol mənşəli sözdür. Bu gün monqolca danışan qövmün əsdadlarından olan tatarlardan abidələrdə bəzən oğuz-tatar kimi bəhs olunur. Tatarların vaxtilə oğuzlardan Şərqdə onlara qonşu olaraq yaşadıqları da mənbələrdə bildirilir. Oğuzlarla tatarların həm göytürklərin, həm də uyğurların dövründə üsyanlar etmələri də bəllidir. Tatar adı monqollar zühur edənə qədər xüsusilə türklər və çinlilər tərəfindən monqolca danışan bütün qövmlərin ümumi adı kimi işlədilmişdir" [21, s. 200].

XIII əsrdə monqolların işğallarında tatar tayfası da iştirak etmişdir. F. Rəşidəddin monqol yürüşlərində türkdilli tayfaların iştirakından danışarkən tatar tayfasının da adını çəkmişdir. Hülakilər zamanında – VII əsr bundan əvvəl Azərbaycana köçürülən qəbilələr arasında monqol nəslindən olan tatarlar da var idi.

N.Vəlişov tatar etnonimi ilə bağlı yaranan yer-yurd adlarının yayılma arealını belə göstərir: "Tatar kəndi (Qubadlı və Cəbrayıl rayonunda), Tatar çayı (Şəmkir rayonu), Tatarməhlə (Salyan rayonu), Abşeron yarımadasında Tatargöl, Laçın rayonunda Tatarlılar yaylağı, Tatar qaya, Zəngilan rayonunda Tatar dərəsi və başqa bu kimi toponimlər öz adlarında tatar etnoniminin adını əks etdirir" [21, s. 200].

Tədqiqatçı müxtəlif mənbələr əsasında tatar etnoniminin semantikası ilə bağlı çoxlu mülahizələr də irəli sürmüşdür. Məsələn, "tatar" sözü "sınamaq",

"yoxlamaq" deməkdir. "Tat" sözü isə qədim türk dillərində "oturmaq", "əkinçi" deməkdir. "Tat" sözünün "başqa nəsil", "yad nəsil", "dağ adamı" mənası verdiyini də söyləyənlər var. "Tatar" sözünün "yad adam" mənası verən "tat" və "kişi", "adam" mənası ifadə edən -ar (-er), -ər sözlərindən əmələ gəlməsi də ehtimal olunur.

R.Əliyeva tatar etnoniminin sonunda -ar hissəsinin etnonimiyadakı funksiyasından bəhs edərək haqlı olaraq yazır ki, -ar, -ər şəkilçisi bir çox etnonimlərin düzəlməsində də iştirak edir. Bizcə, tatar, salar, macar, xəzər, avar, suvar, düyər və s. türk mənşəli etnonimlərin sonunda işlənən bu şəkilçini nə "kişi, adam, döyüşçü" mənasındakı "ər" sözü ilə, nə də su mənasındakı "ar" sözü ilə heç bir əlaqəsi yoxdur [10, s. 28].

Monqolların "ta-ta" adlı nəsli olması da məlumdur. Mahmud Kaşğari də öz əsərində (XI əsrdə) tatar adını çəkir və qeyd edir ki, onlar indiki Qırğızıstana yaxın ərazidə yaşayıblar. V.A.Nikonov isə tatarları monqollarda olan "ta-ta" tayfası ilə əlaqələndirir. M.Baharlı da öz qeydlərində tatar etnonimi və ondan yaranmış etnonimlərdən bəhs etmişdir. Beləliklə, toponimlərdə izini qoymuş tatar- türk tayfasının Azərbaycan ərazilərində məskunlaşması bilavasitə Dədə Qorqud dövrü ilə əlaqədar olmuşdur.

Türkmənlər etnonimi – bu etnonimin adı "Bəkil oğlu Əmranın boyunu bəyan edər"də belə göstərilmişdir. Kafir aydır: "Oğuzun arzusu türkmanın dəlüsinə bənzər! Bağ-a, Şuna" – dedi" [7, s. 141].

Dastanda adı çəkilən türkmən etnonimi türk sözü əsasında formalaşmışdır. Ş.Sədiyevə görə türk Azərbaycanın qədim xalqlarından birinin adıdır. Bu barədə daha ətraflı məlumat verən M.İsmayılov miladdan qabaq IV yüzilliyə aid qədim Assur mənbələrində haqqında məlumat verilən, Urartu mixi yazılarında "turukkilər" adlandırılan türklərin Urmiya gölü yaxınlığında, bu gölün uzaq və yaxın hövzələrində məskun olduqlarını göstərmişdirn[23, s. 44].

Türkologiyada "türk" sözünün izahı ilə bağlı çoxlu sayda fikirlər mövcuddur. Tədqiqatçılarımız bu termini, yəni türk sözünü müxtəlif cür izah edirlər. Məsələn, türkoloq Bamberi türk sözünü "xəlq olunmuş", "yaranmış", insan" deyə izah etmişdir". J.Nemət isə "türk" sözünün izahını "qüvvətlə", "güclə" bağlı olduğunu göstərmişdir. V.V.Bartold bu sözün etnik ad olduğunu göstərmişdir. O, əsərlərinin birində "türk" sözü haqqında belə yazmışdır: "Əgər VIII əsrdə Monqolustanda oğuzlardan, karluklardan başqa ayrı türklər də yaşamışsa, onda bu xalq tezliklə yox olmuşdur. Ərəb coğrafiyaçıları "türklər" sözünü dillərinə görə qohum olan, bir sıra xalqları əhatə edən kollektiv ad kimi işlədirlər, türklər adlanan ayrıca xalq olmamışdır. Bir çox tarixi dəlliləri nəzərə alan V.V.Bartold öz fikrini daha dəqiq deməyə çalışmışdır. O yazırdı: "Ehtimal ki, siyasi termin olan "türk" sözü təqribən 740-cı illərdə Türkeş xalqının nümayəndələrindən olan Qərbi türk xaqanlığının süquta uğradığı vaxtlar işlənməmişdir. Belə ki, X əsrdə Qaşqar və Balasaqunda artıq müsəlmanlaşmış türk xalqları

meydana çıxdı, onlar yenidən özlərini və öz xalqlarını türk adlandırmağa başladılar [25, s. 200].

Bəzi alimlər "türk" sözünün izahında yalnız B. Bartoldun özünü türk adlandıran ayrıca xalq olmadığı fikrinə istinad edirlər. M.Seyidov isə alimlərimizin müxtəlif cür fikirlərini, ehtimallarını şərh edərək "türk" sözünün müxtəlif məna çalarları olduğunu göstərmişdir. Bir çox dillərdə, eləcə də türk dillərində belə hallara istənilən qədər rast gəlmək olur. Məsələn, hələ XVI əsrdə Bayat həm qəbilə, həm də Tanrı adı olmuşdur. Bu sözün izahı üçün alimlərimiz müxtəlif mənalarda yazılan fikirlərə, əsərlərə istinad etsələr də, elmi şəkildə bu fikir hələ də aydınlaşdırılmamışdır.

M.Qaşğarinin dövründə "türk" sözü müxtəlif mənalı olmuşdur. Belə ki, onun izahatlarından biri "xaylantürk" sözündəki "türk" // "turq"un izahından belə nəticəyə gəlmək olur ki, "türk" tanrının yaxını Nuhun oğlunun adı olub bir tək adamı – kişini bildirir. Oğullarının adı olduğundan "bəşər" kəlməsi kimi çoxluğu və dəstəni bildirir. Daha sonra M.Qaşqarlı öz izahatını dini mülahizə ilə bağlayaraq belə söyləyir: "Qurana əsasən yazır; Uca tanrı deyir ki, mənim bir ordum vardır, ona türk adı verdim, onları Şərqə yerləşirdim. Bir xalqa, qəbiləyə acığım tutarsa, türkləri onların üzərinə göndərərəm" [17, s.204]. Buradan görünür ki, "türk" "böyük topluya, dəstəyə malik olmaq", həm də Tanrının ordusuna – cəza dəstəsinə deyilirmiş. Deməli, türkoloqlar "türk" sözünün "ordu", "dəstə" mənasında olduğunu göstərmiş, heç də etnik birliyi, topluluğu nəzərə almamışdır. Fikrimizcə, Türk həm müəyyən bir etnik qəbilə silsiləsinin adı, həm də "dəstə, qrup, döyüşçü, yetkin igid" mənasını daşıyır.

Məlumdur ki, Dədə Qorqud dövründə türkmənlər Oğuz dövlətinin tərkibində idilər, onlar dövlətin sosial-mədəni inkişafında mühüm rol oynayırdılar.

"Türkmən" etnoniminin "mən" hissəsi tarixən "adam, insan, ölkə, yer, torpaq" mənalarında işlənmişdir. Deməli, "Dədə Qorqud"da xatırlanan, adı çəkilən, "türkmən" etnoniminin mənası "türk insanları yaşayan ölkə, yer" deməkdir. Hal-hazırda böyük bir ölkə sayılan Türkmənistan adı - "Türklər ölkəsi" mənasını daşıyan bu şəhər "türkmən" etnoniminin adı ilə bağlı yaranmışdır. Azərbaycanda çox ehtimal ki, "Türkmən düzü" oronimi də (Tərtər rayonu) türkmən tayfasının adı ilə bağlıdır.

Beləliklə, "Dədə-Qorqud"da işlədilən etnonimlər qədim türkün tarixindən xəbər verir və türkün etnik-coğrafi koordinatlarını yaşadır. Dastandakı etnonimlər siyasi və etnogenetik tariximizi yaşatmaq, əks etdirmək baxımından müstəsna əhəmiyyətə malikdir. Bu mənada sözügedən dastandakı etnonimlər tarixi-etimoloji aspektdə öyrənilməli və geniş, ətraflı təhlil olunmalıdır.

ƏDƏBİYYAT:

1. Abışov E. El-oba adlarının izi ilə. Bakı, 2007
2. Anar "Dədə Qorqud dünyası". Bakı, 1992
3. Azərbaycan Toponimləri Ensiklopedik lüğət. Bakı, 1989
4. Bakıxanov A. "Gülüstani-İrəm", Bakı, 1951
5. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998
6. Cəmşidov Ş. "Dədə Qorqud" kitabında coğrafi mühit. "Dədə Qorqud dünyası", Bakı, 2004
7. "Dədə Qorqud dünyası". Bakı: "Öndər" nəşriyyatı, 2004
8. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959
9. Dəmirçizadə Ə. 50 söz. Bakı: "Gənclik", 1968
10. Əliyeva R. Azərbaycan toponimləri. Bakı: "Qanun", 2002
11. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991
12. Əhmədova E. Azərbaycan etnonimləri. Bakı, 2007
13. Faruq Sümər. Oğuzlar. Bakı, 1992
14. Fərzəlivev Ə. "Kitabi-Dədə Qorqud" dastanının dilinin onomastik sistemi. Fil.ü.fəl.dok.diss.avtoref. Bakı, 2006
15. "Kitabi-Dədə Qorqud". Bakı: "Öndər", 2004
16. Qumilyev A. "Qədim türklər". Bakı: "Gənclik", 1993
17. Mahmud Kaşğari. Divani lüğat-it-türk tercümesi. Çevirən Besim Atalay. Ankara. 1939-41
18. Hacıyev T. Azərbaycanın qədim onomastikasına dair. Azərbaycan filologiyası məsələləri. II buraxılış. Bakı: "Elm", 1984
19. Rəşidəddin F. "Oğuznamə", Bakı, 1992
20. Tanrıverdiyev Ə. "Kitabi-Dədə Qorqud"da şəxs adları. Bakı, 1999
21. Vəlişov N. Cəbrayıl rayonu və onun toponimiyası. Bakı, 2004.
22. Vəliyev K. Dastan poetikası. Bakı "Yazıçı", 1981
23. R.Yüzbaşov, K.Əliyev və Ş.Sədiyevin "Azərbaycanın coğrafi adlar lüğəti". Bakı, 1972
24. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: "Maarif" nəşriyyatı, 1981

Rus dilində

25. Баскаков Н. Модели тюркских этнонимов и их типологическая классификация. Ономастика Востока. М. 1980
26. Еремеев Д. Этногенез турок. М. 1971
27. Велиев М. Население Азербайджана. - «Музей этнографических сокровищ» - Азербайджанский настольный календарь. Баку, 1925
28. Гейбуллаев Г. Топонимия Азербайджана. Баку, 1986

UOT 81

M.F.AXUNDZADƏNİN KOMEDİYALARINDA ANTROPONİMLƏR

Solmaz Həşim qızı ƏLƏSGƏROVA

Qərbi Kaspi Universiteti, doktorant

solmazalasgerova@mail.ru

XÜLASƏ

Poetik onomalogiya bədii ədəbiyyatda onomastik vahidlərin öyrənilməsidir. Onomlar vasitəsilə xalqın dili, mədəniyyəti, tarixi, dünyagörüşü, etik-estetik dəyərləri, adət-ənənələri haqqında məlumat alırıq.

M.F.Axundzadənin komediyalarında antroponimlərin obrazın xarakterinə, zahiri görünüşünə, mövqeyinə uyğun olması və ya təzad təşkil etməsi ilə yanaşı, müəllifin personaja münasibəti də aydınlaşır.

Açar sözlər: onomastik vahidlər, dramaturgiya, obraz, antroponim, uyğunluq və təzad

SUMMARY

Poetic onomatology is a study of onomastic units in artistic literature. With the help of onomastics we can get information about nation's language, culture, history, worldview, ethical and aesthetic values and traditions.

In M.F.Akhundov's comedies beside compliance and contradictory of anthroponyms to the nature of character, appearance, also clarifies anthor's attitude towards the character.

Key words: *onomastic units, drama, character, anthroponym, compliance and contradictor*

Dilçiliyin xüsusi adları öyrənən şöbəsi onomalogiyanın inkişafı istiqamətində tədqiqatların aparılması təqdir olunası haldır. Onomastik vahidlər lüğət ehtiyatını zənginləşdirir və xalqımızın soykökünü öyrənməyə yol açır. Onomalogiyanın gənc bir sahəsi olan poetik onomalogiya hər hansı bir sənətkarın yaradıcılığında onomastik vahidlərin araşdırılaraq tədqiq edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bədii mətnlərdə istifadə olunan onomastik vahidlərin əsasında xalqın mədəniyyətinə, tarixinə, ədəbiyyatına, ictimai-siyasi və dini görüşlərinə, adət-ənənələrinə bələd olmaq mümkündür.

XIX əsrdə öz yaradıcılığı ilə "özündən sonra bütün ədəbi prosesi öz təsiri altında saxlaya bilən, dövrün bütün ədəbi cərəyanlarına az və ya çox dərəcədə nüfuzunu hiss etdirən" [6, s.258] bir şəxsiyyətin - M.F.Axundzadənin ədəbi irsində xüsusi adların zənginliyi onların öyrənilməsini zəruri edir. Dramaturgiyamızın tarixi onunla bağlıdır, o, nəsrimizdə povest janrının əsasını qoydu, ilk dəfə ədəbi dil nəzəriyyəsi ilə məşğul oldu. Filosof, pedaqoq və tənqidçi kimi adını tarixə yazdı. T.Hacıyev haqlı olaraq yazırdı ki, "M.F.Axundzadə bütün təfəkkür hüceyrələri ilə yenilikçidir" [2, s.142]. Toxunduğu hər bir sahədə novatorluğa nail olan sənətkar onomastik vahidlərdən də çox ustalıqla istifadə etmişdir.

Ədibin yaradıcılığında obrazların, məkanların və eləcə də əsərlərin adı müəyyən məqsədə xidmət edir, oxucuya əsas mahiyyət və ideyanı çatdırmağa kömək edir. "Bədii əsərlərə, obrazlara, hadisələrin təsvir olunduğu yerlərə verilən adlar sadəcə adlar olaraq qalmır, özlüyündə məna, mahiyyət, eyni zamanda poetik çalarlıq kəsb edir" [3, s.21]. Məhz adlar vasitəsilə müəllifin obraza olan ilkin münasibəti müəyyənləşdirilir. Adlar tanımaq və fərqləndirmək üçün lazımdır. Adla obraz arasında sıx əlaqə olur.

Axundzadənin komediyalarında özünəqədərki ədəbiyyatlarla müqayisədə tam fərqli antroponimlərdən istifadə olunur. İnsan adları bir qayda olaraq, dram əsərlərinin başlanğıcında yazılır. Dramaturq artıq əsərin əvvəlində adların köməyilə oxucusuna ilk məlumatı ötürür. "Əfradi-əhli-məcalis" adlanan hissədə obrazların adlarına diqqət edək: Hacı İbrahimxəlil, Ağa Zaman, Hacı Nuru, Hatəmxan ağa, Gülçöhrə, Şahbaz bəy, Pərzad, Bayram, Məşədi Qurban, Mirzə Həbib, Teymur ağa, Şölə xanım, Heydər bəy, Hacı Qara, Tükəz və s. Bundan başqa onların haralı olması vurğulanır, yəni toponimlərdən məqsədli şəkildə istifadə özünü göstərir. Parijli, qarabağlı, iranlı, nuxulu, xaçmazlı, kəldəkli, samuxlu və digər konkret yer adlarını işlətməkdə dramaturqun məqsədi yəqin ki, bu hadisələrin uydurma olmadığını sübut etmək idi. Yalnız məkanın deyil, həm də zamanın belə dəqiqliklə göstərilməsi oxucularda komediyaların tarixi sənəd olması təəssüratını yaradır. T.Hacıyev bunu Axundzadənin realizmi ilə bağlayır [2, s.53].

"Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsərində nuxulu şair **Hacı Nuru** müsbət obrazdır. "Nur" ərəb mənşəli sözdür, mənası aydınlıq, parlaqlıq, işıq, şərəf, şan kimi izah olunur, həm də Quran surələrindən birinin adıdır. Hacı isə Məkkəni ziyarət etmiş müsəlmanlara verilən addır. Adından göründüyü kimi, Hacı Nuru zəkalıdır, cəmiyyətə aydınlıq, işıq, maarif gətirmək istəyir, öz şeirlərini oxumaq üçün münasib adam tapmır. "...hər kəsin öz sənəti özünə iksirdir və xoş güzəranlığına baisdir." [1, s.33] deyən qəhrəman sənətini düzgün seçməməyin, işini haram üzərində qurmağın nəticəsini açıqlayır. Nadanlığın, cahilliyin qarşısını almaq üçün Hacı Nuru kimi dramaturq da tək mübarizə aparır, lakin bir "işığın nuru" ətrafı qaranlıqdan xilas edə bilmir.

Molla İbrahimxəlil XIX əsrin əvvəllərində Nuxa qəzasında çar hökümətinin işçilərini və xalqı aldadaraq gümüş mədəni açan tarixi şəxsiyyət olmuşdur. İbrahim adının mənası müasir, səxavətli, ciddi, aktiv, diqqətli, dəyişkən, şanslı; Xəlil isə yaxın dost, yoldaş; istəkli, sevgili deməkdir.

Molla Həmid kimyagərin şagirdidir. Həmd etmək yaxşılıq etdiyinə görə yaxşılıq edəni sevərək və ucaldaraq onun xeyirxahlığını bildirməkdir. Allahın əl-Həmid adı Qurani-Kərimdə on yeddi dəfə zikr edilir. Müəllif bu adları təsadüfi olaraq seçməmişdir. Kimyagər və onun şagirdinin özünü dost, istəkli, xilaskar, xeyirxah kimi qələmə verməsi ilk növbədə, Axundzadənin seçdiyi onomların köməyilə aydınlaşır.

Hacı Nuru "avar ləzgisi altmış il bundan əqdəm **Xanbutay**ın sərkərdəliyilə Nuxunu gəlib çapdığını nəzm etmişəm" [1, s.32] deyərək passiv antroponim işlətmişdir. Tarixi hadisəni xatırladan ədib mənbələrdə rast gəlmədiyimiz Xanbutay onomundan istifadə edir. Türk mənşəli söz titul bildirən "xan" və Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biri olan "buta" sözlərindən əmələ gəlmişdir. Personaj ilə adı arasında təzadın yaradılması onomastik vahidlərin üslubi imkanlarının genişliyini göstərir.

Başqa bir passiv antroponim Hacı Salmanın dilindən işlədilir. "Hacı Nuru, sənin qiyasına görə mən gərək **Qarun** olaydım; bəs niyə bir həsir və lüləyindən qeyri bir zada malik deyiləm?!" [1, s.34] İsraildə Qarun var-dövlətli şəxs kimi tanınmışdır. Axundzadə əsərdə təşbeh işlətməklə Hacı Salmanın iç üzünü açmış, pula hərisliyini göstərərək oxucuya tanıtdırmışdır.

"Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur" əsərində 9 obraz iştirak edir. **Müsyö Jordanın** prototipi olan fransız nəbatat alimi Aleksis Jordan real şəxsiyyət olmuşdur. Jordan adı aktiv, yaradıcı, dost deməkdir. Təbii ki, müxtəlif dillərdə bu adın mənşəyi haqqında fərqli fikirlər var. Bəzi dillərdə ağac, yer adı, soyad bildirir. Antroponim qəhrəmanın həyat tərzinə, dünyagörüşünə, təfəkkürünə, ətraf aləmə münasibətinə uyğun seçilmişdir. Müsyö Jordanın dialoqu vasitəsilə Linney, Turnefor, Bertram kimi elm adamlarının və müxtəlif bitkilərin adlarını çəkən dramaturqun geniş dünyagörüşə malik olduğu bir daha aşkarlanır.

Hatəmxan ağa onomu obrazın daxili aləmi, cəmiyyətdə tutduğu mövqeyi ilə sıx bağlıdır. Hatəm Şərq əsatirində çox varlı, əfsanəvi bir adamın adından götürülmüşdür, əliaçıq, səxavətli, comərd deməkdir.

Şərəfnisə xanım on altı yaşlı gözəl, incə, saf bir qız obrazıdır. Dramaturqun öz qızının da adının Nisə olduğunu nəzərə alsaq, bu obraza xüsusi məhəbbət bəslədiyi məlum olar. Nisə sözü ərəbcə xanım, qadın; şərəf sözü də ərəbcə vicdan, ləyaqət, heysiyyət deməkdir. Vicdanlı, ləyaqətli xanım mənasına gəlir. Belə güman etmək mümkündür ki, ədib Şərəfnisə surətini oxucuya sevdirmək üçün bu adı seçmişdir. Çünki ad vasitəsilə "obrazın müsbət təsəvvür yaratması, özünə qarşı rəy formalaşdırması prosesi" [3, s.24] müəllifin əsas məqsədlərindən biridir. "Sərgüşəşti-vəziri-xani-Lənkəran" əsərində də Nisə

xanım onomundan istifadə edilir. Əsərdən görünür ki, Mirzə Fətəli bu obrazı da xüsusi rəğbətlə yaratmışdır.

Şərəfnisə ilə onun anası **Şəhrəbanu** antroponimi eyni samitlə başlayıb səslənişində oxşarlıq yaradır, onların həyata baxış, dünyagörüşləri də bənzərdir. Şəhrəbanu fars dilində torpağın, şəhərin xanımı deməkdir. Hər ikisi müsəlman qadınları kimi düşünür, xoşbəxtliyi ailə qurmaqda görür, cəhalət içərisində ömür sürür, Məstəli şaha müraciət etməklə nadanlıqlarını sübut etmiş olurlar. Banu titulu ilə şəhr apelyativinin birləşməsi özünü göstərir. Farsca xanım anlamlı Banu onomu müstəqil şəkildə qız adı kimi istifadə olunur.

"...müasir dilimizdə indi bir komponentli hesab etdiyimiz bir sıra xüsusi adlar etimoloji cəhətdən linqvistik təhlilə cəlb edilsə, bunların əksəriyyətinin mənşəcə iki və daha artıq ünsürdən ibarət olduğu meydana cıxa bilər." [6, s.21] Şərəfnisə və Şəhrəbanu onomları da iki komponentdən ibarətdir. Həmin komediyada digər iki personaj da iki komponentlidir. Şəhrəbanunun doqquz yaşlı kiçik qızı Gülçöhrə və Şərəfnisə xanımın dayəsi Xanpəri obrazları XIX əsrdə Azərbaycan qadınlarına verilən tipik adlardır.

Şahbaz onomu farsca bütün şahların çatmaq istədiyi məqam; bacarıqlı, qəhrəman mənalarını bildirir. Fars dilində "baz" sözdür, tərlan, qızılquş deməkdir. Azərbaycan dilində isə bəzi isimlərin sonuna gətirilərək bir şeyin həvəskarı, maraqlısı, hərisi məfhumunu ifadə edən şəkilçidir. Məsələn: quşbaz, qumarbaz, sehrbaz və s. Şəhrəbanu Şahbazın Parisə getməyinə razı deyil, çünki orda üzüaçıq arvadlara maraq göstərər və nişanlısının yanına qayıtmaz.

Hacı Qara komediyada xəsis, yaltaq, ikiüzlü, qorxaq bir tipdir. Qara adının etimologiyasına baxdıqda müxtəlif məna çalarlarına rast gəlmək olar. Qara ən tünd, ən tutqun rəng mənasından başqa əziyyətli, məşəqqətli, bədbəxt, faciəli, çox ağır deməkdir. Matəm, yas zamanı qara geymək, qara bağlamaq adətdir. Avam, savadsız, ağır işdə işləyən adamlara qara kəndli, qara işçi deyirlər. Qara qüvvələr dedikdə mürtəce, cinayətkar və fitnəkarlar nəzərdə tutulur. Qara fikir ifadəsi kədər doğuran, qorxulu deməkdir. Qara sözü yazı, ilk mətn, qaralama mənasında da işlədilir. Amma türklərdə böyük, uca, qüvvətli mənasında işlənmişdir.

"Sərgüzəşti-mərdi-xəsis" komediyasında müəzzin obrazı üçün **Xudaverdi** onomunu seçməkdə dramaturqun məqsədi onun dinlə əlaqəsini vurğulamaq və bununla da, uşağın böyüyərkən hansı sənətə yiyələnəcəyini müəyyənləşdirmək idi. Xuda fars sözüdür, allah, tanrı deməkdir. Allahın verdiyi mənasını ifadə edir. Azan verən şəxsin bu ada malik olması simvolik xarakter daşıyır, adla obraz bir-birini tanıdır, ad vasitəsilə personaj fərdiləşdirilir. Tanrıverdi, Allahverdi kimi adlar da eyni mənanı bildirir. XX əsrin əvvəllərində xuda sözünün istifadə dairəsi geniş idi, kənd rəhbərlərinə kəndxuda, yəni kəndin tanrısı, kəndin idarəedəni deyirdilər.

Sona xanım obrazı qaçaqçılığa qarşı çıxan, nişanlısı Heydər bəyin soyğunçuluğa getməsini istəməyən, öz sözünü deyə bilən qorxmaz bir qızdır.

Heydər bəy və dostlarını həbsdən xilas etmək üçün naçalniklə danışmaq o dövrün qızlarının işi deyildi. Qadınlar, adətən, hüquqsuz, aciz idilər, cəmiyyətin iradəsinə tabe olurdular.

Sona türk sözüdür, mənası ördək olub, aşıq şeirində gözəlin epitetlərindən biri kimi işlənir. Komediyada Sona xanım obrazı həm mənən, həm də zahirən gözəl təsvir olunduğu üçün naçalnik deyir: "Bax, sənin gözəlliyinə və göz yaşına Heydər bəyi səndən ayırmadım." [1, s.157]

Heydər ərəb sözüdür, sir, aslan anlamına gəlir. İmam Əli döyüş meydanlarında oxuduğu şeirlərdə özünü bu ləqəblə təqdim edirdi. Ləqəb kimi istifadə edilən Heydər sözü bir neçə əsrdən sonra ad funksiyasını daşımağa başlayır. Obraz kimi Heydər bəy cəsur, igid, öndə gedən gəncdir. Görürük ki, antroponim ilə obraz arasında uyğunluq saxlanılıb.

"Hər hansı bir əsərdə obrazlara həm ənənəvi adlar, həm də yazıçılar tərəfindən yaranan – uydurulmuş adlar verilə bilər. Ənənəvi adlar qeyd etdiyimiz kimi, adətən zamanın tələbinə uyğun olaraq verilir. Ənənəvi adlarda millilik və tarixilik prinsipi əsas götürülür. Uydurulmuş adlar isə ləqəblərə bənzəyir, yəni yazıçı tərəfindən uydurulmuş adlar obrazın mənəviyyatına, xarici görünüşünə, fiziki qüsuruna və digər bir cəhətinə uyğun olaraq verilir." [5, s.23]

"Hekayəti-xırsi-quldurbasan" əsərində **Zalxa** adına rast gəlirik. Bu söz tutqun bənövşəyi rəngində çoxlu çiçəkləri olan zəhərli bitki deməkdir. Bayram Pərzadı sevir, amma qızı Tarverdiyə verirlər. Bayram bu işin qarşısını almaq üçün Tarverdinin qaçaq-quldurluğa getməsi və həbs olunması planını qurur, bu işdə köməkçi olması üçün Zalxaya vədlər verir. Zalxa obrazı adına uyğun olaraq bir insanın həyatını "zəhərləmək" istəyir.

Pərzad pəri sözündən yaranan fars mənşəli addır, pəriyə oxşar, pəri kimi mənalarını daşıyır. Pərzad həm zahirən gözəldir, həm də mənəviyyat cəhətdən saf və ağıllı qızdır, cəmiyyətdə baş verən hadisələrə ayıq gözlə baxır, düzgün təhlil və izah edir. Axundzadə XIX əsrə məxsus olan qadın adlarından istifadə etməklə yanaşı, onların əsərdəki müsbət və ya mənfi keyfiyyətlərinə diqqət yetirir, daşıdıqları mənaların köməyilə oxucuya ilkin məlumatı verir.

Bayram türk mənşəli sözdür, kökü bolluq, məhsul anlamını əks etdirən bay kəlməsindən ibarətdir. Məhsul yığımı zamanı insanlar sənlik, şadyanalıq keçirir, həmin günü təntənəli şəkildə qeyd edirlər. İndi isə milli, dini, tarixi-ənənəvi hadisələr qeyd edilən gün bayram adlandırılır. Şən, şux, pozitiv xüsusiyyətləri ilə seçilən personaj Pərzadı sevir və maneələrə baxmayaraq, ruhdan düşmür.

Tarverdi Bayramla Pərzadın sevgisinə mane olan varlı ailənin övladıdır. Müəllif Tanrıverdi onomunun ixtisar olunmuş formasından istifadə edir. "Mürəkkəb quruluşlu bu antroponimlərin birinci komponenti "tanrı" və həmin sözün fonetik tərkibcə dəyişmiş variantı olan "tarı" allah anlamlı arxaik sözdür" [7, s.96] Tanrıverdi tanrının, allahın verdiyi pay mənasını ifadə edir. Satirik məqamlarda bu vasitədən yararlanmaq Mirzə Fətəlinin sənətkarlığından irəli

gəlir və bununla dramaturqun personaja mənfi münasibəti aydınlaşır. Həqiqətən Tarverdi qorxaq, hiyləgər, puluna, dövlətinə arxalanan, ağılsızlığını nümayiş etdirən obraz kimi canlandırılır.

Antroponim ilə obrazın fərdi xüsusiyyətləri arasında təzada da rast gəlirik. Divanbəyinin dilmancı **Kamalov** Rusiyada təhsil alaraq soyadını da ruslaşdırır, tərcümə zamanı isə öz savadsızlığını aşkar etmiş olur. Divanbəyinin "A kişi, nə qozqurursan?" sualını Kamalov: "Divanbəyi buyurur ki, sizdə qoz, fındıq çox olurmu?" [1, s.89] kimi tərcümə edir. Kamal ərəb sözüdür, elm, fəzilət, urfan, dərrakə, ağıl, mükəmməl anlamlarında işlənir ki, obrazın komediyadakı davranışı ilə ziddiyyət təşkil edir.

"Mürafiə vəkillərinin hekayəti" əsərində **Səkinə xanım** Mərhum Hacı Qafurun 18 yaşlı bacısıdır. "Lüğəti mənada "səkinə" aramlıq, sakitlik mənasını verir. Allah-təala öz sevimli bəndələrinin qəlbinə çətinlik anında arxayınlıq və rahatlıq bəxş edir, onları ruhdan düşməyə qoymur. Bəzi rəvayətlərə görə səkinə - behiştdə əsən sərin mehin (küləyin) adıdır. Allah onu insan qiyafəsinə salaraq, onun vasitəsilə öz mömin bəndələrinə yardım edər." [8] Obrazın xarakteri ilə onomu arsında əlaqə var.

Zeynəb Hacı Qafurun mütə siğəsilə olan arvadıdır. Antroponimin bir neçə mənası var. İmam Əlinin qızının adıdır ki, Məhəmməd peyğəmbər tərəfindən seçilib. Zəyn ərəb dilində zinət, bəzək, əb ata kimi tərcümə olduğundan atasının zinəti deməkdir. Ərəb dilində başqa bir anlamı kök qadındır. Qədim arami dilində Zenobia adı var idi, səhra gülü, bəzəkli ağac deməkdir. İslamdan əvvəl Suriya kraliçasının adı idi.

Əsərdə on il Hacı Qafur ilə yaşamasına baxmayaraq, övladı olmadığı üçün mirasdan məhrum olan Zeynəb var-dövlət, daş-qaş əldə etmək istəyir, buna görə fırıldağa əl atır. "Tamam pul sandıqlarının haçarı mənim əlimdə olurdu. Hacı Qafurun sağlığında onun bacısının beş abbası ixtiyarı çatmazdı, amma mən hər nə qədər istəsəydim xərc edərdim" [1, s.172]. Personajın adının onun mənəviyyatı ilə əlaqəli olması üslubi xarakter daşıyır. Ümumiyyətlə, müəllifin yaradıcılığında surəti xarakterizə edən antroponimlər çoxluq təşkil edir və biz yalnız onların bəziləri haqqında məlumat verdik.

Beləliklə, Axundzadə komediyalarında istifadə olunan antroponimlər müxtəlif dil və etnosların qarşılıqlı əlaqə, qovuşma və qarışma proseslərini geniş şəkildə əks etdirir ki, bu da müxtəlif dil və mədəniyyətlərin bir-birindən qaynaq- lanmasını göstərir.

Ədəbiyyat:

1. Axundzadə M.F. Əsərləri. 3 cilddə, I cild. Bakı, "Şərq-Qərb", 2005.
2. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. II hissə. Bakı, "Elm", 2012.
3. Hüseynova H. Bədii əsərlərdə onomastik vahidlərin rolu. Bakı, ADPU-nun nəşriyyatı, 2017.
4. Qurbanov A. Azərbaycan onomastikası. Bakı, APİ nəşri, 1986.
5. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları. Bakı, "Memar Nəşriyyat-Poliqrafiya" MMC, 2008.
6. Talıbzadə K. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı, Azərnəşr, 1994.
7. Tanrıverdi Ə. Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi-linqvistik tədqiqi. Bakı, 2012.
8. https://news.milli.az/society/335630.htm

UOT 81

MÜASİR İNGİLİS DİLİNDƏ MÖVCUD OLAN TOPONİMLƏRİN YARANMASINDA XARİCİ ELEMENTLƏRİN ROLU

Ülviyyə Davud qızı HACIYEVA

Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ulviyyehaciyeva13@mail.ru

XÜLASƏ

Məqalə ingilis toponimlərinin xarici elementlərin köməyi ilə formalaşmasına həsr olunub. Əsas komponentlər, şəkilçilər, zərflər, qoşmalardır. Toponimlərin formalaşdıran ən işlək xarici elementlər məqaləyə daxildir. Birləşmiş Krallıqdakı bütün yer adları ingilis dilli əhali üçün tanışdır.

Açar sözlər: toponim, elementlər, komponent, coğrafi termin, şəkilçi

THE INFLUENCE OF FOREİGN ELEMENTS İN CONTEMPORARY ENGLİSH TOPONYMS

SUMMARY

The article was devoted to the formation of English toponyms with the help of foreign elements. Here the main components are affixes, both suffixes and prefixes, prepositions and adverb. The most popular toponym making foreign elements were included in the article. All the names of places of The United Kingdom are very familiar to the English speaking community.

Key words: toponym, elements, component, geographical term, affix

ВЛИЯНИЯ ИНОСТРАННЫХ ЭЛЕМЕНТОВ В ФОРМИРОВАНИИ СОВРЕМЕННЫХ АНГЛИЙСКИХ ТОПОНИМОВ

РЕЗЮМЕ

Статья посвящается формированию английских топонимов с помощью иностранных элементов. Основными компонентами являются суф-

фиксы, приставки, предлоги и наречия. Самые известные иностранные элементы, образующие топонимы, включены в статью. Все названия мест в Великобритании знакомы англоговорящему обществу.

Ключевые слова: топоним, элементы, компонент, географический термин, аффикс

Bildiyimiz kimi, ingilis dili uzun illər boyu müxtəlif dillərin təsirinə məruz qalmış, bu dillər isə öz növbəsində ingilis dilinin linqvistik sisteminin bütün laylarında öz dərin izlərini qoymuşlar. Məhz bu səbəbdəndir ki, dünya coğrafi adlar siyahısına baxdığımız zaman, bəlkə də ən mürəkkəb, qeyri-adi, bəzən də qəribə toponimlərə elə Böyük Britaniya ərazisində rast gəlinir. Müasir toponimlər sırasında kelt elementlərinin araşdırılması çox mürəkkəbdir və birtərəfli həll edilə bilməz. Bu, anqlosakslar tərəfindən adanın koloniyalaşdırılmasından sonra britanların ayrı-ayrı yerlərdə yerləşməsi ilə əlaqədardır. Xüsusilə vurğulamaq lazımdır ki, toponimlər qədim dillərin qalıqlarıdır və əsasən də çay adlarından ilhamlanaraq yaradılmışdır [1, s.58]. Müasir element olan **wal** (***Walton, Walcott, Walworth, Walpole***) anqlosaksların gəlişindən sonra kelt əhalisinin yerləşdiyi yerləri göstərir.

Geniş yayılmış formalardan biri də **pen** elementidir, mənası yüksəklik, təpə deməkdir (***Penhill, Pencoyd, Penketh, Penrith***). Bu sıranın təhlilində bu omonimik vahidin digər bir forması da meydana çıxır. Qədim ingilis dilində **penn**, yəni mal-qara saxlanılan yer mənasında işlədilən bu element isə əsasən toponimlərin son elementi kimi işlənir (***Hampen, Owlpen***).

Müntəzəm və geniş şəkildə işlənən müasir kelt mənşəli komponentlərdən biri də **tre-** (kənd, malikanə, ferma deməkdir) elementidir. Bu toponimlərin əksəriyyəti Kornuelldə yayılmışdır (***Tredvaston, Tregavethan***), həmçinin Devonşirdə (***Trelleck, Trehill***) və Lankaşirdə (***Treysceck, Treales***) də bu elementlə olan toponimlərə rast gəlmək olar. Kornuelldə **lan-** elementi vasitəsilə yaranan toponimlərə də təsadüf olunur: ***Landulph, Lanreath*** və s.

İngilis toponimiyasının əsas xüsusiyyətlərindən biri odur ki, toponimi təşkil edən komponentlərin nadir hallarda müasir ingilis dilində uyğunluğu olur. Bəs bu nə ilə izah olunur? Bu suala diaxroniya cavab verir. Diaxroniya adların morfoloji strukturunun dəyişməsinə təsir göstərən faktorları aydınlaşdırır: sözün əvvəlində, ortasında və sonunda səs düşümü, yaxın məxrəcli səslərin əvəz olunması və s. Bu istiqamətdə ən xarakterik faktorlardan biri toponimlərin morfoloji sadələşməsidir ki, bu zaman əvvəllər bir neçə morfemdən ibarət olmuş toponimlər bir tam kimi başa düşülür.

İngilis toponimiyasının ən geniş yayılmış strukturu monoleksem strukturdur. Bu struktur iki hissədən ibarət olur və bu hissələr digər toponimlərdə təkrar olunaraq toponimik sıranı əmələ gətirir:

Adlington – Burmington – Butterton – Blenchwarton – Hauton – Marlston sırası **-ton** son koponentinin ümumiliyi ilə;

Ashfield – Ashford – Ashlay – Ashmore – Ashover – Ashhow sırası isə **ash-** başlanğıc komponentinin ümumiliyi ilə yaranır.

Adların semantik tədqiqatının əsasını onu təşkil edən elementlərin mənasının aydınlaşdırılması təşkil edir. Məhz elementlərin semantikası semantik analizin əsas bazasını təşkil edir.

Semantik cəhətdən müəyyən obyektə yönəlmiş olan son komponentlər, ön komponentlərə nisbətən daha sabit və dəyişməzdir, funksiyası isə əlavə informasiya verməkdir. Böyük əksəriyyət toponimlərdə ancaq bir komponent ayrılır ki, bu da çox vaxt son əsas hissə olur: müasir **beck, shaw, thwaite** komponentləri: ***Birbeck, Ushaw, Esthwaite.*** Son kom- ponentləri ayırdıqdan sonra qalan hissələr (***bir, u, es***) məh- suldar hesab edilmir, beləki, hər ingilis sözü ilə əlaqələndirilə bilməz.

Toponimlərin morfoloji təsnifi son elementin spesifik xüsusiyyətləri ilə bağlıdır. Nadir hallarda müasir sözlərlə bilavasitə əlaqədə olan son elementlərə rast gəlmək olar - ***Ashfield***.

Əksinə, əksər hallarda toponimlər elə son elementlərlə xarakterizə olunur ki, müasir leksikada qarşılığı olmayan, onlarla müəyyən bir leksik əlamətlə birləşib coğrafi termin əmələ gətirir: **-ham** (qədim ingilis ***hām*** – kənd, ferma, malikanə); **-ton** (qədim ingilis ***tūn*** – çəpərlənmiş yer, ferma, malikanə, kənd, şəhər).

Ölkənin müasir toponimikasında latın təsiri azdır. Belə toponimlər müxtəlif tarixi dövrlərə aiddir. Roma britaniyası dövründə adlar tam mənada latın mənşəli deyil, kelt mənşəli adların latınlaşmış formaları idi. Müasir vaxtdalatın-kelt tərkibləri tam və qismən dəyişilmiş şəkildə işlənir və çox vaxt topo- nimin məhz kelt əsası mühafizə olunur, latın dilinin şəkilçiləri isə itir: ***London–Londonium; Manchester– Mamucion; Lincoln–Lindum*** və s. Hal-hazırda Britaniya adalarında Roma təsirinin qalıqları demək olar ki, yox dərəcəsindədəir və yalnız iki ad tamamilə latın mənşəli olaraq işlənməkdədir: ***Catterick*** (North Yorkshire) və ***Speen*** (Berk- shir) [2, s.234]

Latın təsirinin izləri VIII-X əsrlərə aiddir ki, bu dövrdə ingilis adlarının latınlaşmış formaları meydana gəlir. Bu əsasən ingilis toponimlərinin təyin hissələrinin tərcüməsi, həmçinin latın fərqləndirici komponentlərin əlavəsi nəticəsində yaranır. ***Great*** və ***Little*** kimi təyini komponentlər əksər hallarda **Magna** (*magnus* – böyük) və **Parva** (*parvus* – balaca) elementləri [3] ilə əvəz olunur: ***Ashby Magna, Ashby Parva***. Bəzi hallarda isə ingilis ***upper*** və ***lower*** sözləri latın **superior** (yuxarı) və **inferior** (aşağı) sözləri ilə əvəz olunur: ***Rickinghall Superior, Rickinghall Inferior***. Çox zaman müəyyən obyektin yerinin bildirən ingilis sözönü və zərfləri latın sözləri ilə əvəz olunur. **Within** (-la, -lə) və **without** (-sız, -sız, -suz, -süz) iki cür ifadə olunur: ***Romsey Intra - Romsey Extra və ya Ryme Intrinseca - Ryme Extrinseca***.

Latın elementləri olan **sub–**(yanında), (***Thorpe sub Montem***), **juxta-** (ətrafında) (***Brandwell juxta More*****), super –** (üzərində) (***Weston super Mare),***

cum- (ilə) (***Stone cum Ebony***) və s. bu kimi sözönüləri ilə işlənən toponimlərə də tez-tez rast gəlmək olur.

Müasir ingilis toponimikasında Skandinaviya təsirinə də rast gəlinir. Deynlou vilayətində ən fəal element **–by** (erkən mənası kənd, kiçik qəsəbə, ferma olmuşdur) şəkilçisidir: ***Moorby, Wilby***. Deynlou vilayətində Skandinaviya mənşəli digər komponent də **-thorp** şəkilçisidir. **Torp** torpaq sahəsi, kənd evi deməkdir. ***Burnham*** və ***Burnham Thorp, Kilton*** və ***Kilton Thorp*** toponimlərində thorp elementi məhz obyektlərin fərqləndirilməsinə xidmət edir. **Thorp** həm də obyektlərin yerinin dəqiq göstərilməsinə də xidmət edir: ***Easthorpe*** və ***Westhorpe, Norththorpe*** və ***Southtorpe, Thorpe in the Fallows, Thorpe le Willows, Thorp by Water*** və s.

Digər bir Skandinaviya mənşəli element də **holme** komponentidir. Bu komponent həm sadə toponim kimi ***Holme***, həm də son element kimi ***Heigholme, Bronholme, Oxenholme*** və s. bu kimi toponimlərdə işlədilir.

İngilis toponimiyasında fransız mənşəli elementlərə də rast gəlinir. Qeyd etmək lazımdır ki, fransız mənşəli elementlər bir o qədər də çox deyil, bununla belə fransız dilində **beau, belle** sifətləri vasitəsilə əmələ gələn adlar var: ***Beaurepaire, Beaudesert, Bellasize, Belvoir***. Digər bir fransız komponenti **–mont** (dağ) da bu qəbildəndir: ***Eamont, Rodgmont, Grosmont*** [4, s.33].

ABŞ da geniş yayılmış **–ville** mənşəli şəkilçi hələ də bir neçə adda mühafizə olunur: ***Coalville, Charteville, Brinville.***

İngilis toponimikasında **le** artiklı və **en** sözönü ilə düzələn toponimlər mübahisə doğurur. Bu iki element nəinki ingilis toponimikasına fransız təsiri baxımından, həmçinin fransız mənşəli artiklın ingilis toponimiyasında tam bir vahid kimi işlənib işlənməməsi baxımından da maraqlıdır. Müşahidələr göstərir ki, le artiklı monoleksem toponimlərlə işlənmir, polileksemtoponimlərlə işlənmə dairəsi dha genişdir: ***Clayton le Woods, Normaton le Heath.***

İngilis və fransiz formalarının qarşılıqlı əlaqəsi adların yerli variantlarında özlərinin göstərir ki, bu adlarda isə müxtəlif dəyişmələri müşahidə etmək olur. Məsələn fransız artiklının əvəzinə, ingilis mənşəli sözönülərin işlənməsi: Burgh le Marsh – Burgh in the Marsh, Clayton le Dale – Clayton in the Dale və s.

Ədəbiyyat:

1. McDonald F., Cresswell J. The Guinness Book Of British Olace Names. Guinness Publishing, 1993
2. V.A.Zhuk. Linguistic Analysis of Great Britain's Toponyms. Запросы з ономастики, Выпуск 18, Украина, 2015
3. https://ru.wiktionary.org/wiki/magnus/parvus
4. Poulton Smith A. Oxfordshire Place Names. Chalfordç Stroudç Amberley Publishing, 2009

UOT 81

НАЗВАНИЯ ДРАГОЦЕННЫХ КАМНЕЙ КАК КОМПОНЕНТЫ ОЙКОНИМОВ В ВОСТОЧНОСЛАВЯНСКИХ ЯЗЫКАХ

Айтен Гасым кызы МУРАДОВА

Filologiya üzrə fəlsəfə doktoru
Бакинский государственный университет

pawion@mail.ru

РЕЗЮМЕ

Систематизация ойконимов осуществляется по разным характеристикам и представляет большой интерес для лингвистов по общеязыковому, эпохальному, региональному и другим свойствам. В статье на материале русского, украинского и белорусского языков систематизируются и анализируются многочисленные ойконимы, компонентами которых являются названия драгоценных камней. Сравнительное исследование проводится по конкретным группам, включающим подгруппы, соответственно характеру и специфике объекта *ойконимы*, получившие свое название от: находящегося вблизи месторождения драгоценного камня; личных имен и отчеств первопоселенцев или прозвищ помещиков-владельцев. Особое внимание уделяется ложной этимологии ойконимоов (*Агатівка* — от имени Агата; *Жемчуг* (бур. Жэмhэг) –произошло от двух слов “жэмhэг” (лучшие куски мяса) или “жэмэс/жэмэсей” – ягода/ягодное место)

Ключевые слова: компоненты, названия, драгоценные камни, ойконимы, особенности, хранители информации

ŞƏRQİ SLAVYAN DİLLƏRİNDƏ QİYMƏTLİ DAŞLARIN ADLARI OYKONİMLƏRİN KOMPONENTLƏRİ KİMİ

XÜLASƏ

Oykonimlərin sistemləşdirilməsi müxtəlif xüsusiyyətlərə görə həyata keçirilir və ümumi dil, regional və digər xüsusiyyətlərə görə dilçilər üçün də böyük maraq kəsb edir.

Məqalədə Rusiya, Ukrayna və Belarus dillərinin materiallarına əsasında qiymətli daşların adları olan bir çox oikonimlər sistemləşdirilir və təhlil edilir.

Müqayisəli tədqiqat konkret qruplar və yarımqruplar üzrə keçirilir, oykonimlərin adları spesifikası və xarakterinə müvafiq olaraq verilir: qiymətli daş yatağının yaxınlığındat; mülkədar-sahiblərin şəxsi adlarından və ləqəblərdən əmələ gəlir. Xüsusi diqqət yalan etimologiyaları olan oykonimlərinə yetirilir; (Агатівка – aqat sözündən əmələ gəlir) Mirvari (bur. "Жэмhэг") – iki sözdən ibarətdir жэмhэг (ən yaxşı ət parçaları) və ya "жэмэс/жэмэсей" (giləmeyvə yeri).

Açar söz: komponentlər, xüsusi adlar, dəyərli zinət daşları, oykonimlər, xüsusiyyətlər, məlumat daşıyıcıları

THE NAMES OF GEMS AS COMPONENTS OF OIKONYMS IN THE EAST SLAVIC LANGUAUGES

SUMMARY

Systematization of oikonyms is carried out on the different descriptions and is of great interest for linguists on general linguistic, epochal, regional and other characteristics. The article deals with the systematization and analysis of the numerous oikonyms the components of which are the names of gems on the material of the Russian, Ukrainian and Belarusian languages. The comparative research is carried out on the concrete groups including subgroups according to the character and peculiarities of the object *oikonyms* that got their names from the nearby deposit: the first settlers' personal names and landowners' patronymics. The special attention is given to the false etimology of oikonyms (Агатівка — from the name Agata (Agatha); Жемчуг (in Buryat. Жэмhэг) – formed from the two words "жэмhэг" (the best pieces of meat) or "жэмэс/жэмэсей" (berry/berry places).

Keywords: components, names, gems, oikonyms, peculiarities, keepers of information

Как известно, топонимы на планете Земля отличаются структурно-семантическим богатством и многообразием. Наименования географических объектов не формируются без всяких причин: население, живущее вблизи объектов, подмечало его специфические качества и называло их, выделяя своеобразные черты. Интересно то, что сменялись народы, поколения, но названия не претерпевали изменения и передавались последующим поколениям.

Ойконимия – одна из частей класса топонимов, описывающая имена собственные как определенную лексическую подсистему языка, а также владеющую присущими им свойствами. Как показали наши наблюдения над материалами топонимических словарей, во всех трех языках имеются ойконимы, в состав которых входят названия драгоценных кам-

ней (*агат, алмаз, апатит, бирюза, жемчуг, изумруд, малахит, хризолит, янтарь*). Среди ойконимов нами были выделены:

а) ойконимы, получившие свое название от находящегося вблизи месторождения драгоценного камня: ***Алмазна*** - город, находящийся на Украине. Следует отметить, что старое наименование города – Изюм. Интерес, на наш взгляд, представляет история переименования города Изюм в Алмазна. В основном со станции Изюм в город посылали уголь, но после развития угольных шахт недалеко от станции началась стройка дополнительных линий. Примечательно то, что в одном и том же месте существовали две станции с идентичными названиями: Изюм Харьковской губернии и Изюм Екатеринославской губернии. В дальнейшем станцию Изюм Екатеринославской губернии переименовали в *«Алмазна».* В то время на территории станции было открыто огромное количество алмазных предприятий, и стало модно переименовывать названия предприятий, например: Алмазный угольный бассейн, Алмазный рудник и т. д. С 1895 год эта станция носит название «*Алмазна*», а с 1977 года имеет статус города [8, с.10]; ***Апатиты*** — город, находящийся в России. Впервые упоминается как железнодорожная станция Белый. В 1916 году начинается строительство Мурманской железной дороги, и в поселке находят залежи апатитонефелиновых руд. В дальнейшем этот поселок и станция переименовывается в "Апатиты". В 1965 г. получает статус города [3, с.22]; ***Бурштын*** – город, находящийся на Украине. Интересно, что в 1912 году в учебнике по минералогии, изданном во Львове, упоминается местонахождения янтарных залежей в городе Бурштын (украинское название янтаря), но в настоящее время эти залежи забыты. Находки янтаря в районе этого города запечатлены в наименовании города [15]; ***Жемчужный*** – поселок, находящийся в России (Краснодарский край, Пермский край, Хакасия, Тамбовская область); ***Изумруд*** — поселок городского типа в России (Свердловская область). В 1831 здесь было открыто месторождение изумрудов и возник поселок Изумрудные копи, получивший в 1993 статус поселка городского типа [14]; ***Шерлинские горы, Шерловая Гора/Ширлова гора*** – поселок городского тип в Читинской области. Назван в честь горы как поселок при месторождении драгоценных камней и, в частности, шерла (черного турмалина), открытого в первой половине XVIII в. [13]; ***Янтарный*** – поселок, находящийся в России. До 1946 года назывался Пальмникен. Название из прусск. palwe 'пустошь, безлесное болото' и суффикса -enik. В 1491 г. Пальменикен и позже закрепившаяся немецкая форма Пальмникен. но в 1947 году вследствие нахождения в городе крупных залежей янтаря поселок переименовали в "Янтарный" [12]; **Янтарне –** поселок на Украине (Донецкая, Херсонская, Ростовская области). Вблизи поселков находились крупные промышленные место-

рождения янтаря; ***Янтарні*** – поселок в Белоруссии. Назван в честь крупных залежей янтаря в районе этого поселка [11, с. 511].

б) Ложная этимология ойконимов: ***Агатівка*** — село на Украине, основано в 1850 году, находится в Бердичевском районе Житомирской области. Название топонима произошло не от камня агат, а от имени Агата [9, с.10]**;** ***Жемчуг (бур. Жэмһэг)*** – село в Бурятии. Источник, давший название поселку, был открыт в 1954 году, когда вскрыли скважину глубиной 1024 метра в полутора километрах от поселка. Название села не имеет никакой связи с драгоценным камнем. Буряты считают, что наименование произошло от двух слов "жэмһэг" (лучшие куски мяса) или "жэмэс/жэмэсей" – ягода/ягодное место. [6, с. 127]; ***Хризолитовый*** – поселок в Свердловской области. Первоначально горняки нашли месторождения зеленого граната, перепутав его с хризолитом. Отсюда в Свердловской области появились топонимы: речка Хризолитовка, поселок Хризолитовый, хотя данный камень в этой местности не встречается.

в) ойконимы, получившие свое название от личных имен и отчеств первопоселенцев или прозвищ помещиков-владельцев: ***Алмазово*** **–** деревня в Щёлковском районе Московской области России. Пустошь Ошитково, Ашитково – от фамилии Ошитков (известен Григорий Ошитков, 1672), впоследствии получило название Алмазово, по фамилии владельца селения в 1707 г. Семена Ерофеевича Алмазова, сына Ерофея Ивановича Алмаза (из вологодских торговых людей, с 1653 – думный дьяк и печатник царя) [7]. Также следует отметить села с названием ***Алмазово*** в Орловской, Рязанской, Саратовской и Тульской областях. Объяснение происхождения данных топонимов невозможно. Может в основе и есть фамилия, но без документальных подтверждений мы это обосновать не сможем.

Также следует отметить названия улиц, переулков, шоссе и мостов с названиями драгоценных камней: ***Алмазный мост*** — мост через реку Волковку во Фрунзенском районе Санкт-Петербурга. Мост назван по наименованию упразднённой Алмазной улицы, которая вела к расположенному недалеко от этого места абразивному заводу. Название известно с 1960-х г.г. [2, с. 21]; ***Малахитовая*** — улица в Москве. В 1967 году улица была названа в честь сборника П.П. Бажова «Малахитовая шкатулка» (улица Бажова пересекается с Малахитовой улицей); ***Апатитовое шоссе*** — шоссе в Мурманской области. Названо оно не в честь города Апатиты, а из-за того, что ведет в направлении апатитовых рудников.

Однако в настоящее время названия годонимов даются без смысловой нагрузки и нейтральны - улицы *Агатовая, Алмазная, Аметистовая, Бирюзовая, Гранатовая, Изумрудная Коралловая, Родонитовая.*

Таким образом, ойконимы как языковые единицы обладают способностью к хранению общественно - исторического опыта и культурной

информации; в них отражаются исторические, территориальные и природно -географические особенности условий жизни народа, а также менталитет нации, запечатленный в традициях, обычаях и фольклоре. В ойконимах как наиболее устойчивых звеньях лексической системы говора сохраняется и закрепляется лексика, исчезающая с течением времени из активного употребления носителей языка. Безусловно, исследование, таких единиц в каком бы то ни было аспекте представляет большой лингвокультурологический интерес.

Литературы:

1. Агеева Р. А. Как появились названия рек и озер: Популярная гидронимика. М.: АСТ-Пресс, 2012 г., 288 с.

2. Алексеева С. В., Владимирович А. Г., Ерофеев А. Д. и др. Городские имена сегодня и вчера: Петербургская топонимика. Полный свод названий за три века: Справочник-путеводитель. СПб: Лик, 1997, 288 с.

3. Города России: энциклопедия. М.: Большая Российская энциклопедия, 1994, 559 с.

4. Городцев В. А. Отчёт об археологических исследованиях долины реки Оки, в Рязанской губернии и уезде, в 1889 и 1890 гг.: Исследование дюны в окрестностях д. Борки. // Жук А. В. Василий Алексеевич Городцев в рязанский период его жизни, службы и научной деятельности: монография, Омск: Издательство ОмГУ, 2005, с. 464–467

5. Канаев И. Н. Избранные труды по истории науки. СПб.: Алетейя, 2000, с. 491

6. Мельхеев М.Н. Топонимика Бурятии: история, система и происхождение географических названий. Улан-Удэ : Бурятское книжное изд-во, 1969, с.185

7. Ровенский Г.В.Топонимический справочник Щелковского района. Названия селений, рек и озер, болот, лесов, дорог и примечательных местностей и гипотезы их происхождения. 2-е изд. Щелково-Фрязино. 2006. http://www.bogorodsk-noginsk.ru/atlas/toponimika1.html

8. Черепнин А. И. Местная старина. Борковской могильник. // ТРУАК. – Рязань, 1894, Т. 9, Вып. 1, 2, с. 1–26, 71–103

9. Василь Кобилюх Санскрито-український пояснювальний словник. Наукове видання, Л: Видавництво Університету «Львівський Ставропігіон», 2015, с. 84

10. Янко М. Т. Топонімічний словник України: Словник-довідник, К.: «Знання», 1998, с. 403

11. Гарады і вёскі Беларусі: Энцыклапедыя. Т.2, кн.2. Гомельская вобласць/С. В. Марцэлеў; Рэдкалегія: Г. П. Пашкоў (галоўны рэдактар) і інш. — Мн.: БелЭн, 2005. 520с.

12. http://www.saveplanet.su/geo_term_7612.html

13. http://a.bratsk.su/bal/toponim/milheev/article_06.htm

14. http://www.topos-seo.ru/zanimatelnaja-toponimika/izumrud-i-majdan.html

15. http://nplit.ru/books/item/f00/s00/z0000039/st020.shtml

16. http://www.a-nevsky.ru/library/obrazovanie-drevnerusskogo-gosudarstva2.html

UOT 81

ŞƏXS ADLARINDA ÜSLUBİ XÜSUSİYYƏTLƏR

Nərgiz Musa qızı HACIYEVA

Filologiya üzrə fəlsəfə doktoru,dosent
AMEA, Nəsimi adına Dilçilik İnstitutu

nergiz.haciyeva.1961@mail.ru

XÜLASƏ

Azərbaycan bədii dilində istifadə olunan antroponimlər rəngarəng üslubi xüsusiyyətlərə malikdir. Onların arasında şəxs adlarının geniş, orfofonik cəhətdən tələffüzü əsas yerlərdən birini tutur. Müəyyən üslubi məqsədlərlə, əzizləmə-kiçiltmə məqsədilə şəxs adları qısaldılır və ya ixtisar olunur. Alınma və milli adlarda olan oxşarlıq, alınma və milli adların bir-birini əvəz edərək işlənməsi, şəxs adlarının tərsinə deyilişi, komik anlaşılmazlıq yaradılması və antroponimlərin ikili vəziyyətdə işlənilməsi bu tədqiqatın əsas üslubi xüsusiyyətlərindəndir.

Açar sözlər: antroponim, ixtisar, tələffüz, orfoepik, orfofonik

СТИЛИСТИЦЕСКИЕ ОСОБЕННОСТИ В СОБСТВЕННЫХ ИМЕНАХ

РЕЗЮМЕ

Антропонимы, используемые в азербайджанской художественной литературе имеют разнообразные стилистические особенности. Среди них произношение собственных имен с широкой, орфофонической стороны занимает одно из главных мест. По определенным стилистическим целям собственные имена сокращаются или уменьшаются с ласкательной целью. Проблема сходства звуков в заимствованных и национальных именах, использование заимствованных и национальных имен заменяя друг друга, обратное чтение собственных имен, создание комического недоразумения и проблема двойного использования антропонимов являются стилистическими особенностями важного исследования.

Ключевые слова: антропоним, сокращение, произношение, орфоэпический, орфофонический

STYLISTIC FEATURES IN PROPER NAMES

SUMMARY

Anthroponyms used in Azerbaijani fiction have various stylistic features. The pronunciation of proper names from board orthophonic side takes one of the main places. For certain stylistic purposes proper names are shortened or reduced for caressing aims. The problem of similarity of sounds in borrowed and national names, use of borrowed and national names replacing each other, reverse reading of proper names, creation of comic misunderstanding and the problem of dual use of anthroponyms are stylistic features of important research.

Key words: anthroponym, shortening, pronunciation, orthoepic, orthophonic

Azərbaycan bədii ədəbiyyatında işlənən antroponimlər zəngin üslubi xüsusiyyətləri ilə diqqəti cəlb edir. Şəxs adlarının üslubi xüsusiyyətləri ayrı-ayrı tədqiqatçılar tərəfindən geniş araşdırılsa da, tədqiq olunmalı bir sıra cəhətlər hələ də qalmaqdadır. Belə ki, yazıçılar şəxs adlarından müxtəlif üslubi məqsədlərlə, surətin xarakteroloji xüsusiyyətlərini açmaq üçün, emosionallığı artırmaqdan ötrü, komiklik, yumor yaratmaq məqsədilə, adları qəsdən təhrif edərək, xalq etimologiyasına uyğun işlədərək və s. məqsədlərlə geniş şəkildə istifadə edirlər. Onomastik vahidlərin üslubi imkanları barədə H.Hüseynova yazır: "Onomastik vahidlərin poetikası məsələsi bu sistemin dərin laylarına nəzər salmaq, üslubi tərəflərini müəyyənləşdirmək və açmaq üçün gərəklidir… Onomovahidlərin üslubi imkanları bədii mətndə o zaman gerçəkləşir ki, onlar müəyyən emosional anlayış ifadə etsinlər" (1, s.54).

Bədii əsərlərin dilində işlədilən antroponimlərdə daha çox özünü göstərən xüsusiyyətlərdən biri onların tələffüzü ilə bağlı məsələlərdir.Tələffüz üslublarından danışarkən Ə.Dəmirçizadə onların dar və geniş mənada işlənməsini qeyd edir [2, s.7-9]. Son dövrlərdə Azərbaycan dilinin şəxs adlarının tələffüzü ilə bağlı dar, orfoepik cəhətdən tədqiqat əsərləri mövcud olsa da [3], antroponimlərin bədii əsərlərdə geniş, məqsədəuyğunluq əsasında tələffüzünün tədqiqi azlıq təşkil edir. Şəxs adlarının orfoepik və orfofonik xüsusiyyətlərini tədqiq edən Z.Əlibəyova yazır: "Dilin fonetik sistemi onun danışıqda meydana çıxan xüsusiyyətlərinə əsaslanır. Orfofonik qaydalar buna əsasən təkmilləşir və dəyişir. Qeyd olunan cəhət dilin fonem sisteminə təsir göstərir. Deməli, orfoepiyanın orfofoniyadan ayrılmasına həm nəzəri, həm də praktik zəmin yaranır" [3, s.97]. Tələffüzün orfoepik və orfofonik xüsusiyyətləri tələffüzün tipindən və müvafiq kontekstdən asılıdır. Bədii əsərlərdə antroponimlərin geniş tələffüz üslubları barədə məlumat verilsə də [4, s.43-74], bəzi məsələlər barədə qeydlərimizi bir daha göstərmək istərdik.

Kontekstdən asılı olaraq surətlərin dilində tələffüzün müxtəlif məqamları özünü göstərir.

1) Alınma mürəkkəb şəxs adları uzun deyilməsin deyə qısaldılaraq işlədilir. Məsələn:

Musa bunun adının hamısı deyil, əsil adı o qədər uzundur ki. Pasporta yerləşmir – **Musa ibn Səid əl Caber….** dalı da var…– Qısası**, Musa**, – qarabala günahkarcasına qımışdı [14, s.269].

Nə dayı-mayı salmısan? Məni **İvan Petroviç** çağır, ya da, sadəcə "**Petroviç**" deyə bilərsən. İstəyirsən lap "**aksakal"** de, əgər yaraşırsa mənə… [14, s.73].

Bəzən mürəkkəb şəxs adlarında sözün ikinci hissəsi ixtisar olunur, birinci hissənin ilk iki səsi isə əzizləmə məqsədilə qısaldılır və "ş" şəkilçisi qoşulur. Məsələn:

Mənim adım **İboşdu. İbrahimxəlildi, İboş** deyirlər. Özüm də öyrəşmişəm [17, s.254].

Mürəkkəb şəxs adlarının ixtisar olunaraq işlədilməsini bəzən yazıçı kinayə, yumor yaratmaq üçün müəyyən üslubi məqsədlə göstərir və tənqid edir. Məsələn: Zootexnik **Qələmxan** partiyaya keçəndə yazığın başına nə oyun açdılar? Nədir ki, bəs adında "**xan"** kəlməsi var. Dedilər kommunist partiyasının sıralarında durmaq istəyirsənsə get, pasportda "xan"ı sildir. Onu sildirəndən sonra ta nə qalar…Qələm. **Qələm** adam adı olar? Gülməlidir vallah [14, s.59].

Sadə şəxs adlarının da əzizləmə məqsədilə rus şəxs adlarına uyğun işlədilməsini görürük. Məsələn:

– Alik kimdir, ə? – Kərim maraqlandı. **Əlif** gülümsədi: – Urusyetdə mənə **Alik** deyirdilər, dilləri heylə yatırdı [15, s.112].

– Bravo, **Qüdrət" Bravo, Qudya...** [19].

– Əsl adı bəlkə də **Alik** deyildi, amma ermənilər onu belə çağırırdlar… Oğlumun adını onun şərəfinə **Alik** qoymuşam.

– Hə.. **Ələmdar** mənalı təbəssümlə başını yellədi, – həmin **Alik** bu saat sənin qarşında oturub…. [10, s.81].

Yayda bizim qonşunun gədəsiynən gələn **sarı pişiyi** görmədin? Necə deyirdilər adına da**? Marrə, ya Mirra**... [19, s.111].

Bəzən şəxs adı əzizləmə məqsədilə o qədər təhrif olunaraq işlədilir ki, onun əsil adının nə olduğu bilinmir. Məsələn:

O da öz aləmində, guya onları dindirsin deyə, ayaq saxlayıb soruşdu: – **Ziziya** hələ gəlib çıxmayıbdır?

– **Ziziya**, yox...Bağışlayın, əsil adınız nədir? İcazə verin sizə Ziziya deməyim, dilim yatmır. – Adı **Nərgizdi** – Toma şaqqanaq çəkib güldü [19, s.84].

Əvvəla, sənin adın **Qusya** deyl, **Hüseyn**dir. Atanın adı **Kiska** deyil, **İskəndərdir.** III-sü, ananın adı **Dezdemona** deyil, **Tükəzbandır** [9].

2) Şəxs adlarının tələffüzü zamanı adın yalnız birinci hecası müxtəlif

üslubi məqsədlə təqdim olunur. Məsələn, ölüm ayağında olan şəxsin, onu zəhərləyən şəxsin adının yalnız birinci hecasını tələffüz etdiyini yazıçı göstərir. Məsələn:

Pelageya xala dedi: "Bala, mə-ənə...k...oo...on-yak....**As....as**.... – Rumyantsev, sözləri başa düşmədim, bir də təkrar elə. – **As....as....-"As**" nədir?... Ola bilər ki, "As" sözü həmin adamın ya adının, ya da familiyasının birinci iki hərfidir [12,140].

Bəzən şəxs adlarının birinci hecası personaj tərəfindən müəyyən fikrin çatdırılmasında tərəddüdü zamanı göstərilir. Məsələn:

– Bu daşları necə gətirmisən, eləcə də apar get! Yoxsa **Sül**.... o adəti üzrə **Süleymanın** canına and içmək istədi, ancaq uddu [16, 105];

Məmiş könülsüz-könülsüz mızıldandı: – **Sevdimalıyev Məmiş Qasımxan oğlu**. Cəbiyev höccələdi: – "**Sevdimalıyev Ma**…" – duruxdu. – Adın urusca nə biədəb çıxır, ə? Dədən-nənən bir yönnü ad tapmayıb saa? Matışqalarla oturub-duranda bir ayrı ad deyərsən – **Əlidən, Vəlidən** bir ad yamayarsan, gedər… [14, s.244].

Bəzən şəxs adına hörmət məqamında, müəyyən üslubi məqsədlə qadına "qardaş" deyə müraciət olunaraq işlənən vokativ sözlərin birinci hecası ixtisar olunaraq tələffüz olunur və gülüş yaradılır. Məsələn:

Züleyxa. Məhəmməd, kəndimizdə qalmırsan?

Məhəmməd. Qalıram, qalıram **Züleyxa qa-qa-qa**....

Züleyxa. Nə?

Məhəmməd. Qaranquş demək istəyirəm. ..[23].

Şəxs adları o qədər ixtisar olunur ki, yalnız şəxs adının baş hərfləri göstərilir. Məsələn: Yenə sol əlinin üstünə "**M**" hərfi döydürmüş göy maskalı terrorçu barədə fikirləşdi…**Məltəm** xanımın əri" "**M"….Yəni, Məltəm** [10, s.187].

- Telefonun ekranında "**TR"** adı göründü. Bu o idi – Nuranı bir neçə gün əvvəl polis şöbəsinə katibə kimi yerləşdirən şəxs [20, s.91].

Şəxs adlarında yalnız bir səsin işlənməsi ilə yazıçı əsərdə bir neçə üslubi məqsəd güdür. Məsələn, Varisin "Bir ovuc torpaq" əsərinin bir neçə yerində iki "Zz" hərfi gah "Zərifə və Zaur", gah "Birinci və ikinci Zaur", gah da "Zülmə zərbə*"* mənasında işlədilir. Məsələn:

Böyük və kiçik **"z"**lar böyük və kiçik **Zaurlar** deməkdir. Bir **Zaur** getdi, amma yerinə ikinci gəldi. "**Zülmə zərbə**" deməli, davam edəcək… [25, s.316].

3) Uşaq dilinin şirinliyini göstərmək üçün şəxs adlarının tələffüzündə *s* və *ş* səsləri əvəz olunur. Məsələn:

Məltəm əyilib uşağın başını bir daha sığalladı: – Adın nədir sənin, balaca? –**Şale**…uşaq astadan cavab verdi. – Nə? – Məltəm onu anlamadı. – Adı **Salehdir**, – nənəsi oğlanın əvəzinə dilləndi [10, s.5].

4) Azərbaycan dilində "Mus-mus deyincə Mustafa de" aforizmi işlənir.

Müəyyən üslubi məqsədlə, şəxs adını dəyişdirməklə, Murtuza şəxs adına uyğun olaraq "Murt-murt Murtuza" ifadəsi yazıçı tərəfindən okkazional ifadə kimi işlədilir. Məsələn: **Murt-murt** deyincə birdəfəlik **Murtuza d**esin [11, s.15].

5) Müəyyən üslubi məqsədlərlə alınma ad milli adla əvəz olunaraq xalq etimologiyası şəklində tələffüz olunur.

– Elnurə (mən arvadım **Elmiranı** belə çağırıram) darıxıram... [12, s.46].

Çox zaman da milli adlar təhrif olunaraq alınma ad yerində işlədilir. Məsələn:

– Get! Qız əlini uzadıb dedi: – Tanış olaq, Klara mənəm. – Siz ermənisiniz? – Xeyir, azərbaycanlı. – Bəs adınız nə **üçün Klaradır**?

– A…a….**Gülarədir** də. Padruqalarım məni belə çağırır [13, s. 22].

Personaj öz milli adını rus dilinə uyğun şəkildə təqdim etsə də, qarşısındakı milliyyətcə rus olan şəxs onun adını Azərbaycan dilinə uyğun, rus tələffüzü ilə ifadə edir. Məsələn:

– Mən isə Yurikəm. – Bilirəm. Özü də **Yurik yox, Yatullax** [13, s.91].

6) "Şəxs adlarının poetik funksiyası daha parlaq şəkildə təkrarlarda, kinayə, antonimasiya, peyorativ və meyorativ konstruksiyalarda ifadə olunur. Bu onu deməyə imkan verir ki, antroponimlərin işlənməsi əsərin sosioemosinal fonunun yaradılmasında daha mühüm rol oynayır, müəllif ustalığının parlaq nümunələridir" [5, s.410-417].

Bəzən qarşısındakı adamı alçaltmaq, ona həqarət məqsədilə, kinayə, ironiya yaratmaq üçün şəxs adları qəsdən təhrif olunaraq tələffüz olunur. Məsələn:

– **Qüdrət** yox, Toma xanım, **Qürbət**. Mən anadan olandan bəri **Qürbətəm,** heç vaxt **Qüdrət o**lmamışam [19, s.83].

Məsələn: Əmrulla. Yeri, bircə o **Gülbadamxanıma** de ki, özək komisyonu gözləyir... Əlabbas. **Gülbadam xanım** hansıdır? Əmrulla. O **Gülsabah xanım** da [8].

7) Bədii əsərə daxil olan şəxs adları bədii obrazı yaradan vasitələrdəndir. M.V.Sokolova yazır ki, onimlər özlüyündə məna yükü daşıya bilər, səs sahəsinə malik ola bilər, assosiativ fona malik ola bilər (6, s.182-184). Şəxs adının mənasına uyğun olaraq digər adlar onunla qəsdən assosiasiya yaradaraq uydurma adlar kimi tələffüz olunur.

Məsələn: Toğrul. O ki şəhərdə dilindən düşmürdü. **Yaqutdur, Zümrüddür, saxsıdır**, nədir [8]; Gülüş. Bu da öz dediyindən ya **Tabaq bəydir, ya Çanaq bəydir**, kim nə deyirsə desin, onun üçün fərqi yoxdur. Məmmədəli. Heç yox, mənim adım **Kasa bəydir**. Gülüş. Çox gözəl! Bir sözlə, **Qabqacaq bəy**! [8].

8) Şəxs adlarında özünü göstərən üslubi xüsusiyyətlərdən biri də şəxs adlarının ümumi isimlərlə paronimlik təşkil etməsidir. Mənası və səslənməsinə görə oxşar olan sözlər şəxs adları ilə ümimi isimlər arasında paronimlik yara-

dır. Məsələn:

Bilmirdin adını **Qürbət** qoyanda bunun **qəribliyə** düşməsi var?[19, s.170].

– Sizin yerin adı nədir, qədeş? – O, qarabaladan soruşdu. – Zimbabve. – Alə, hər kərəm bu **Zimbabve** sözünü eşidəndə **Zimbala** yadıma düşür…… [14, s.266].

9) Bəzən müəyyən alınma familiyaları tələffüz edə bilməyən şəxsin dilində həmin soyad başqa sözlə əvəz olunur. Məsələn:

….deyirdi, Şahsuvar, o vədə getdin Leninin arvadının (**Krupskaya** sözünə dili yatmırdı) adına olan texnikumu oxudun…[15, s.213].

Hər bir milli dilin advermə ənənəsi olsa da, bəzən ayrı-ayrı dillərin ad sistemində səs paralelliyi özünü göstərir. Şəxs adlarının tələffüzündə özünü göstərən maraqlı cəhətlərdən biri də milli ad və familiyaların digər dildə işlənən ad və familiyalarla səs uyğunluğu məsələsidir. Yazıçılar əsərdə komiklik, yumor yaratmaq məqsədilə belə sözləri təhrif edərək digər dillərdə işlənən ad və soyadlara uyğun işlədirlər. Məsələn:

Zabit əlini qaldırıb əsgərlərə "hazır ol" əmrini verəndə Əvəz başını qaldırıb səmaya baxır, pərvazlanan quşları seyr eləyib deyir:" Haylf səndən Verdiyev, cavan getdin…" Bunu eşidən zabit duruxur, əli havada özlüyündə pıçıldayır: "**Verdiyev. Verdi…**" Zabit qayldıb soruşur ki, məşhur italyan bəstəkarı **Cüzeppe Verdiyə** simsarlığı çatmır ki? [14, s.158].

Doktor Zaurun atasının adını və soyadını "**Mamedaliyev Rauf**" deyə oxumuş, ardınca da **Matfeyev Raf** adlı bir alimin adını çəkmişdi. Soyadları və adları oxşar olduqlarından **Raf Matfeyev** sözləri də Zaurun yadında qalmışdı… [25, s.158].

Bəzən alınma ləqəb düzgün tələffüz olunmadığı üçün gülüş yaradır. Məsələn: Ona **Razminkə Rzabala** deyərlər. **Rezinkə?** Yəni burda quş da atırlar? [9].

10) Azərbaycanın şair və yazıçılarının tanımayan, onların adlarını düzgün tələffüz edə bilməyən avam, savadsız personajların nitqi yazıçı tərəfindən tənqid, gülüş hədəfinə çevrilir. Bu zaman həmin klassiklərin təxəllüsləri soyad kimi tələffüz olunur və oxucuda gülüş yaradır. Məsələn:

Deyirəm, Şəkərəli qağa, bizim tərəflərdən böyü adamlar çıxır ey.... Misal üçün: rəhmətlik əmim Gülmalı – milis naçalniki, sonra...o arvadın adı nədir? Hə, **Xurşidbanova Natəvan** – şair... [18]; Qorxmazov....Mənim bu sinəm xəzinədir, xəzinə. Bax, **Xəyyamov** burda yatır, **Füzulov** burda yatır, **Seyid Əzimov** burda yatır, **Əlağa Vahidov** burda yatır... [24]; Qorxmazov. Yoxsa onu istəyirsiniz ki, gözünüzün qabağında diri-diri dərimi o qədim şair **Nəsimov** kimi dabanımdan soysunlar? [24].

Millli şair və yazıçılarla yanaşı, bədii əsərlərdə ayrı-ayrı şəxslər tərəfindən xarici yazıçıların, klassiklərin də tanınmaması qəhrəmanın kütlüyünün, avamlığının göstəricisidir. Məsələn:

– Bu həkimanə sözləri **Viktor Hüqo** demişdir: "İndi siz gəncliyin qocalığı ilə qocalığın gəncliyi arasında yaşayırsınız".

– Doktor, məsləhət bilsəydiniz, bir ona da göstərərdim özümü.

– Kimə?

– O dediyiniz **Viktora**. Can həkimi deyil? [18].

Necə oldu, bilmədim, bir də gördüm ki... **Şekspirlə** boçka üstə oturub noxudla sərin pivə vururuq [18].

11) Bəzən bir abzasda yazıçı komik anlaşılmazlıq yaratmaq məqsədilə şəxs adını alınma söz kimi əzizləmə məqsədilə təqdim edir və bu səslənməni sovet dövrünün maşın adına oxşar səslənmə ilə uyğunlaşdırır. Eyni zamanda alınma ləqəb şəxs adı ilə ahəngdarlıq yaradaraq tələffüz olunur və alınma sözü başa düşməyən personajın ləqəbi ad kimi anlaması gülüş doğurur. Məsələn:

Cəlal Səliməyə baxdı, Səlimə Cəlala, bir şey başa düşmədilər. – Ay oğul, "ZİS" kimin olasıdı, hara gələsidi? – Cəlal hesab etdi ki, yəqin bağa "ZİS" maşını gəlməlidir. Bobik hündürdən güldü: – Dayday, "**ZİS"** demirəm, **Ziziyan**ı soruşuram. **Qudbay Qürbət** sizi başa salar – deyib getdi... – A kişi, deyəsən axı bu gədə başqa şey dedi, mən elə başa düşürəm ki, **Qürbətnən Qudbəy** gəlib, zizi nə olan seydi [19, s.110].

12) Elmin, texnikanın, internetin inkişafı bədii əsərlərdə şəxs adlarının işlənməsinə də təsir edir. Müəyyən üslubi məqsədlərlə, digərləri tərəfindən anlaşılmasın deyə, detektiv bədii əsərlərdə şəxs adlarının internet ünvanı tərs işlədilərək göstərilir. Məsələn:

Züleyxaya "Gələn məktublar" qutusunda isə spamlardan başqa bir məktub vardı. Bu məktub qəribə bir ünvandan gəlmişdi: **ribas_ 22(a)yahoo.com**…. Məktubu göndərənin ünvanını əksinə oxuduqda açıq-aydın **Sabirin** adı yazıldığı görünürdü. "22" isə sözsüz ki, Sabirin yaşını göstərirdi [21, s.71].

Bədii satirik əsərlərdə üslubi məqsədlə, gülüş yaratmaq üçündə adlar tərsinə deyilir:

– **Əliabsət** deyilsən?

– Yox, dalqabaq de. – Nə? Balqabaq?

– Yox ey. Yəni deyirəm ki, Əliabsəti dalqabaq de. Adım **Absatəlidir** [9];

Bu dəfə Şəkərəli qalxaraq eloğlusunun əlini sıxdı...adın nə oldu? – Adım nə olacaq? **Barut**. – Barıt? – Xeyr, **Barut.** Dədəm **Turab** ismini dəyişib mənə bu adı qoyub ki, özünə oxşamasam da, heç olmasa astar üzünə oxşayım [18].

13) Bədii əsərlərdə kişi xasiyyətli qadınlara müraciətdə qız, xala, bacı və s. vokativ sözləri əvəzinə oğlu, qardaş, dayı və s. sözləri işlədilir. Məsələn:

Həmin günə qədər kim idi o? Xüsusi xidmət baş leytenantı **Gültən Dəmirli. Dövlətlə Vətənin qızı**. Yox, daha doğrusu, **oğlu**… [10, s.144].

Arvadın üzündə iki iri, göy xal vardı, iri burnu, çatma qaşları, uca boybuxunu vardı. Hamısı da ona "**Şahpəri dayı**" deyərdi [17, s.239].

Məhəmməd. **Züleyxa qardaş**, gözünü yum, üzümü sənə çevirmək istəyirəm [23].

14) Şəxs adlarının daxili nitqində adlar təkrarlanaraq emosionallığı artırır:

Bu **Qızxanım** udqununca o **Qızxanım** bu **Qızxanımın** qulağına əyilib xısın-xısın deyir. [22].

Bir yol dəhlizdə əlini eşmə bığına aparıb "**Koroğlu** adı mənə yaraşar" – deyib söz atdı. Koroğlu onun zarafatını cavabsız qoymadı, dedi, nə ziyanı var, innən belə yataqxanada **iki Koroğlu** olar. **Mamaoğlu** diksindi…elə bil qorxurdu ki, günü sabahdan onu **Koroğlu** çağıracaqlar …[14, s.132].

İttihamçı Kərim vəkil Kərimə baxıb mənalı-mənalı başını bulayır, yəni deyir, gördün də, yetimdən soruşurlar, kimi söyərsən, deyir, mənə çörək verəni [15, s.16].

Bu üzdəki **Gültən idi. Gizlindəki Gültən** isə yeddi il durmadan ən ağır dərslərlə, ən ağır qınaqlarla yetişdirildi [10, s.31].

Qaçqınların iki dünyası vardı, ikili dünya yaşayırdılar və Talıba elə gəlirdi ki, öz çadırında tək deyil. **Bir özüdür, bir də başqa Talıb**. Hamı ikiləşmişdi: **iki qəssab Qədir vardı. İki dəllək Polad, iki səy Baxış, iki zurnaçı Xurşid, iki Mənsur müəllim** [15, s.364].

Şəxs adlarının folklorda başqa şəxs kimi təqdim edilməsi barədə tədqiqatlar vardır [3, s.95-110]. Yazılı ədəbiyyatda müəyyən üslubi məqsədlə eyni adamın bir neçə adla göstərilməsi barədə tədqiqata rast gəlmədik. Belə adlar müstəqillik dövrü bədii əsərlərin dilində daha çox işlədilir. Bunlar bir neçə cəhətdən özünü göstərir:

a) milli adın alınma adla əvəz olunaraq işlənməsi:

Məxfi Şöbə tərəfindən "**İlayda"** adı altında Kərkükə göndərilmiş həmin qız baş leytenant **Gültən Dəmirli** olmuşdu [10, s.24].

Vüqarı ələ keçirərək əsil adı **Sapko Andrey Akimov** olan, amma **Mahmud** müəllim adı ilə uzun müddət A. rayonu 3 saylı uşaq evində müdir işləyən adamın yerini tapdım [20,s. 482].

Vüqar **Sapkonun** saxta adının **Mahmud** olduğunu bilmirdi [20, s.482].

b) eyni adamın bir neçə adla təqdim olunması:

Elə həmin gün idarəyə dəvət edilmiş Məryəm xanım qarayanız oğlanın öz tələbə kirayənişin olduğunu təsdiqlədi: – Bəli, bu odur, **Zəfərdir**… İbrahim başının hərəkəti ilə təsdiq etdi: – Bəli, tanıyıram onu. Adı **Validdir**… Poladov bu fotoşəkli Ömərova göstərəndə o dedi: – Bu **Zakirdi**r. Artıq şübhə yeri qalmırdı. "**Zakir", "Zəfər" və "Valid**" indi təhlükəsizlik orqanlarının axtardıqları casus idi [26, s.267].

Tahir **Aydanla** görüşündə ona Azərbaycanda istifadə etmək üçün hazırlanmış yeni şəxsiyyət vəsiqəsi təqdim etdi. Burada onun adı **"Nuriyyə**" kimi göstərilirdi [20, s.113].

Göstərilən xüsusiyyətlər bir daha onu deməyə əsas verir ki, şəxs adları

çox zəngin üslubi xüsusiyyətlərə malikdir və tədqiq olunduqca maraqlı faktlar üzə çıxır.

Ədəbiyyat:

1. H.Hüseynova. Bədii əsərdə onomastik vahidlərin rolu. Bakı, ADPU-nun nəşr., 2017, 190 s.
2. Ə.Dəmirçizadə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, APİ, 1969.
3. Z.F.Əlibəyova. Azərbaycan onomastikasının orfoqrafik və orfofonik məsələləri. Nam. diss. Bakı, 2016, 142 s.
4. N.M.Hacıyeva. Azərbaycan dilində antroponimlərin üslubi xüsusiyyətləri. Bakı, Elm və təhsil, 2014, 175 s.
5.Г.Х.Зинатуллина. Стилистические особенности литературных антропонимов. Вестник Нижегородского Университета Н.И.Лобачевского, 2010 №3 (1), с. 410-417.
6. М.В.Соколова. Функционально-стилистическая нагрузка имени собственного художественном тексте. Вестник Челябинского Государственного Университета, вып. 60, 2011, №33 (248), с.182-84.
7.Ə.Mikayılova. Azərbaycan dilində ləqəblər (Şamaxı rayonunun materialları əsasında). Bakı, Elm və təhsil, 2018, 223 s.

Bədii ədəbiyyat

8. C.Cabbarlı. Seçilmiş əsərləri, I cild, Bakı, "Yazıçı", 1983, 240 s.
9. Dağlı S. Şakərlilər. Bakı, "Gənclik", 1978, 176 s.
10. Elatlı E. Qanunsuz əməliyyat. Bakı, "Elgün", 2017, 292 s.
11. Əlizadə M. Hekayələr. Bakı, "Uşaqgəncnəşr", 1961, 88 s.
12. Əmirov C. Qara Volqa. Bakı, "Qanun" nəşriyyatı, 2017, 412 s.
13. Əmirov C. Brilyant məsələsi. Bakı, "Azərnəşr", 2008, 360 s.
14. Əşrəfoğlu K. Daşlı qala. Bakı, "Nurlar", 2015, 368 s.
15. Əşrəfoğlu K. Tüfəng açıldı. Bakı, "Qanun", 2015, 368 s.
16. Hacızadə Ə. Dünyanı tanı. Bakı, "Gənclik", 1990, 424 s.
17. Kərimzadə F. Qarlı aşırım. Bakı, "Gənclik", 1987, 332 s.
18. Qədirzadə S. Ülkər-Aytəkin. Bakı, "Azərnəşr", 197, 390 s.
19. Mehdiyev H. Sənsiz keçən günlərim. Bakı, "Yazıçı", 1985, 248 s .
20. Müşfiqxan.Tənha canavar.Bakı, "Hədəf" nəşrləri, 2013, 502 s.
21.Müşfiqxan.Sonuncu hədiyyə. Bakı, "Xan" nəşriyyatı, 2017, 152 s.
22.S.Rəhimov.Seçilmiş əsərləri, IX cild.Bakı, "Yazıçı", 1980, 336 s.
23.S.Rəhman.Seçilmiş əsərləri,V cild.Bakı, "Yazıçı", 1978, 355 s.
24.S.Rüstəm.Seçilmiş əsərləri, III cild, Bakı, "Yazıçı", 1971, 326 s.
25.Varis.Bir ovuc torpaq. Bakı, "Vektor" nəşriyyat evi, 2009, 318 s.
26.O.Zeynalov. Çağırılmamış qonaq. Bakı, "Letterpress" nəşriyyatı, 2012,s.336

UOT 81

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ SOMATİK KOMPONENTLİ ONOMASTİK VAHİDLƏR

Jalə Elman qızı QƏNİYEVA

Qərbi Kaspi Universiteti, müəllim

jalegeniyeva@hotmail.com

Xülasə

Xalqın dili, dilin mənşəyi, etimologiyası ilə əlaqəli olan onomastik vahidlər lüğət tərkibini zənginləşdirən söz qruplarından biridir. Müasir Azərbaycan dilində kifayət qədər onomastik vahidlər vardır. Araşdırmalarımız zamanı müəyyən etdik ki, söz yaradıcılığında böyük əhəmiyyətə malik dilimizin qədim layını təşkil edən bədən üzvləri adları, somatik sözlər onomastik vahidlərin yaranmasında da çox mühüm rol oynayır.

Açar sözlər: somatika, onomastika, leksika

СОМАТИЧЕСКАЯ СОСТАВЛЯЮЩАЯ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Ономастические единицы котории связанных с язык народа, происхождение и этимология языка одно из слов группы обогащение словарного состава. В современном Азербайджанском языке есть достаточно ономастические единицы. Время исследования мы определили, что имена членов тела, соматические слова составляющие древний слой лексикона Азербайджанского языка котории имеет большое значение в создании слова и играет важную роль в формировании ономастических единиц.

Ключевые слова: соматика, ономастика, лексика

ONOMASTIC UNITS IN MODERN AZERBAIJANI LANGUAGE WITH SOMATIC COMPONENT

SUMMARY

Onomastic units associated with the language of the people, the origins of language, etymology is one of the word groups that enrich lexicon. There are enough onomastic units in modern Azerbaijani language. During our research, we have determined that body names, somatic expressions that form an ancient layer of our tongue plays an important role in the formation of onomastic units, too.

Keywords: somatic, onomastic, lexicon

Müasir Azərbaycan dilinin lüğət tərkibindəki bütün isimlər ümumi və xüsusi olaraq iki qismə bölünür. Ümumi isimlər eynicinsli əşyaların ümumi adını bildirən isimlərdir. Məsələn, universitet, tələbə, dövlət, jurnal, müəllim, dağ, çiçək və s. Xüsusi isimlər isə varlığı tək olan əşyanın adını bildirir. Bu qrupa daxil olan isimlər bir şəxsi, əşyanı başqasından fərqləndirmək üçün verilən adlardır [3, s.47]. Məsələn: Vəli, Bakı, Azərbaycan qəzeti, Kür, Qırat, Alabaş və s. Belə sözlərin məcmusu dilçilikdə onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomologiya adlandırılır [2, s.250].

Bu sahə üzrə dünya dilçilərindən N.A.Baskakov, V.A.Nikonov, Q.F.Sattarov və başqaları ətraflı araşdırmalar aparmışlar. Azərbaycanda isə onomastika üzrə araşdırmaların tarixi bir o qədər də qədim deyildir. A.Qurbanovun dili ilə desək, onomologiyanı Azərbaycan dilçiliyinin gənc sahəsi adlandırmaq olar [2, s.272]. Ə.Dəmirçizadə, M.Adilov, A.Axundov, B.Budaqov, Y.Yusifov, A.Qurbanov və digərləri Azərbaycan dilinin onomastik vahidlərinə dair elmi tədqiqat işləri aparmışlar. Tədqiqatımız zamanı A.Qurbanovun bu sahə üzrə daha geniş araşdırmalar etdiyini gördük.

Onomalogiya dilçiliyin ən böyük sahələrindən biridir. Bu sahə dilimizdə mövcud olan bütün xüsusi adların yaranmasını, inkişafını, dəyişməsini, vəzifələrini, leksik və qrammatik quruluşunu, üslubi imkanlarını və s. öyrənir. Onomastikanın özünəməxsus yarımşöbələri vardır və bu yarımşöbələr bütün dünya dilləri üçün demək olar ki, eynidir. A.Qurbanov onomastik vahidləri məna və məzmunlarını nəzarə alaraq aşağıdakı qruplara bölmüşdür: antroponimlər, etnonimlər, toponomlər, hidronimlər, zoonimlər, kosmonimlər, ktemotonimlər [2, s.276]. Alim onomalogiyanın tədqiqatının aşağıdakı istiqamətlər üzrə aparılmalı olduğunu məqsədəuyğun hesab edir: dilimizin leksikasındakı xüsusi sözlərin müxtəlif cəhətlərini araşdırmaq; xüsusi sözlərin mənşəyini, areallığını, dil mənsubluğunu müəyyənləşdirmək; xüsusi sözlərin struktur cəhətlərini, yaranma yollarını, semantikasını, dildəki üslubi çalarlarını və s. öyrənmək [2, s.274].

Azərbaycan dilinin lüğət tərkibində onomastik vahidlər geniş və mühüm yer tutur. Bütün söz qrupları kimi bu söz qrupu da maraqlı dil və üslub xüsusiyyətlərinə, o cümlədən özünəməxsus qrammatik xüsusiyyətlərə malikdir. Bu söz qruplarının leksik əlamətlərinə diqqət yetirsək, görərik ki, onların müxtəlif və maraqlı düzəlmə formaları mövcuddur. Daha dəqiq qeyd etsək, dili-

mizdəki onomastik vahidlərin bir neçə: leksik, semantik, morfoloji və sintaktik üsulla yaranma yolları vardır.

Bəs somatik komponentli onomastik vahidlər dedikdə nə nəzərdə tutulur? Somatik komponentli onomastik vahidlər insanın bədən üzvlərini bildirən sözlərin iştirakı ilə yaranan onomastik vahidlərdir. Somatik vahidlər dildə bir sıra söz qruplarının əmələ gəlməsində, dilin leksik tərkibində xeyli sayda yeni sözlərin yaranmasında əvəzsiz rol oynayır. Müasir Azərbaycan dilinin onomastikasını araşdırmalarımız zamanı da aşkar etdik ki, dilimizdə əsasən *burun, qulaq, göz, ağız, barmaq, bağırsaq, daban, bel, baş, dil* və s. kimi somatik vahidlərdən düzəlmiş xeyli sayda onomastik vahidlər mövcuddur:

Ağburun oronimi mürəkkəb sözdür. *Ağ* (rəng; kiçik) və *burun* (qurunun, dağın və ya qayanın sivri bucaq şəklində uzanmış hissəsi) komponentlərindən düzəlib. Xocavənd rayonu ərazisində, Ağcaqoşun çayının sol sahilində dağ adıdır [4, s.20];

Ağdaban oronimi mürəkkəb sözdür. *Ağ* (ağımtıl-bozumtul rəng; kiçik, alcaq, çox da hündür olmayan) və *daban* (aşırım; təpə; dağ yüksəkliyi; dağ və ya qaya ayağının aşağı hissəsi; dağın dibinə yaxın yer) sözlərindən düzəlib, "kiçik aşırım" deməkdir. Şərur, Kəlbəcər və Ağdərə rayonları ərazisində dağ adıdır. Kəlbəcər rayonunda eyni adlı hidronim, çay adı da vardır [4, s.22].

Banbaşı oykonimi mürəkkəb sözdür. *Ban* (çardaq), *baş* və *-ı* (mənsub. şək.) komponentlərindən düzəlib, "*çardaq üstü*" mənasındadır. Masallı rayonunda kənd adıdır. Kənd yüksəklikdə yerləşdiyi üçün bu adı almışdır [4, s.111];

Bağırsaq oronimi sadə sözdür. Şərur rayonunda dağ adıdır. Dərələyəz silsiləsinin zirvələrindən biridir. Ətəyindən başlayaraq zirvəsinə qədər dolanbac şəkildə olmasına, yəni bağırsağa oxşadığına görə bu adı almışdır. Kəlbəcər rayonunda eyniadlı hidronim, çay adı da vardır [4, s.102];

Başlıbel oykonimi mürəkkəb sözdür. Oykonim *başlı* (şiş uclu, yüksək zirvəsi olan) və *bel* (tirənin üstü) kompo- nentlərindən düzəlib. Kəlbəcər rayonunda kənd adıdır. Eyni adlı hidronimin, Başlıbel çayının sahilində yerləşir [4, s.117];

Beşbarmaq oronimi mürəkkəb sözdür. Oronim *beş* və *barmaq* komponentlərindən düzəlmişdir. Dağ zirvələrinin əl barmaqlarına oxşamasına görə belə adlandırılmışdır. Dəvəçi rayonu ərazisində dağ adıdır. Beş çılpaq zirvədən ibarətdir [4, s.122];

Boğaz düzənliyi oronimi sadə sözdür. Samur-Dəvəçi ovalığının Abşeron yarımadasına qovuşan və ondan Sumqayıt çayı ilə ayrılan hissədir. Buradakı *boğaz* sözü "keçid" mənasında işlənmişdir. Düzənlik Böyük Qafqazın cənub-şərq qurtaracağı ilə dəniz arasında dar keçid təşkil etdiyinə görə belə adlandırılmışdır [4, s.143];

Burunsuval/Burunoval oronimi mürəkkəb sözdür. *Burun* (çıxıntı) və *suval* (lay daş, tava, dağ) komponentlərindən düzəlib, "*dağ burnu*" deməkdir. İsmayıllı rayonu ərazisində dağ adıdır [160].

Buynuz oykonimi sadə sözdür. İsmayıllı rayonunda kənd adıdır. Kənd adını Buynuz dağının adından almışdır. Türk dillərində *buynuz* sözü "ön, qabarıq hissə, çıxıntı" mənalarında işlənmişdir. Dağın adını mal buynuzuna oxşaması ilə də əlaqələndirirlər [4, s.160];

Daşüz oronimi mürəkkəb sözdür. *Daş* və *üz* kompo- nentlərindən düzəlib. Acınohur ön dağlığında, Alazan-Əyriçay vadisinin cənub hissəsi boyunca uzanan tirədir. Qanıx və Göyçay çayları arasında yerləşən silsilənin səthi daşlıq olduğu üçün Daşüz adını almışdır. Oronim "*üzü daşlı, səthi daş olan*" deməkdir [4, s.217];

Çalburun oykonimi mürəkkəb sözdür. *Çal* (boz rəng) və *burun* (dağın çıxıntılı hissəsi) komponentlərindən düzəlib, "*boz rəngli çıxıntı*" mənasındadır. Gədəbəy rayonu ərazisində kənd adıdır [4, s.182];

Somatik komponentli onomastik vahidlərə *Bağırsaqdərə çayı* [1, s.152], *Baldırqanlı bulaq* [1, s.156], *Baş dərə* kəhrizi [1, s.156], *Qırxayaq çeşməsi* [1, s.164], *Qırxgözlü bulaq* [1, s.164], *Üç qulaq kəhrizi* [1, s.172] və s. hidronimləri də əlavə etmək olar.

Dilimizdə xarakterinə və ya fiziki görünüşünə görə insanlara verilən somatik komponentli ləqəblər da az deyil. Onlara misal olaraq isə Saqqal (üzü təraş olunmayan insana), Mindilli (tez-tez yalan danışan insana), Dikburun (özündən razı insana), Saçlı (uzun saçlı insana), Kəllə (savadlı insana), Alagöz (ala gözlü insana) və s. kimi nümunələr göstərmək olar.

Bütün dünya dillərində olduğu kimi, Azərbaycan dilində də iribuynuzlu, xırdabuynuzlu ev heyvanlarına, eləcə də it, pişik kimi heyvanlara da ad qoyulur. Bu onomastik vahidlərin də çox faizi somatik komponentlidir. Məsələn, Ağbaş qoyun [1, s.178], Ağqulaq qoyun [1, s.178)], Ağgöz qoyun [1, s.178], Buynuzlu qoyun, Buynuzsuz qoyun [1, s.179], Təkqulaq təkə [1, s.180], Sarıbaş təkə [1, s.180], Quyruğukəsik pişik [1, s.182] və s.

Araşdırmalarımız göstərdi ki, müasir Azərbaycan dilində somatik komponentli onomastik vahidlərin sayı həddindən artıqdır. Bu da dilimizdəki somatik vahidlərin söz yaradıcığında nə qədər mühüm rola malik olduğunun göstəricilərindən biridir.

Ədəbiyyat:

1. A.Bağırov "Naxçıvan Muxtar Respublikasının onomastik vahidləri" (Kitab). Bakı, 2003, 232 səh.

2. A.Qurbanov "Müasir Azərbaycan ədəbi dili" I cild (Kitab). Bakı, 2003, 450 səh.

3. Q.Kazımov "Müasir Azərbaycan dili" (Kitab). Bakı,1937, 446 səh.

4. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi Adına Dilçilik İnstitutu Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I cild. Bakı, 2007, 427 səh.

UOT 81

REGİONAL TOPONİMİKA VƏ TOPOKONSEPTLƏR

Reyhan Yusif qızı HƏBİBLİ

Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

lala-damirova@mail.ru

XÜLASƏ

Toponimlər rəngarəng informasiya daşıyır. Onlarda xalqın tarixi, mədəniyyəti, xarakteri və müəyyən ərazinin məskunlaşması öz əksini tapır. Hər toponim konkret məzmuna malikdir və onun qavarnılması müxtəlif assosiasiyalarla müşayiət olunur. Toponimin tədris, vətənpərvərlik və tərbiyəvi əhəmiyyəti universal xarakter daşıyır. Məqalədə topokon- septlərin linqvokoqnitiv təsvirinə cəhd edilir, konseptin əsasında duran koqnitiv əlamətlər üzə çıxarılır, dil daşıyıcıları üçün vacib olan konsept zonaları müəyyən edilir.

Açar sözlər: toponim, konsept, söz-stimul, linqvokoqnitiv aspekt

Regional toponym and topoconcepts

Summary

Toponyms contain various information. They deal with the history, culture, character and settlement in the certain area of the nation. Each toponym possesses a specific meaning and its understanding is connected with different associations. The teaching, patriotic and educative significance of the toponyms carries out a universal character. In this article the linguacognitive influence of the topoconcepts is studied, the cognitive indications are revealed and the concept zones which are important for the speakers of the language are determined.

Keywords: toponym, concept, word-stimulus, linguacognitive aspect

Cəmiyyətin istənilən inkişaf mərhələlərində onimlər mühüm tarixi əhəmiyyət daşımışdır. Heç bir insan cəmiyyəti, heç bir dövlət öz inkişaf prosesində özünəməxsus adlar sistemi olmadan keçinə bilməmişdir. Azərbaycan dili uzaq tarixi keçmişdə formalaşmış onomastik sistemə malikdir.

Müstəqilliyin əldə edilməsi və Azərbaycan Respublikasının beynəlxalq münasibətlərin subyektinə çevrilməsi ilə milli onomastika fəal şəkildə dünya məkanına daxil olmağa başladı. Onomastik vahidlər hazırda beynəlxalq rəsmi

sənədlərdə öz əksini tapıb. Azərbaycanın onomastik məkanına daxil olan Bakı, Qarabağ, Şuşa, Xocalı, Gəncə, Qəbələ və b. bu kimi adlar Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatı ilə sıx əlaqədar olaraq təkcə ünvan funksiyası yerinə yetirmir, həm də güclü milli potensialı olan yüksək assosiasiyalı semantik işarələrdir.

Onomastikanın mühüm istiqamətlərindən biri onun təhsil müəssisələrində öyrənilməsidir. Onomastik leksika bütün orta və ali məktəb dərsliklərində öz əksini tapır. Orta siniflərdə elmlərin əsaslarını öyrənməyə başlayan şagirdlərdə elmi anlayışların, terminlərin qavranılması elmi təfəkkürün formalaşması üçün bir sıra obyektiv şərtlər yaradır.

Bütövlükdə onimlər kimi, toponimlər özündə müxtəlif faktorları birləşdirir: vətənpərvərlik, tarixi-mədəni, idraki, estetik və s. Onlarda xalqın xarakteri, tarixi və mədəniyyəti, məişət xüsusiyyətləri, müəyyən ərazinin məskunlaşma xarakteri əks olunur, buna görə də toponimlərin təlim-tərbiyə əhəmiyyəti universaldır. Onlar bütün nitq üslublarında təsadüf edilir, bu zaman istənilən toponim konkret məzmuna malik olur və hər adın qavranılması müxtəlif assosiasiyalarla müşayiət olunur.

Toponimiyanın öyrənilməsinin linqvokoqnitiv aspekti yenidir və az araşdırılmışdır, mühüm milli toponimlərlə bağlı olan mental-mədəni mənaları üzə çıxarmağa imkan verir, onların daxili formasının semantikası haqqında təsəvvürləri dərinləşdirir. Yeniyetmələrin daha mürəkkəb elmi informasiyanın qavranılmasına psixoloji hazırlığı təlim prosesinə elmi tədqiqatların fakt və nəticələrinin əlavə olunmasına imkan verir.

İlk olaraq obyektimiz "Azərbaycan" topokonseptidir. "Hər xalqın milli şüuru onun mənəvi və maddi fəaliyyətinin ən mühüm konseptlərinin məcmusu əsasında formalaşır" [4]. Dilçilərin "konsept" anlayışına müraciəti dildə elmi biliklərin inikası üzrə problemlərin həlli ilə əlaqədardır. Lakin konseptlərin tipologiyası problemi çox mürəkkəbdir və hələ kifayət qədər işlənilməyib. M.V.Nikitin qeyd edir ki, konseptlərin mövcud təsnifatları təxmini xarakterə malikdir, konseptlərin bütün tipləri onlarda əhatə olunmayıb, həm də onların fərqləndirilməsinin müxtəlif prinsipləri qarışdırılır [5]. "Konsept – mental vahiddir ki, əks olunan predmet və ya hadisə haqqında ensiklopedik informasiyadan, həmin informasiyanın ictimai şüurla interpretasiyasından və həmin hadisə, yaxud predmetə ictimai şüurun münasibətindən ibarət, nisbətən nizama salınmış daxili struktura malikdir [6, s.24]. Dilçilik ədəbiyyatında reprezentasiya üsuluna görə fonetik (N.N.Boldırev, V.Q.Kulikov), leksik (N.V.Safonova), sintaktik (Z.D.Popova) konseptlər fərqləndirilir. O.A.Zinovyeva rus mədəniyyətinin Rusiya, Moskva, Peterburq və s. kimi mühüm konseptlərinin əlamətlərini nəzərdən keçirir və onları coğrafi konseptlər adlandırır [3]. Onomastik vahidin (onomaleksemin) mənası ilə reprezentasiya olunmuş konsept onomastik konsept adlanır. "Onomastik konsept – xüsusi adların semantikasını, gerçəkliyin onomastik fraqmenti haqqında bilikləri müəyyən edən onomastik

biliyin xüsusi tipidir" [8]. Onomastik konsept onomastik informasiyanın mühafizəsi və ötürülməsinin universal vahididir, əldə olunmuş bilik onun köməyi ilə dərk olunur. O, dünyanın dil mənzərəsinin ayrılmaz hissəsi olaraq dilin konseptual sisteminə daxil edilir. Dünya haqqında biliyin xüsusi tipi kimi onomastik konsept onomastik kateqoriyanın formalaşmasının əsası kimi xidmət edir.

Məqsədimiz "Azərbaycan" konseptinin və ölkəmizdəki bəzi coğrafi obyekt adlarının məzmununu milli dil şüurunda üzə çıxarmaqdır. "Azərbaycan" söz-stimulunun dil daşıyıcılarının şüurunda yaratdığı ilk reaksiya "Odlar yurdu"dur. Bu həm parlaq mental obraz, həm də tarixi-mədəni bilikdir. Bu konseptin assosiativ sahəsinin linqvokoqnitiv interpretasiyası onun strukturunu formalaşdırmağa imkan verir. Topokonseptin strukturunun mühüm tərkib hissəsi ensiklopedik sahədir ki, kateqorial və diferensial tipli koqnitiv əlamətlərlə formalaşır. Bu zaman informasiya məzmunu bir neçə zona ilə təqdim olunur. Kateqorial zonanın tərkibinə onomastik məkanda topofenomen kimi Azərbaycanın yerini müəyyən edən əlamətlər daxildir (ərazi, coğrafi koordinatlar və s.).

Ərazi: Azərbaycan Respublikası Cənubi Qafqazda yerləşir, Şimalda Dağıstan Respublikası (Rusiya), şimal-qərbdə, qərbdə və cənub-qərbdə Gürcüstan və Ermənistanla, cənubda Türkiyə və İranla həmsərhəddir, şərqdən onu Xəzər dənizi əhatə edir [1, s.260].

"Azərbaycan" konseptinin ensiklopedik sahəsinin diferensial zonası landşaft-coğrafi, tarixi-mədəni və siyasi-iqtisadi yarımzonalardan ibarətdir ki, topofenomenin spesifikasını müəyyən edərək onun yerini dəqiqləşdirir. Mədəniyyət nöqteyi-nəzərindən coğrafi anlayışlar, simvollar, abidələr və müəyyən etnik birliyin üzvü kimi insanın şüurunda canlanan mənəvi impulslar konseptual baxımdan əhəmiyyətli ola bilər.

Landşaft-coğrafi yarımzona coğrafi reali kimi bu topokonseptin yerini müəyyənləşdirir: "Təbii şəraitin xüsusiyyətlərinə görə Azərbaycanın ərazisi dörd fiziki-coğrafi sahəyə bölünür: Böyük Qafqaz, Kiçik Qafqaz (Naxçıvan MR-lə birlikdə), Lənkəran zonası (Talış), Kür-Araz ovalığı" [1, s.260].

Azərbaycanın fiziki-coğrafi vahid kimi qavranılması konkret qrupları adlandıran reaksiyaları nümayiş etdirməlidir: Azərbaycandakı şəhərlərin adları (Bakı, Gəncə, Lənkəran, Quba, Şəki, Naxçıvan, Şamaxı, Ağdam, Laçın, Şuşa, Xankəndi və s.); Azərbaycan ərazisində yaşayan etnosların adları (azərbaycanlılar, ruslar, ləzgilər, talışlar və b.); hidronimlər (Xəzər dənizi, Kür, Araz və b.); oronimlər (Qafqaz, Şahdağ, Murovdağ, Babadağ və s.).

Tarixi-mədəni yarımzona xeyli sayda reaksiyalarla təmsil olunub.

Əhali: Bütövlükdə Azərbaycanda 10 milyon adam yaşayır. Azərbaycan əhalisinin 90%-ni azərbaycanlılar təşkil edir. Rəsmi dövlət dili - Azərbaycan dilidir.

İstirahət və turizm: Turist marşrutları - Şimal marşrutu: Bakı – Qusar; Cənub-Qərb marşrutu: Bakı – Naxçıvan; Qərb marşrutu: Bakı – Qazax; Cənub marşrutu: Bakı - Astara.

Abidələr: Köhnə şəhər (Qala) – İçərişəhər (memarlıq kompleksi, 2000-ci ildən YUNESKO-nun dünya abidələri siyahısına daxil edilib), Bakının simvolu Qız qalası, Şəhidlər xiyabanı, Qobustan, Azıx mağarası (Paleolit dövrü), Beşbarmaq dağı, Şəki xanları sarayı, Şamaxı, Xudafərin körpüsü, Şuşa Dövlət tarixi-memarlıq qoruğu, Atəşgah məbədi və s.

Binalar və tikililər: "Alov qüllələri", Heydər Əliyev Mərkəzi, Muğam mərkəzi, "Cristal Hall" və s.

Tədbirlər: "Xocalıya ədalət!" kampaniyası, Beynəlxalq Qəbələ musiqi festivalı, "Qız qalası" Beynəlxalq İncəsənət festivalı, Beynəlxalq Bakı Humanitar Forumu, "Muğam aləmi" festivalı, "Avroviziya 2012" müsabiqəsi, Bədii gimnastika üzrə Avropa çempionatları, qızlar arasında futbol üzrə Dünya çempionatı, cüdo üzrə Qran-pri, "Bakı 2015" I Avropa Olimpiya oyunları, "Bakı 2016" 42-ci Şahmat olimpiadası, "Formula – 1" yarışları və s.

Ədəbiyyat: "Kitabi-Dədə Qorqud", Nizami, Nəsimi, Füzuli, Molla Pənah Vaqif, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı və b.

Musiqi: Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Müslüm Maqomayev, Rəşid Behbudov və b.

Tarixi hadisələr: Mart hadisələri (31 Mart), Qara yanvar (20 yanvar), Xocalı soyqırımı, Qarabağ müharibəsi (1992 – 1994).

Bayramlar: Novruz bayramı, Müstəqillik Günü, Dövlət Bayrağı günü, Konstitusiya günü, Milli Dirçəliş günü, Ramazan bayramı, Qurban bayramı

Siyasi-iqtisadi zona. Azərbaycan sivilizasiyalararası dialoq məkanıdır. Bu gün Azərbaycan artıq Şərq – Qərb sivilizasiyaları arasında körpü rolunu oynamır, o, bu sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdirir. Mühüm transmilli layihələrə imza atan Azərbaycanın bölgənin aparıcı dövləti kimi nüfuzu və qüdrəti artmaqdadır ("Əsrin müqaviləsi", Bakı – Tbilisi – Ceyhan neft kəməri, şəxsiyyətlər – Heydər Əliyev, İlham Əliyev, Şah İsmayıl, Məmmədəmin Rəsulzadə və b.).

Hər bir çoxetnik məkanın öz mədəni fonu, mədəni-tarixi irsi, ənənələri, mədəni konseptləri var. Bunlarda mədəniyyətlərin qarşılıqlı əlaqəsi müxtəlif mədəniyyətlərin sosial-mədəni təzahürlərinin inteqrasiyası kimi mədəni proseslərlə xarakterizə edilir.

Təhsil sahəsində dövlət prioritetləri mədəniyyət və təhsil məkanının birliyi, milli mədəniyyətlərin, regional və mədəni ənənələrin və xüsusiyyətlərin çoxmillətli dövlət şəraitində qorunması və inkişafıdır. Bu oriyentirlər elə bir ölkə, dünya vətəndaşı tərbiyə etməyə imkan verir ki, müasir cəmiyyətə inteqrasiya etsin, bu cəmiyyətin təkmilləşdirilməsinə istiqamətlənsin, yüksək siyasi və demoqrafik mədəniyyətə malik olsun, ümumbəşəri dəyərləri tanısın, digər millətlərdən olan insanlara hörmət etsin, əcdadlarının mədəniyyəti ilə maraqlansın.

Regional toponimikona təkcə ölkəşünaslıq deyil, həm də tərbiyəvi əhəmiyyət xasdır, çünki o, xalqın təcrübəsinin dil vahidlərində inikası haqqında

fikir yürütməyə imkan verir. Regional toponimikanın tədqiqat sahəsinə müxtəlif dərəcədə tanınan toponimlər daxil edilə bilər. Belə coğrafi obyektlərin öyrənilməsi, həmin ərazilərə info-tur ekskursiyaların, ekoturizmin təşkil edilməsi tərbiyəvi, eyni zamanda, tanıtma xarakteri daşıyır. Azərbaycan ərazisi belə toponimlərlə zəngindir.

Azərbaycan dünyanın ən qədim insan məskənlərindən biridir. Bəşəriyyət bütün inkişaf dövrlərində bu torpaqda öz tarixini yaşamışdır. Tarixi abidələr baxımından Abşeron yarımadası xüsusi əhəmiyyətə malikdir. Qədim yaşayış məskəni olan Abşeron yarımadasının tarixi eradan əvvəlki dövrləri əhatə edir. Burada aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş kurqanlar, ocaq izləri və s. bunu bir daha sübut edir. Abşeronun ən qədim yaşayış məntəqələrindən biri Qala kəndidir. Qala kəndində və ona bitişik ərazidə 215 memarlıq və arxeoloji abidə mövcuddur. Burada e.ə. III minilliyə aid tarixi mühit qorunub saxlanılır. Beş min illik tarixə malik olan Qala kəndində bir neçə məhəllə olub. Bunlardan Tərəkəmə, Balaverdi, Hacı Ramazan, Çəmbərəkənd bu günədək qalmışdır. 2008-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə Qala Tarix-Etnoqrafiya Qoruğunun ərazisində açıq səma altında ilk "Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi" yaradılmış, e.ə. III – II minilliklərə aid kurqanlar, yaşayış və digər memarlıq abidələri ilk görünüşdə olduğu kimi qurulmuşdur. Muzey kompleksində Azərbaycanın tarixi incilərini seyr etmək üçün info-tur ekskursiyalar təşkil olunur. Ekskursiyaları təşkil etməkdə məqsəd böyüməkdə olan nəslin vətənpərvərlik və öz tarixini sevmək ruhunda inkişaf etdirilməsi və respublikaya gələn xarici qonaq və turistlərin sayının daha da artmasına zəmin yaratmaqdır. Bu ekskursiyalar gənclərə milli adət-ənənələri öyrənməyə kömək edir. İnfo-tur ekskursiya insanın zehni fəallığını gücləndirir. Bu, görməli yerlərin, tarixi və mədəniyyət abidələrinin, coğrafi obyektlərin metodik düşünülmüş nümayişidir, yerlərdə obyektlərlə audio-vizual tanışlıqdır. Bu, insanlara spesifik formada çatdırılan məlumatlar toplusudur. Belə ekskursiya artıq mövcud olan bilikləri konkretləşdirə, yenilərini verə, əlavə informasiya əldə etməyə marağı artıra bilər. O, elmi cəhətdən əsaslandırılmış və diqqətlə yoxlanılmış informasiyadan ibarət olmalıdır.

Abşeron ərazisində e.ə. III – II minilliklərə aid bir sıra kurqanlar vardır: "Dübəndi kurqanı", "Türkan kurqanı" və s. Abşeronun qərbində, Qobustan qayalıqlarında eradan əvvəlki dövrə təsadüf edən qayaüstü təsvirlər, Qavaldaş, Yeni Daş-Tunc dövrünə aid mağaralar, Qala kəndi yaxınlığındakı Ağdaş düzü, Xaşaxuna, "Tacir abidəsi", "Toy evi abidəsi" və Dübəndi ərazisindəki arxeoloji qazıntılar və s. Azərbaycan toponimlərinin qədim tarixə malik olduğundan xəbər verir.

Marşruta Abşeron yarımadasında olan mədəni irsin tarixi abidələrinin böyük əksəriyyəti daxil edilir. Ən maraqlısı Qala muzey kompleksidir ki, marşrut məhz burada yekunlaşır. Burada həm arxeoloji, həm də etnoqrafik materiallar var. Muzey kompleksinin yaradılmasında əsas ideya interaktiv turizmin

inkişafına yardım etməkdir. Bu, dünyanın ən inkişaf etmiş ölkələrində hazırda turizmin ən dəbdə olan istiqamətidir.

Məlum olduğu kimi, Dövlət Təbiət Qoruqları – səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbii mühafizə və elmi tədqiqat idarələri statusuna malik ərazilərdir. Azərbaycanda mövcud olan Milli parklar (məsələn, Ordubad, Şirvan, Ağ göl, Altıağac, Abşeron, Şahdağ və Göygöl Milli parkları), qoruqlar ekoturizm obyektləri kimi diqqəti cəlb edir. "Statistik göstəricilərə görə, 2008-ci ildə Milli parklara 501 xarici vətəndaş, 337 yerli, o cümlədən 1000-dən çox imtiyazlı şəxs (məktəbli, tələbə və s.) ekoturist qismində səfər edib" [2].

Ekoturizmin məqsədi ərazinin təbii və mədəni etnoqrafik xüsusiyyətləri barədə təsəvvür əldə etməkdir. Belə səyahətlərin əsas məzmunu canlı təbiətlə, yerli adətlərlə və mədəniyyətlə tanışlıqdır. Ekoturizm turistlərin təhsilinə və düşüncəsinə kömək edir. Belə obyektlərdən bəzilərini nəzərdən keçirək. Bildiyimiz kimi, Qobustanın abidələr kompleksi öz nadirliyinə görə dünya əhəmiyyətli sayılır. "Qobustan tarixi-bədii qoruğu" beynəlxalq turist marşrutu kimi qəbul olunmuşdur. Bu qoruq dünyada tarixi-bədii qoruq kimi tanınır və məqsədi eramızdan 8 min il əvvəl yaranmış qayaüstü yazılar və təsvirlər, yaşayış yerləri, qazıntılar, təpələr və tarixi abidələri qorumaq, onları daha mükəmməl öyrənmək və təbliğ etməkdir. Müxtəlif süjetli 6 mindən çox rəsm qayaların üzərində həkk olunmuşdur. Xəzər dənizi sahilinin cənub-qərbində köçəri, su, bataqlıq və çöl quşlarının quşlaması, artırılması və qorunması məqsədilə yaradılmış Qızılağac dövlət təbiət qoruğu YUNESKO-nun siyahısına daxil edilmişdir.

Gədəbəy rayonu ərazisində "Azərbaycanın təbiət abidələri" kimi dövlət tərəfindən qorunan obyektlərin siyahısına daxil edilmiş bir neçə obyekt var. Məsələn, "Şamlıq", "Qamış", "Gödəkdərə", "Qovdu" meşələri, Azərbaycan tarixinə "Xocalı - Gədəbəy mədəniyyəti" adı ilə daxil olmuş qədim mədəniyyət abidələri, Tunc dövrünə aid siklopik tikililər, eləcə də "Gədəbəy xəzinələri" – qədim kuzələr və s. bu qəbildəndir.

Ağstafa rayonu ərazisində Neolit -Tunc, Tunc – İlk Dəmir dövrünə aid tarixi-arxeoloji abidələr – "Qarğalar təpəsi", "Şomutəpə" və s. kimi qədim yaşayış məskənləri, "Keşikçidağ" mağaralar silsiləsi və s. mövcuddur. Buradakı "Çobandaşı" və "Töyrətəpə" qədim yaşayış məskənləri olmaqla dünya əhəmiyyətli abidələr silsiləsinə aid edilmişdir.

Şagirdlərin ümumiyyətlə vətən haqqında fon biliklərinin dərinləşməsinə diqqət yetirmək məqsədilə onomastik viktorinalar təşkil etmək olar. Viktorinanın əsas vəzifələri: şagirdlərin bilavasitə tədqiqatçılıq fəaliyyətinə, yəni bu suallara cavab axtarmağa: biliklərin informasiya fonunun formalaşdırılması, milli dilin və etnomədəni ənənələrin qavranılması, öz yaxınlarının, cəmiyyətin, dövlətin taleyi üçün məsuliyyətin tərbiyə edilməsi və s. maraq oyatmaq. Belə elmi tədbirlərin keçirilməsi intellektual sərişta və müstəqil yaradıcı vərdişlər

əsasında milli mənəviyyat ənənələrinin qavranılması mühitini formalaşdırmalıdır. Toponimika linqvoölkəşünaslıq işinin vacib elementidir. O, vətənin keçmişi və bu gününün öyrənilməsinə marağı stimullaşdıran vasitədir. Bütün bunlar gənc nəslin mənəvi tərbiyəsinə kömək edir, dünyagörüşünü genişləndirir, mədəniyyətşünaslıq səriştəsinin formalaşmasına xidmət edir.

Topokonseptlərin tədqiqi aktualdır və hazırda bir çox tədqiqatçını cəlb edir, çünki onların xüsusiyyətlərinin milli şüurla qavranılması imkanlarını və koqnitiv dilçilik mövqeyindən onomastik tədqiqatların inkişafında əlavə perspektivləri üzə çıxarır.

Ədəbiyyat:

1. Qasımov V.Azərbaycan başdan-başa.Bakı:OKA ofset,2009,382 s.
2. “Mərkəz” qəzeti, Bakı, 2009, 6 fevral
3. Зиновьева О.А.Концептуализация ключевых геог- рафических объектов в русской поэзии XX – начала XX вв.: Автореф.дис. … канд.филол. наук. Воронеж, 2009, 24 с.
4. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. М.: Гнозис, 2004, 390 с.
5. Никитин М.В. Развернутые тезисы о концептах // Вопросы когнитивной лингвистики, 2004, №1, с.53-64
6. Попова З.Д., Стернин И.А. Когнитивная лингвистика. М.: Восток – Запад, 2007, 315 с.
7. Приходько А.Н. Системная организация концептосферы / Изменяющийся славянский мир: новое в лингвистике: сб. статей. Севастополь: Рибэст, 2009, с.68 – 74.
8. Щербак А.С. Когнитивные основы региональной ономастики. Автореф. дис. … д-ра филол. наук. Тамбов: 2008, 452

UOT 81

ONOMASTİK VAHİDLƏRİN «POETİK-ÜSLUBİ PASPORTU»

Səadət Məmməd qızı Bayramova

Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami adına ədəbiyyat İnstitutu

seadet.bayramova.ss@mail.ru

XÜLASƏ

Məqalədə onomastik vahidlərin – həm antroponimlərin, həm də toponimlərin bədii ədəbiyyatda işlənmə xüsusiyyətlərindən bəhs olunur. Söz kimi, onomastik vahidlər də bədii mühitə düşəndə semantik funksiyasını dəyişir. Müəyyən olunur ki, onomastik vahidlər poetik üslubi mühitə o zaman düşür ki, onlar müəyyən emosional anlayış ifadə edirlər.

Mövzunun aktuallığı onunla şərtlənir ki, məhz bədii əsərlərdə şəxs adları (ləqəb, təxəllüs və s.) üslubi toponimlər vasitəsilə yaradılan, canlandırılan emosional ifadə xüsusiyyətləri daha qabarıq və cəlbedicidir.

Açar sözlər: onomastik vahidlər, üslubi imkanlar, «danışan adlar», üslubi-poetik vasitə, poetik-üslubi əlamət

THE "POETIC-GUARD PASSPORT" OF ONOMASTIC UNITS

SUMMARY

In the scientific article has talked about the features of onomastic units - both anthroponomy and toponyms in the artistic literature. Onomastic units like the word, changes its semantic function when it falls into the artistic environment. It is determined that when they express certain emotional insights. the onomastic units fall into a poetic style environment.

The relevance of the topic is conditioned by person’s names in artistic works (nickname, pseudonym, etc.) emotional expression features are more vivid and attractive that created with the stylized toponyms.

Keywords: Keywords: onomastic units, stylistic possibilities, "speaking names", style-poetic tool, sign of poetic-style

«ПОЭТИКО-СТИЛИСТИЧЕСКИЙ ПАСПОРТ» ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ

РЕЗЮМЕ

В статье говорится об особенностях употребления ономастических единиц – антропонимов и топонимов в художественной литературе. Так же как и слова, ономастические единицы несут семантическую функцию при использовании в художественной среде. Выявлено, что ономастические единицы входят в поэтическую стилевую среду в том случае, когда они выражают определённый эмоциональный смысл.

Актуальность темы обусловлена тем, что именно в художественных произведениях имена собственные (прозвища, псевдонимы и т.п.), созданные посредством эмоциональных особенностей выражения стилевых топонимов, более жизненны и выразительны.

Ключевые слова: ономастические единицы, стилевые возможности, «говорящие» имена, стилистико-поэтическое средство, поэтико-стилисмтическое свойство.

Dil vahidinin, adın başlıca xüsusiyyətlərindən birini də onun poetik-üslubi və semantik keyfiyyətləri təşkil edir. Bu keyfiyyətlər bədii ədəbiyyatda daha aydın görünür. «Bədii əsərin leksikasının daha effektli təsnifi onun üslubi-semantik prinsiplər üzrə bölgüsündən ibarətdir. Bu əlamət bədii üslubda sözlərin, adların böyük əksəriyyətinin üslubi canlandırmaya xidmət etdiyini müəyyənləşdirməyə əsas verir. Bu isə sözlərin «üslubi pasportu» kimi dəyərləndirilə bilər» (1, s.205)

Dilçiliyin onomastika bölməsi mürəkkəb, amma kifayət qədər dəqiq və mütəşəkkil bir sistem təşkil edir. Onomastika deyərkən bütün xüsusi adların toplusu dərk edilir.

V.M.Kalinkin poetik onomastikanın nəzəri əsaslarının emosional və ekspressiv keyfiyyətlərdən ibarət olmasını göstərir, «poetonim» terminindən istifadə edir. Eyni zamanda müəllif «danışan adlar» ifadəsini də işlədir (2, s.24)

Milli-tarixi onomastik vahidlər təkcə xalqın xüsusini ümumidən ayırmaq üçün istifadə etdiyi dil işarələri statusunda məhdudlaşaraq qalmır, həm də xalqın tarixi taleyini öz məzmununda inikas etdirən dəyərli qaynaq rolunu oynayır.

Belə bir mövzunun tədqiqində başlıca məqsəd onomastik vahidlərin bədii ədəbiyyatda işlənmə prinsiplərini, onların həmin qaynaqdakı poetik-üslubi və semantik rolunu meydana çıxarmaqdan ibarətdir.

Onomastik vahidlər poetik-üslubi vəziyyətə o zaman düşür ki, onlar müəyyən emosional anlayış ifadə etsinlər. Mətndə onomastik vahidlərə xas emosional anlayışlar hadisəyə aid situasiyanın və şəxsə aid psixoloji durumun

ifadə olunması yolu ilə canlandırılır. Mövzunun aktual olması məhz bədii ədəbiyyatda onomastik adlar vasitəsilə yaradılan, canlandırılan emosional ifadə xüsusiyyətlərinin və aktuallaşan semantik əlamətin təyin olunmasından ibarətdir.

Biz bu məqalədə həm şəxs adlarına, həm də toponimlərə aid üslubi-semantik əlamətlərə toxunacağıq. Amma hər ikisi ayrıca tədqiqat mövzusudur.

Toponimik vahidlərin dəqiqlik, konkretlik və qeyri-müəyyənlik bildirmə əlaməti, onların müşahidə və xalq düşüncəsi ilə əlaqədar olan cəhətləri, həmçinin bədii mühitdə maraq doğuran komik potensial imkanları vardır. Dəqiqlik, konkretlik xüsusiyyətlərinin öyrənilməsi ilə müəyyənləşir ki, toponimik adlar inzibati ərazi ölçüsü hüdudlarından kənara çıxmadıqda rəsmi ad kimi istifadə olunur. Bədii mətnlərdə isə poetik-üslubi səciyyələndirmə ilə müəyyən mətləbləri göstərməklə bağlı olaraq inzibati ərazi ölçüsü yox olur. Belə ki, toponimik ad emosional ifadə vasitəsinə çevrildikdə onda dəqiqlik və konkretlik əvəzinə qeyri-müəyyənlik anlayışı qabarıqlaşır.

Onomastik vahidlərin bədii ədəbiyyatda poetik-üslubi mövqeyi, o cümlədən emosional-estetik əlamətləri, xalqın bədii düşüncəsini təzahür etdirən vasitə kimi qeyd etmək lazımdır.

Dil faktlarının sosiolinqvistik və üslubi təhlili onu deməyə əsas verir ki, ədəbi dil norması hüququndakı onomastik vahidlər müəyyən məqsədlə bədii ədəbiyyata daxil ola bilir. Bunlar deyildiyi kimi bədii ədəbiyyatda yalnız poetik-üslubi səciyyə daşıyırlar. Beləliklə, onomastik vahidlər (şəxs və ərazi adları) Azərbaycan bədii ədəbiyyatında ekspressivlik və emosionallıq çalarlarının daşıyıcısına çevrilmiş, bədii mətnin rəvanlığına xidmət etmişdir. Eyni zamanda onomastik vastələr bədii əsərin ümumi məzmununa yenilik, orijinallıq gətirmiş, onu semantik cəhətdən zənginləşdirmişdir.

Bədii ədəbiyyatda onomastik vahidlər hesabına ifadə vasitələri sistemi genişləndikcə əsərin üslubi cəhətdən zənginləşmə prosesi də genişlənir. Üslubi-poetik vasitə kimi onomatik vahidlərdən istifadə də bu sistemə daxil olan elementlər biçimində özünü göstərir. Buna baxmayaraq, bədii ədəbiyyatda onomastik vahidlərdən lüzumsuz və yerli-yersiz işlədilməsi müsbət hal kimi qiymətləndirilə bilməz.

Onomastik vahidlərdə biz 3 üslubi-poetik xüsusiyyəti müəyyənləşdirmişik: 1) fonetik poetik-üslubi xüsusiyyətlər, 2) leksik poetik-üslubi xüsusiyyətlər, 3) qrammatik poetik-üslubi xüsusiyyətlər.

Birincidə onomastik vahidlərin təkibində səs əvəzlənmələri, ahəngdarlıq, səsartımı, səsdüşümü, səsyerdəyişməsi kimi fonetik hadisə və qanunlar müşahidə orlunur. Məs.: Şamaxı- Şemaxa, Tədriz- Tərbiz, Bakı-Bək və s.

İkincidə onomastik vahidlərin milli və alınma hüququnda olanları, tarixilik kəsb etməsi nəzərdə tutulur. Məs.: Muğ-Muğan (tayfa)-Muğanlı kəndi; Düger-Dügər (tayfa)-Düyərli kəndi, Kas-Qaz (tayfa)-Qazax rayonu- Qazaxlar kəndi və s.

Üçüncüdə onomastik vahidlərin mürəkkəb söz və söz birləşməsi biçimində olanları və onların poetik-üslubi məqamları dərk edilir. Bədii ədəbiyyatda özünə yer tapan interferensiya (hadisə) xarakterli qrammatik cəhətdən nəzəri cəlb edən onomastik vahidlərin üslubi imkanları özünü göstərir. Məs.: *Rusiya* adı *«Əresey»* biçimində interferensiya hadisəsinə məruz qalır: Bura da sizə Ərəsey-zad deyil ha, onu bilin! (Mir Cəlal)

Əsl şəxs adın əzizləmə mənası bədii mətndə müraciət etiketi kimi işlənəndə poetik-üslubi hal yaradır. Məs.:

Qıssa - Qubuş: Bu il qarışıqlıq olduğundan dağa getmək çətin idi. Ancaq yaraqlı, arxalı adamlar getmişdilər. Yaybaşı Bəbir bəy külfəti aparmaq istədi. *Qıssanın* qılığına girdi:_ *Qubuş,* istidə əriyərsən, gəl sizi aparım qoyum dağa, gədələrdən də qarovul duran olar…(Mir Cəlal)

Poetik-üslubi çalarlar şəxs adları və familyaların cəm şəkilçisi qəbul etməsində özünü göstərir. Məs.: Gözünün qarşısında *Əzizbəyovların* aydın və parlaq siması canlanırdı (Mir Cəlal); *Azadlar, Vəlillər, Qulular* artıq həyatda yoxdurlar (Ə.Muğanlı)

Poeziyada poetik-üslubi əlamətləri yer adının omoform forması ilə yanaşı işlənməsi yaradır. Məs.: Şair övladlarının yandırdığı *şam axı,\\Şamaxı, ay Şamaxı!* (Əli Tudə), Bərəkətli torpağın niyə qalsın *xam axı,// Şamaxı, ay Şamaxı!* Odlu nəğmə deməkdə mən deyiləm *xam axı, //Şamaxı, ay Şamaxı!* (Əli Tudə)

Üslub yaradan belə fiqurlar paronim sözlərdir (şam axı-Şamaxı, xam axı-Şamaxı) və onlar arasında struktur-semantik baxımdan bir aldadıcı bənzərlik özünü göstərir.

Fikrin parlaq ifadəsi, forma gözəlliyi bədii əsərlərdə işlənən toponimik vahidlər vasitəsilə şərtlənir. Bu cür vahidlər üslubi material kimi düzgün seçildikdə, bədii əsərin ümumi dil-nitq fonu obrazlaşır, bədiilik keyfiyyəti, milli koloriti yüksəlir, bədii əsərin ideyası oxucuya daha aydın olur.

A.Qurbanov onomastik vahidlərin bədii əsərlərdə bir neçə məqsəd üçün istifadə olunduğu qənaətinə gəlir. Birincisi, real həyat hadisələri konkret bir ərazidə təsvir edilərkən həmin yerin adı olduğu kimi saxlanılır; ikincisi, toponimlərdən müəyyən əlamətlə, keyfiyyətlə, hadisə ilə xarakterik olan ərazinin adını ifadə etmək üçün istifadə olunur (*Gəncə qumarbazı, Şamaxı lotusu, Ağdaş heyvası, Kürdəmir narı* və s.); üçüncüsü, iqtisadi həyatla əlaqədar toponimik vahidlərdən istifadə olunur (*Qazax- «şairlər yurdu», Qarabağ- «musiqinin beşiyi»* və s. (3, 58)

Onomastik vahidlərdən bədii mühitdə başqa məqsədlər üçün də istifadə edilir. Bunlara aşağıdakılar aiddir: 1) müəyyən yerin adı heç bir təhrifə yol verilmədən dəqiq şəkildə göstərilir, 2) hadisələrin cərəyan etdiyi məkan şərti işarələrlə verilir, 3) hadisələrin cərəyan etdiyi ərazi qeyri-müəyyən şəkildə göstərilir, 4) hadisələrin məkanı ümumidir, təsəvvürdə tutulan məkan adları

müsbət planda verilir, 5) məkan mənfi planda verilir, 6) məkan qondarmadır, xəyalidir (4, 240)

Məkan qeyri-rəsmidir, poetik məzmuna malikdir:

«Açıq şəhər» qoydular
Adını hamilərin
Sən açılıb-saçıldın,
Soyuldu qat-qat dərin
«Beynəxlalq şəhər» oldun (B.Vahabzadə)

«Açıq şəhər», «beynəlxalq şəhər» toponimik vahidin əlavə mənasıdır. Demək, bədii ədəbiyyatda emosonallıq yaratmaq məqsədilə toponmlərin ikinci adından istifadə edilir. Bu yolla yer adları haqqında konsept (təsəvvür) aydınlığı yaradılır, xalqın düşüncəsində ikiləşmə formalaşır. Yəni bilinir ki, xalq bir adın, bir nominasiyanın digər variantlarını da fikirləşib tapa bilir.

Toponmik vahid müqayisə edilir, bənzədilir. B.Vahabzadənin «Şəki» şeirində Şəki anaya bənzədilir: Bala anasına «sevirəm» deməz, Mən də deməmişəm, a Şəkim, mənim! (B.Vahabzadə)

Toponimik vahidlər *–lı* morfoloji göstəricisini qəbul edərək həmçinclik yaradır, bu zaman emosionallıq yüksəlir. Birləşdirmə bağlayıcısı təkrarlanaraq tərkib hissələrini əlaqələndirir. Məs.:

Mən həm *bakılam*, həm *lənkəranlı,*
Gəncəli, qubalı, həm *naxçıvanlı*.
Şəkili, Şirvanlı, qarabağlıyam.
Bütöv Vətənimə, bütöv bağlıyam (B.Vahabzadə)

Bu mənsubluq çalarının ardıcıllığı bədii düşüncəni konkretləşdirir.

Poetik məqamda məkanın appelyativ forması işlənir, obyektin əsl adı çəkilmir. Məs.: Əli Tudənin «Ünsiyyət körpüsü» şeirində olduğu kimi. Burada «Xudafərin» körpüsünün adı göstərilmir. Həm də şair «körpü» sözünü bir sıra mənalarda işlədir:

İnsanlar hər körpüdə
Daim bir məna duyur.
Təhlükəsiz yola da
Söhbətdən körpü qoyur.
Nə yaxşı ki körpü var,
Müdrik ata yerinə
Ayrılmış övladları
Bağlayır bir-birinə.
Sənin körpün dünyada
Ədalət körpüsüdür
Ünsiyyət körpüsüdür.
Əzəmət körpüsüdür.
Gün də o gün olsun ki,
Ünsiyyət yaşa dolsun.

«Körpü» gediş-gəlişi
Vüsal körpüsü olsun (Ə.Tudə)

Bədii əsərlərdə toponimlər ən çox təsviri xarakter daşıyır, konkretik ifadə edir. Məs.: Təsvir edilən ərazinin adı qeyri-müəyyəndir: *«Şəhərin* (hansı şəhərin?) başından girən kimi böyük bir izdihamın axışdığını gördü. Uşaq, böyük, hamı bir –birinə qarışmışdı» (Mir Cəlal)

Bədii ədəbiyyatda ad əvəzinə onun ləqəbi işlənir. Məs.: *Sayalının* kağız-baratsız, qolsuz, möhürsüz hökmü dəmir yolundan Kürün qırağına qədər işləyirdi. Nədənsə ona *Çəpəl* deyirdilər. Bir mola onsuz dua yazmaz, daha doğrusu yaza bilməzdi, falçı onunla tas qurardı. Uşağı olmayan, həmzad vuran, günüdən qaçan, günü gedən arvadların hamısı Çəpəldən xeyir görərdi… (Mir Cəlal), Mənə də *Çəpəl* deyərlər, Qumrunun ürəyində bir ocaq qalayacağam, bir təndir qoyacağam, özü hu çəkib yana-yana qapına gələcək» (Mir Cəlal)

Ad əvəzinə onun təbiətini səciyyələndirən ifadə işlədilir. Məsələn, «Dirilən adam» romanında Mir Cəlal Bəbir bəyin yırtıcı simasını, təbiəini Qumrunun dili ilə *«kaftar canavar»* ifadəsi ilə verir: «Bəbir bəy, o yağışlı gecəni nəinki unuda bilirdi, hətta ən xoşbəxt yaşamaq istəyəndə o səhnəni gözü önünə gətirməyə çalışırdı. Ehtirası qaynayıb daşırdı. Qumrunun çıldırmış inadı, üsyankar etirazı qarşısında sarsılmış, pozulmuşdusa da «eşqi, həvəsi» gün-gündən alovlanır, dərinləşirdi. - İtil burdan, bir qıy çəkərəm dünya yığılar. *Kaftar canavar!..* (Mir Cəlal)

Və ya Qumrunun Çəpəl Sayalı haqqında söylədiyi qarğış: «Qumru Çəpəlin dalınca qapını elə hirslə çırpdı ki, deyərdin bu qapı bir də heç vaxt açılmayacaq! _ *Küp qarısı!* Ağ birçəyin al qanına bulaşsın, görüm! (Mir Cəlal)

Beləliklə, onomastik vahidlərin vəzifəsi yalnız adlandırma, eyni zamanda inzibati ərazi ölçüsü anlayışı ifadə etməsi ilə lokallaşmır, eləcə də bədii mühitdə poetik-üslubi və semantik imkanlarını həyata keçirir.

Bədii situasiyada həmin vahidlərin əvvəlki konkretiyindən əsər-əlamət qalmır. Konkretlikdən məhrum olan adlar hər hansı bir şəxs, varlıq, məqam haqqındakı konseptləri (təsəvvürləri) ümumiləşdirir. Bu vaxt surətə, presonaja məxsus olan tipikləşmə güclənir (şəxs adlarında), hadisənin, ərazinin məkan genişliyi, necə deyərlər, canlandırılır.

«Bədii mətndə xüsusi ad kimi onomastik vahidlər funksional-üslubi və estetik yükün daşıyıcısına çevrilir» (5, s.23-27) Sözsüz, bu qısa qeydlər və nəticələr poetik-üslubi, semantik onomastika haqqındakı məsələləri tam biçimdə əhatə edə bilmir. Bədii mətn «sərhədsiz, ucu-bucağı görünməyən bir ənginlikdir». Bizə elə gəlir ki, bu ənginlikdə onomastik vahidlərin poetik və üslubi həyatı da həmin bədii əsərin dəyərini xüsusi olaraq müəyyənləşdirir.

Ədəbiyyat

1. Ефимов А.Н. Стилистика художественной речи. М.: Изд-во Моск. Ун-та, 1961
2. Калинин В.М. Теоретические основы поэтической ономастики. Автореф. дисс. докт. филол. наук, М.: 2000
3. Qurbanov A.M. Azərbaycan onomastikası. Bakı, APİ-nin nəşri, 1986
4. Cavadov Ə.M. Morfoloji kateqoriyaların üslubi imkanları - Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı, Elm, 1970
5. Kazımov İ.B. Bədii mətndə xüsusi adların funksional-üslubi yükü. Bədii mətndə xüsusi adlar. Bakı, «Elm və təhsil», 2011

UOT 81

ARXAİK VAHİDLƏRDƏN TÖRƏNƏN ONOMASTİK LEKSİKA

Sevinc Sərhad qızı SADIQOVA

Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

sevincsadigova2@gmail.com

XÜLASƏ

Onomastik vahidlərin tədqiq olunması hər zaman aktualdır. Məqalənin tədqiqat obyekti Qərbi Azərbaycanın arxaik sözlərdən törənən onomastik leksikasıdır. Bu qəbildən olan sözlərə antroponimlər (*Becan, Qanlı, Gürbüz*), etnonimlər (*qıllımaman*), toponimlər (*Qovğa təpəsi, Altuntaxt*), zoonimlər (*Bənək*) aiddir.

Açar sözlər: onomastik leksika, antroponim, toponim, etnonim.

ONOMASTIC LEXIC CREATED FROM ARXAIK WORDS

SUMMARY

The investigation of onomastics is actual every time. This article deals with onomastic lexic of Western Azerbaijan created from arkhaic words. These onomastic lexic are antroponyms (*Bejan, Qanli, Gurbuz*), etnonyms (*qillimaman*), toponyms (*Qovqa tepesi, Altuntacht*), zoonyms (*Benek*).

Keywords: onomastic lexics, antroponym, toponym, etnonym.

Azərbaycan dilində işlənən onomastik leksika öz zənginliyi və müxtəlifnövlüyü ilə seçilir. Bir məqalədə bunları əhatə etmək imkan xaricində olduğundan, burada yalnız Qərbi Azərbaycan ərazisindəki bir neçə toponim və etnonimdən, həmçinin burada yaşamış əhalinin leksikonunda işlənən bəzi antroponim və zoonimlərdən bəhs edəcəyik. Qərbi Azərbaycan ərazisində qeydə alınmış onomastik vahidlərdə, xüsusən də toponimlər və etnonimlərdə xalqımızın formalaşmasında mühüm rol oynamış qəbilə, tayfa və etnik qrupların adlarının əksəriyyəti əks olunduğu kimi, onlarda dilimizin bir sıra qədim və müasir ədəbi dil baxımından arxaikləşmiş elementləri də yazılı mənbələrdən daha çox və daha mükəmməl qorunub saxlanmışdır. Bu baxımdan, xalqımızın canlı tarixi olan belə onomastik vahidlər ayrı-ayrı dövrlərdə dilimizin inkişaf tarixinin tədqiqi baxımından əvəzedilməz mənbədir. Qərbi Azərbaycanda tarixən ədəbi

dilimizdə işlənmiş, hal-hazırda arxaikləşmiş vahidlərdən törənmiş elə qədim onomastik vahidlərə rast gəlirik ki, onlardan bəzilərini Azərbaycan dilinə aid yazılı mənbələrin bir çoxunda müşahidə etmirik, nə də dilimizin digər dialekt və şivələrində həmin vahidlərə təsadüf olunmur. Xüsusən də toponimlərin – oykonim, oronim, hidronimlərin tərkibində bu hal daha çox müşahidə olunur. "Bu, həmin torpaqları öz adlarına yazmaq istəyən ermənilərə bu torpaqların kimə məxsus olması barədə tutarlı sübutdur. Çünki bu fakt azərbaycanlıların bu torpaqların əsl və qədim sakinləri olduğunu, çox qədim zamanlardan buraların yer-yurd adlarında öz izlərini əbədiləşdirdiyini göstərir" [1, s.31]. Bu fikri əsaslandırmağa imkan verən daha bir amil Qərbi Azərbaycan ərazisindəki toponimlərin əksəriyyətini türkdilli adların təşkil etməsi, bu ərazidəki qədim coğrafi adların əsas kütləsinin türk mənşəli leksik vahidlərdən ibarət olmasıdır. Qeyd etmək yerinə düşər ki, Qərbi Azərbaycan ərazisində erməni dilində olan bir dənə də olsa oronim, hidronim və ya mikrotoponim yoxdur. Oykonimlər arasında rast gəlinən erməni adları isə son yüz ildə rəsmən dəyişdirilmiş adlardır ki, bunların da böyük əksəriyyəti azərbaycanlılar həmin torpaqlarda – öz dədə-baba yurdlarında yaşadıqları dövrdə işlək olmamışdır.

Məlumdur ki, onomastik vahidlərin yaranması uzunmüddətli, çoxəsrlik bir prosesdir. Bir sıra onomastik vahidlərin yaranma və formalaşmasında çox qədim dil vahidləri iştirak etmişdir. Həmin qədim dil vahidlərinin müəyyən hissəsi dildən tamamilə çıxmışdırsa da, bir qismi Azərbaycan dilinə aid yazılı abidələrdə, dilimizin ayrı-ayrı dialekt və şivələrində, həmçinin Qərbi Azərbaycan şivələrində qalmışdır. Qərbi Azərbaycan ərazisindəki arxaik sözlərdən törənən toponim və etnonimləri, həmçinin burada yaşamış əhalinin leksikonunda işlənən antroponim və zoonimlərin bəzilərini nəzərdən keçirək:

1. Antroponimlər: ***Becan, Qanlı, Gürbüz***.

Qərbi Azərbaycanın Göyçə mahalında (Basarkeçər, Nərimanlı k.) qeydə alınmış **Becan** (Qasımov Becan Musa oğlu) və **Qanlı** (Qasımov Qanlı Musa oğlu) antroponimləri maraq doğurur. Becan antroponiminə Azərbaycan dilinin qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında rast gəlirik: *Allah Taala Baybörə bəgə bir oğul,* ***Baybican*** *bəgə bir qız verdi* [2, s.53]; *Beyrək aydır:* ***Baybican*** *bəgüŋ bir qızı varmış, anı görməgə gəldim! – dedi* [2, s.56] və s.

Qərbi Azərbaycan ərazisində bu antroponim əsasında yaranmış *Babacan* toponimi də mövcuddur. İ.Bayramov bu toponimlə bağlı geniş tədqiqat aparmışdır [3, s.35-38].

Qanlı antroponimi də "Kitabi-Dədə Qorqud" dastanlarında işlənmişdir: *Oğuz zamanında* ***Qaŋlı*** *qoca, deyərlərdi, bir gürbüz ər vardı* [2, s.104]; ***Qaŋlı*** *qoca bu başları və bu canvərləri gördü, başında olan bit ayağına dərildi* [2, s.105] və s. Bu antroponim etnonim mənşəlidir, Qərbi Azərbaycanda, həmçinin Azərbaycanın digər ərazilərində bu etnonimlə bağlı toponimlər də vardır.

Qərbi Azərbaycanın Ağbaba bölgəsində (Qaraçanta kəndi) qeydə alınmış ***Gürbüz*** (Əliyev Gürbüz) antroponimi də maraq doğurur. Müasir ədəbi dildə arxaikləşmiş bu leksem Azərbaycan dilinə aid yazılı abidələrdə işlənmişdir; "Kitabi-Dədə Qorqud"da: *Oğuz zamanında Qaŋlı qoca deyərlərdi, bir* ***gürbüz*** *ər vardı* [2, s.104]; "Dastani-Əhməd Hərami"də: *Özü* ***gürbüzdürür*** *yalak bahadır, Bahadırlıq yolunda key bəhadır* [4, s.79]; *İgin* ***gürbüzlər*** *idi ol ərənlər, Oları qan qaşanırdı görənlər* [4, s.79]; *Həzər eyləyəlim biz ol yağıdan, Bənəm* ***gürbüz*** *yağıları dağıdan* [4, s.83]; Yusif Məddahda isə *korbuz* fono variantındadır: *Ol çəridə var idi bir pəhləvan,* ***Korbuz*** *idi ləşkərində qamudan* [4, s.121].

E.V.Sevortyan bu sözü *qürbüz* fonovariantında qeydə alaraq, "*sağlam, möhkəm, güclü*", "*hələ saqqalı çıxmamış gənc oğlan*", "*qəşəng, yaraşıqlı*" [5, s.107] mənalarında izah etmişdir. Qeyd edək ki, *Gürbüz* leksemi Ağbaba şivəsində "*güclü, qüvvətli*" mənasında işlənir. Sözün insana xas olan müsbət xüsusiyyəti ifadə etməsi bu leksemin antroponim kimi də işlənməsinə səbəb olmuşdur.

2.Toponimlər: ***Qovğa təpəsi, Altuntaxt***.

Qovğa leksemi müasir ədəbi dildə müəyyən dərəcədə arxaikləşmişdirsə də, toponim kimi dildə qalmışdır. Qarakilsə ərazisində, Comərdli kəndinin sahələrindən birinin adı *Qovğa təpəsi* olmuşdur. Göyçə, Zəngəzur şivələrində bu leksem "*səs-küy, hay-küy, dava-dalaş*" mənasında işlənir. Şivə xüsusiyyətinə uyğun olaraq, əksər hallarda *qoyxa* variantında tələffüz olunur: *İrva:mıŋ başında nəysə bir qoy**xa** var, onçün xəvər-ətər yoxdu* (Çəm.).

Tarixən ədəbi dildə bu leksem çox geniş şəkildə işlənmişdir, XIII-XIX əsrlərə aid yazılı abidələrdə müşahidə olunur: "Kitabi-Dədə Qorqud"da: *Mənim körpüm yanında bu qov**ğa** nədir, niyə şivən edirsiz?* [2, s.95]; Qazi Bürhanəddində: *Bülbül ünün eşitdi, ğov**ğa**yə çəkər bu dil, Gül qoxusunu aldı, səhrayə çəkər bu dil* [4, s.43]; "Dastani Əhməd Hərami"də: *Bir oda tutdular şəhrin ucunda, İkən azadəvü qov**ğa** yox anda* [4, s.80]; *Yatur ol gecə qəmgin zarü tənha, İçindən keçirir nə söz, nə qov**ğa*** [4, s.93]; İmadəddin Nəsimidə: *Dilbəra, eşqində aləm sərbəsər qov**ğa** çəkər, Sanma ki, eşqin bəlasın mən qulun tənha çəkər* [6, s.244]; Xəlilidə: *Zahirü batində çün mövcud həqdən özgə yox, Ya bu növcudatın ara yerdə qov**ğa**sı nədir?* [4, s.209]; Şeyx İbrahim Gülşənidə: *Cəhan qov**ğa**sın aşiq başına, Aru kimi yığuban düşürür eşq* [4, s.235]; Həqiridə: *Bir pəriru dilbərə heyran olub, Bəndəni saldın yüz qov**ğa**ya, könül* [4, s.341]; Ş.İ.Xətayidə: *Qalxdı, havalandı könülün quşu, Qov**ğa**, qeybət etmək köntünün işi* [7, s.21]; M.Füzulidə: *Ey Füzuli, qalmamış qov**ğa**yi-Məcnundan əsər, Qaliba, əfsaneyi-eşqin gətirmiş xab ona* [8, s.48]; Fəzlidə: *Kipriklərin ki, ləşkərini yığdı bir yerə, Ol saldı Fəzli canına qov**ğa** xəbərlərin* [4, s.379] və s. Bu söz V.V.Radlovun [9, II, s.1550] lüğətində qeydə alınmışdır.

Altuntaxt kəndi vaxtilə Göyçə mahalı ərazisində olmuşdur. İ.Bayramov Altuntaxtın XVIII-XIX əsrlərdə kənd olmasını, XIX əsrin sonunda dağılaraq

kənd kimi ləğv edilməsini və azərbaycanlıların yaylaq yeri olmasını yazır [3, s.23].

Toponimin birinci komponenti olan *altun* sözü "*qızıl*" mənasında tarixən ədəbi dildə geniş şəkildə işlənmişdir; "Kitabi-Dədə Qorqud"da: ***Altun*** *ayaq sürahilər düzilmişdi* [2, s.37]; ***Altun*** *ban evlərin kafirlər çapdılar* [2, s.37-38]; "Dastani-Əhməd Hərami"də: *Füsuskari yapılmış anda hər daş, Qızıl* ***altun*** *sıvayla xoş münəqqaş* [4, s.80-81] və s.

Hər iki arxaik apelyativ vahid (*qovğa, altun*) toponim yaradıcılığında iştirak etmişdir.

3. Etnonimlər: ***Qıllımaman*** tayfası.

Bu etnonim Zəngibasar mahalında (Masis rayonu, mərkəz) qeydə alınmışdır. Etnonimin birinci komponenti olan *qıllı* leksemi "*tüklü*" mənasını ifadə edir. Qıllımaman tayfasından olan şəxslər bu fizioloji xüsusiyyətin həqiqətən də, onlarda olmasını, məhz həmin xüsusüiyyətə görə tayfanın bu adla adlandırılmasını qeyd edirlər.

Müasir ədəbi dildə *qıl* sözü istifadədən çıxaraq arxaikləşmiş, *tük* sözü onu əvəz etmişdir. Tarixən ədəbi dildə isə bu leksem məhsuldar şəkildə işlənmişdir: Qazi Bürhanəddində: *Necə qıla bir könül ki, hər* ***qıl****iyçün zülfünün, Kirpüginün hər qılından bir dəmi-sail qıla* [4, s.27]; *Gözü çü* ***qıl*** *qələmilə yazar yürəgümdə, Qızıl mürəkkəb ilə yüzdə yazduğu oxuna* [4, s.31]; İmadəddin Nəsimidə: *Xətadır Çinə həml etmək, müənbər zülfünü, billah, Ki, hər bir* ***qılı*** *saçının həzəran Çinü Maçındır* [6, s.256]; *Bir* ***qılın*** *qiymətini hər kimə sordumsa, ana, Gənci-Qarun ilə min mülki-Süleyman dedilər* [6, s.262]; Hidayətdə: *Cana, ğəmdən axdı gözüm yaşı Nil tək, Cismim belini istəyüb incəldi* ***qıl*** *tək* [4, s.224]; Şah İsmayıl Xətayidə: *Bir* ***qılı*** *min parə edər, Bu yolu ixtiyar edər* [7, s.30]; *Sənin ol zülfünün hər bir* ***qılını****, Xətayi boynuna bir riştə gördüm* [7, s.75]; Məhəmməd Füzulidə: *Qüssəsindən başımın* ***qıl*** *kimi incəlmiş tənim, Kim, tənimlə tiği ortasında başimdir hicab* [8, s.62] və s.

4. Zoonimlər: ***Bənək***.

Qərbi Azərbaycan şivələrində, həmçinin Azərbaycan dilinin digər dialekt və şivələrində də işlənən bu zoonim *xal* mənasını ifadə edən *bən* sözündən törəmişdir, "*xallı*" mənasındadır. ***Bəŋ*** sözü Ağbaba, Dağ Borçalısı şivələrində *"xal"* mənasında işlənir. Ağbaba şivəsində isə "*xallı*" mənasında *bənəx`* sözü işlədilir: ***Bənəx`*** *quzu azıf qalıf yolda.*

Ədəbi dildə Qazi Bürhanəddinin: ***Bənini*** *gördümü dedüm: bu hindu bunda nədür? Dedi ki, cənnət isə, nola bir əzab gərək* [4, s.43]; İ.Nəsiminin: *Nafeyi-Çinü Xətadır bənlərin, Daneyi-dami-bəladır* ***bənlərin*** [6, s.284]; *Sirrini şol qara* ***bənin*** *çünki yanağı şərh edər, Can, nə ola nisar edəm yanağınavü xalinə?* [4, s.155]; Kişvərinin: *Qaşi əgri, boyu doğru, gözü oğru,* ***bəni*** *filfil, Ləbi lə"lü dişi incu, yüzi mahü xəti halə* [4, s.114]və b. yaradıcılığında işlənmişdir.

Müasir türk dilində *bən* sözü eyni mənada işlənir [10, s.120]. Bu leksik vahid *bənəkli* sözünün tərkibində qaqauz dilində işlənir, "*xallı, ala-bula*" mənə-

larını ifadə edir: "*Ал бана бир фистан, göktеki булутлар гиби, бенекли ердеки чичеклäр гиби*" [11, s.93]. V.V.Radlov bu sözü "*xal, ləkə*" mənalarında izah etmişdir [9, IV,1584].

Nəticə olaraq qeyd edək ki, dilimizin müasir səviyyəsi baxımından arxaikləşmiş bir sıra apelyativ vahidlər onomastik leksikada qorunub saxlanmışdır, həmin vahidlər bu gün də işləkdir, onların tədqiq olunması onomastika ilə yanaşı dil tarixi, tarixi leksikologiya, tarixi dialektologiya və b. sahələr üçün də əhəmiyyətlidir.

Ədəbiyyat:

1. Sadıqova S. Arxaikləşmiş sözlər əsasında yaranan oykonimlər. Elmi axtarışlar. Bakı, AMEA-nın Folklor İnstitutu, 2007, № 34, s.31-37.
2. Kitabi-Dədə Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s.
3. Bayramov İ. "Kitabi-Dədə Qorqud"un izi ilə. Bakı, ADPU, 2016, 112 s.
4. Azərbaycan klassik ədəbiyyatından seçmələr. II c., Bakı, "Şərq-Qərb", 2005, 408 s.
5. Севортян Э.В. Этимологический словарь тюркских языков. Общетюркские и межтюркские основы на букву «В», «Г» и «Д». Издательство «Наука», Москва, 1980, 396 с.
6. Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə, I cild, "Lider nəşriyyat", Bakı, 2004, 336 s.
7. Xətayi Ş.İ. Əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 s.
8. Füzuli M. Əsərləri. 6 cilddə. I cild, "Şərq-Qərb", Bakı, 2005, 400 s.
9. Радлов В.В. Опыт словаря тюркских наречий. СПб, т.II, 1899, 1814 стр.; т.IV, 1911, 2230 с.
10. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. Москва-Ленинград, Издательство Академии Наук ССР, 1956, 569 с.
11. Покровская Л.А. Грамматика гагаузского языка. Фонетика и морфология. Москва, Издательство «Наука», 1964, 298 с.

UOT 81

QAFQAZ ƏRAZİSİ VƏ TAYFALARININ TƏSVİRİ MATERİALLARI MƏCMUƏSİ (SMOMPK) ƏSƏRİNDƏ İŞLƏNƏN TOPONİMLƏR VƏ ONLARIN TƏDQİQİ

Rasim Arif oğlu HEYDƏROV

Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu

dr.rasimheydarov@mail.ru

XÜLASƏ

Azərbaycan xalqının şifahi xalq ədəbiyyatı, etnoqrafiyası, tarixi, etnopsixologiyası və s. baxımından xüsusi əhəmiyyətə malik olan СМОМПК – QƏXTMT məcmuəsinin ilk buraxılışının çap edildiyi dövrdən bir əsrdən də artıq vaxt keçməsinə baxmayaraq ona olan maraq hələ də azalmır. bu Buna səbəb isə heç şübhəsiz məcmuələrdə Azərbaycan xalqının milli-mənəvi mədəniyyətinin mühüm bir hissəsinin ehtiva olunmasıdır. Tiflis şəhərində Qafqaz Tədris Dairəsi İdarəsi tərəfindən çap edilən toplu rus dilində idi və Qafqazın digər xalqları ilə yanaşı, Azərbaycan xalqının da adət-ənənələrini və məişətini, o cümlədən, yer-yurd adlarını öyrənmək baxımından da olduqca sanballı mənbələrdən biri sayılır. Məcmuə, SMOMPK (СМОМПК – QƏXTMT. Сборник материалов описания местности племени Кавказа - Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu) 1881-ci ildən 1929-cu ilə qədər Qafqazda yaşayan xalqların müxtəlif elm sahələrinə aid məqalələrini nəşr etmişdir. Məqalədə SMOMPK məcmuəsində rast gəlinən toponimlərin tədqiqindən bəhs olunur.

Açar sözlər: toponim, Qafqaz, Azərbaycan, SMOMPK, Azərbaycan tarixi

ТОПОНИМЫ И ИХ ИЗУЧЕНИЕ В КАФКАЗСКОЙ ТЕРРИТОРИИ И ПЛЕМЕННОЙ СБОРНИК ОПИСАТЕЛЬНЫХ МАТЕРИАЛОВ (СМОМПК)

РЕЗЮМЕ

С точки зрения того, что коллекция СМОМПК, являющаяся очень важным источником устной народной литературы, этнографии, истории,

этнопсихологии и т.д. Азербайджанского народа, насчитывает более ста лет с момента выпуска первого издания, ее интерес до сих пор не уменьшается. Причиной этому, несомненно, является составление важной части национально-нравственной культуры азербайджанского народа. Изданный отделом образования Кавказа в Тбилиси, этот сборник составлен на русском языке и считается одним из важнейших источников в изучении традиций и обычаев азербайджанского народа и названий мест в Азербайджане, в том числе других народов Кавказа, с 1881 по 1929 год СМОМПК издавал сборник материалов о различных областях науки на Кавказе (CMDLCT, сборник материалов описания местонахождения кавказских племен). Статья посвящена исследованию найденных в статье СМОМПК топонимов.

Ключевые слова: топоним, Кавказ, Азербайджан, СМОМПК, История Азербайджана

TOPONYMS AND THEIR STUDY IN THE CAUCASUS TERRITORY AND TRIBAL DESCRIPTIVE MATERIAL COLLECTION (SMOMPK)

Summary

In terms of being very important source of oral folk literature, ethnography, history, ethnopsychology, etc. of the Azerbaijani people, CMDLCT (SMOMPK) collection has been over a century since the launch of the first edition, its interest still does not diminish. The reason for this is undoubtedly the compilation of an important part of the national-moral culture of the Azerbaijani people. Published by the Caucasian Education Department in Tbilisi, this collection is in Russian language and was considered as one of the most important sources in the study of traditions and customs of the Azerbaijani people and the names of the places in Azerbaijan, including other nations of Caucasus. From 1881 to 1929, a collection of materials about the various fields of science in the Caucasus was published by SMOMPK (CMDLCT, a collection of materials of description of locality of Caucasus tribes). The article deals with the investigation of the toponyms found in the SMOMPK paper.

Keywords: toponim, Caucasus, Azerbaijan, SMOMPK, history of Azerbaijan

Qonşu xalqların adət-ənənəlini, mədəniyyətini və dilini öyrənmək həmişə digər xalqlar üçün maraq kəsb etmiş və bu proses zaman-zaman davam etmişdir. Müasir dövrdə də bununla bağlı tədqiqatlar aparılır və belə tədqiqatlar daim elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır. Məsələn, 2002-2003-cü illərdə Azərbaycanda aparılan sosiolinqvistik tədqiqatlar nəticəsində “Azər-

baycanda dillərin öyrənilməsi" ("Studies in Languages of Azerbaijan") adlı iki cildlik kitab ABŞ-da nəşr olunub. Kitab daha çox təsviri xarakter daşısa da Azərbaycanda yaşayan xalqların etnik tərkibini öyrənmək baxımından əcnəbilər üçün mühüm materiallar verir (Bax: 1; 2). Artıq qeyd etdiyimiz kimi, Qafqaz ərazisinin, o cümlədən Azərbaycanın qonşu xalqlar tərəfindən öyrənilməsi tarix boyu davam etmiş, orta əsrlərdə ərəblər, Rusiya İmperiyası Azərbaycanı işğal etdikdən sonra isə ruslar bu əraziləri öyrənən müxtəlif ekspedisiyalar təşkil etmiş, əhlinin yaşam tərzi, dili, adət-ənənələri haqqında məlumatlar toplamışlar.

XIX əsrin əvvəllərində çar Rusiyası Qafqazı işğal etdikdən sonra Tiflis bölgənin inzibati və mədəni mərkəzinə çevrildi və bütün regiondan, o cümlədən, Azərbaycandan ziyalılar Tiflisə axışmağa başladı. Bu da öz növbəsində elm, həmin ərazidə ədəbiyyat və mədəniyyətin digər sahələrin canlanması ilə nəticələndi. Eyni zamanda rus imperiyasına idarə üçün kadr hazırlığı və yerli xalqların adət-ənənələrini və davranışını öyrənmək üçün tədqiqat materialları lazım idi. Bu səbəbdən də həmin dövrdə zaman-zaman Qafqazın müxtəlif bölgələrinə, o cümlədən, Azərbaycana ekspedisiyalar göndərildi, yerli xalqların nağılları, əfsanələri, adət-ənənələrini əks etdirən digər materiallar toplanmağa başlanıldı. Bu barədə danışarkən M.Allahmanlı yazır: "Yerli xalqların tarixinə, mədəniyyətinə, etnoqrafiyasına, dilinə artan maraq bir istiqamətdə imperiya siyasətinə bağlanırdısa, digər tərəfdən milli ziyalı qruplarının milli maraqlarına bağlanırdı. Etnik qrupların milli mədəniyyət təsəvvürləri bu mərhələdə ayrıca bir mənzərəni faktlaşdırır. Tiflisdə rus dilində nəşr olunan "Qafqaz arxeoloji komissiyasının aktları", "Qafqaz dağlıları haqqında məlumat toplusu", "Qafqaza dair materiallar toplusu" və s. kimi orqanlar öz fəaliyyəti ilə mövcud mənzərə haqqında vəziyyət və bilgiləri faktlaşdırmaqla xüsusi əhəmiyyət kəsb edən işlərə imza atdılar. Çarizmin imperiya siyasəti məsələnin bir tərəfi idi və nə qədər imperiya maraqlarını ifadə etsə də, bu gün həmin xalqların tarixi, mədəniyyəti, məişəti üçün xüsusi əhəmiyyət kəsb edən məqamlar da vardır. Bu olanlar müstəvisində həmin işin çəkisi daha ağır və əhəmiyyətlidir" (3). Nəzərə almaq lazımdır ki, bu tip tədqiqatlar daim olmuş və sosiolinqvistik xarakter daşıyırdı. Müasir dövrdə də bu tip tədqiqatlar heç də az deyil.

Qafqaz xalqlarının şifahi xalq ədəbiyyatı, etnoqrafiyası, tarixi, etnopsixologiyası və s. baxımından xüsusi əhəmiyyətə malik olan bu materiallar sonradan məcmuə kimi çap edildi. Bu məcmuələrdə Azərbaycan xalqının milli-mənəvi mədəniyyətinin mühüm bir hissəsini ehtiva olunurdu. Tiflis şəhərində Qafqaz Tədris Dairəsi İdarəsi tərəfindən çap edilən toplu rus dilində idi və Qafqazın digər xalqları ilə yanaşı, Azərbaycan xalqının da adət-ənənələrini və məişətini, o cümlədən, yer-yurd adlarını öyrənmək baxımından da olduqca sanballı mənbələrdən biri sayılır. Məcmuə, SMOMPK (СМОМПК – QƏXTMT. Сборник материалов описания местности племени Кавказа - Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu) 1881-ci ildən 1929-cu ilə qədər Qafqazda yaşayan xalqların müxtəlif elm sahələrinə aid məqalələrini

nəşr etmişdir. Müxtəlif mənbələrdə SMOMPK-un son 2 cildinin, bəzi mənbələrdə isə 3 cildinin Mahacqalada nəşr olunduğu qeyd edilir. Lakin ilkin mənbələrə isnadən qeyd edək ki, toplunun 1915-ci ilə kimi 44 buraxlışı Tiflisdə, son iki nömrəsi - 1926 (45-ci buraxlış) və 1929-cu ildə sonuncu – 46-cı buraxlışı (3, 4) olmuş və bunlar Maxaçqalada tərtib və nəşr edilmişdir (4).

Bu materialların toplanmasında rus ziyalıları ilə yanaşı kənd müəllimlərindən, mütəxəssilərdən də istifadə olunmuşdur. Həmin şəxslər hər hansı bir nağılı, əfsanəni danışarkən eyni zamanda öz kəndlərinin adı ilə bağlı da müəyyən məlumatlar vermişlər. "Məcmuənin III buraxılışında Salahlı kənd məktəbinin müəllimi B.Veniaminov Salahlı kəndinin coğrafi, etnoqrafik təsvirini vermiş və eləcə də orada yazıya aldığı bir neçə nağılı dərc etdirmişdir" (5).

Artıq qeyd etdiyimiz kimi, bu qırx altı topluda Azərbaycan xalqı ilə bağlı demək olar ki, hər bir detal öz əksini tapmışdır. Bu mənada məcmuədə işlənən toponimlər də diqqəti cəlb edir. Xüsusən də, Qafqaz arealında yayılan Azərbaycan mənşəli toponimlərin araşdırılmasında bu məcmuənin böyük elmi əhəmiyyəti vardır. Bu məcmuədə toplanan toponimik adlar, digər maddi-mədəniyyət mənbələrindən fərqli olaraq, sadəcə qeydə alınmır, həm də ayrı-ayrı müəlliflər tərəfindən ətraflı şəkildə şərh olunur. Lakin qeyd olunmalıdır ki, bu materiallar elmi ictimaiyyət üçün nə qədər sanballı və vacib olsa da onların etimoloji izahları və şərhlərinə ehtiyac duyulur. Bu barədə danışarkən Q.Məşədiyev haqlı olaraq yazır: "...bir çox hallarda toponimlərə dair məlumat verənlər bilavasitə sahə mütəxəssisləri olmadıqları üçün şərhlərdə təsvirçiliyə, xalq etimologiyasına və digər yanlışlıqlara da yol verilir. Şübhəsiz, belə məlumatları öz xarakterinə görə əsaslandırılmış elmi nəticə hesab etmək mümkün deyildir. Həmin məlumatlardan ancaq material mənbəyi kimi istifadə oluna bilər" (6, s.6).

O dövrdə Qafqazda yaşayan xalqların, o cümlədən, Azərbaycan xalqının maddi-mədəniyyət abidələri haqqında məlumat toplamaq üçün qabaqcadan proqram hazırlanmış və bu proqram daha çox sosiolinqvistik tədqiqat üçün material yığmağı özündə ehtiva edirdi. Yəni burada əhalinin bütün xüsusiyyətləri nəzərə alınmalı idi. Sonradan SMOMPK (СМОМПК – QƏXTMT. Сборник материалов описания местности племени Кавказа - Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu) adını alan bu məcmuədəki məlumatlar içərisində toponimik məlumatlar da az deyildi. Məcmuənin ayrı-ayrı nömrələrində relyef, tayfa, qəbilə və şəxs anlayışları ilə bağlı toponimlər barədə məlumat verilir. "SMOMPK" məcmuəsinə ayrı-ayrı tədqiqatçılar diqqət etsə də onun bir sistem kimi tədqiqi və araşdırılması professor Qara Məşədiyevin adı ilə bağlıdır. Məhz onun "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfaların təsviri materialları məcmuəsi (SMOMPK) əsasında)" əsəri bu sahədə yazılmış ən sanballı və dəyərli əsərlərdən biridir. Əsərdə məcmuədə işlənən toponimlər seçilərək ümumiləşdirilir və onlar müasir dilçilik baxımından təhlil edilir. Artıq qeyd etdiyimiz kimi, top-

luda verilən toponimlər pərakəndədir, digər tərəfdən isə çox vaxt onlar qeyri-mütəxəssislər tərəfindən araşdırılıb və etimoloji cəhətdən təhlil olunub. Ümumilikdə qeyd olunmalıdır ki, Azərbaycan ərazisindəki toponimlər öz zənginliyi ilə fərqlənir. Bu mənada onların ümumiləşdirilməsi və təhlili dilçilik baxımından nə qədər əhəmiyyətli olsa da, onların təhlili və etimoloji araşdırılması bir o qədər çətin bir işdir. Çünki toponimlərin araşdırlması tarix, coğrafiya və dilçilik elmləri ilə sıx bağlıdır. "Məlum məsələdir ki, toponimlər ərazinin coğrafi quruluş, xalqın dünyagörüşü və s. ilə əlaqədar meydana çıxmışdır. Müəyyən ərazidə yaşayan ayrı-ayrı xalqların da toponim yaradıcılığında müəyyən rolu olur. Belə ki, bu ərazidə bir neçə dilə məxsus toponimlər olur. Belə ki, bu ərazidə bir neçə dilə məxsus toponimlər olur. Qafqaz ta qədim zamanlardan çoxmillətli xalqların yaşayış məskəni olmuşdur. Sayılan bu cəhətdən Qafqaz toponimlərinin, o cümlədən də türk dillərinə məxsus toponimlərin yaranmasında mühüm əhəmiyyəti olmuşdur" (6, s.175). Təəssüflə qeyd olunmalıdır ki, bir sıra hallarda toponimiya ilə səriştəsiz adamlar məşğul olur və bir çox hallarda dəqiq olmayan nəticələr əldə edirlər. Toponimlərin xalqın tarixinin, məişətinin, mənəviyyatının, habelə etnik təfəkkürünün canlı qaynağı olduğunu bildirən Q.Məşədiyev, haqlı olaraq, bunların (toponimlərin - R.H) təhlilinin güclü nəzəri bazaya əsaslanmanı tələb etdiyini yazır. Daha sonra isə müəllif yazır: "Elə məcmuədəki toponimlərin müəyyən qisminin nəzəri cəhətdən zəif şərh olunması da, müəlliflərin özlərinin həmin sahədəki səriştəsizliyi ilə əlaqədardır" (6, s.6). Bu cəhətdən də məcmuədə verilmiş toponimlərin müasir elm baxımından şərhi olduqca vacibdir.

Azərbaycan ərazisində toponimik arealdan danışarkən A.Axundov yazır: "Azərbaycan xəritəsinə baxanda, biz respublikamızın bütün güşələrində doğma ana dilimizə aid yer adları ilə qarşılaşırıq. Uca dağların, gur çayların, sakit göllərin, yaşıl meşələrin, ucu-bucağı görünməyən düzənliklərin, abad yaşayış məskənlərinin – bir sözlə, insanların yaşadığı, gəzdiyi, gördüyü yerlərin adları ilk növbədə Azərbaycan dilinə məxsus sözlərdir. Lakin bunlarla yanaşı, istər mənşə, istərsə də etnik cəhətdən ən müxtəlif dillərə və xalqlara aid olan yer adlarına da təsadüf edilir. Məsələn, respublikamızın şimal tərəfində Qafqazın, şimal-şərqində və cənub-şərqində İran, mərkəzi hissəsində ərəb, slavyan və s. dillərin sözləri ilə ifadə olunmuş toponimlər nəzərə çarpır" (7, s.361). Q.Məşədiyev haqlı olaraq qeyd edir ki, bunlardan (Azərbaycan ərazisində rast gəlinən toponimlərdən – R.H) bəzilərinin daha qədim tarixlə səsləşdiyi və həm də tarixi inkişaf prosesində müəyyən fonetik və morfoloji dəyişikliyə uğradığından onların ilk variantını (arxetipini) bərpa etmək çətindir. Buna görə də, onların tədqiqi bəzən təxmini fikirlər, müəyyən fərziyyələr, yaxud gümanlı mülahizələr çərçivəsində qalır. Belə toponimik adların mənşəyini müəyyənləşdirərkən qarşıya çıxan çətinlik də odur ki, onların yarandığı dövrü əks etdirən yazılı mənbə demək olar ki, yox dərəcəsindədir (6, s.46). Bu səbəbdən də, "yalnız dəqiq dilçilik təhlili ilə tarixi etnoqrafik məlumatların vəhdətdə götürülməsi

toponimik adların mənşəcə düzgün dəqiqləşdirilib müəyyənləşdirilməsinə gətirib çıxara bilər (6, s.56).

Nəticə olaraq qeyd edə bilərik ki, СМОМПК məcmuəsi Azərbaycan ərazidə yaşayan xalqların toponimlərinin öyrənilməsində müstəsna rola malik-dir və bu əsərdə qeyd edilən toponimlərin öyrənilməsi dilçilik elmi ilə yanaşı digər elm sahələrinin araşdırılmasında da tədqiqatçılara xeyli mühüm material verə bilər.

Ədəbiyyat:

1. J.M.Clifton. Studies in Languages of Azerbaijban. I, Colour House Graphics, Dallas, Texas, USA, 2002, 123 p.
2. J.M.Clifton. Studies in Languages of Azerbaijan. II, Colour House Graphics, Dallas, Texas, USA, 2002, 123 p.
3. M.ALLAHMANLI, "SMOMPK" məcmuəsi və milli mənsubluq missiyası https://525.az/site/?name=xeber&news_id=107587#gsc.tab=0
4. Həsənova V. Nağıllar biblioqrafik informasiya resursları sistemində http://www.anl.az/down/meqale/kitabxanashunasliq-biblioqrafiya/2_2011/hv.pdf
5. Ələkbərova L. SMOMPK məcmuəsi XIX əsrdə Azərbaycan nağıllarının ən çox nəşr edildiyi mənbə kimi. http://static.bsu.az/w8/Folklorwunasliq/2013%20%20-%20%20XI/88-99.pdf
6. Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazisi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında). B., Elm və təhsil, 2010, 232 s.
7. A.Axundov. Torpağın köksündə tarixin izləri // Seçilmiş Əsərləri. 2 cilddə, II c., B., Elm və təhsil, 2012, s.358-442

UOT 81

NAXÇIVAN TOPONİMLƏRİNİN TRANSLİTERASİYASI

Zülfiyyə Boris qızı QULİYEVA

Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu

zulfiya.quliyeva.1970@mail.ru

XÜLASƏ

Naxçıvan toponimlərinin transliterasiyası zamanı onların qaynaqlarının araşdırılması və dəqiqləşdirilməsinin böyük əhəmiyyəti vardır. Bu qaynaqlar öz kökləri ilə etnonimlərə və etnotoponimlərə söykənərək çox qədim zamanlara gedib çıxır. Naxçıvan toponimlərinin bir hissəsi söz birləşmələri ilə ifadə olunmuşdur. Bu cür toponimlərin əsasən təyin tərəfi bəzi hallarda tərcümə və kalka edilirsə, bəzi hallarda olduğu kimi saxlanılır. Naxçıvan toponimlərinin transliterasiyasının müasir elmi səviyyədə araşdırılması təkcə dilçilik elmi üçün deyil, bir sıra başqa elm sahələri üçün də əhəmiyyət kəsb edir.

Açar sözlər: toponim, transliterasiya, transfoneliterasiya, əlifba sistemi, kalka

ТРАНСЛИТЕРАЦИЯ НАХЧЫВАНСКИХ ТОПОНИМОВ

РЕЗЮМЕ

Во время транслитерации нахчыванских топонимов исследование и уточнение их источников имеет большое значение. Данные источники, опираясь на этнонимы и этнотопонимы, своими корнями уходят в глубокую древность. Часть нахчыванских топонимов выражена определительными словосочетаниями. Определение в этих словосочетаниях в некоторых случаях переводится или калькируется, а иногда остается в неизменном виде. Исследование транслитерации нахчыванских топонимов на современном научном уровне имеет значение не только для языкознания, но и для других отраслей науки.

Ключевые слова: топоним, транслитерация, трансфонелитерация, алфавитная система, калька

TRANSLİTERATİON OF NAKHCHVAN TOPONYMS

SUMMARY

During the transliteration of Nakhchivan toponyms, the study and refinement of their sources is are great importance. These sources, based on ethnonyms and ethnotoponyms, are rooted in deep antiquity. A part of the Nakhchivan toponyms is expressed by definition words. In some cases, the definition of these words are translated or calculated, and sometimes remains unchanged. The study of the transliteration of Nakhchivan toponyms at the modern scientific level is important not only for linguistics, but also for other branches of science.

Keywords: toponym, transliteration, transfoneliteration, alphabetic system, tracing paper

Onomastika təkcə dilçilik elminin mühüm bir hissəsi deyil, həm də hər bir xalqın tarixinin ayrılmaz faktoloji material cəbbəxanasıdır. Xüsusən toponimika hər hansı xalqın tarixi məskəninin identifikasiyası üçün çox böyük əhəmiyyət daşıyır. Buna görə də, toponimlərin başqa dillərdə transliterasiyasının araşdırılması və elmi həqiqətin üzə çıxarılması – xüsusən, Azərbaycan kimi xain qonşuların maddi və mənəvi təcavüzünə tarix boyu məruz qalmış və məruz qalmaqda davam edən ölkələr üçün taleyüklü məsələlər sırasında durur.

"Qafqazın türk mənşəli toponimləri" tədqiqatına yazdığı ön sözdə professor Qara Məşədiyev çox doğru olaraq göstərir ki: "mənbələr əsasında Qafqazın türk mənşəli toponimlərinin tədqiqi nəinki Azərbaycan dilinin, həmçinin türk dillərinin bir sıra problemlərinin həllinə kömək edə bilər. XIX əsrin ortalarından Tiflis şəhərində çap olunmuş "Qafqaz təqvimi"ndə qeydə alınmış türk mənşəli coğrafi adların öyrənilməsinin böyük elmi, siyasi əhəmiyyəti vardır. Bu gün mövcud olmayan, tarixin qatlarında yox olmuş bir çox adlar vardır ki, onlar mənbələrdə mühafizə olunur, üzərində araşdırma aparılmasına ehtiyac duyulur. Linqvistik baxımdan maraq doğuran belə toponimlərin tədqiqatda diqqətdən kənar qalmaması müsbət haldır" [1, s.3].

Azərbaycan toponimiyasının tədqiqində qarşıda duran əsas vəzifələrdən biri istər respublikamızın, istərsə də başqa türkdilli ölkələrin ərazilərində mövcud olan və ya vaxtilə mövcud olmuş türk toponimlərinin toponimika elminin müasir səviyyəsində təhlil edilib elmi qiymətini almasından ibarətdir. M.Təklənin "Qərbdən Şərqə (ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən)" adlanan əsərində müəllif dərin elmi tədqiqatla yanaşı üç mindən artıq dəyişdirilmiş və ya ləğv edilmiş türk toponiminin faciəli taleyini də əks etdirmiş, onları bir növ pasportlaşdırmışdır. "Son zamanlar unudulmuş, dəyişdirilib yad adlarla əvəz olunmuş türk mənşəli əski yer adlarına qayıdışla bağlı kitablar meydana çıxmaqdadır. Yer adları xalqın həqiqi tarixini yaşadan abidələrdir. Onları dəyiş-

dirmək xalqın izini tarixdən silmək məqsədi daşıyır. Uzaq şərqdən tutmuş Balkanlara qədər olan geniş bir ərazi türklərin tarixi vətənidir. Bu torpaqlarda türk toponimlərinin möhkəm, əriməz layları mövcud olmuşdur" [2, s.6].

Toponimlərin heç bir beynəlxalq normaya əməl etmədən dəyişdirilməsi və xəritələrdən silinməsi ilə yanaşı, onların transliterasiya və transfoneliterasiya zamanı qəsdən və ya bilməzlikdən, bir sıra hallarda isə transliterasiya edilən dilin fərqli fonetik xüsusiyyətləri ucbatından tanınmaz dərəcədə təhrif edilməsi də xalqın tarixi taleyində öz mənfi izlərini qoyan hadisələr sırasında nəzərdən keçirilə bilər. Bu cür hadisələrin, xüsusən, indiki geopolitik şərtlər daxilində ikili standartların geniş tətbiq edildiyi bir dövrdə elmi tədqiqini və obyektiv qiymətləndirməsini tapmasının çox böyük əhəmiyyətini danmaq çətindir. Qarşıda duran əsas problemin araşdırılmasına keçməzdən öncə, ümumiyyətlə, transliterasiya və transfoneliterasiya haqqında qısa xülasəsini vermək yerinə düşərdi.

Transliterasiya termini latın dilindəki "trans" (keçirmək) və "liter" (hərf) sözlərindən düzələrək, hər hansı bir sözün və ya mətnin bir əlifba sistemindən başqa əlifba sisteminə keçirilməsinə deyilir. Prof. F.Veysəlli transliterasiyanın iki əsas növünü ayırd etmişdir: 1) yazıya söykənən transliterasiya; 2) tələffüzə söykənən transliterasiya. Alim bunlara konkret örnək göstərərək yazır: "Məsələn, biz rus dilindən "Moskva" sözünü yazıya əsasən transliterasiya edirik, "Vaşinqton" sözünü isə deyilişə görə transliterasiya edirik" [3, s.307-308].

Transliterasiya termini əslində özünü yalnız bir hərf qarışlığında başqa bir hərfdən istifadə edilməsi halında doğruldur. Bu zaman bir əlifba sistemindəki hərflər uyğun olaraq başqa əlifba sistemindəki hərflərlə əvəz olunur. "Transliterasiya – tərcümə edilən dilin əlifbasının köməyilə ilkin dilin vahidlərinin formal şəkildə hərfbəhərf yenidən yaradılmasıdır" [4, 63]. Digər hallarda isə həmin hadisəni transfoneliterasiya, yəni sözün və mətnin təkcə hərf qarşılığının deyil, eyni zamanda səs-hərf qarşılığının bir əlifba sistemindən başqa əlifba sisteminə keçirilməsi termini əvəz edir. Onu da qeyd edək ki, transfoneliterasiya, bəzi tədqiqatçıların fikrincə, təkcə ərəb əlifbasından kiril və latın əlifbasına keçirmə zamanı deyil, həm də eyni bir əlifba sistemi daxilində adların müxtəlif dillərdə olan mətnlərdə verilməsi zamanı da özünü doğruldur. Məsələn, alman və ingilis dillərindəki "ş" və "ç" səslərini ifadə edən hərflər kombinasiyasının başqa dillərdə ifadə edilməsi zamanı olduğu kimi. Eyni sözü rus dilindəki "ya, yo, ye, yu" diftonqları və başqa hərflər haqqında da demək mümkündür.

Transfoneliterasiya problemlərinin elmi şəkildə öyrənilməsi öz tarixi boyu bir neçə dəfə əlifba islahatına məruz qalmış Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, Orxon-Yenisey əlifbası, qədim alban əlifbası, ərəb əlifbası, latın əlifbası, kiril əlifbası və yenidən latın əlifbası qəbul etmiş Azərbaycan xalqı öz milli-mədəni sərvətlərinin qorunub gələcək nəsillərə olduğu

kimi çatdırılması üçün transliterasiya və transfoneliterasiya probleminin elmi-nəzəri və elmi-praktik cəhətlərinin öyrənilməsinə və təcrübədə tətbiq edilməsinə çox böyük ehtiyac duyur. Bu ehtiyacın önlənməsi üçün təkcə dilçi alimlərimizin deyil, eyni zamanda, tarixçilərin, ədəbiyyatçıların, tarixi coğrafiyaçıların, mətnşünasların, sosioloqların və başqalarının əməyinin koordinasiya edilməsi də elmimiz qarşısında duran aktual problemlər sırasındadır.

Xüsusən xain qonşularla həmsərhəd regionlarımız üçün bu işin müstəsna əhəmiyyətini xüsusi vurğulamaq lazım gəlir. Həmin regionlardan biri də, erməni qəsbkarlığı nəticəsində ana yurddan ayrı düşərək, anklava çevrilmək məcburiyyətində qalmış qədim Naxçıvan torpağıdır. Bu tədqiqatımızda məhz həmin diyarın toponimikasının transliterasiya problemlərini araşdırmaqla bu torpağın ən qədim zamanlardan türk tayfaları tərəfindən məskunlaşdığını və bunu yer adlarında əks etdirdiyini bir daha sübuta yetirməyə çalışacağıq.

"Azərbaycanın qədim inzibati və mədəniyyət mərkəz- lərindən biri olan Naxçıvanın hər daşında, hər qayasında xalqımızın şərəfli tarixi, zamanın müxtəlif dövrlərinə aid zəngin maddi-mədəniyyət abidələri, daş kitabələrdə milli adlarımız, təfəkkür dünyamız, düşüncə tərzimiz yaşayır. Bu ərazi ən qədim yaşayış məskənlərindən biridir. Bunu ərazidə aparılan arxeoloji qazıntılar, tapılan maddi mədəniyyət abidələri, təbiətin sirrini özündə qoruyub saxlayan kurqanlar, məbədlər, möhtəşəm qalalar, yeraltı mağaralar, dağlar, dərələr, daşlara həkk olunmuş rəsmlər, qədim yazı nümunələri, Gəmiqaya abidələri, Nuh peyğəmbərin qəbri və s. kimi xalqımızın özünəməxsus mədəniyyətini əks etdirən minlərlə abidələr sübut edir. Bu abidələr içərisində toponimlərin xüsusi rolu və çəkisi vardır" [5, s.117].

Bu baxımdan yanaşdıqda belə demək mümkündür ki, xalqın tarixi yaddaşındakı əfsanə və rəvayətlərdən yazıya köçürülən toponimlərin özü də bir növ transliterasiya prosesindən keçməli olmuşlar; axı heç bir yazı hər hansı bir dilin fonemlər sistemini riyazi dəqiqliklə əks etdirmək qabiliyyətinə malik deyildir. Deməli, qədim toponimlər də yazıya alınarkən öz ilkin simasını müəyyən qədər itirmiş və bizim günlərə az da olsa, təhriflə gəlib çatmışdır. Alim Naxçıvan toponimlərinin öyrənilməsinə xüsusi əhəmiyyət verərək bu barədə yazır: "Naxçıvan toponimlərinin öyrənilməsi xalqımız üçün taleyüklü məsələdir və hər şeydən əvvəl siyasi və mənəvi cəhətdən çox vacibdir. Qədim sərhədlərimizin müəyyənləşdirilməsi, torpaqlarımıza qarşı ərazi iddiasında olub, dünyaya hay-həşir salan erməni millətçilərinə kəsərli cavab verilməsi üçün dilimizin toponimlər sisteminin öyrənilməsi təxirəsalınmaz vəzifəmizdir" [5, s.118].

Bu toponim ilk dəfə eramızın II əsrində qədim Roma coğrafiyaşünası Klavdi Ptolemeyin "Coğrafi təlimnamə" adlı əsərində "Naksuana" şəklində qeyd edilmişdir. Heç şübhəsiz ki, bu toponimin adı qədim tarixçilər, coğrafiyaçılar və salnaməçilər tərəfindən yerli xalqdan eşidilmiş və tarixçinin, coğrafiyaçının daşıyıcısı olduğu dilin (məsələn, latın dilinin) fonetik qanunlarına uy-

ğunlaşdırılaraq transfoneliterasiya edilmişdir.

Araşdırmalarda "Naxçıvan" toponiminin doqquz fonetik variantı müəyyənləşdirilir ki, bunlar da: Nuhçıxan, Nuhtaban, Nahçıxan, Naxçığan, Navçığan, Noyçıxan, Navçıxan, Navcığan və Naxçıvan şəkillərində bu günümüzə qədər gəlib çatmışdır.

Naxçıvan toponiminin yuxarıda sadalanmış doqquz fonetik variantı arasında ikisi diqqətimizi daha çox cəlb etdi ki, bunlar da "Navçıxan" və "Noyçıxan"dır. Birinci variant ilk baxışda sadəcə "Naxçıvan" toponiminin metatezaya uğramış forması kimi görünə bilər. Yəni birinci hecanın sonundakı "x" səsi ilə ikinci hecanın sonundakı "v" səsi yerlərini dəyişmişlər. Qədim türk dillərində "gəmi" mənasını verən bu söz indi də dilimizdə "nav", "nov" formalarında qalmaqdadır. Ordubad rayonunda "Nav içi" adlanan bir toponim indi mövcuddur ki, gəmi formasında olan bir dərəni ifadə etmək üçün işlənir. Demək, "Navçıxan" – həm də "gəmi çıxan" deməkdir və Nuhun gəmisinin dünya tufanından sonra ilk dəfə çıxdığı yeri, yəni indiki Naxçıvan ərazisini bildirən bir toponim kimi dəyərləndirilməlidir. Türk dilində "nav" sözünün sinonimi kimi "gəmi" sözü də işlənmişdir ki, bu da özünü "Gəmiqaya" toponimində qoruyub saxlamışdır. Naxçıvan toponiminin "Noyçıxan" variantına gəlincə, burada da birinci heca diqqəti cəlb edir; belə ki, rus dilində Nuh peyğəmbərin adı "Noy" şəklindədir və "Noyçıxan" da elə Nuhun çıxdığı yer mənasına uyğun gəlir.

1872-cı ildə "1871-ci ilin Qafqaz təqvimi"ndə [6] Naxçıvan toponimi kiril əlifba sistemi ilə "Нахичеванъ" şəklində verilmişdir və 10 qrafik işarədən ibarətdir. Ərəb əlifba sistemində bu toponim 6, latın qrafikalı çağdaş Azərbaycan əlifba sistemində isə 8 hərflə ifadə olunur. Beləliklə, qrafik müqayisə zamanı görürük ki, toponimin birinci hecası sözün tam mənasında transliterasiya edilmiş, yəni orijinaldakı hər bir hərfin qarışlığında kiril əlifbası ilə yalnız bir hərf verilmişdir. Bundan sonra isə rus dilinin fonetik xüsusiyyətlərinə uyğun olaraq, orijinaldakı "x" və "ç" hərflərinin arasına bir "i" hərfi əlavə edilmişdir. "Ç" hərfindən sonra gələn "ı" hərfi isə, yenə də rus dili fonetikasının tələbi ilə "e" hərfi ilə əvəzlənmişdir. Sonuncu qrafik işarə – "sərtlik işarəsi" (твердый знак) "yumşaqlıq işarəsi" (мягкий знак) ilə bitməyən, samitlə sözlərin sonuna əlavə edilən qrafik işarədir ki, inqilabdan sonrakı əlifba islahatı zamanı dəyişdirilmişdir.

"Təqvim"də Naxçıvan uyezdinin ən böyük şəhərlərindən biri olan Ordubad toponimi də transliterasiya edilərkən rus dilinin fonetik tələblərinə tabe etdirilmişdir. Belə ki, orijinalda "d" səsi ilə bitən bu toponim kiril əlifbasına transliterasiya zamanı "Ордубатъ" şəkilndə verilmişdir ki, bu da rus dilində söz sonunda cingiltili samitlərin karlaşma tendensiyası ilə bağlıdır.

Ordubad – türk dilindəki "ordu" və fars dilindəki "abad" hissələrindən əmələ gələrək, ordunun abad elədiyi, yerləşdiyi məkan mənasını ifadə edir. Mahmud Kaşgarinin "Divanu lüğat-it-türk" əsərində "ordu" sözünü "xaqanın oturduğu şəhər, paytaxt" mənasında izah etmişdir [7, 395].

Azərbaycanın başqa bölgələrində "abad" sözü ilə bitən toponimlər olsa da, "bad" sözü ilə bitən yer adlarına, demək olar ki, rast gəlmək mümkün deyildir. Ordubad toponiminin transliterasiyası kimi, Naxçıvandakı "abad" sözü ilə bitən başqa toponimlərin də transliterasiyası zamanı "Qafqaz təqvimi"ndə eyni prinsip gözlənilmişdir – yəni sözün sonundakı cingiltili samit kar samitlə işarə edilmişdir. Bu cür toponimlərə misal olaraq: Şəkərabad, Nəzərabad, Əliabad kimi toponimləri göstərmək olar. O da maraq doğurur ki, Ordubad şəhərinin yaxınlığında yerləşən Anabad kənd adının transliterasiyası zamanı "Təqvim"də bu prinsipin pozulduğunu və toponimin orijinalda olduğu kimi cingiltili samitlə bitdiyini görürük: Анабадъ [6].

Söz birləşmələri ilə ifadə olunmuş toponimlərin transliterasiyası

Naxçıvan toponimlərinin müəyyən bir hissəsi söz birləşmələri ilə ifadə olunmuşdur ki, onların da transliterasiyası zamanı bəzən kalka üsulundan istifadə olunursa, bəzən də birləşmədəki sözlərin hamısı tərcümə olunmadan hərf qarşılığı verilir. Məsələn, əgər Aşağı İrəmeşin və Yuxarı İrəmeşin toponimləri "Təqvim"də uyğun olaraq «Ашага-Ирамешинъ» və «Юхари-Ирамешинъ» şəklində transliterasiya olunursa, Yuxarı Əylis və Aşağı Əylis toponimlərindəki coğrafi mövqe bildirən "yuxarı" və "aşağı" sözləri uyğun olaraq rus dilinə kalka edilir: «Акулисы Верхнее», «Акулисы Нижнее». Həm də kəndlərin adının rus dilində cəm şəkildə verilməsinə baxmayaraq, onların təyinlərinin orta cinsdə (средний род) verilməsi də maraq doğurur. Görünür, bu zaman təyindən sonra gələn «село» (kənd) sözü əsas götürülmüşdür. Belə olan halda toponimin bütöv transliterasiyası bu cür səslənməlidir: «Акулисы Верхнее село», «Акулисы Нижнее село» (Əylis yuxarı kənd və Əylis aşağı kənd).

A.Axundov yazır: "Digər adlarda tərcüməyə uğrama halları əksər hallarda söz birləşmələrinə aiddir: Çyornoye more – Qara dəniz, Novaya Zelandiya – Yeni Zelandiya, Neft Daşları – Neftyanıye Kamni və s. Bunlar leksik səviyyədə yox, sintaktik səviyyədə olan hadisələrdir" [8, s.157-158].

Eyni hadisəni Adıyaman, Qaranlıq, Bəndəmurad və başqa toponimlərin transliterasiya edilməsində də müşahidə etmək mümkündür: **Адіаманъ Верхній – Yuxarı Adıyaman, Адіаманъ Нижній – Aşağı Adıyaman, Каранлугъ Верхній – Yuxarı Qaranlıq, Каранлугъ Нижній – Aşağı Qaranlıq, Ахты Верхнее – Yuxarı Axtı, Ахты Нижнее – Aşağı Axtı, Алучалу Верхнее – Yuxarı Alçalı, Алучалу Нижнее – Aşağı Alçalı, Бандамурадъ Верхнее – Yuxarı Bəndəmurad, Бандамурадъ Нижнее – Aşağı Bəndəmurad** və s.

Siyahıdan da göründüyü kimi, Adıyaman və Qaranlıq toponimlərinin coğrafi mövqe bildirən təyinləri rus dilinə kişi cinsində (мужской род), Axtı, Alçalı və Bəndəmurad toponimlərinin eyni funksiyanı daşıyan təyinləri isə orta cinsdə (средний род) kalka edilmişdir ki, bunu da transliterasiya zamanı vahid prinsipin gözlənilməməsi kimi qiymətləndirmək lazım gəlir.

Söz birləşmələrindən ibarət olan toponimlərin olduğu kimi, kalka edilmədən transliterasiyasına aid bir neçə örnəyi də aşağıda təqdim edirik: **Башъ-Анзуръ – Baş Anzır, Дибъ- Анзуръ–Dib Anzır, Орта-Анзуръ–Orta Anzır, Соухъ – Бу- лагъ–Soyuqbulaq, Кизилъ-Булагъ – Qızılbulaq, Кирхъ –Булагъ–Qırxbulaq, Коша-Булагъ–Qoşabulaq, Бабаджанъ - Дараси – Babacandərəsi, Инакъ -Дами – İnəkdamı** və s.

"Təqvim"də Baş Anzır, Dib Anzır, Orta Anzır kimi öz əksini tapmış bu oykonimlər A.Bağırovun "Sözlüyündə" Aşağı Anzır, Baş Anzır və Dib Anzır şəklində təsbit olunmuşdur. Zənnimizcə, "Təqvim"dəki variant daha düzgündür; belə ki, Dib Anzır elə Aşağı Anzır mənasına uyğun gəlir və həmin adı bir də təkrar etməyin mənası yoxdur. Halbuki, coğrafi mövqe baxımından Baş və Dib Anzırın ortasında Orta Anzırın yerləşməsi məntiqi görünür və tarixi qaynaqda da bu fikir təsdiq olunur.

Toponimlərin transliterasiyasında saitlərin əvəzlənmə üsulları

Naxçıvan toponimlərinin kiril əlifba sisteminə transliterasiyası zamanı Azərbaycan dilindəki "ə" səsinin əksər hallarda "a" ilə əvəz edildiyini görmək olar: **Əznəbürd – Азнабюртъ, Qəbullu – Кабуллу, Təzəkənd – Тазакендъ, Qaraxanbəyli – Караханбеклю, Qoşadizə - Кошадиза, Cəhri–Джары, Nəzərabad–Назарабатъ,Şəkərabad–Шакарабатъ, Əbrəqunis –Абракунисъ,Vələver– Валаверъ, Vənənd –Ванандъ, Ərəzin – Аразинъ, Bənəniyar – Бананіяръ** və başqa toponimlərin transliterasiyası zamanı "ə" səsləri "a" ilə ifadə edilmişdir. Ancaq bir sıra hallarda Azərbaycan dilində "ə" səsinin transliterasiyası zamanı kiril əlifba sistemindəki «е» və «я» hərflərinin köməyinə müraciət edildiyini də görmək mümkündür.

a) «е» hərfinin köməyi ilə: "kənd" sözü ilə bitən toponimlər «кендъ» kimi transliterasiya olunur. Məsələn**: Təzəkənd – Тазакендъ,Başkənd–Башкендъ, Kərimkənd–Кяримкендъ, Paşakənd–Пашакендъ,Daşkənd–Ташкендъ, Həsənkənd – Касанъ-Кендъ, Ağkənd – Агъ-Кендъ**

"Kənd" sözü ilə bitən toponimlərin transliterasiyası zamanı müşahidə etdiyimiz bir maraqlı cəhət də, bəzi hallarda "kənd" hissəsinin əsas sözə bitişik yazılması – məsələn**: Təzəkənd – Тазакендъ, Paşakənd – Пашакендъ, Kərimkənd–Кяримкенъ, Başkənd– Башкендъ, Daşkənd – Ташкендъ** bəzi hallarda isə əsas hissədən defislə ayrılmasıdır. Məsələn: **Ramazan - Kənd – Рамазанъ - Кендъ, Həsən - Kənd - Касанъ-Кендъ və s.**

Göründüyü kimi, bu cür toponimlərin transliterasiyası zamanı "kənd" hissəsi əsas sözdən təkcə defislə ayrılmır, həm də xüsusi isim kimi böyük hərflə yazılır. Digər bir tərəfdən, "kənd" sözünün transliterasiya zamanı sondakı cingiltili "d" samitini də olduğu kimi saxlaması maraq doğurur və Azərbaycan toponimlərinin kiril əlifba sisteminə keçirilməsi zamanı heç də həmişə eyni prinsiplərin rəhbər tutulmadığını göstərir. Bəzən eyni bir sözdəki iki "ə" səsinin biri "e", digəri isə "a" hərfi ilə ifadə olunur: Gərməçataq – Гермачатагъ toponimində olduğu kimi. Bu toponimin birinci hecasındakı "ə" səsi transliterasiya

zamanı kiril əlifba sistemindəki "e" hərfi, ikinci hecasındakı eyni səs isə "a" hərfi ilə ifadə edilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə həmin toponim "Kərəm çatağı kəndi" şəklində təsbit olunmuşdur [9, s.27]. "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü"ndə bu oykonim "Kərməçataq" şəklində transliterasiya olunmuşdur, hazırda Babək rayonunda kənd adıdır [10, s.95].

Yalnız bir halda toponimdəki "ə" səsinin kiril əlifbasındakı "o" hərfi ilə ifadə edildiyini görürük. Bu da Ordubad rayonundakı Dəstə kəndinin adı ilə bağlıdır. "Təqvim"də həmin toponim «Доста» şəklində verilmişdir.

b) «я» hərfinin köməyi ilə: Məlumdur ki, Azərbaycan dilindəki "ə" səsini kiril əlifba sisteminə transliterasiya etmək üçün ən əlverişli hərf məhz bu əlifbanın son hərfi olan «я» hərfidir. Naxçıvan toponimlərinin transliterasiyası zamanı da bu üsuldan istifadə olunmuşdur. Ancaq «я» hərfinin funksiyası təkcə "ə" səsini ifadə etməklə başa çatmır. Hələlik isə, "ə" səsinin kiril əlifba sisteminə transliterasiyası ilə bağlı olaraq bir neçə örnəyi nəzərdən keçirək: **Kərimbəy dizə - Кяримъ – бекъ - диза, Gənzə-Гянза, Kərimqulu dizə - Кяримъ – Кули - диза,Tilləк –Тиллякъ, Kənkan – Кянъ - кянъ, Kələki – Кялаки, Çobangərəkməz – Чобанкяракмаз**

Örnəklərdən göründüyü üzrə, daha çox "k", "g", "l" kimi samit səslərindən sonra gələn "ə" səsi transliterasiya zamanı «я» hərfi ilə ifadə olunur. Bu da həmin samitlərin rus dilində tələffüz zamanı müəyyən qədər yumşaq səslənməsi ilə bağlı olmalıdır. Transliterasiya zamanı o da maraq doğurur ki, Çobangərəkməz toponimindəki "g" səsi karlaşaraq "k"ya çevrilirsə, Gənzə toponimində bunu görmürük – yəni "g" səsi rus dilindəki yumşaq «г» hərfi ilə ifadə olunur.

Kiril əlifba sisteminə transliterasiya zamanı «я» hərfinin başqa bir funksiyası Naxçıvan toponimlərindəki müəyyən dərəcədə işlək olan "ya" səs birləşməsini qrafik ifadə etməsi ilə bağlıdır. Bu cür toponimlərə örnək olaraq aşağıdakıları göstərmək mümkündür**: Yamxana – Ямхана, Yarımca – Яримджа, Bənəniyar – Бананіяръ, Yaycı – Яйджи, Sarı Yaqub Сары-Ягуб, Yavıx – Явых, Yağlı – Ягли, Yastıbulaq - Ясты Булаг.** Bütün bu toponimlərdəki "ya" diftonqu "Qafqaz təqvimi"ndə «я» hərfinin köməyilə verilmişdir. Burada Yamxana toponiminin transliterasiyası ilə bağlı bir fikrimizi də bildirmək istərdik ki, bu da onun başqa qaynaqlarda "Yemxana" variantında verilməsi ilə bağlıdır [9, s.29]; [10, s.99].

Qeyd edək ki, bu, yanlış transliterasiya variantıdır və toponimin etimologiyasının "yem" sözü ilə heç bir bağlılığı yoxdur. Bu toponimin düzgün variantı və doğru semantik etimologiyası "Ensiklopedik lüğət"də öz əksini tapmışdır: "Yamxana – Babək rayonunda kənd. Yaşayış məntəqəsi keçmiş poçt stansiyasının yerində salınmışdır. Yam – orta əsrlərdə monqol işğalına məruz qalmış ölkələrdə, o cümlədən Azərbaycanda mövcud olmuş nəqliyyat və rabitə məntəqəsi (poçt stansiyası) idi. Məmur, elçi, səfir, vergi toplayan və başqala-

rının bir məntəqədən digərinə gedib-gəlməsini təmin edən xüsusi dayanacaqlar yam, onlara başçılıq edənlər isə yamçı adlanırdı. Oykonim yam və fars dilindəki xana (ev, yer, kənd) komponentlərindən düzəlib, "poçt stansiyası olan kənd" mənasındadır" [11, s.270].

Kiril əlifba sistemindəki «е», «ю», «ё» diftonqlarından da Naxçıvan toponimlərinin transliterasiyası zamanı yetərincə istifadə olunmuşdur. Toponimlərdəki "ye", "yo", "yu", eləcə də "ü", "ö" kimi səslərin ifadə edilməsində adı çəkilən diftonqlar da öz rolunu oynamışdır. Bir neçə örnəyin köməyi ilə fikrimizi əyaniləşdirə bilərik: **Əznəbürd – Азнабюрт, Yurdçu Girdəsər – Юртчи - Гирдасаръ, Yuxarı İrəmeşin – Юхары - Ирамешинъ, Kükü – Кюки, Nürgüd – Нургютъ, Göynük – Гейнук, Güznüt – Кузнутъ, Düylün – Дюглунъ, Gömür – Гемуръ, Nüsnüs – Нусъ - Нусъ, Üstüpü – Уступи, Ördəkli – Ордаклю, Söyüdlü – Согутлу**

Gömür toponimi "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə "Kömür" variantında getmişdir [9, s.26]. Əgər Göynük, Gömür kimi toponimlərdə "ö" saiti «ё» diftonqunun köməyi ilə verilirsə, Ördəkli və Söyüdlü toponimlərinin transliterasiyasında bu məqsədlə rus dilindəki "ю" saitindən istifadə olunur. Ördəkli toponiminin transliterasiyası ilə bağlı bir cəhəti də qeyd etməyə ehtiyac duyulur. Bu da – kiril əlifbasında toponimin "li" şəkilçisi ilə deyil, onun arxaik variantı olan və yalnız tarixən ərəb əlifbasında öz əksini tapan "lü" şəkilçisi ilə bitməsi, daha doğrusu, qrafik cəhətdən bu şəkilçi ilə ifadə edilməsidir. Eyni hadisəni **Qaraxanbəyli** toponiminin transliterasiyanda da görürük: **Караханбеклю.** Bu şəkilçinin "lu" variantını başqa toponimlərin transliterasiyasında da görmək mümkündür: **Xəlilli – Халиллу, Keçili – Кечиллу, Digin Almalı – Дигинъ Алмалу, Qabıllı – Кабуллу, Qabaxlı – Кабахлу, Qorçalı – Корчалу, Təkəli – Такалу, Alçalı – Алучалу** və s.

Toponimlərin transliterasiyası zamanı samitlərin əvəzlənmə üsulları

Naxçıvan toponimlərinin kiril əlifba sisteminə transliterasiyası zamanı samitlərin əvəzlənməsinin iki əsas prinsipini ayırd etmək lazım gəlir: a) qarşılığı olmayan samitlərin əvəzlənməsi; b)qarşılığı olan samitlərin əvəzlənməsi.

Naxçıvan toponimlərinin transliterasiyası zamanı "h" samiti kiril əlifba sistemində bəzən «г», bəzən də «х» hərflərinin köməyi ilə ifadə edilir. Bu halların hər ikisinə aid örnəkləri nəzərdən keçirək: «г» hərfinin köməyi ilə: **Джагры – Cəhri; Гадживаръ – Hacıvar; Кагабъ – Qahab; Нагаджиръ – Nəhəcir; Гусейнали-бекъ - диза – Hüseynəli bəy dizə; Мирза - Гасанъ-диза – Mirzə Həsən dizə Неграмъ – Nehrəm; Алаги – Ələhi; Гаджи-Муханъ – Hacı Muğan; Шагризъ – Şəhriz; Гусейнъ-Кули-Агалу – Hüseynqulu ağalı; Багарлу – Baharlı; Ашихъ - Гусейнъ – Aşıx Hüseyn və s.** Bu toponimlərdəki "h" səsinin kiril əlifba sistemindəki «г» hərfi ilə transliterasiya edilməsi tamamilə şərti xarakter daşıyır və həmin səslər "x" hərfinin köməyi ilə də transliterasiya edilə bilərdi. Necə ki, aşağıda nəzərdən keçirdiyimiz toponimlərdə "h" səsi "x" hərfi ilə transliterasiya edilmişdir: **Шахтахты –**

Şahtaxtı; Шихмахмудъ – Şıxmahmud; Шахбузъ – Şahbuz; Махмудава – Mahmudava; Шихмараншахъ – Şıxmaranşah; Дехсаръ – Dehsar; Бай-Ахмедъ – Bəyəhməd; Рахмакендъ – Rəhməkənd; Гюда-Ахмедъ – Gödə Əhməd; Агъ-Ахмедъ – Ağ Əhməd; Шахгельды-кишлагъ – Şahgəldi qışlaq.

Rus dilində "g" səsi və hərfi olmadığından, transliterasiya zamanı onu əvəz etmək üçün «г» hərfindən istifadə olunur. Aşağıdakı örnəklərdə olduğu kimi: **Yurdçu Girdəsər – Юртчи-Гирдасаръ; Nürgüd – Нургютъ; Göynük – Гейнук; Gömür – Гемуръ**. Ancaq bəzən bu hərf Azərbaycan dilindəki "ğ" səsini ifadə etmək üçün də işlənilir: **Qarabağlar – Карабагларъ; Ağxaç – Агъ-Хачъ; Aşağı Uzunoba – Ашага-Узуноба; Ağrı – Агры.**

Azərbaycan dilindəki "q" samitinin transliterasiya zamanı "k"laşması hadisəsi də geniş yayılmışdır: **Qabıllı – Кабуллу; Qarabağlar – Карабагларъ; Qıvraq – Кыврагъ; Qulubəy dizə - Кули-бек-диза; Qrababa – Карабаба; Qızıl qışlaq – Кизилъ-кишлагъ; Qızılca – Кизилджа.**

Azərbaycan dilindəki "c" samiti kiril əlifba sisteminə transliterasiya zamanı əksər hallarda «дж» hərfbirləşməsi ilə verilir: **Xincab, Cəhri, Yarımca, Siçancıq, Kərbəlayı Oruc dizə.**

Ancaq burada da müəyyən istisnalara rast gəlmək mümkündür. Məsələn, Əndəmic oykonimindəki "c" səsini ifadə etmək üçün transliterasiya zamanı kiril əlifbasındakı «ч» hərfindən istifadə edilmişdir: **Андамичъ.**

Ədəbiyyat:

1. Baxşıyeva T. Qafqazın türk mənşəli toponimləri. "Avropa" nəşriyyatı: Bakı, 2010
2. Təkləli M. Qərbdən Şərqə (ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən). "Elm": Bakı, 1999
3. Dilçilik ensiklopediyası. II cild (dərs vəsaiti). Prof. F.Veysəllinin redaktəsi ilə – "Mütərcim": Bakı, 2008
4. Казакова Т. Практические основы перевода. Санкт-Петербург, 2002.
5. Bağırov A. Onomalogiya məsələləri. 2 cilddə. C. 1. "Elm və Təhsil": Bakı, 2010
6. Кавказский календарь на 1872 г. Типография канцелярии Его императорского Величества. Тифлисъ, 1871
7. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. 4 cilddə. C. 4. "Ozan": Bakı, 2006
8. Axundov A. Dil mədəniyyəti. "Yazıçı": Bakı, 1992
9. Naxçıvan sancağının müfəssəl dəftəri. "Elm": Bakı, 2001
10. Bağırov A. Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü. "Nurlan": Bakı, 2003
11. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilddə. C.2. "Şərq-Qərb": Bakı, 2007

UOT 81

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ ONOMASTİK NORMALAR

Təhminə Rasim qızı İSMAYILOVA

Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu

tahmina-ismayilova@mail.ru

XÜLASƏ

Məqalədə dilin lüğət tərkibinin özünəməxsus xüsusiyyətləri ilə bir-birindən fərqlənən leksik-semantik laylarından biri olan onomastikada norma və normalaşma məsələləri tədqiqata cəlb olunmuşdur. Qeyd olunur ki, norma elə variantdır ki, burada dilin bütün qayda-qanunlarına riayət olunur. Başqa sözlə, norma variantlılıqdan doğur və eyni zamanda variantlılığın qarşısını alır. Lakin normanın bu cəhətini mütləq mənada başa düşmək olmaz. Belə ki, dil vahidlərində bəzən bir neçə variant ayrı-ayrılıqda norma kimi qəbul olunur. Bu cəhət daha çox onomastik vahidlərdə müşahidə olunur.

Açar sözlər: onomastik vahidlər, norma, mikronorma, makronorma, şəxs adları

СОВРЕМЕННЫЕ ОНОМАСТИЧЕСКИЕ НОРМЫ В ЯЗЫКЕ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

В статье изучаются вопросы о норме и нормализации в рамках ономастики, как один из лексико-семантических слоев лингвистического, отличающихся друг от друга. Отмечается, что норма является таким вариантом, что здесь соблюдаются все правила языка. Другими словами, норма возникает на базе вариативности и в то же время предотвращает вариативность в языке. Но данная черта нормы не является абсолютным. Потому что иногда несколько вариантов одной языковой единицы могут выступать как норма в отдельных ситуациях. Данное свойства чаще всего встречается у ономастических единиц.

Ключевые слова: ономастические единицы, норма, микронорма, макронорма, имена людей

MODERN ONOMASTİC NORMS İN THE LANGUAGE OF AZERBAİJAN

SUMMARY

In the articke there is investigated the questions about the norm and normalization in the framework of onomastics, as one of the lexico-semantic linguistic layers, which are differ from each other. It is noted that the norm is such an option that all the rules of the language are observed. In other words, the norm arises on the basis of variability and at the same time prevents variability in the language. But this feature of the norm is not absolute. Because sometimes several variants of the same language unit can be used as the norm in certain situations. This property is most common on onomastic units.

Key words: onomastic units, norm, micronorma, macronorma, person names

Məlumdur ki, dilin lüğət tərkibinin özünəməxsus xüsusiyyətlərlə bir-birindən fərqlənən leksik-semantik layları var. Bunlardan biri də onomastik vahidlərdir. Zamanın tələbi ilə tarix hər cür təhrifə məruz qalır. Lakin həqiqətin meydana çıxarılmasında tarixin dadına çatan başlıca amillərdən biri dil və onun onomastik vahidləri, başqa sözlə, xüsusi adlarıdır. Belə ki, xüsusi adların mənasında xalqın siyasi, ictimai, iqtisadi, mədəni həyatı, tarixi, coğrafiyası, etnoqrafiyası, ideologiyası, psixoloji-emosional, həyəcanlı məqamları, başqa xalqlarla əlaqəsi, xalqın məşğuliyyət və peşəsi, dilimizin qədim dövrlərinə aid olub, ömrünü başa çatdırmış fonetik, leksik-semantik və qrammatik xüsusiyyətləri əks olunur.

Son vaxtlar Azərbaycan onomastikası müxtəlif aspektlərdə tədqiq olunmuş, bir sıra sanballı tədqiqat işləri yazılmış və onomastikaya aid konfransların müxtəlif səpgili materialları nəşr olunmuşdur. Bir neçə kiçik həcmli praktiki əhəmiyyət daşıyan məqalələri nəzərə almasaq, onomastikada norma və normalaşma məsələləri, demək olar ki, tədqiqata cəlb olunmamışdır. Halbuki, onomastikada norma problemi yalnız praktiki məsələ olmayıb, ictimai-siyasi, elmi əhəmiyyət kəsb edir və bu problemin tədqiqi zamanı xalqın tarixinin müxtəlif mərhələlərinə onun ictimai və elmi həyatının müxtəlif sahələrinə – mədəniyyətə, etikaya, estetikaya, dinə, hüquqa, iqtisadiyyata, coğrafiyaya, sosiologiyaya, psixologiyaya, astronomiyaya, mifologiyaya, dilçiliyə, ədəbiyyatşünaslığa və digər sahələrə ekskurs olunur. Bu sahələrin hər biri onomastik normaların tədqiqində, onun daha dərindən araşdırılmasında bu və ya başqa dərəcədə rol oynayır.

Onomastik normalardan danışmazdan əvvəl, ümumiyyətlə, norma və onun əlaqədar olduğu anlayışlar haqqında qısaca məlumat verək.

Norma universal anlayış olub, insan fəaliyyətinin bütün sahələrində işlənir. Norma həm də elmi termindir və onun ayrı-ayrı elm sahələrində özünəməxsus

yeri var. Norma dilçilik elmində də çoxaspektli bir mövqe tutur və onun tədqiqi dil mədəniyyətinin nəzəri və əməli məsələlərinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Dilçilikdə norma, müxtəsər şəkildə desək, dilin normalarına riayət olunmasıdır. "Norma nədir" sualına Azərbaycan dilçiliyində və ümumi dilçilikdə formaca müxtəlif, lakin məzmunca bir-birinə yaxın cavablar verilir.

"Norma–tarixən formalaşmış və dil sisteminin reallaşmasına xidmət edən modellər, şablonlar şəklində təzahür edir" [5, s.2].

"Norma dildə mövcud olan nitq vahidlərinin müəyyən variantlarından birinin seçilməsi, fərqləndirilməsi və əsas kimi götürülməsidir" [5, s.13].

"Dil norması dil quruluşu üçün ictimai kommunikativ praktika prosesində seçilmiş, möhkəmlənmiş və ənənəvi reallaşmış elementlərin dil sistemində qəbul olunan, o dilin daşıyıcılarının nitqində sabitləşmiş və müəyyən dövr ərzində ədəbi dildə məcburi (qanuni) sayılan linqvistik hadisələrin məcmusudur" [5, s.18].

"Norma konkret tarixi dövrdə kollektiv tərəfindən qəbul və etiraf olunan, üslublar arasında müvafiq şəkildə paylanan və onları təmin edən dil faktlarının müəyyən qanun dairəsində cəmləşən təzahürüdür" [9, s.10].

"Norma nitq mədəniyyətinin aparıcı nəzəri kateqoriyası olub, "düzgünlük" və "yanlışlıq" kriteriyasının şkalasıdır. Norma – dildə eyni vaxtda mövcud olan nitq variantlarından öz funksiyasının ən nümunəvi şəkildə yerinə yetirilmə baxımından fərqləndirilib seçilən və işlədilən variantdır" [2, s.201-202].

Dil sistemdir və dil işarələrinin hamısı müxtəlif baxımdan bir-birindən asılıdır və bir-birini şərtləndirir. Ona görə də dilin sistemində bütövlükdə fəaliyyət göstərən normalar dilçilikdə makronorma, yalnız ədəbi dil sahəsində fəaliyyət göstərən və onu tənzimləyən normalar mikronorma terminləri ilə ifadə olunur. Bunların hər ikisi bir-birindən asılıdır və aralarında daimi əlaqə mövcuddur. Axı, ədəbi dil ümumxalq dilinin müəyyən normaya tabe edilən normativ tələblər çərçivəsində fəaliyyət göstərən, seçmə vasitəsilə nitq elementlərinin qaydaya salınmış qoludur. Lakin makronorma ilə mikronorma arasında əsaslı fərq ondan ibarətdir ki, makronormalar insanların ifadəsindən asılı deyildir, obyektiv şəkildə mövcuddur. Mikronormada isə subyektiv müdaxilə zəruridir və əsas amildir [2, s.11-13]. Məsələn, müxtəlif, hətta qohum olmayan dillərin qarşılıqlı əlaqəsi obyektiv qanunauyğunluqdur, başqa sözlə, hər hansı bir dil üçün makronormadır. Lakin bu prosesin tənzimlənməsi, subyektiv müdaxilə, ədəbi dil normalarına, fonetik və orfoqrafik qaydaya tabe edilməsi mikronormadır.

Onu da qeyd etmək lazımdır ki, norma yalnız ədəbi dilə deyil, dilin bütün sahələrinə, o cümlədən dialektlərə, ümumxalq dilinə aiddir və onun bütün səviyyələrini əhatə edir. Nə qədər dil hadisəsi varsa, bir o qədər də norma var. Məsələn, qrammatik norma, leksik norma, fonetik norma, orfoepik norma, üslubi norma, onomastik norma və s.

Göründüyü kimi, norma haqqında uzun müddətdir ki, yazılır. Müəlliflərin fikirlərində norma problemində fərqli cəhətlər, müxtəliflilik olsa da, onların

hamısı normanın ictimai xarakter daşıdığını etiraf edirlər. Beləliklə, norma ictimai-tarixi kateqoriya olub, zaman-zaman dəyişir və hər dövrün özünəməxsus dil normaları formalaşır.

Deməli, norma elə variantdır ki, burada dilin bütün qayda-qanunlarına riayət olunur. Başqa sözlə, norma variantlılıqdan doğur və eyni zamanda variantlılığın qarşısını alır. Lakin normanın bu cəhətini mütləq mənada başa düşmək olmaz. Belə ki, dil vahidlərində bəzən bir neçə variant ayrı-ayrılıqda norma kimi qəbul olunur. Bu cəhət daha çox onomastik vahidlərə aiddir. Məsələn, şəxs adlarının əzizləmə və kiçiltmə formalarında Müşfiq – Müşü, Təranə – Təriş, Gülnarə – Gülü, Məhəmməd –Məmməd, Mehriban – Mehri eyni kökdən olsalar da hər biri ayrılıqda norma səviyyəsindədir və müstəqil adlar kimi işlədilir, yaxud eyni adın müxtəlif fonetik variantları – Əli – Alı, Adil – Ədil, Malik – Məlik, Adilə – Ədilə, Ömər – Umar və s. adların hər ikisi müasir dilimiz üçün normadır. Ona görə də dilçilik ədəbiyyatında qeyd edildiyi kimi, norma eyni bir dil strukturunun cəmiyyətdə məqbul götürülmüş bir və ya bir neçə şəkildə həyata keçirilməsidir [2, s.202].

Norma milli səciyyə daşıyır və ayrı-ayrı dillərin, hətta qohum dillərin normaları həm sinxron, həm də diaxron planda bir-birindən fərqlənir. Ümumi cəhət ondan ibarətdir ki, bütün dillərdə norma daimi olaraq dəyişir, yeni normalar yaranır, normalarda variantlılıq, istisna, qənaət və artıqlıq halları baş verir. Ona görə də norma problemi dilçiliyin müntəzəm olaraq tədqiqata cəlb edilməsi vacib olan universal dil hadisəsidir.

Dilin lüğət tərkibinin leksik-semantik laylarından biri də onomastik vahidlərdir. Dildə olan digər sözlər kimi onomastik vahidlər də ictimai səciyyə daşıyır. Cəmiyyət inkişaf etdikcə onlar da cilalanır, köhnəliyi əks etdirən, müasir tələblərlə səsləşməyən, bayağı vahidlərdən imtina edilir və yeniləri ilə zənginləşdirilir. Bu cəhət daha çox onomastik vahidlərin şəxs adları qrupuna aiddir. Müxtəlif dövrlərdə zamanın tələblərinə, adamların dünyagörüşünə mənəvi mədəniyyətinə, təfəkkür tərzinə və cürbəcür adət-ənənələrə uyğun olaraq adlara münasibət müxtəlif olur.

Hər dövrün özünəməxsus onomastik normaları olduğundan müxtəlif dövrlərin onomastikası əsaslı şəkildə bir-birindən fərqlənir. Bu ayrı-ayrı dövrlərdə adların müxtəlif cür dərk edilməsi, müəyyən tip adlara ictimai cəhətdən müxtəlif qiymət verilməsi, dövrün tələblərinə uyğun olaraq adların motivləşdirilməsinə müxtəlif şəkildə istinad edilməsi ilə izah olunur. Məsələn, ayrı-ayrı tarixi dövrlərdə müxtəlif xalqların qadın adlarında tarixi şəraitin, dövrün qadına münasibəti əks olunur. Bunu müxtəlif dövrlərin qadın adlarında aydın şəkildə görmək olar. 1930-40-cı illərdən qabaqkı mətbuatı izlədikdə aydın olur ki, qadınların əksəriyyətinin adı Bəsti, Qızbəs, Qızqayıt, Qızbəsdi, Gülbəs, Yetər, Qızyetər, Gülyetər, Qıztamam, Gültamam, Tamam, İstəməz, Gərəkməz, Kifayət, Nafilə (faydasız, boş deməkdir) və s. Əksinə qədim dövrlərdə cəmiyyətdə qadının mövqeyi daha mötəbər idi və onlara Ayişə,

Fatimə, Züleyxa, Zeynəb, Zübeydə, Mələk, Banıçiçək, Burlaxatun və s. kimi nüfuzlu adlar verilirdi.

Türk dillərində işlədilən şəxs adlarının əmələ gəlməsi və inkişafı tarixi iki dövrlə əlaqələndirilir:

1. Qədim dövrlərdən başlayaraq islam dininin, müsəlmançılığın meydana gəlməsinə qədər, köçərilik dövründə mövcud olan adlar. Məsələn, Toğrulbəy, Ay, Gündüz, Qaraquş. Orxan və s.

2. İslamiyyətdən sonra yaranan adlar.

O.Mirzəyev yazır ki, ilk adlar, əlbəttə, son dərəcə bəsit olmuşdur. Uşaq dünyaya gələndə ata-ananın nəzərini nə cəlb edibsə, elə onu da övladına ad seçib: Duman, Tufan, Budaq, Dəmir, Qaya, Qaryağdı və s. [11, s.277].

İslam dinindən qabaq mövcud olan adların bir qisminin uşaqlara verilməsi o dövrün onomastik normalarına uyğun olaraq, müxtəlif adət-ənənələrlə bağlı idi. Belə ki, müsəlman ailələrində bədbəxt hadisələrin, uşaqların tez-tez vaxtsız ölümünün qarşısını almaq, mövhumi qüvvələrdən uşaqları qorumaq meyli bəzən onların müsəlman adlarından imtina etməsinə, əvvəllər mövcud olan adlara meyl göstərilməsinə səbəb olurdu. Uşaqları ölümdən qorumaq məqsədilə bəzən valideynlər onlara Yaşar, Dursun, Durmuş, Satılmış kimi adlar da verirdilər. Krit adasında qara qüvvələrdən qorunmaq simvolu kimi Arap adı mövcud idi. Krit müsəlmanları qara qüvvələr (cin, şeytan, əcinnə) üçün xoşagəlməz və qorxunc olan bu adı uşaqlarına verirdilər ki, həmin qüvvələr uşaqdan uzaqlaşsın və onları sakit buraxsın [14, s.128].

Bu adət digər türk xalqlarında da müşahidə edilirdi. Məsələn, qırğızlarda Satılqan, türkmənlərdə İtalmaz və s. bu qəbildən olan adlardandır. A.B.Superanskaya qeyd edir ki, adqoymada bu adət-ənənə türk xalqlarında hələ də qalmaqdadır [15, s.29].

Türklərdə adların bir qismi o dövrün onomastik normalarına uyğun olaraq, dini bayramlar, dini təqvimlərlə əlaqədar idi. Valideynlər uşaqlarını ay, gün adları ilə Mövlud, Ramazan, Şaban, Rəcəb və s. adlandırırdılar. İmamların adları da uşaqlara verilirdi və Məhəmməd peyğəmbər öz dövrünün adamlarına özünə qədər olan imamların adlarından da istifadə etməyi tövsiyə edirdi. Məsələn, İbrahim, İlyas, Musa və s.

Qədim azərbaycanlılar uşaqlıqda bir ad, gənclikdə başqa, qocalıqda isə üçüncü ad daşıyırdılar. Qədimdə türkün adı həmişə onun cəmiyyətdə tutduğu mövqeyini göstərirdi. Bu adətin bariz nümunəsini "Kitabi-Dədə Qorqud" dastanlarında görmək olar. Dastanda qeyd olunur ki, qədim dövrlərdə bir oğlan baş kəsməsəydi, qan tökməsəydi, ona ad verməzdilər. Dastanda Dədə Qorqud insanlara ad verən şəxsiyyət kimi qeyd olunur. Həm də Dədə Qorqud körpələrə deyil, böyüklərə ad verir.

Kiçik yaşlarında uşaqların adı olmurdu. Onlar öz valideynlərinin və yaxud tayfada məşhur olan şəxsin, ağsaqqalın adı ilə tanınırdılar. Bu ənənənin izləri müasir dövrümüzdə də qalmaqdadır.

Sonralar yeni doğulanlara ad qəbilənin, tayfanın başçıları, dövrün məşhur alim və tanınmış adamları tərəfindən verilirdi. İslam dininin hakim olduğu dövrlərdə bu vəzifəni din xadimləri yerinə yetirirdilər. Bu dövrdə dini anlayışlarla bağlı olan Oruc, Namaz, Hacı, İmam, Axund, Allah, Şıx və s. vasitələrlə bir sıra şəxs adları yaranmışdır.

VI əsrdən, yəni ərəb istilasından sonra dinlə bağlı və ərəb sözlərindən ibarət adlardan istifadə olunur. Bu dövrdə Novruz, Ramazan, Şaban, Məhərrəm, Rəcəb, Cümə, Qurban, Oruc, Mövlud və s. adlar geniş yayılmışdır. X əsrdən başlayaraq ərəb adları geniş vüsət alır. Türklərin hakim təbəqələrinin əksəriyyəti ərəb adları qoyurdular. Bu dövrdə, eyni zamanda, türk adlarından da istifadə olunurdu. Məsələn, Eldəgiz, Arslan, Cahangir və s.

Ərəb mənşəli adlardan danışarkən bir məsələni də qeyd etmək yerinə düşər. Məlumdur ki, xüsusi ad digər sözlər kimi ümumi anlayış ifadə etmir, tam şərti işarədir və xüsusi adın əks etdirdiyi əşya ilə heç bir əlaqəsi yoxdur. Ona görə də başqa dillərdən xüsusi ad alıb dildə işlətmək heç bir çətinlik törətmir. Bəzən dilimizdə çox yayılmış və ərəb dili sözləri əsasında düzəlmiş xüsusi adları yalnız din ilə, islam ruhanilərinin fəaliyyəti ilə bağlayırlar. Bu fikir doğru deyil. Ona görə ki, daxili forması və mənası xalqa aydın olmayan ərəb sözləri xüsusi ad üçün çox əlverişlidir. Həm də belə sözlər mənaca neytraldır, heç bir emosiya ilə bağlı deyildir. Bu isə xüsusi ad üçün mühüm cəhətdir [1].

Ayrı-ayrı dövrlərdə ad yaradıcılığına müxtəlif baxımdan müdaxilələr olmuş, bu proses təbii axınla getməmişdir. Belə ki, XVI əsrdən sonra iki onomastik-mədəni sistem mövcud olmuşdur. Birinci ümumtürk, ikinci ümumşərq (müsəlman) onomastik-mədəni sistemidir. Bu sistemlərin dialektikası Azərbaycan ictimai təfəkküründəki milliləşməni əks etdirir. Ümumtürk materialı daha çox toponimikada, ümumşərq materialı isə antroponimikada faktlaşsa da, XVII-XVIII əsrlərdə onomastika yaradıcılığı bütövlükdə milli məzmuna malik olmuşdur. Məsələn, M.V.Vidadi, M.P.Vaqifdə onomastik vahidlər daha çox Azərbaycanın coğrafiyası, məişəti ilə bağlıdır [7, s.284].

Müasir dövrdə övladlarına advermə, əsasən, valideynlərin öz öhdəsinə düşmüşdür. Hər bir valideyn ad seçməkdə sərbəstdir. Bu sərbəstlikdən sui-istifadə edən valideynlər bəzən övladlarına tarixən advermə ənənələrimizə yad, estetik cəhətdən ədəbi dil normalarına uyğun gəlməyən, süni, qondarma və yaxud öz kökü, əsası ilə bağlı olmayan adlar vermişlər. Nəticədə bir sıra adların dəyişdirilməsi zəruri olmuşdur. Bu ondan irəli gəlir ki, bizdə hələ onomastikanın nəzəri əsasları, o cümlədən advermə normaları hazırlanmamış, adverməyə hansı meyarlarla yanaşmağın mühüm cəhətləri əsaslı şəkildə göstərilməmişdir. Bu məsələlərin elmi şəkildə həlli onomastikanın qarşısında duran əsas vəzifələrdən biridir.

Hazırda yeni doğulanlara zəmanəmizin yüksək estetik tələbləri səviyyəsində dayanan adlar vermək məsələsi dövlət əhəmiyyətli vəzifə kimi qarşıya qoyulmuşdur. Ona görə də onomastik vahidlərdə dil normalarına riayət

olunması vacib məsələdir. Ədəbi dil üçün vacib olan dürüstlük, asanlıq, vahidlik, sabitlik, ahəngdarlıq, ekspressivlik və s. mövcud normalar onomastik vahidlər üçün də zəruri şərtlərdəndir.

Ədəbiyyat:

1. Adilov M. Şəxs adları haqqında. "Bakı" qəzeti, 19 iyun 1969
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı, 1989
3. Adilov M. Antroponimlərin tarixi-müqayisəli tədqiqinə dair. Azərbaycan onomastikası problemləri. III, Bakı, 1990
4. Aydın Paşa. Azərbaycan şəxs adları. Bakı, 1996
5. Azərbaycan ədəbi dilində norma və normalaşma məsələləri. Bakı, "Elm", 1991
6. Azərbaycan onomastikası problemləri. III, 1990
7. Cəfərov N. Azərbaycan onomastikasının milliləşməsi tarixindən. "Azərbaycan onomastikası problemləri ", III, 1990
8. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Bakı, 1998
9. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı, "ADU", 1976
10. Hacıyev T. Redaktordan. Mahmud Kaşğari "Divani lüğət-it türk". I. Bakı, 2006
11. Mirzəyev O. Adlarımız. Bakı, 1986
12. Paşayev A. Bəşirova A. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 2003
13. Tanrıverdi Ə. Türk mənşəli Azərbaycan antroponimləri. Bakı, 1996
14. Гордлевский В.А. Рождение ревенка и его воспитание. «Избранные сочинения». Т. IV, М., 1968
15. Суперанская А. В. «Как вас завут? Где вы живете?», 1964
16. Семешок Н.Н. Норма. В кн: Общее языкознание. М. 197

UOT 81

ONOMASTİK VAHİDLƏR OBRAZLI DÜŞÜCƏ İŞIĞINDA

Həmzə Qəmbər oğlu ƏLİYEV

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalə son illərdə yaranan poeziyamızda işlədilən onomastik vahidlərin üslubi çalarlarından bəhs olunur. Burada Qərbi Azərbaycanda mövcud olan, erməni işğalı nəticəsində itirilmiş yaşayış məskənlərinin adlarının şeir dilində yaratdığı koloritli duyğular öz əksini tapmışdır. M.Hüseynovun «Göyçə gölü» və «Göyçə həsrətinə həsrət qalaydım» lirik poemalarının xarakterik nümunələri əsasında coğrafi adların poeziya dilində işlənmə məqamları, onların doğurduğu poetik təəssürat təhlildən keçirilmişdir.

Açar sözlər: dil, üslub, onomastika, poeziya.

ONOMASTIC UNITS ARE IN THE LIGHT OF IMAGINARY THINKING

SUMMARY

The article deals with the stylus of the onomastic units used in recent poetry. Here existing in the Western Azerbaijan, the names of the lost places of residence as a result of Armenian occupation found his reflection in poem language. M. Guseynov's “Goycha lake” longing for Goycha long, the peculiarities of the geographical names in the poetic language on the basis of the specific examples of lyrical poems were analyzed.

Key words: language, style, onomastics, poetry

Poeziyada mənanı xüsusi mündəricə siqləti və ahənglə səsləndirmə məharəti dil materialının elə ünsürünü seçmə vərdişi aşılayır ki, onun obraz yaratma qabiliyyətini konkret bədii mətn şəraiti parlaq formalarda canlandıra bilsin. Uğurlu üslubi məqamı düzgün seçməklə şair sözü məqsədə müvafiq şəkildə üslubi kəskinlik məqamına qaldırmaqla onun emosional təsir gücünü aşkarlayır. Sözü kəsərli və tutarlı demək bacarığı onun təsvir obyektinə uyğun seçilməsindən başlayır. Onomastik vahidlərin bədii mətnlərə nüfuzu və seçilmə

prinsipləri də istisna deyildir. Görkəmli qələm sahiblərinin poetik təcrübəsi göstərir ki, onomastik vahidlərin üslubi məqamlara müvafiqliyi onun söz mühitində dərin rişə atmağına səbəb olur. Həmin sözlərin mətndəki uğurlu mövqeyi söz sənətkarının bədii qayəsini dərhal hiss etdirir. Bu baxımdan Məhərrəm Hüseynovun «Göyçə gölü» və «Göyçə həsrətinə həsrət qalaydım» əsərləri diqqət çəkir. Xüsusi qeyd olunmağa layiqdir ki, əsərlərin məzmununa, bədii qayəsinə və estetik mahiyyətinə çökmüş fikir orijinallığı onomastik vahidlərin ifadə gözəlliyi ilə müvazi şəkildə təzahür edir. Onomastik dil materiallara yaradıcı münasibətə müəllif bədii mətni məna siqləti ilə yükləsə də, toponimik sözlərin kəmiyyət göstəriciləri yorucu ağırlıq, ifadə qəlizliyi əmələ gətirmir, əksinə, tərənnüm və təsvir obyektinin obrazlı şərhinə diqqət yönəldir.

Əsərlərin adından göründüyü kimi, mövzu erməni vandalları tərəfindən zəbt olunmuş tarixi vətənimizlə bağlıdır. Bu mövzu hər bir azərbaycanlının gözlərinin kökündə saralan Vətən – Göyçə həsrətidir. Göyçə mövzusu ana yurduna qovuşmağa əli uzalı qalan binəsiblərin, didərginlərin alın yazısı ilə bağlıdır. Göyçə ilə bağlı istənilən münasibətdə deyilən hər bir kəlmə yurd itkisinə düçar olanların ah-naləsi, hayqırıqları, yalvarışlarıdır.

Ulu yurdun nisgili və kədərini, hüzn və həsrətini yada salan hər bir göyçəlinin dilində bitən vətən acısıdır [2, s.6]. Bu duyğuları biz əsərin onomastik vahidlərinin şərhində açıq-aşkar hiss edir, yaşayırıq.

Professor Ə.Tanrıverdi əsərdə sadalanan toponim, hidronim və oykonimlərin poetik funksiyalarından bəhs edərkən Qərbi Azərbaycanın – qədim türk – oğuz yurdunun, tarixi torpaqlarımızın tikə-tikə doğranaraq milli ağrımıza çevrilməsini ifadə edən əsər kimi qiymətləndirmiş və qeyd etmişdir ki, «Bu adların, bu sözlərin hər biri doğmadan doğmadır, ruhumuzun bir parçasıdır, adları çəkilən bu yurd yerlərimizin hər biri erməni daşnaklarının əlində əsir-yesirdir, hər biri zar-zar inildəyir» [8]

Toxluca, Ağbulaq, Şorca, Ardanış,
Cil, Babacan, Pəmbək tarixə tanış.
Ağkilsə, Şişqaya, Məzrədən danış,
Allah, allah, bu yerlərdə ada bax!
Sözlərdəki doğmalığa, dada bax! [3, s. 9]

Şair bir vaxt canlı şahidi olduğu doğma yurdundakı şairanə məkanların coğrafiyasını ürək yanğısı ilə təsvir etməklə, işğalçı tayfaya öz nifrətini də bəyan edir. Vətən gözəlliyinə qəsd edən düşmənin bu gözəlliklərə sahib olması, bu gözəlliklərdən şərab sərməstliyi qazanması qəzəblə xatırlanır [9, 40]. Düşmənə nifrət reaksiyası erməni dilinə məxsus antroponimlər vasitəsilə ifadə olunur:

Göyçə gölü, eşqin qəlbimə sindi,
Göyçəli sevgisi sənin bəsindi.

Dünən sənlə xoşbəxt idim bəs indi?
Nədən Bağlo, Xaçik sənlə öyünür,
Mənim ömrüm bu sitəmlə üyünür? [3, s.9]

Vartan, Xaçik şeytandan da betərdi,
Niyyətindən qara fitnə göyərdi. [3, s.14] və s.

Onomastik vahidlərin vasitəsilə faciəmizin tarixi kökləri xatırlanır. Çoxsaylı onomastik vahidlərin işləndiyi bəndlərdə tariximiz də, tarixi coğrafiyamız da, məkrli düşmənlərimizin xəyanət tarixi də, milyonlarla insanın öz tarixi vətəninin doğma torpaqlarından didərgin düşməsi də tarixi haqsızlıq da, dünya siyasətçilərinin soyuqqanlığı da öz əks-sədasını tapmışdır.

Üçdaşın, Xorxorun həsrəti canda,
Yanıram Şorcanı xatırlayanda. [3, s.21]

Aşıq Alı kimi söz zərgərin var,
Sözdən inci düzən Ələsgərin var. [3, s.21]

Göyçə gölü, Vazgen təzə fal açdı,
Naxələflər üstümüzə ulaşdı. [3, s.26]

Kilsənin Vazgeni, Qareginləri,
Yazdı tarixinə qara günləri. [3, s.51]

Haykanuşla İvan ilqara gəldi,
Səksən səkkizində il qara gəldi. [3, s.58]

Göyçə gölü, elim düşmənlə dərdə,
Onların naləsi çatmadı mərdə,
Vəzir də, Ayaz da başqa hədərdə
Demədi: «Göyçə də Vətəndir Vətən»
Çətində olmadı imdada yetən. [3, s.73] və s.

Göyçə gölü, hirsindən cilov gəmir,
Nalə çəkdi Bığlı, Qışlaq, Ağzıbir.
Çənbərəyin gah «Krasnı», gah «Karmir»
Bizə tuş eylədi rus acgöz qurdu,
Mənim torpağımda hay dövlət qurdu [4, s.36].

Zaman-zaman Rusiyanın himayəsi və yardımından istifadə edən erməni terrorizmi ardı-arası kəsilməyən həmlələrlə soydaşlarımızı zülm və müsibətlərlə

öz dədə-baba torpaqlarından, doğma ocaqlarından sıxışdırıb çıxarmışlar. Azərbaycanlıların öz əzəli tarixi torpaqlarında mövcudluğuna son qoyulması faşist xislətli erməni daşnakları tərəfindən dövlət səviyyəsində həyata keçirildi. Və türk mənşəli toponimlərin soyqırımı başladı, milli yer-yurd adlarımız ağılasığmaz qəddarlıqla dəyişdirildi. Bu həqiqəti poetik dillə ifadə edən müəllif onomastik leksikadan daha intensiv formalarda istifadə etmiş, tarixi faktları süni yollarla xalqın qan yaddaşından uzaqlaşdırmağa çalışanlar nifrətlə yad edilir. Dözülməz faciələr yaşayan toponimlər yağılara olan sonsuz nifrəti canlandıran, dərdli-ələmli sətirlərə çevrilir.

«Göyçə! Sədasını sevən olubsan,
Bir fərman, möhürlə «Sevan» olubsan». [4, s.36]

Göyçə gölü, «Kamo» köhnə Kəvərdi,
Ördəkli, Əfəndi artırdı dərdi.
Çubuqluda nə gördüsə, gəbərdi,
Silib Basarkeçər tarixi adı
Sırıdılar sənə Vardenis yadı. [4, s.36]

Göyçə gölü, rəhm görmədi Rəhmkənd,
Qırmızıkənd qara geydi – min rəhmət.
Köhnəlməmiş xarabadır Təzəkənd,
Daşkənd, Başkənd daşsız, başsız qoyuldu,
Paşakəndin paşaları söyüldü. [4, s.37]

Göyçə gölü, hay cinsində yox qürur,
Kilsə desə, yaxşı nə var uçurur.
Hoqqaları yalan tarix uydurur,
Ad sökənin əxlaqından nə qanaq?
Ağbulaq – «Axpyuraq», Dərə –«Daranaq». [4, s. 37]

Onomastik vahidlərlə təcəssüm etdirilən müqəddəs Vətən nisgili hicranlı misralarda həsrətli duyğular oyadır. Hər bir kənd adı qəzəbli nida kimi səslənir, zərif və kövrək xatirələrə dönüb coşqun və üsyankar haraya çevrilir, kədərli nəğmə kimi könüllərdə əks-səda verir. Bud ərd hər bir oykonim sözlə, hər kəlmədə təzələnir, poetik ovqat kövrət intonasiya üzərində köklənir, ulu yanğılar, işıqlı amallar, ayrılıqdan doğan iztirablar müəllifin ürəyindən həzin bir pıçıltı kimi keçir. Onomastik vahidlərin törətdiyi kədərli və hüznlü notlarının zəngin çalarları ilə müəllif özünün saf və təmiz niyyətlərini, həyəcanlarını səmimiyyətlə büruzə verir. Yer-yurd adları bir-birini əvəz etdikcə misraların sehrinə düşüb yanğılı bir həsrətlə düşmən tapdağı altında qalan ana torpağın –

parçalanmış, doğranmış Azərbaycanın faciəsini yenidən yaşayırıq. Bəbəklərimizdə parıldayan gümüşü yaşlar Göyçə gölünün dupduru sularına qatışmaq arzusu ilə çağlayıb daşır. Göyçə gölü sanki ayrılığa dözməyib didərginlərin həsrətli gözlərinə köçərək üzü vətənə doğru olanların yanaqlarında inciyə dönür:

Göyçə gölü, oban ünlü, ucalı,
Vəlidağlı, Hətəmxanlı, Qulalı,
Çamırlı, Yarpızlı, Qanlı, Alçalı,
Bir vaxt Çaxırlı qənd, Nərmanlı baldı,
El köçdü Tüstülü tüstüsüz qaldı. [4, s.37]

Göyçə gölü, niyə tökmür gözün yaş,
Niyə çökdü Böyük, Kiçik Dəlikdaş.
Baş açmadı nə Kərkibaş, Kəsikbaş,
Dəliqardaş doğma üçün darıxan,
Harda qaldı Kosaməmməd, Sarıxan? [4, s.37]

Toponimlərin hər biri ulularımızın yadigar qoyub getdiyi söz abidələri kimi həm duyğulara qanad verir, həm də qəlbimizi dara çəkir. Söz sənətkarı sanki işğal altında olan tarixi yurdumuzun poetik xəritəsini bədii sözlə yaratmaq istəyir. Dərhal hiss olunur ki, romantik xəyalların qanadları müəllifin doğulduğu müqəddəs məkanın üzərində heç vaxt yorulmur. Bütün hallarda şair təxəyyülünün uçuş nöqtəsi ana topaqdır – Göyçədir, Göyçənin ulularımızın təməlini qoyduğu Kərkibaşdır, Qanlıdır, Kəsəməndir, Tüstülüdür, Yarpızlıdır, Qızılvəngdir, Mədinədir, Ağqaladır, Nərədüzüdür, Ördəklidir…

Doğma yurdun indi yetim qalan kəndlərinin adlarını xatırladıqca müəllifin ürəyi bahar buludları kimi dolur, toponimləri leysan yağışı kimi misralara səpələyir:

Göyçə gölü, anırsammı Alını?
Tapdalanmış məzarının halını,
Miras qoydu qızıl sözün balını,
Həsrətdən Qızılvəng alışıb yanır,
Sitəmdən Əyrivəng küskün dayanır.
Göyçə gölü, həsrət bağrımı dəldi,
Qoşabulaq min zəmzəmə bədəldi.
Gödəkbulağın da dili gödəldi,
Qoturbulağa çirk ziyilli haydan,
Ağbulağa ağlıq günəşdən, aydın.
Göyçə gölü, Dərənin baxtı yatmış,
Babacan sevənin daşını atmış,
Cil tutqun, Ardanış qaşını çatmış,

Pəmbək düşməz pəmbəklinin dilindən,
Uçduyuvasından, köçdü elindən. [4, s.39]

Vətən qayğılarından danışan şeirdə fikirsiz, odsuz-ocaqsız heç bir onomastik vahid bədii mətnə yol tapa bilməz. Bu da poetik istedadın canlı atributu, qələm əhli üçün xoşbəxtlik sayılan meyardır. Coğrafi adların formalaşdırdığı poetik xatirələrin həzinliyi ilhamla yazılmışdır ki, bu da vətən mövzulu əsərin ruhundan irəli gəlir, hər onomastik vahid xəyali bir lövhə yaradır, yurd itkisi ilə bağlı psixoloji aləmin dərinliklərinə, onun gözəgörünməz guşələrinə nüfuz edir. İsti yuvasından, ata-baba ocağından didərginliyə həsr olunmuş əsərlərdəki antroponim, toponim, hidronim sözlər yaddaşımızda güclü bir intibah yaradır, həzin düşüncələr axını varlığımıza hakim kəsilib bizi kövrəldir. Onomastik vahidlərlə yüklənmiş misralarda elin-obanın taleyinə həssas şair ürəyi vətən həsrətinin, vətənsizlik dərdinin ağlayan gözünə çevrilir, oxucunun qəlbini də ovsunlayır:

Göyçə gölü, gülüstanın qar oldu,
Sərt rüzgardan Sarıyaqub saraldı.
İmansızdan Qaraiman qaraldı.
Gürar edən gündən bura quduzlar,
İnəkdağı örüşündə donuzlar. [4, s.39]

Göyçə gölü, könlüm səndən rəy istər,
Haqqıxlının haq xətrinə dəydilər,
Arxalılar Poladı da əydilər,
Çaltəpənin çal təpəsi çapıldı,
Çıvıxlın da el dərdinə qapıldı. [4, s.42]

Göyçə gölü, düzdə yalan əkildi,
Həqiqət dilindən dara çəkildi.
Qaraqayana da qara çəkildi,
İndi Sanıqpəyə qaldı davarsız,
Ora donuz saldı Vartazar arsız. [4, s.43]

M.Hüseynovun poetik nümunələrində ən dərin, ən romantik xəyalın yuvası, sevinci, nəvası itirilmiş torpaqlardır. Doğma torpaqla bağlı onomastik obrazların hamısı canlı həyatın, xatirələrin, ümidlərin komponentləridir. Gözlərdən uzaq, könüllərə yaxın obaların obrazı müəllifin sehirli sözü ilə xəyal güzgüsündə canlanan vətənimizin əksidir. Şairin onomastik vahidləri poetikləşdirən vətən məhəbbəti, yad əllərə keçmiş torpaq qısqanclığı, bağrımızın başında sızlayan ağrıların şəffaf ifadəsidir, lirik ovqatın, lirik təfəkkürün özünəməxsus uğurudur.

İtirilmiş vətən mövzusunda yazılan əsərlərdə işlədilən onomastik leksikanın estetik təsir qüvvəsi xüsusi maraq doğurur. Əzablı bir kədərdən doğan bu əsərdə onomastik vahidlər olduqca həzin və təsirli səslənmə çalarları kəsb edir. Onomastik leksikanın yaratdığı qəmli motivlər şairin və oxucunun mənəvi aləminin, lirik düşüncə tərzinin, vətəndaş şüurunun üzvi tərkib hissəsinə çevrilir. Ümumiyyətlə, yağı tapdağında inildəyən vətən torpağına qovuşmaqla itirilmiş daxili rahatlığını tapmaq istəyi əsərin məzmunundan qızıl xətt kimi keçir. Düşmənə nifrət bəzən haylara aid antroponimlərin işlənkliyinə də yol açır:

Göyçə gölü, ədalət yox divanda,
Qızışdırır Con Kerri də, İfan da,
Asala-sı Siriyada, Livanda,
Paris çubuğundan özünü qoru,
Subuqla başlanır erməni xoru. [4, 56]

Göyçə gölü, Sumbat Babəkə ilan
Yefrem Səttərxanı arxadan vuran,
Bağramyanlar Həzimizə tor quran,
Varmı bir baş bilən bunu anası?
Xaççəkəndi gəlini, qızı, anası. [4, 54]

Dədəm Qorqudun, qədim oğuz türklərinin ruhunu yaşadan Göyçə onomastikasını bədii söz süzgəcindən keçirən müəllif onlardan şair düşüncəsinin adi ifadəçisi deyil, onların ifadə imkanları ilə canlanan fikirin daşıyıcısı kimi kontekstdə şeirləşdirmişdir. Söz sənətkarının yaradıcılıq prizmasından süzülən real həyat lövhələrinin, canlı insan duyğularının, soşqun ehtirasların – bir sözlə, böyük bir poetik aləmin dayağına çevrilmişdir. Antroponim, toponim, oykonim və digər onomastik vahidlərin təsvirdə yaratdığı üslubi zənginlik bədii sözün estetik keyfiyyətlərini inkişaf etdirməyə təkan vermişdir. Digər tərəfdən nümunələr belə bir fikri təlqin edir ki, onomastik vahidlərə üslubi rənginə görə yanaşma yaradıcılıq laboratoriyasının əsas sirrini əyaniləşdirir, üslubi təravətin söz duyumundan nəşət etdiyini bir daha təsdiqləyir. Bununla belə onomastik leksikanın törətdiyi üslubi təravət bədii əsərin forması ilə məhdudlaşmır, o, sözün tam və həqiqi mənasında poetik formanın canlandırdığı məzmunun ideya-estetik dəyərlərini də müəyyənləşdirir.

Yekun olaraq vurğulamaq yerinə düşər ki, indi «Ermənistan» adlandırılan Qərbi Azərbaycandan köçürmə adı ilə Moskvaya arxalanıb «mədəni» üsullarla deportasiya etsələr də, yaxın keçmişimizdə baş verən Qarabağ savaşında isə bütün ərazini yağmalarda, bu ərazinin tarixi onomastikası bir daha sübut edir ki, bu qaraçı tayfası aborigen yox, gəlmədir. Onlar torpaqları zorakarlıqla zəbt etdikləri kimi, oradan türk izlərini silmək üçün coğrafi adları da dəyişdirirlər. N.K.Türközünün yazdığı kimi, «1928-1929-cu illərdə türk-rus

müharibəsindən sonra Doğu Anadoluya gələn Eli Smith adlı erməni Türkomaniya//Türkmən ölkəsi adını Armeniya adı ilə dəyişmişdir». [7, 9] Haqqında danışdığımız bədii nümunələrdəki coğrafi adların milli mənsubiyyəti bu fikri bir daha təsdiqləyir.

Ədəbiyyat:

1. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 453 s.
2. Hüseynov M. Göyçə nisgili, Şorcı xiffəti. Bakı: Elm və təhsil, 2014, 190 s.
3. Hüseynov M. Göyçə gölü. Bakı: Elm və təhsil, 2015, 84 s.
4. Hüseynov M. Göyçə həsrətinə həsrət qalaydım. Bakı: Elm və təhsil, 2017, 150 s.
5. Qurbanov A. M.Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 596 s.
6. Qurbanov A.M. Poetik onomastika. Bakı: APİ, 1986, 40 s.
7. Türközü N.K. Türkmen ölkesi. Ankara, Türk Kültürünü Araştırma Enstitusü, 1985, 84 s.
8. Tanrıverdi Ə.V. Göyçə gölü, göy gözündə gözüm var. «Kredo», 29 yanvar 2016-cı il
9. Bədəlzadə A., Hüseynov M. Elmi və poetik təfəkkürün parlaq işığı. Bakı: Elm və təhsil, 2018, 104 s.

UOT 81

Q. Q. MARKEZİN "YÜZ İLİN TƏNHALIĞI" ƏSƏRİNDƏ ONOMASTİK VAHİDLƏRİN BƏDİİ-İDEOLOJİ İSTİQAMƏTİ

Aysel Saleh qızı TALIBOVA

Bakı Mühəndislik Universiteti, doktorant

atalibova@beu.edu.az

XÜLASƏ

Məqalədə Qabriel Qarsia Markezin "Yüz ilin tənhalığı" əsərində rast gəlinən xüsusi adlar haqqında tədqiqat aparılmışdır, bu adların kəsb etdiyi semantik və etimoloji məna ilə həmin adların daşıyıcısı olan obrazların xarakterləri və fəaliyyətləri arasındakı bədii-ideoloji əlaqə araşdırılmışdır. Əsərdə bu cür simvolik məna daşıyan adlar əsasən, toponimlər və antroponimlərdir. Əsərdə, demək olar ki, bütün toponim və antroponimlərin mistik-simvolik mənası var. Məqalədə əsasən, 1 toponim (Makondo), bir etnonim (qaraçı), 2 antroponim (Xose, Ursula) tədqiq olunmuşdur.

Açar sözlər: Markez, Makondo, qaraçı, Ursula, Xose.

ХУДОЖЕСТВЕННО-ИДЕОЛОГИЧЕСКИЙ АСПЕКТ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ В ТВОРЧЕСТВЕ Г.К.МАРКЕСА "СТО ЛЕТ ОДИНОЧЕСТВА"

РЕЗЮМЕ

В статье рассматриваются специальные имена, найденные в работе Габриэля Гарсия Маркеса «Солидарность века». Носителями этих имен являются семантические и этимологические значения этих имен, исследуется художественно-идеологическая связь между персонажами и действиями изображений. Имена, имеющие такое символическое значение, - этнонимы, топонимы и антропонимы. В работе почти все топонимы и антропонимы имеют мистико-символическое значение. Согласно статье изучены 1 топонимик (Макондо), один этноним (цыган), 2 антропонима (Хосе, Урсула).

Ключевые слова: Маркез, Макдоно, Цыган, Урсула, Хосе.

THE ARTISTIC-IDEOLOGICAL ASPECT OF THE ONOMASTIC UNITS IN THE WORK "ONE HUNDRED YEARS OF SOLITUDE" BY G. G. MARQUEZ

SUMMARY

The article deals with the special names found in the work of Gabriel Garsia Markez's "Solidarity of the Century". The semantic and etymological meanings of these names are the carriers of these names. The artistic-ideological relationship between the characters and the activities of the images is investigated. The names bearing such a symbolic meaning are sounder, toponyms, and anthroponyms. In the work all the toponyms and anthroponyms have a mystical-symbolic meaning. According to the article, 1 toponimic (Makondo), one ethnonym (gypsy), 2 anthroponyms (Jose, Ursula) were studied.

Keywords: Markez, Macondo, Gypsy, Ursula, Jose.

Dünya şöhrətli yazıçı Qabriel Qarsia Markezin Nobel mükafatı almış olduğu ən məşhur əsəri "Yüz ilin tənhalığı" romanıdır. Əsərdə hər hadisənin, hər detalın, hər xarakterin bədii-simvolik missiyası var. O cümlədən, əsərdə bir sıra onomastik vahidlər, xüsusilə, antroponimlər və toponimlər daşıdıqları məna yükünə uyğun olaraq müəllif tərəfindən məqsədli şəkildə seçilmişdir. Ehtimal ki, magik-realist üslubda yazdıb-yaratdığı üçün əsrarəngizliyi sevən yazıçı əsərlərində bu xüsusiyyətindən irəli gələrək nə hadislərin baş verdiyi zaman, nə də məkan haqqında konkret informasiyalar verir. Buna görə də biz əsərdə sadəcə bir toponimə rast gəlirik: *Makondo*. Xalqın adı da buradan götürülmüşdür: *makondolular*. Yazıçı bu adı təsadüfi seçməmişdir. Markez uşaq olanda tez-tez qatara minib babası ilə müxtəlif yerlərə səyahət edərdi. Belə səfərlərin birində: "...qatar hansısa kəndə məxsus olmayan bir stansiyada dayandı, bir müddət sonra yolu üzərindəki yeganə banan təsərrüfatının qabağından keçdi. Qapısının üstündə adı da yazılmışdı: "Macondo". Bu ad, onun melodik səslənişi ta uşaqlıqdan bəri diqqətimi çəkmişdi. Uzun illər sonra bu adın mənasını ensiklopediyada görəndə artıq 3 əsərimdə xəyali kəndin adı olaraq istifadə etmişdim. Kəndin adı eyniadlı bir ağacın adından götürülmüşdür. Makondo iri gövdəsi olan, çiçəyi və meyvəsi olmayan tropik bir ağacdır. Daha sonra "Britannica" kitabında eyniadlı qədim bir qəbilənin də olduğunu, ağacın adının da buradan qaynaqlana biləcəyini oxumuşdum." [3, s.31] Qısası, bu ad qədim tarixi köklərə malik olmaqla yanaşı, həm də müasir məna yükü baxımından da Markezin belə bir əsərində kənd adı olmaq üçün zəruri əhəmiyyət kəsb edir. Sitatdan da göründüyü kimi, Makondo banan plantasiyalarının salındığı torpaqların adıdır. Əsərin mərkəzində duran tarixi-siyasi hadisələr də banan şirkəti ilə birbaşa bağlıdır. Makondo, eyni zamanda simvolik kənddir. O, özün-

də sadəcə bir kəndi deyil, heç ölkəni də deyil, bütövlükdə qitəni simvollaşdırır. Makondo xalqının taleyi simasında bütövlükdə qitənin taleyini açıb göstərir.

Başqa digər bir tayfa adı olaraq qaraçı kəlməsindən istifadə olunur. Əsərdə qaraçılar Makondoya Melkiadeslə birlikdə gəlirlər. "Hər ilin mart ayında cındırından cin hürkən qaraçı tayfası qəsəbənin qırağında çadırlarını qurardı, fışqırıq və qaval səsləri qəsəbəni başına götürər, qaraçılar Makondo sakinlərinə ağıllı adamların kəşf etdikləri təzə şeyləri göstərərdilər." - onlar gəlməmişdən əvvəl isə "dünya elə təzə-tər idi ki, hələ çox şeyin adı yoxuydu, adamlar adsız əşyaları barmaqları ilə göstərməli olurdular".

Göründüyü kimi müəllif "yenilikçiləri" "qaraçı" adlandırır. Bu tayfa müəllifin ana dili olan və həmçinin, əsərin yazılmış olduğu ispan dilində "gitano" adlandırılır. Sözün həmin dildə başqa mənaları da var: yaltaq, çoxbilmiş, kirli. Tayfanın hər dildə özünəməxsus adı olsa da bu adların bəziləri yunan mənşəli "cigany" sözündən, bu söz isə bizans dilində (ortaçağ yunan) "toxunulmaz" mənasını verən "tsingános" sözündən törəyib. "Cigany" sözü də haliyyədə məxsus olduğu yunan dilində qaraçı tayfasını ehtiva etməklə bərabər, həmçinin, dəyərsiz, əxlaqsız, işəyaramaz və s. mənaları verir. Bu tayfalar tarix boyu himayəsində yaşadıqları dövlətlərdən asılı olmuş, xalqlarından qat-qat geridə qalmışlar, nə özlərinəməxsus dövlətləri, nə də torpaqları olmuşdur. Burada maraqlı bir sual ortaya çıxır: qaraçılar dünyada ən geridə qalmış camaatlar olduqları halda niyə müəllif cəmiyyətin hələ ibtidai mərhələsini yaşayan Makondo xalqına ixtiralar gətirib onları hansısa inkişafa təşviq edən qüvvə kimi qaraçıları seçir? Elm və texnikanın inkişafında köklü irəliləyiş ilk dəfə Avropada başladı: ilk kitab çapı, ilk qatar, ilk zavod və fabrik və s. Buradan Latın Amerika xalqının əsrlərdir başına min oyun açmış avropalılar üçün seçilmiş bir metafor olduğunu təxmin etmək olar. Bu tarix Markez dünyaya gəldiyi ərəfələrdə də özünü təkrarladı. Banan şirkətinin təsis olunması ilə burada bir çox yeniliklərlə: televizor, kinoteatr və həyatı asanlaşdıran digər bir sürü texnika ilə tanışlıq bu şəkildə başladı. Lakin bu yeniliklər özləri ilə bərabər bir çox bəlalar da gətirdi. Markez qaraçılar obrazı timsalında banan şirkəti təsisçilərinə də işarə etmiş ola bilər.

Əsərdə bədii-simvolik məna daşıyıcısı olan onomastik vahidlərin əksəriyyəti antroponimlərdir. Məsələn, Xose, Ursula, Arkadio, Melkiades, Aureliano və s. Bunların bir neçəsinə nəzər yetirək. Xose adı (Jose) qədim ibrani dilinə məxsusdur, fransız dilindəki Jozef (Jozefina), arami dilindəki Yusif adı ilə eyni köklərə malikdir. Adın leksik mənası bu şəkildədir: "Tanrı səni artırsın." Adın mənasına fikir versək görərik ki, buendiyalar nəslinin başlanğıcı – atası hesab olunan bu şəxsin adı heç də təsadüfi seçilməmişdir. Arada əlaqə yaradan başqa digər bir cəhət Yusifin bir peyğəmbər adı olmasıdır. Əsərdə Xose Arkadio Buendiya da bir növ simvolik bir peyğəmbər obrazıdır. O da İsa peyğəmbər kimi onu anlamayan insanlar tərəfindən çarmıxa çəkilir – ağaca bağlanır və ağaca sarıqlı şəkildə can verir.

Buendiyalar nəslinin atası Xose Arkadio Buendiyadırsa, bu nəslin anası da onun həyat yoldaşı Ursuladır. Müəllif niyə məhz Ursula adından istifadə etmişdir? Ursula əsərdə həm ailənin ədalət rəhbəri, həm də qayğıkeş anadır. Ailə üzvləri hissə qapılıb səhvlər və ya günahlar törətdiyi vaxt bu günahlara nəinki biganə qala bilməyən, hətta, onlara müdaxilə edib düzgün yola çəkməyə çalışan Ursula olur. Ursula sadəcə bioloji ana deyil, o həm də bütün buendiyalar nəslinin mənəvi anasıdır. O məhz bir peyğəmbər kimi düzgünlük və təmizlik abidəsinə çevrilir, yaşadığı cəmiyyətin fərdlərini də bu yola çəkməyə çalışır. Onun öncəgörücülük qabiliyyəti və illər, əsrlər, nəsillər keçsə də həyatda qalması məhz yaşadığı bu cür peyğəmbər həyatı ilə birbaşa əlaqəsi olan bədii keyfiyyətlərdir. Zənnimcə, obrazın adının seçilməsi də təsadüfi deyil. Ursula Sauteyl adında keçmişdə də peyğəmbər kimi dəyərləndirilən bir qadın olmuşdur. [1] Əsasən Şipton ana adı ilə tanınan bu qadın tarixə daha çox kəhanətləri ilə düşmüşdür. XIV-XV əsrlərdə yaşamış bu qadın haqqında olan rəvayətlərə görə o, yerin-göyün sirrini bilirmiş və yaşadığı əsrdən sonrakı əsrlərdə baş vermiş hadisələri – gün gələcək insanlar fikirlərini bir-birinə hava ilə ötürəcəklər (elektromaqnit dalğaları), atsız arabalar olacaq (avtonəqliyyat), gözəgörünməz canlılar (viruslar) kütləvi qırğınlara səbəb olacaq (vəba) – təxmin edə bilibmiş. Onun hətta I, II və III Dünya müharibələri haqqında bir çox kəhanətləri vardır ki, ilk iki müharibə haqqında olanlar tarixdə öz təsdiqini tapmışdır (üçüncüdən Allah qorusun!). Ursula adının tarixdəki gerçək daşıyıcısı ilə əsərdəki daşıyıcısı arasındakı əlaqəyə baxsaq müəllifin məqsədli şəkildə bu adı seçmiş ola biləcəyi qənaətinə gəlmək mümkündür. Ursula Sauteylin həyatı haqqındakı rəvayətlərə görə, onunla pis rəftar edən insanların başına müəmmalı bəlalar gəlirmiş. Bəlkə də buna görə ailə fərdləri törətdikləri günahlarla Ursulanın – onların ən çox qayğısını çəkmiş və yenə də bu günahlara görə ən çox əzab çəkən həmin mənəvi ananın haqqına girdiklərinə görə axırda lənətlənirlər – öz müəmmalı tənhalıqlarında boğulurlar.

Markezin sadəcə "Yüz ilin tənhalığı" əsərində deyil, digər bütün əsərlərində də adlar, xüsusilə antroponimlər müəyyən bir bədii-ideoloji məqsəd daşımaqla yanaşı, həm də hadisələrə yazıçının peşəkar münasibətinin göstəriciləridir. Bu, adların ehtiva etdiyi məna ilə onların daşıyıcısı olan şəxslərin xarakterləri və əsər boyu fəaliyyətləri arasındakı məqsədli əlaqədə ortaya çıxır. Markezin xarakterləri nəinki əsər boyu sərgilədikləri mistik qabiliyyətləri ilə, həmçinin, daşıdıqları mistik-simvolik adlara görə də magik bir əsrarəngizliyə malikdirlər.

Ədəbiyyat:

1. Harrison, William H. *Mother Shipton Investigated*. London: Museum Street, 1881.
2. Markez, Qabriel Qarsia. *Yüz ilin tənhalığı*. Bakı: Qanun Nəşriyyatı, 2011.
3. Marquez, Gabriel Garcia. *Anlatmak İçin Yaşamak*. İstanbul: Can Yayınları, 2016.
4. Martin, Gerald. *Gabriel Garcia Marquez*. Tərc. Zeynep Alpar. Levent Cinemre. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2012. document. Nisan 2012.
5. "Riding the beast."19 December 1998. *http: //www. Ridingthe beast.com.* <http://www.ridingthebeast.com/numbers/nu100.php>.
6. https://en.wikipedia.org/wiki/José
7. http://www.first-names-meanings.com/name/name-jose.html
8. http://www.name-doctor.com/name-arcadio-meaning-of-arcadio-85.html

UOT 81

QUBADLI RAYONUNDA APELYATİVLƏRDƏN YARANMIŞ OYKONİMLƏR

Elnarə Hüseynağa qızı ƏHMƏDOVA

Bakı Dövlət Universiteti, dissertant

elnaraahmedova77@gmail.com

XÜLASƏ

Məqalədə Qubad rayonunun bəzi oykonimlərinin yaranma tarixi və etimologiyası araşdırılmış, toponimlər haqqında elmi fikirlər ümumiləşdirilmiş, tarixi-linqvistik aspektdə təhlil edilmişdir.

Açar sözlər: Qubadlı, toponim, oykonim, apelyativlər

ОЙКОНИМЫ ВОЗНИКШИЕ ИЗ АПЕЛЯТИВОВ В КУБАДЛИНСКОМ РАЙОНЕ

РЕЗЮМЕ

В статье исследованы история происхождения и этимология некоторых ойконимов Кубадлы, обобщены научные знания, связанные с топонимов и проанализированы в историческом и лингвистическом аспекте.

Ключевые слова: Кубадлы, топоним, ойконим, апеллятивы

OIKONYMS ARISEN FROM APELYATIVES IN GUBADLI REGION

Summary

In the article, the history, origin and etymology of some Gubadli toponyms have been researched, scientific ideas about toponyms have been summarized and analyzed in historical and linguistic aspects.

Keywords: Gubadli, toponym, oikonym, apelyatives

Dilin lüğət tərkibində onomastik vahidlərin əksinə olaraq, ümumi əşya, məfhum və anlayışları ifadə edən sözlər apelyativ sözlər adlanır. Zəngin toponimikaya malik olan Qubadlı rayonunda coğrafi adların əksəriyyətini oykonimlər təşkil edir (ərazidə bir şəhər – Qubadlı – və 94 kənd var). Bunlar arasında apel-

yativ sözlər əsasında yaranmış yaşayış məskənlərinin adlarına da təsadüf edilir. Onlardan bir neçəsini nəzərdən keçirək.

Altınca kəndi Kavdadıq inzibati ərazi vahidliyində, rayon mərkəzindən 18 km məsafədəki dağlıq ərazidə, Bərgüşad çayı sahilində yerləşir. Bütöv adı Altınca Qiyaslıdır. Əvvəllər bu ərazi Narlıdərə adlını daşımış, XIX əsrdə Kənd Naxçıvanın Nehrəm kəndindən köçüb gələn ailələr burada məskunlaşdığı üçün kənd Altınçı qiyaslı adlandırılmışdır. Sonradan ilk komponenti təhrif olunaraq Altınca formasına düşmüşdür. Altun/altın türk dillərində "qızıl" mənasını ifadə etmişdir. Bu söz qədim yazılı abidələrimizdə də eyni mənada işlənmişdir: ***Altun****, kümüş, isigti, kutay bunsız ança birür − Tabğaç bodun sabı sücik, ağısı yımşak ermis* (Bol-bol qızıl, gümüş, taxıl ipək verən tabğaç xalqının sözü şirin, hədiyyəsi yumşaq (incə) imiş. Kül tigin abidəsi, c.t., 5). [1, s.77] *Uruğluğ altun – sikkə olaraq kəsilmiş qızıl.* [2, s.203]. *Altun ayaq, surahilər dizilmişdi* [2. s.78]

Görünür bu kəndin Altınçı Qiyaslı adlandırılması sakinlərinin əsas məşğuliyyəti ilə bağlı olmuşdur.

Seləli kənd Güney Azərbaycanın eyni adlı kəndindən köçüb gəlmiş ailələr tərəfindən salınıb.

"Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə oykonimin XX əsrin əvvəllərində iki varintda: Siləli və Siləy şəklində yazıldığı qeyd olunur [3,180]. Silə sözü Şəki dialektində "ağacdan hazırlanmış, içərisində dəri aşılanan təknə", Cəbrayıl və Balakən dialektlərində isə "ağzına qədər dolu" mənalarında işlənir. Oykonimin hansı mənanı kəsb etdiyi bizə məlum olmasa da, ilkin variantın uyğunluğu ehtimalı daha çoxdur.

Hal oykonimi də apelyativ əsasında yaranmışdır. Azərbaycan xalqının ən qədim məşğuliyyətlərindən olan əkinçilik və heyvandarlıqla bağlı olan hal/hol/kal/kol/kəl/gal/gəl/ xal sözü hal-hazırda bir sıra dialekt və şivələrimizdə işlənməkdədir. Məsələn: Ağcabədi, Tovuz və Qazax dialektlərində kəl/kələ "buğa"; Cəbrayıl, Culfa, Qazax və Şuşa dialektlərində kola "buynuzsuz heyvan" (qoyun, keçi); Ağdam, Ağcabədi, Başkeçid, Borçalı, Culfa, Xocavənd, Kürdəmir, Qax, Qazax, Şəmkir, Tovuz dialekt və şivələrində kəlin (buynuzlu), kəlin qoyun "buynuzlu qoyun"; Dərbənd dialektində gal qoyun cinsi, Oğuz dialektində gələ "daşdan tikilmiş qoyun tövləsi" kimi mənalar ifadə edir. Şifahi xalq ədəbiyyatında əmək nəğmələrinin ən geniş növlərindən olan cüt nəğmələri−holavarların kökü də hal/hol sözü ilə bağlıdır. Güman edirik ki, əsasən, öküz, camış–kəl kimi heyvanlar cütə qoşulduğundan cütü sürən "hol, var" şəklində xitab etmiş, sonradan bu imperativ ifadə holavar şəklinə düşmüşdür.

Görünür, yerli əhali qədim zamanlardan Hal kəndində heyvandarlıqla məşğul olduğu üçün kəndə bu ad verilmişdir.

Beləliklə, deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Qubadlı ərazisində zənginliyi ilə seçilən etno- və antropooykonimlərlə yanaşı, dilin leksik

bazasının əhəmiyyətli hissəsini təşkil edən apelyativ sözlərdən yaranmış oykonimlərə də rast gəlinir. Bu oykonimlər dilimizin həm müasir, həm də arxaik leksikasını özündə əks etdirir.

Ədəbiyyat

1. Şükürlü Ə. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, s.390
2. Kitabi-Dədəd Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyatı, 2004, s.376
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə, II cild, Bakı: Şərq-Qərb, 2007, s.303
4. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşriyyatı, 1991, s.318

UOT 81

ETNONİMİK OYKONİMLƏR

Hüsniyyə Çobanova

AMEA-nın Nəsimi adına Dilçilik
İnstitutunun dissertantı,
Heydər Əliyev adına AAHM-in
baş müəllimi

cobanovahusniyye@gmail.com

XÜLASƏ

Gürcüstan ərazisində türk tayfalarının adı əsasında formalaşmış toponimlər kifayət qədərdir və bu toponimlərin əksəriyyətini etnotoponimlər təşkil edir. Bu regionda antroponimlər əsasında formalaşan toponimlərin demək olar ki, əksəriyyəti Azərbaycan dili ilə bağlıdır. Belə ki, Gürcüstan ərazisindəki yaşayış məntəqələrinin müəyyən hissəsinin tarixini müxtəlif dövrlərində Azəri türkləri salmış və bu torpaqlara, mülklərinə də özlərinə məxsus xüsusi adlar vermişlər ki, bunların leksik-semantik istiqamətdə təhlili elm üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Məqalədə as//az, tub//tubo//tobel//tebel, dükər/düker/düyər/dügər komponentli etnotoponimlər araşdırılır.

Açar sözlər; etnonim, oykonim, ərazi, toponim, tayfa, antroponim.

ЭТНОНИМИЧЕСКИЕ ОЙКОНИМЫ

РЕЗЮМЕ

На территории Грузии имеется достаточное количество топонимов, происходящих от турецких названий, и это большинство топонимов составляют етнотопонимы.

В этом регионе болшинство етнотопонимов, формирующихся на основе антропонимов, связаны с Азербайджанским языком. Таким образом, имеющиеся на территории Грузии некоторые были созданы в разное время Азербайджанскими тюрками. По этой же причине эти населённые земли были соответственно названы своими собственными тюркскими именами, которые при лексически-семантическом разборе имеют огром-

ное значение для науки, посколку етнотопонимы отражают историю народа.

В статье рассматриваются компоненты етнотопонимов as/az, tub/tubo/tobel/tebel, dükər/düker/düyər/ dügər

Ключевые слова: этноним, ойконим, территории, топоним, племя, антропоним,

ETNONIMIC OYKONIMS

SUMMARY

In the area of Georgia, there are enough oykonims that formed on the basis of Turkish tribes names and most of these toponims are etnotoponims. In this region, most of the toponims that formed on the basis of antroponims, are connected to the Azerbaijani language. So, in different ages of history, Azerbaijani Turkish people settled down the certain of the settlements in the area of Georgia and they gave unique, special names to these lands and their properties, so that. Their analysis in the lexicon-semantic direction has an especial importance. In the article, etoponims with as/az, tub/tubo/tobel/tebel, dükər/duker/düyər/dügər components are being researched.

Key words: etnonim,oykonim, area, toponim, antroponim, tribe

Gürcüstan ərazisindəki etnonimlər əsasında yaranmış etnooykonimlərin semantikası müxtəlif və rəngarəngdir. Bunların bir qismi şəxs adları (buraya ləqəb, ayama, titul, rütbə bildirən sözlər də aiddir), bir qismi isə tayfa, nəsil, xalq, soy, tirə adları əsasında yaranmışdır. Bu baxımdan etnonimik oykonimləri semantik baxımdan iki yerə ayırmaq daha düzgün olardı:

Antroponimik oykonimlər;

Etnonimik oykonimlər.

Gürcüstan ərazisində türk mənşəli toponimlər kifayət qədərdir və onların böyük əksəriyyətini etnooykonimlər təşkil edir. Tarixən yaşamış 24 oğuz tayfasının, eləcə də başqa türk tayfalarının adları Gürcüstan ərazisindəki oykonimlərdə də öz əksini tapmışdır. Demək olar ki, Gürcüstanda elə bir bölgə yoxdur ki, orada türk tayfalarının adları əsasında formalaşmış oykonimlər olmasın. Məsələn, as//az komponentli etnotoponimlərə nəzər salsaq fikrimizi dolğun bir şəkildə əsaslandıra bilərik. Gürcüstan ərazisində as//az tayfa adını toponim yaratmadakı rolu çox mühüm olmuş və mənbələrdə də göstərildiyi kimi "bütövlükdə türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin etnoginezində ilk və başlanğıc mənbə olan aslar ümumdünya tarixinin ilk mərhələlərində pozulmaz izləri və həlledici rolu olan xalqdır. Strabon bir sıra qədim tayfaların asların nəsli olduğunu dönə-dönə xatırlamışdır" [5, s.122-123]. Axısqalıların quzey ərazisində Azqur kəndi var. Bunun az (qədim türk tayfası) və

qur (quz//oqur//uqur türk etnonimləri) hissələrindən ibarət olması göz qabağındadır. [9, s.394] Ümumiyyətlə, türkoloji arenada az//as tayfa adı haqqında az yazılmamışdır.F. Cəlilov "Qədim türk etnosları" adlı məqaləsində göstərir ki, aslar qəribə taleli etnos olmuşlar. [6, s.76] Azqur etnotoponiminin ikinci komponentindəki "qur" arxaikləşmiş leksik vahidini də leksik-semantik istiqamətdə təhlili xüsusi maraq doğurur. Qur leksik vahididni bəzi tədqiqatçılar "təpəlik yer", "hamar çöl", "dağ yamacı" mənalarında [10, s.23] anlamında izah edirlər. V. V. Bartold isə bu sözü "xalq", "tayfa" mənasında götürmüş və bizcə, onun izahı daha ağlabatandır. Qeyd etməliyik ki, bir sıra qədim türk mənşəli tayfaların adlarında da "qur" sözü səciyyəvi leksik vahid kimi öz əksini tapmışdır: Utiqur, Saraqur, Salqur, Kutuqur, Yazqur və s. [3, s.77]

Gürcüstan ərazisində as//az komponentli Aspinza (Aspinza rayonu) və Aşqala (Zalqa rayonu) etnotoponimləri də qeydə alınmışdır. As//az tayfa adının müxtəlif leksik vahidlərin həm əvvəlinə, həm də sonuna artırılması halları türkdilli xalqların toponimiyasında daha çox müşahidə olunur: Gürcüstan ərazisində Aspindza-Aspinza formalarında qeydə alınmış bu etnotoponimi bizcə, As Penza şəklində oxumaq daha düzgündür. Çünki aseb, astam, askan, asxiku ("as vətəni", "as torpağı", "as yurdu") birləşmələrində ifadə olunduğu kimi, As Penza etnotoponiminin yaranmasında Penza hidronimi də iştirak edə bilər. Beləliklə, aydın olur ki, Aspinza etnonimi vaxtilə Penza çayı hövzələrində yaşamış və müəyyən münaqişlər və ya başqa səbəblər ucbatından Gürcütan ərazisinə miqrasiya etmişlər. Etnotoponim də bununla əlaqədar olaraq belə adlandırılmışdır.

As xətti və ya az (aş) damğası ilə yaranmış etnoto- ponimlərdən biri də Gürcüstanın Zalqa rayonundakı Aşqala adlı kənddir. Mürəkkəb struktura malik bu toponimin birinci komponentində işlənən aş sözü heç şübhəsiz ki, as//az tayfa adının fonetik variantıdır. Deməli, Aşqala etnotoponiminin kökündə as//az//aş tayfasının adını əks etdirən söz dayanır və etnooykonim "asların qalası" mənasını bildirir. Vaxtilə V. Tomsenin "mənşəyi məlum olmayan xalq" [13, s.42] V. V. Bartoldun "qeyri-türk" [13, s.42], L. N. Quliyevin isə "sirli xalq" [14, s.344] adlandırdığı aslar//azlar//aşlar "əsrlərlə təkcə Qafqazda deyil, dünyanın bir sıra ölkələrində yaxşı tanınmış, hətta Altaydan Urala qədər böyük bir ərazidə də çox məşhur olmuşlar" [15. s.229].

Gürcüstanın Adıgün və Axalsix rayonları ərazilərində tub//tubo//tobel//tebel komponentli Toba, Qurutuban, Karatuban, Kortuban, Tobaxçi, Sarbastuban, Abastuban və s. kimi etnotoponimlər qeydə alınmışdır. Müxtəlif ədəbiyyatlarda və xəritələrdə ayrı-ayrı yazılışlarda rast gəlinən bu etnotoponimlərin hər birinin ayrı-ayrılıqda kökündə "tuba" etnonimi dayanır və bunların hər birində müxtəlif fonetik variantlar mövcud olsa da, müxtəlif apelyativlərlə işlənsələr də, bunlar həm etnik varlıq, həm də leksik vahid kimi bir mənşədən törəmişlər. Azərbaycanda Tubikənd (İsmayıllı rayonu), Tuva dağı (Qobustan rayonu) etnooykoniminin kökündə də "tuba" tayfasının adını əks

etdirən söz dayanır. Toponimik mənbələrdə də təsdiq olunur ki, tuba komponenti erkən orta əsrlərdə Qərbi Türk xalqının tərkibində olmuş telelərin toba//tuba tayfasının adı ilə əlaqədardır. V əsrdə tele tayfa ittifaqına daxil olan tubalar çox güman ki, qıpçaqların tərkibində Azərbaycanda məskunlaşıblar. [1, s.471] Tubalıların Gürcüstan ərazisində məskunlaşmalarını da bu dövrə aid etmək olar. Deməli, Gürcüstan ərazisindəki Toba, Sxaltuba, Qurutuban, Qaratuban, Gortuban, Zeduban, Abastuban, Tobaxçi, Xeltubani etnonimlər coğrafi terminlər və müxtəlif morfoloji göstəricilərin iştirakı ilə tuba//tuba etnonimindən yaranmışdır. Tuba//tuva sözünün lüğəti mənası "insanlar" (monqolca) [4, s.139] deməkdir. Beləliklə, bu etnotoponimlərin qısaca şəkildə leksik-semantik istiqamətdə təhlilini belə verə bilərik: Toba-Tov-tuba-tuva tayfasına məxsus ərazi, yer; Sxaltuba - "Sxal" sözü gürcücədir. Azərbaycan dilinə tərcüməsi "kənd, ərazi, məskən" deməkdir, yəni "tuba tayfasından olan insanların məskunlaşdıqları ərazi" anla- mındadır, Qurutuban– "tuva tayfasının lantşaft baxımından qurqlıq ərazidə, susuz yerdə məskunlaşması" mənasındadır; Qaratuban– "Böyük tuva tayfasının saldığı kənd" anlamındadır. ("Qara" sözü burada həcm bildirir); Kortuban - əslində bu etnotoponim Qortuban şəklində olmalıdır. "Qor" sözünün qədim türk dillərindəki "güclü, qüvvətli" mənasını nəzərə alsaq, bu etnotoponim "güclü, qüvvətli tubalıların məskəni" anlamında izah edə bilərik; Abastuman–"Tuba tayfasından olan Abbasın saldığı yurd, "kənd" anlamındadır və s.

Gürcüstanın Bolnisi rayonu ərazisindəki Bəytəkər yaşayış məntəqəsi adı yerli şivənin təsiri nəticəsində tanınmaz şəklə salınmışdır. Mürəkkəb quruluşa malik olan "Bəy" və "təkər" komponentləri əsasında yaranmış bu etnooykonimin leksik-semantik təhlili də olduqca maraqlıdır. Titul, rütbə bildirən "bəy" leksik vahidi burada "varlı, zəngin" mənasındadır. "Təkər" sözü isə tədqiqatçıların qeyd etdiyi kim "tökər, dügər" tayfa adı ilə daha çox səsləşir. [8, s.38] S. Ataniyazov Türkmənistanın günbatanında yerləşən Tüver, Tüverqır yaşayış məntəqə adlarını "tüver-tüker" tayfalarının adı ilə bağlayaraq göstərir ki, "tüver" sözü M. Kaşğariyə görə, "tüqer" , Rəşiddəddinə görə isə "düker" deməkdir. Onların mənası "bir yerə yığışmaq" (türkməncə "bir topara üyşemek") deməkdir. S. Ataniyazov belə güman edir ki, Türkmənistanın Kalinin rayonundakı Tüver adlı oba (kənd) bu sözlə bağlıdır. Tüver (tüqer, düker, düyer) coğrafi adları Azərbaycanda və türkmənistanda da vardır [2, s.45]. Azərbaycan toponimisti Ə. İ. Əliyev Düker//Dükər//Döyər xüsusi adının yer adına qədərki inkişaf mərhələlərini aşağıdakı kimi səciyyələndirərək yazır ki, Düyər və onun semantikası üç inkişaf mərhələsi keçmişdir. Düyər əvvəl şəxs adı, sonra tayfa adı olmuş və nəhayət, toponimə çevrilmişdir. Müəllif düyərli tayfasının nümayəndələrini eyni ad altında Kəlbəcər rayonunda yaşadığını və Azərbaycanın qərb rayonlarından biri olan Şəmkir ərazisində Düyərli oykoniminin tərkibində indiyə qədər mühafizə olunduğunu da qeyd etmişdir. [12, s.29] F. Sümərə görə, orta əsrlərdə Türkiyə ərazisində döyər/döyərli komponentli

toponimlərin sayı 19 olmuşdur. [11, s.245] Bəlkə də Gürcüstan ərazisindəki Bəytəkər etnoniminin tərkibindəki "təkər" leksemi tarixin müəyyən inkişaf mərhələlərində "dükər- düker- düyər- dügər" etnonimi müxtəlif fonetik dəyişmələrə məruz qalmış formalarıdır.

Gürcüstan ərazisindəki qədim türklərin və onların keçmişini aydınlaşdırmağa yardım edən etnooykonimlərdən biri də Dmanisi rayonunda mövcud olan Ormeşən – Urmeşən yaşayış məntəqə adıdır. Müxtəlif fonetik dəyişmələrə məruz qalmış bu etnotoponimin semantikasından bəhs edən prof. M. Çobanov yazır ki, bu kəndin adı türk dillərində meşə anlamında geniş yayılmış "orman" və "meşə" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Türk dillərində "orman" sözü "meşəlik, kolluq, ağaclıq, qamışlıq" mənalarını ifadə edir. "Orman" sözü etimoloji cəhətdən "or" (ağac, odun) sözü və "-man" çoxaltma çəkilçisindən ibarətdir. Göründüyü kimi, "or" və "meşə" sözləri birləşib "Ormeşən" sözünü əmələ gətirmişdir. Bu kəndin adının "orman" və "meşə" sözlərindən ibarət olmasını onun coğrafi mövqeyi və təbiəti də təsdiq edir. [7, s.52] X. Əliyev isə bu toponimin etimologiyası ilə bağlı aşağıdakı fikirləri söyləyir: "Bu fikirlə biz də tərəfdarıq, lakin toponimlər linqvistik baxımdan araşdırılarkən paralel adları da nəzərə alınmalıdır. Qonşu kəndlərin, xüsusən də yaşlıların dilində oykonim Urumeşən variantında da səslənir. Bu variantla da bağlı ehtimal etmək olar ki, Urumeşən adındakı "urum" türklərə verilən addır. Oykonimin adı "urum eşdiyi, qazdığı yer" mənasına da uyğun gəlir. Regionda Rumoğlunun çökəyi, Rumoğlunun arxacı oronimlərində bu məna özünü göstərir [8, s.55]. S.E.Malovun fikrincə, "şen" sözü qədim türk dillərində "mənimsəmək, tutmaq, zəbt etmək" mənasında "sin" formasında işlənmişdir. [17, s.321] Beləliklə, "şen" sözünün etimologiyasına geniş yer vermədən, qısaca olaraq deyə bilərik ki, Urmaşen etnotoponimi müəyyən amillərlə bağlı olaraq pərdəyə bürünməsinə, tanınmaz şəklə salınmasına baxmayaraq onu "urum+şen" formasında restavrasiya etmək daha düzgündür və bu etnotoponimin "qabaqcadan xəbər verən, peyğəmbərlik qüdrətinə malik olan rum türklərinin tutduqları torpaq, yurd yeri" anlamında yozmaq daha ağlabatandır.

Beləliklə, tayfa adlarından törəmiş etnooykonimlərin leksik-semantik xüsusiyyətlərini öyrənilməsi, türk tayfalarının yayılma ərazilərinin dəqiqləşdirilməsi, Azərbaycan xalqının zəngin mədəniyyət və qədim etnik tarixinin bəzi qaranlıq qalmış problemlərinin həlli üçün olduqca vacibdir.

Ədəbiyyat:

1. Azərbaycan toponimləri. Ensklopedik lüğət. "Azərbaycan ensklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı,1999, s.588
2. Ataniyazov S., türkmənistanın toponimiyası, Aşqabad, "İlım", 1981, 450
3. Budaqov B.Ə., Qeybullayev Q.Ə., Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti, Bakı, "Nurlan" 2008, s.312

4. Budaqov B., Türk uluslarının yer yaddaşı, Bakı, “Elm”, 1994. s.271
5. Cəfərov C. Milli etnik yaddaşın izi ilə, Bakı, “Səda”, 2005, s.171
6. Cəlilov F., Qədim türk etnosları., Azərbaycan onomastika problemləri, II Bakı, 1980, s. 76
7. Çobanov M., Çobanlı M., Borçalı toponimləri, Bakı, 2012, s.340
8. Əliyev X.,Gürcüstanın türkmənşəli toponimləri (el-oba, yer-yurd adları), Gəncə, 1999, s.160
9. Hacıyev T. İ Kazımovun “Axısqa türkləri: dil, tarix və folklor” kitabına rəy, Bakı, “Elm və Təhsil” 2012, s. 392-404.
10. Məşədiyev Q., Zaqafqaziyanın Azərbaycan toponimləri, Bakı, “Elm”, 1990, s.146
11. Faruq Sümər, Oğuzlar, Bakı, 1992, s.432
12. Алиев А.И.Топонимия западных районов Азербайджана. Автореф. канд. дис., Баку, 1975, с. 31
13. Бартольд V. V., Сочинение, т.5, М.,1968, с. 420
14. Гулиев Л. Н. , Древние тюрки, М. 1967, с.344
15. Кузеев Р. Г.,Происхождение башкирского народа, М., 1974, с. 229
16. Лоукомка Ч., Развитие письма, М.,1950, с.240
17. Малов С. Е.,Памятники древнетюркской писменности, М., Л.,1951, с. 357

UOT 81

ƏRƏB APELYATİVLİ AZƏRBAYCAN TOPONİMLƏRİ

İradə Məzahim qızı KƏRİMOVA
Filologiya üzrə fəlsəfə doktoru
ADPU-nun baş müəllimi

iradekerimova5mail.ru

XÜLASƏ

Respublikamızın ərazisində ərəb dilindən dilimizə keçmiş sözlərdən yaranan ərəb apleyativli və ərəb etnonimi əsasında yaranmış toponimlər kifayət qədərdir.

Məqalədə, tərkibində ərəb apelyativlərinin mühafizə olunduğu – Surxay qalası, Qərəh, Aşralar//Aşrahlar, Nehrəm, Məzrə, Əmsar//Amsar, Zeyrə//Zeytə toponimlərinin leksik-semantik izahı verilmişdir.

Açar sözlər: toponim, oykonim, oronim, nomen,apelyativ, komponent

ARABIC APPELATIVES IN AZERBAIJANI TOPONYMS

SUMMARY

There are plenty of toponyms on the territory of our Republic that are based on Arabic and Arabian ethnonymity lexical-semantic explanations of the toponyms, which are protected Arabic appellatives. Surkhay tower, Qarah, Ashralar/Ashralylar, Nehram, Marza, Amsak, Zeyra/Zeyta are given in the article.

Keywords: toponim, oykonim, oronim, nomen, komponent

Dilin leksik vahidlərindən olan toponimlər xalqın tarixini, mədəniyyətini, iqtisadi, sosial vəziyyətini, dil xüsusiyyətlərini özündə əks etdirir, uzaq keçmişdə baş vermiş hadisələrdən xəbər verir. Ölkənin, xalqın tarixini öyrənmək üçün yazılı mənbələr, daş kitabələrlə yanaşı toponimlərin də araşdırılması faydalıdır. Bəzən hər hansı bir yazılı mənbənin verə bilmədiyi məlumatı coğrafi adlardan əldə etmək mümkündür. Uzaq keçmişdə baş vermiş etnik proseslər, hadisələr qabarıq şəkildə öz izlərini toponimlərdə də qoymuşdur. Azərbaycan toponimlərinin yaranmasında, formalaşmasında yerli və gəlmə etnoslar iştirak etmişdir.

Azərbaycan ərazisində lap qədimdən bu günə kimi bir sıra xalqlar yaşamış və təbii ki, yaşayış yerlərini öz dillərinin sözləri ilə adlandırmışdır. Ümumiyyətlə, Azərbaycanın yerləşdiyi coğrafi məkan həmişə diqqət mərkəzində olmuş, müxtəlif tayfalar bu ərazilərdən müvəqqəti yaşayış yeri kimi istifadə etmiş və söz yadigarlarını da burada qoymağı unutmamışlar. Bu baxımdan da Azərbaycan toponimlərinin böyük əksəriyyətini Azərbaycan (türk) mənşəli toponimlər təşkil etsə də, burada ərəb, fars, Qafqaz, ləzgi, tat, Avropa və rus mənşəli toponimlər də az deyildir.

Respublikamızın ərazisində ərəb dilindən Azərbaycan dilinə keçmiş sözlərdən yaranan ərəb apelyativli toponimlər kifayət qədərdir. Qeyd etmək lazımdır ki, VII əsrdən sonra ərəb xilafəti dövründə ərəbistandan əhalinin müxtəlif şəkildə Azərbaycana köçürülməsi prosesi başlamışdı. Azərbaycana köçmüş ərəb tayfaları Azərbaycan onomastikasında geniş əks olunmuşdur. Azərbaycanın Göyçay, Quba, Lənkəran, Ağdaş, Şamaxı, Cavanşir, Gəncə, Zəngəzur qəzalarında mövcud olmuş – Ərəb Cəbirli, Ərəb Sarvan, Ərəb Şahverdi, Ərəb Əbdülkərim, Ərəb Mehdibəy (Göyçay qəzası), Ərəb Bəbirxanlı, Ərəb Qardaşbəyli, Ərəb Baloğlan, Ərəb Şahverdi, Ərəb Əli, Ərəb Hacı, Ərəb Keymuraz (Cavad, Quba qəzaları), Cavanşirli Ərəb (Cavanşir qəzası) (9, s.51). və s. bir çox kənd adları ərəblərin bu ərazilərdə yaşamış olduqlarını bir daha sübut edir.

Tərkibində ərəb apelyativlərinin mühafizə olunduğu toponimlərdən bəzilərinin leksik-semantik izahına nəzər yetirək:

Surxay qalası – Göyçay rayonunun Ərəbcəbirli kəndi ərazisində inşa tarixi XII-XIV və XVIII əsrlərə aid edilən Surxay qalası vardır.

Surxay qalası XIV əsrdə tikilmiş qala-istehkam ola bilər. Sonrakı əsrlərdə bu qalanın yerində yeni qala-qəsrin salınması və ya qalanın qismən bərpa edilməklə yenidən qurulması mümkündür. Hər halda qalanın tarixinin daha dərindən araşdırılması Göyçay ərazisindəki yaşayış məskənlərinin tarixinə aydınlıq gətirmək üçün çox əhəmiyyətlidir.

Qeyd edək ki Surxay, Azərbaycan tarixinə müxtəlif əsrlərdə yaşamış şəxslərin adı kimi düşmüşdür. Respublikamızda Surxayxan adlanan dağ vardır. Ədəbiyyatda bu dağ Qəbələ rayonu ərazisinə aid edilir və onun Acınohur öndağlığında yerləşməsi göstərilir. Göyçay rayonunun dağlıq hissəsi də Acınohur öndağlığıdır.

A.Bakıxanova görə, Dağıstan feodalı Surxay xan XVIII əsrin birinci yarısında Nadir şaha qarşı vuruşmada müdafiə olunmaq üçün burada qəsr tipli qala tikdirmişdir. Sonradan qalanın yerləşdiyi dağ da onun adı ilə adlandırılmışdır.

O da məlumdur ki, XVIII əsrdə Nadir şah bir sıra kəndlərin əhalisini özünün saldırdığı Nadirqala adlı yaşayış yerində məskunlaşdırmışdır. Sonralar əhali kəndi Qala adlandırmışdır. Keçmiş adı Qala-Qərgə (ərəb dilində qəryə "kənd" deməkdir) olmuşdur (3, s.116). "Qala kəndi" mənasındadır. Qalada qədim qala qalıqlarının olması, məhəllələrdən birinin Qala dibi adlanması, burada

1624-25-ci illərdə tikilmiş imarətin varlığı həmin fikri əsaslandırmağa imkan verir.

Qala termin kimi möhkəm tikililəri və müdafiə vasitələri olan istehkam, istinadgah, hündür, enli və möhkəm hasar, həbsxana, zindan, alınmaz sığınacaq kimi təyin olunur.

Yeri gəlmişkən, qeyd edək ki, Surxay qalasının ərəbcə *surx, surxab, surxob* – "şəhər divarı", "qala divarı" anlamını verməsi haqqında fikirlər vardır (4, s.8). "Azərbaycan dilinin izahlı onomastik lüğəti"ndə və N.Tapdıqoğlunun kitabında *surx* sözünün ərəb dilində "qala divarı" mənası verməsi qeyd edilmişdir (2, s.297; 14. s.86). Fikrimizcə, toponimik vahidin birinci komponenti surxay – "qala divarı ilə əhatələnmiş məkan" kimi izah etmək olar.

Qərəh – Siyəzən rayonunda mövcud toponimlərdən biridir. A.Axundov Qərəh toponimini leksik-semantik izah edərkən Qərəh coğrafi adını Qafqaz (ləzgi) mənşəli söz olduğunu qeyd etmişdir (1, s.55). Lakin M.Soltanov A.Axundovun bu fikrlə razılaşmayaraq tarixən ləzgilərin Siyəzən və Dəvəçi rayonları ərazisində icma şəklində yaşamadıqlarını, Qərəh toponiminin ləzgi mənşəli olması fikrini həqiqətə uyğun olmadığını bildirərək bu haqda yazır: "Ehtimal ki, tədqiqatçı Qərəh xüsusi coğrafi adını Dağıstandakı Qarax yaşayış məntəqəsinin adı ilə eyniləşdirmişdir (11, s.74).

Q.Qeybullayev Qərəh toponiminin etimologiyasından bəhs edərkən, toponimin ərəb mənşəli "qəryə" sözündən yarandığını və həmin sözün təhrifə uğrayaraq Qərəh formasına düşdüyünü qeyd etmişdir. Müəllif ərəb mənşəli söz olan qəryə sözünün "kənd" mənasını bildirdiyini yazır.

Aşralar, Aşralılar – Tovuz rayonunda bu adda iki oykonim mövcuddur. Hər iki kəndin əhalisi vaxtilə bir yerdə yaşamışlar. Onların qışlaq yeri aranda Alakol ərazisində, yaylaq yerləri isə Qəribli sahəsində olmuşdur. Sonralar yaylaq və qışlaq yerləri əsasında aşıralıların adını daşıyan iki müstəqil kənd yaranmışdır. Yerli əhali bu kəndləri Aran Aşıralıları və Dağ Aşıralıları adlandırmışlar (4, s.61).

Toponimin birinci komponenti ərəb mənşəli *aşura* sözündən olub "10-cu gün" deməkdir. Aşura günü müsəlmanların matəm mərasimidir. Aşralar "məhərrəm ayının onuncu günü matəm saxlayan müsəlmanlar" mənasında işlənmişdir (4, s.62).

Nehrəm – Naxçıvan MR-ın Babək rayonunda qeydə alınmış oykonimdir. Tarixi mənbələrin verdiyi məlumata görə Naxçıvan ərazisində (10, s.85) su şəxsi adamların, mülkədarların idarəsi altında olduğundan əhali sudan kütləvi şəkildə istifadə edə bilmirdi. Ancaq Nehrəm kəndində sudan ümumi istifadə edilmişdir.

Toponim ərəb mənşəli "nəhr" və "anı" sözlərindən yaranmışdır. *Nəhr* "çay, axar su" "icma, ictimai ümumxalq" mənalarını bildirir. Nehrəm "bütün icmaya, ümumi kütləyə məxsus su", "ümumi istifadə suyu" mənalarını ifadə edir.

Məzrə – Cəbrayıl, İmişli, Qubadlı, Quba və Naxçıvan MR-nın Ordubad rayonlarında qeydə alınmış oykonimdir. Məzrə toponimi arxaik apelyativli ərəb mənşəli məzrə sözündən yaranıb, "şum yeri", "əkin üçün yararlı yer, tarla", habelə "əkin yerləri əsasında yaranan məntəqə, oba, kiçik yaşayış məntəqəsi" mənalarını ifadə edir (8, s.343; 5, s.107).

Fars dilinin leksikasında "sərhəd" anlamında *məzrə* sozünə rast gəlinir. Azərbaycan dialekt və şivələrində *məzrə* "biçənək, otlaq", Quba dialektində isə "iki qonşu yer arasındakı ayrıca əlamət" mənalarında işlənir (13, s.115; 11, s.254).

Qərbi Azərbaycanın (indiki Ermənistan) ərazisində bir vaxtlar Mes-Məzrə, Pokr-Məzrə oykonimləri və Məzrə hidronimi mövcud olmuşdur. Hazırda İranda "məzrə" komponentli 26 toponim vardır (5, s.107).

Əmsar//Amasar – Quba rayonu ərazisində Ağçayın sahilində yerləşən oykonimdir. Sadə quruluşlu toponim olan Amsar ərəb mənşəli "əmsar" sözündən yaranmışdır. Əmsar (mesr sözünün cəmi) "böyük yaşayış məntəqəsi", "şəhər" mənasını bildirir (3, s.38-40). Ərəb dilində "şəhər" mənasında işlənən *misr* sözü cəmdə amsar (şəhərlər) şəklində olur. Amsar apelyativinə tək toponimlərin deyil eləcə də hidronimlərin tərkibində rast gəlmək olar. Quba rayonunda Amsar bulağı, Buryatriya ərazisində Amsar çayı.

T.A.Bertaqayev hidronimlərin tərkibində təsadüf edilən *amsar* sözünün "çay ağzı, mənsəb", "giriş, nəyinsə əsası, son" mənalarında izah etmişdir (15, s.124-125).

T.Əhmədov Amsar toponiminin ərəb mənşəli *əmsar* sözündən yarandığını və "böyük şəhər, paytaxt" mənasını bildirdiyini qeyd etmişdir (7, s.153).

Fikrimizcə, Amsar oykonimi çay kənarında yerləşdiyi üçün, "çayın ağzı, kənarında olan yaşayış məntəqəsi" deməkdir.

Zeyvə, Zeytə – Azərbaycanın Şabran, İsmayıllı, Laçın, Goranboy və Naxçıvan MR-nın Culfa rayonlarında Zeyvə, Qərbi Azərbaycan ərazisində Zeytə toponimləri qeydə alınmışdır. Azərbaycan ərazisində vaxtilə 10 kəndin olduğu bidirilir. T.Əhmədov *zeyvə* sözünün ərəb mənşəli olduğunu, bu sözün ərəb dilindəki *zaviyə* sözü ilə eyni kökdən olduğunu qeyd edir. Müəllif *zeyvə* sözünün istər ərəb dilində, istərsə də keçdiyi dillərdə islamiyətlə əlaqədar olduğundan, demək olar ki, eyni mənada fars dilindəki xanəgah sözünün sinonimi kimi "künc, bucaq, cəmiyyətdən uzaq guşə, hücrə, ibadətgah" mənaları ilə eyni mənanı ifadə etdiyini bildirərək yazır: "Zeyvə adlı məntəqələr keçmişdə bir bucaqda, hücrədə, camaatdan kənarda oturub, öz ömürlərini ibadətdə keçirən ruhanilər, din xadimləri və tərkidünyalar üçün salınmış hücrə, ibadətgah və ya guşələrin – "zabiyə" lərin qalıqlarıdır (6, s.54).

Tarixin müəyyən dövrlərində, o cümlədən Səfəvilər dövründə ruhanilər imtiyazlı zümrələrdən hesab olunurdu. Kürdəxanıda Əxizaviyəsi (XV əsr), Bibiheybət Zaviyəsi (XVII əsr) həmin dövrün yadiğarlarıdır (5, s.294).

M.Soltanov *zeyvə* oniminin dilimizdəki onomastik leksikasında məkan mənası ilə yanaşı "müqəddəslik" mənasında antroponim (qadın adı) kimi də işləndiyini qeyd etmişdir (12, s.45).

Bir vaxtlar Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində mövcud olmuş Zeytə toponimi də, ərəb apelyativi olan *zaviyə* sözünün yerli əhalinin danışığında təhrifə uğrayaraq *zeytə* formasına düşmüşdür.

Yuxarıda deyilmiş fikirləri ümumiləşdirsək Zeyvə toponimi "müqəddəs insanların yaşayış yeri, müqəddəs yer" mənasını ifadə edir.

Azərbaycan toponimiyasında ərəb etnonimi əsasında yaranmış toponimlər də mövcuddur. Çox güman ki, həmin kəndlərdə vaxtilə ərəblər yaşamış sonralar yerli əhali ilə qaynayıb qarışmışlar. Buna misal olaraq Ərəb (Xaçmaz, Ağdaş), Ərəblər (Şabran, Bərdə, Şamaxı), Ərəbli, Ərəbdəhnə, Ərəbhacı, Ərəbkeymuraz, (Quba), Ərəbqardaşbəyli (Neftçala), Ərəbqədim, Ərəbşalbaş (Qobustan), Ərəbqubalı, Ərəbqiyaslı, Ərəbçəltikçi, Ərəbsarvan (Kürdəmir), Ərəbmehdibəyli, Ərəbsarvan, Ərəbuşağı (Ağsu, Şamaxı), Ərəbocağı, Ərəbşəki, Ərəbbəsrə, Ərəbşeyx (Ağdaş), Ərəbşahverdi (Göyçay, Qobustan, Şamaxı), Ərəbcəbirli (Göyçay), Ərəbyatağı (Cəbrayıl), Ərəbyengicə (Şərur), Ərəbqədim, Ərəbşallı (Şamaxı), Ərəbbəbirxan, Ərəbqardaşxan (Salyan) və s. toponimləri göstərmək olar.

Ədəbiyyat:

1. Abışov E. Laçın rayonu onomastik vahidlərinin linqvistik təhlili. Fil. elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 2006, s. 146
2. Azərbaycan dilinin izahlı onomastik lüğəti. I kitab, Antroponimlər, Bakı: Nafta-Press, 2007, s.353
3. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: ASE, 1999, s.588
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı: Qərb-Şərq, 2007, 2 cilddə, I cild, s.304
5. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı: Qərb-Şərq, 2007, 2 cilddə, II cild, s.304
6. Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik, 1984, s.128
7. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: BDU, 1991, s.318
8. Ərəb- fars sözləri lüğəti. Bakı: 1985, s.1036
9. Kazımov Q. Dil, Tarix, Poeziya. Bakı: Nurlan, 2005, s.600
10. Qeybullayev Q. Azərbaycan toponimiyasında ərəb təbəqəsi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət seriyası, 1976, № 1, s. 80-88.
11. Soltanov M. Qərəh və Ağbil toponimlərinin mənşəyi haqqında Azərbaycan onomastikası problemlərinə dair konfrans materialları. V b., Bakı: 1995, s.

73-74.
12. Soltanov M. Azərbaycanın şimal-şərq zonasının (Quba, Xaçmaz, Dəvəçi,
13. Şükürov M., Bəşirov F. İsmayıllı toponimləri. Bakı: Orxan, 2004, 132 s.
14. Tapdıqoğlu N. Göyçay rayonu və onun toponimiyası. Bakı: Təhsil NPM, 2004, s.246
15. Qeybullayev Q. Azərbaycan toponimiyasında ərəb təbəqəsi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət seriyası, 1976, № 1, s. 80-88.

UOT 81

AZƏRBAYCAN DİLİNDƏ ANTROPONİMLƏR VƏ TOPONİMLƏRİN ÖNƏMİ

Təbərrük Fərrux qızı CAHANGİRLİ
Qərbi Kaspi Universiteti

XÜLASƏ

Yeni doğulan körpəyə ad qoyarkən ən anlamlı, ən yadda qalan,ən çox rəğbət qazanan adları seçməyə çalışmalıyıq. Antroponimika onomastikanın vacib sahələrinən biri olub, insan adlarının əmələ gəlməsini, inkişaf və təkmilləşməsini öyrənir. Hər bir Azərbaycanlı vətəndaş övladına ad seçərkən millilik nöqeyi nəzərdən yanaşması daha doğru olardı. Dil ictmai hadisədir və dilin danışıldığı arealı da dildəki toponimlər vasitəsi ilə aydınlaşdıra bilərik.

Açar sözlər: antroponim, xüsusi adlar, toponim, milli dil, onomastika

ЗНАЧИМОСТЬ АНТРОПОНИМОВ И ТОПОНИМОВ А АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

При именовании новорожденных малышей мы должны стараться выбирать наиболее значимые, наиболее запоминающиеся, самые популярные имена. Антропонимия, как одной из важных областей ономастики, изучает вопросов формирования, развития и совершенствования человеческих имен. Для каждого гражданина Азербайджана было бы правильно при выборе имени исходить из национальной позиции. Язык есть общественное явление и с помощью распространения топонимов мы можем уточнить ареал языка.

Ключевые слова: антропоним, собственные имена, национальный язык, ономастика

SİGNİFİCANCE OF ANTHROPONYMS AND TOPONYMS İN THE AZERBAİJANİ LANGUAGE

SUMMARY

When naming newborn babies we should try to choose the most meaningful, most remembered, most popular names. Anthroponymy is one of

the important fields of onomastics, learning about the formation, development and improvement of human names. It would be better for every Azerbaijani citizen to look at nationality when choosing a name. Language is a public phenomenon and we can clarify the language spoken by means of toponyms in the language.

Key words: antropononym, proper names, toponymy national language, onomastics

İnsanın adı onun kimliyidir, yəni onun identifikasiyasıdır, çünki yeni doğulan körpəyə ad verilərkən ən anlamlı, ən yadda qalan və daha çox rəğbətlə qarşılanan adları seçməyə çalışırıq. Çünki hər bir kəs ona verilən adının ağırlığını daşıyır. Təbiidir ki, insanlar ilk tanışlıqda adlarını söyləyərək ünsiyyətə qoşulur. İlk təəssürat və söhbətin uğurluluğu həmsöhbətimizin adımıza qarşı münasibətindən, o cümlədən bizim adımızın ona təsirindən çox asılıdır. Hətta "adını yüksəlmək, adını ucaltmaq, ad qoyub getmək" kimi ifadələr adımızın həyat yolumuzda və gələcək taleyimizdə nə qədər əhəmiyyət kəsb etdiyinin sübutudur.

Dilçilik elmində adların, o cümlədən insan adlarının əmələ gəlməsini, inkişaf və təkmilləşməsini antroponimika öyrənir. Antroponimika onomastikanın vacib sahələrinən biridir. Hər bir millətin özünəməxsus dili olduğu kimi, insanlara verilən milli adları da vardır. Antronimlər milli xarakter daşıdığı üçün onların linqvistik təhlilində sırf milli dil xüsusiyyətlərimizi aşkar etmək vacibdir [2, s. 12].

Azərbaycan şəxs adları Azərbaycan ərazisində yaşamış və yaşayan xalqların milli mənşəyini, adət ənənələrini, din və mədəniyyətini əks etdirməkdədir.

Bir sıra adlara müraciət edək;

Azər: Od, alov, günəş ilinin 9-cu ayı, oda xidmət göstərən mələk

Azad: Müstəqil, sərbəst, maneəsiz, əngəlsiz

Araz: Çay adı

Abdulla: Allahın nökəri

Dəfnə: ətirli yarpaqlarından yeyinti məhsullarında istifadə edilən həmişəyaçıl ağac

Ərus: gəlin, nişanlı, yeni ərə getmiş və ya getmək üzrə olan qız

Təbərrik/Tabarrik/Tabarik: uğur gətirən torpaq, su, müqəddəs adamların geyimlərinin bir parçası, aztapılan hərşey

Telli: teli olan, saçı olan, hörüyü olan, uzun saçlı, tellərini alnına tökmüş və s.

Yuxarıdakı nümunələrdən də göründüyü kimi, hər adın özünəməxsus mənası, habelə fərdi tarixi kökləri də vardır. Hər bir millət kimi, biz də öz tariximizə sahib çıxmaq, gələcək nəsillərə milli kimliyimizi qoruyaraq ötürmək üçün dilimizdən düzgün istifadə etməklə birlikdə, adlarımızı da seçərkən bir o

qədər diqqətli olmalıyıq. Övladlarımıza ad qoyarkən öz milli Azərbaycan adlarını seçməliyik və milli mənşəyimizi, tarixi köklərimizi unutmamalıyıq.

Bu gün yeni valideyn adını qazanmış gənc ailələrdə övladlarına ad qoyarkən başqa dillərə məxsus adlara üstünlük vermələri, nə qədər acılı olsa da, özünü kəskin şəkildə göstərməkdədir. Nəzərə alsaq ki, bu meyil insanlarımız arasında rəğbət qazansa və belə adların doğulan körpələrə qoyulması durmadan çoxalsa, azərbaycanlı körpələr öz adlarında milli kimliyimizi necə yansıda bilər? Bəlkə də, həmin azərbaycanlı körpə dünyaya və insanlığa gələcəkdə böyük elmi və ya mədəni töhvələrini verəcək, dünyada Azərbaycanı təmsil edəcəkdir. Belə olanda başqa millətlərə məxsus adı daşıyan azərbaycanlının milli kimliyi ağıllarda dolaşıqlıq yaratmayacaqmı?

Dünya şöhrətli Lütfi Zadə (əsl adı – Lütfəli Rəhim oğlu Əsgərzadə) azərbaycanlı alim, süni intelellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Kaliforniya Berkli Universitetinin professoru.

Molla Pənah Vaqif (Pənah Mehdi ağa oğlu)XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri.

Firidun bəy Köçərli Azərbaycan maarifçisi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist, Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi

Xurşidbanu Natəvan XIX əsr Azərbaycanın görkəmli şairəsi. Qarabağın sonuncu xanımı (hakimə) Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsi.

Müslüm Maqomayev (tam adı: Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev 18 sentyabr 1885 – 28 iyul 1937) - Azərbaycan bəstəkarı, dirijor, pedaqoq, folklorşünas, ictimai xadim, Azərbaycan klassik musiqisinin təsisçilərindən biri, Azərbaycan musiqisində Avropa stilində ilk operanın müəllifi.

Yuxarıda adlarını sadaladığımız bu dahi şəxsiyyətlərin hər biri dünyada Azərbaycan alimi, Azərbaycan şairi, Azərbaycan bəstəkarı kimi tanınır və nümayəndəsi olduqları Azərbaycan xalqını ən yüksək səviyyədə təmsil etmişlər və etməkdədirlər. Məhz hər bir vətəndaş övladına ad seçərkən bu çalarları da nəzərdən keçirməlidir.

Görkəmli türk filologu Mahmud ibn Huseyn İbn Muhammməd əl-Kaşğari bir kalamında /Yaxşı insan ölər, adı qalar// demişdir. Burada "ad" hər nə qədər şərti məna daşısa da bir insanın yaxşı əməllərinin onu adı ilə əlaqəsi vurğulanmaqdadır.

/At ölər izi qalar, igid ölər adı qalar// atalar sözündə də "ad" insanın namı, şan şöhrəti ilə əlaqələndirilmişdir. Adlarla bağlı atalar sözlərinin sayını artıra bilərik: /Ad adamı bəzəməz, adam adı bəzəyər// atalar sözündə də "ad" insanın nüfuzu, mərdliyi, insanlığı ilə əvəz olunmuşdur. Ümumiyyətlə "ad" ilə bağlı ifadələr insanın ən ali xüsusiyyətlərini daşımaqdadır. /Adı dillərdə gəzmək// ifadəsində uğuru, nailiyyəti el arasında rəğbət qazanmaq, fəxr, hörmət mənasında isə; /adı dillərə düşmək/ ifadəsində şərəf və ləyaqəti yerlə bir olmaq

mənaları öz əksini tapmaqdadır. Bu ifadələrdən adımızın nə qədər güclü və dərin əhəmiyyəti olduğunu aydınlaşdıra bilərik.

Dil ictimai bir hadisə kimi cəmiyyətə xidmət edir [3, s. 96]. Cəmiyyətin milli kimliyini, mənşəyini danışdığı dildəki antronim vahidlər vasitəsilə aşkarladığımız kimi, o, dilin danışıldığı arealı da dildəki toponimlər vasitəsi ilə müəyyənləşdirə bilərik. Ölkə adlarından tutmuş, rayon, qəsəbə adlarını, şəhər, küçə hətta məhəllə adlarını belə incələyən toponimlər dilin lüğət tərkibində xüsusi yerə sahib olmaqla bərabər, dil faktı kimi özünəməxsus diqqəti cəlb etməkdədir. Çünki Abbasqulu Ağa Bakıxanov Gülüstan-ı İrəm əsərində "Əgər ölkələrin qəbilələri, kəndləri, binaları və qədim adları geniş surətdə tədqiq edilsə əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır" [1, s.66] deyə qeyd etmişdir.

Bu fikir əsasında Azərbaycana aid bir sıra toponimlərə müraciət edək:

Ağbalıq: Salyan rayonu ərazisində çay, Aqusa çayının qoludur. Ağbalıq çay balığı növüdür.Çayda yaşayan balıq növünün adı çayın adına köçürülmüşdür [4, s. 15].

Bəhrəmtəpə: İmişli rayonunda Araz çayı sahilində, Mil düzündədir. Keçmiş adı Ağaxanlı, Nənmanabad (1931-ci ildən), Bəhramtəpə, Bir May (1961-ci ildən) olmuşdur.1992-ci ildən yenidən Bəhrəmtəpə adlandırılmışdır. Adını ərazidəki yüksəklikdən almışdır [4, s.90].

Durubahar: Kəlbəcər rayonunda dağ. Dağın ətəklərində çox vaxt gülçiçək olduğu üçün "təmiz bahar, yaz" bu adı almışdır [4, s. 170].

Fındıqlı: Zaqatala rayonunun Maqov qəsəbəsində Qala və Katex Çayları sahilindədir. 1965-ci ildə təşkil olunmuş 1 nömrəli fındıqçılıq savxozu fəhlələri üçün salındığına görə belə adlanır [4, s. 193].

Kətəndağ: Dəvəçi və Quba rayonları sərhədində sıra dağlar, hündürlüyü 1481m, Əsli Kotandağdır oronim kotan (türk dillərində "əhatə olunmuş yer") və dağ kompenentlərindən düzəlib "divar dağ, dağ silsiləsi" deməkdir. Oronimin etnotoponim olması da mümkündür[4, s. 278].

Geniş və dərin kökləri olan Azərbaycan dilindəki antroponimlər və topomimlər dilimizin qədimliyindən və zənginliyindən xəbər verməkdədir və bizim milli sərvətimizin daşıcısıdır. Məhz onomastik vahidlər ana dilimizin hesabına formalaşmışdır. Biz də bir Azərbaycanlı kimi öz milli dilimizə sahib çıxmalı və onu gələcək nəsillərimizə təhrifsiz ötürməliyik.

Ədəbiyyat:

1. Abasqulu ağa Bakıxanov Gülüstani - İrəm, 1841
2. .Qurbanov. "Azərbaycan dilinin onomologiyası", Bakı: "Maarif" 1988,
3. Axundov A.A. Ümumi dilçilik. Bakı: Maarif, 1979. 256s
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti . 2 cilddə. I jild, Bakı: «Şərq-Qərb», 2007

UOT 81

İSA HÜSEYNOVUN "KOLLU KOXA" ƏSƏRİNDƏ LƏQƏBLƏR

Telli Yaşar qızı SƏLİMLİ
Qərbi Kaspi Universiteti
telli.s@mail.ru

XÜLASƏ

Məqalədə əvvəlcə onomastik vahidlərin mahiyyəti haqqında məlumat verilmişdir. Dilçiliyin mühüm şöbələrindən biri olan onomalogiyanın tərkib hissələri müəyyənləşdirilmişdir. Məlum olduğu kimi, antroponimlər onomastikanın insan adları, təxəllüsləri, ləqəblərindən bəhs edən növüdür. Məqaləmiz xüsusi olaraq ləqəblərə həsr olunmuşdur və onu, demək olar ki, əvvəldən sona qədər ləqəblər əsasında qurulan İsa Hüseynovun " Kollu Koxa" əsəri üzərində işləmişik.

Açar söz: antroponim, ləqəb, Cında qarı, Dingə Dəmir, Kollu Koxa

"NICKNAMES IN ISA HUSEYNOV'S WORK CALLED KOLLU KOKHA
SUMMARY

The article firstly refers to the essence of onomastic units. One of the most important branches of linguistics, the components of onomology have been identified. As is known, anthroponyms are types of onomastics that refer to human names, pseudonyms, and pseudonyms. Our article is specifically dedicated to nicknames, and it can be said that we worked on "Bush Kosa" of Isa Huseynov, which was founded on nicknames from beginning to end .

Keywords: anthroponym, nickname, the old woman in Jinda, Dinge Demir, Kollu Kokha.

Müasir Azərbaycan ədəbi dili zəngin lüğət tərkibinə malik olmaqla yanaşı, onun böyük bir qatını onomastik leksika təşkil edir. Onomastik leksikaya daxil olan söz qrupları müəyyən ictimai tarixi inkişafın məhsulu olub, mənsub olduğu xalqın həyatını əks etdirən əvəzsiz söz sərvətidir. Uzun müddət tədqiqatdan kənar qalmış onomastik leksikanın tədqiqinə təxminən XX əsrin 50-ci illərindən başlanmışdır. Onomastik leksikanın hərtərəfli tədqiqi müasir dil, dialektologiya, dil tarixi və s. sahələrin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, onomastika ilə bağlı tədqiqatlar birtərəfli aparılmış, xüsusi adlar qrupunun linqvistik cəhətdən hərətəfli tədqiqinə meyl təsadüfi xarakter daşımış, onomastik leksikanın öyrənilməsində sistemsizlik, nata-

mamlıq özünü göstərmiş, fundamental araşdırmalar aparılmamış, yalnız etimoloji ehtimallar irəli sürülmüşdür. Bu isə, hər şeydən əvvəl, həmin elm sahəsinin nəzəri və praktik problemlərini özündə əks etdirən əsərlərin olmaması ilə bağlı idi. Xüsusi olaraq, Afad Qurbanov öz tədqiqatlarını ümumi dilçilik və Azərbaycan dilçiliyinin müxtəlif problemlərinə həsr etmiş, fundamental elmi-tədqiqat əsərləri yazmışdır.

Onomastika müasir dilçilikdə hərtərəfli tədqiqə ehtiyacı olan bir bölmədir. Azərbaycan dilçiliyində onomastikanın müxtəlif sahələrindən bəzi qrammatika kitablarında, monoqrafiyalarda,dərsliklərdə danışılmasına və geniş izahı verilməsinə baxmayaraq,onomastikanın ədəbi dilimizin bədii üslubunda öz həllini tapmayan nəzəri məsələləri vardır. Dilçilikdə "onomastika" sözünün iki mənası izah olunur:

1) dildə mövcud olan xüsusi adların hamısı;

2) dilçiliyin xüsusi adları öyrənən bəhsi.

A.Qurbanov isə dildəki xüsusi adların məcmusunun – onomastika, ondan bəhs edən dilçilik sahəsinin isə onomalogiya adlandırılmasını daha məqsədəyönlü hesab etmişdir.

Dilimizin lüğət tərkibindəki bütün isimlər iki yerə bölünür: ümumi isimlər və xüsusi isimlər. Bu bölgü leksik tərkibin ən qədim, ənənəvi bölünmə üsuludur. Xüsusi isimlərin və ümumi isimlərin öyrənilməsi dilçilik elminin əsas vəzifələrindən biridir. Onomalogiyada ümumi isimlər – apelyativ leksika, xüsusi isimlər onomastik leksika terminləri ilə əvəz olunmuşdur. Onomastik vahidlər öz vəzifə, funksiya və mənalarına görə ümumi adlardan kəskin sürətdə fərqlənir. "Onomastikanı dilçiliyin xüsusi bir qolu" adlandıran A.V.Superanskaya yazmışdır: "Xüsusi adlar linqvistik kateqoriyalara daxil olan bütün sözlər kimi eyni elementlərdən təşkil olunsa da, cəmiyyətə fərqli xidmət edir."

Onomastik vahid dil işarəsi üçün tələb olunan ikitərəfliyə - ümumi adlara xas olan ifadə edənin və ifadə edilənin birliyinə malik deyildir. Eynicinsli bütün əşyalar umumi isimlər, eynicinsli əşyaları bir-birindən fərqləndirmək üçün verilən adlar isə xüsusi isimlərdir. Xüsusi adların, yəni xüsusi isimlərin bir neçə qrupa bölündüyünü nəzərə alsaq, onomastikanın da həmin bölgüyə uyğun olaraq bölmələri olduğunu görərik. Xüsusi isimlərə aşağıdakılar aiddir:

a) şəxs adları, soyadlar, təxəllüs və ləqəblər;

b) coğrafi adlar ;

c) səma cisimlərinə verilən adlar;

ç) qəzet və jurnallara, müxtəlif əsərlərə, ictimai və məişət obyektlərə verilən xüsusi adlar;

d) heyvanlara verilən xüsusi adlar.

Xüsusi isimləri onomastik vahidlərlə eyniləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

a) şəxslərin adları, soyadları, təxəllüs və ləqəblərini antroponimlərə;

b) bütövlükdə coğrafi adları toponimlərə;

c) müxtəlif yaşayış məntəqələrinin adları–yəni şəhər, rayon, kənd adları toponim və oykonimlərə;

ç) səma cisimlərinin adları (ay, planet və s.) astronim və ya kosmonimlərə;

d) çay, göl, dəniz, okean adlarını hidronimlərə;

e) heyvanlara verilən xüsusi adları zoonimlərə;

ə)bina – tikili adlarını oykodonimlərə və ya urba- nonimlərə;

f) qəzet və jurnallara, müxtəlif əsərlərə verilən xüsusi adları isə ideonimlərə aid etmək olar.

Elmi ədəbiyyatda "onomastika bütün xüsusi adların təcəssümü, toponimlər coğrafi adlar, antroponimlər insan adları, etnonimlər tayfa və millət adları, hidronimlər dəniz, çay, göl adları, kosmonimlər kosmik obyekt adları, teonimlər səcdəgah adları, zoonimlər heyvanlara verilən xüsusi adlar, ktematonimlər müəssisələrə və digər əşyalara verilən xüsusi adlar" kimi izah olunur.

Qeyd etdiyimiz kimi, antroponimlər şəxs adlarının məcmusunu bildirən bir termindir. Yunan söz olub mənası antropos və nomos sözlərinin birləşməsindən əmələ gəlib, mənası adlar haqqında elm deməkdir. Antroponimlər şəxsin öz adını (Məhəmməd), atasının adını (Yusif), soyadını (Əliyev), ləqəb (Kefli İsgəndər), təxəllüs (Səməd Vurğun) və s. əhatə edir.

Dialektal, fərdi, ədəbi, poetik, topoantroponim, real, reprezentativ antroponimlərə ayrılır. Azərbaycan dilində antroponimin iki növü var:real və qeyri-adi antroponim- lər.

Cəmiyyətdə insanları bir-birindən fərqləndirmək məqsədi ilə istifadə olunan hər bir həqiqi ad real antroponimdir. Məs., *Mərdan qaşqabaqlı bir sükutla budaqları aralayıb kolların qaranlıq diblərini, mağaraları nəzərdən keçirirdi* (İ.Əfəndiyev). Yazılı ədəbiyyat və folklorda müəyyən bədii məqsədlərlə bağlı işlədilən antroponim qeyri-adi bədii antroponim adlanır.Məs., *Ramazan nə qədər tələsirdisə, Cinayətov bir o qədər ağır tərpənirdi...* (M.Cəlal). Antroponimlərdə xalqın özünəməxsus mədəniyyəti, məşğuliyyəti, etik və estetik görüşləri öz əksini tapmışdır.

Bədii əsərlərimizdə onomastik vahidərin bütün növləri, eləcə də antroponimlər yazıçılarımız tərəfindən geniş istifadə olunur. Bir çox yazıçılarımızın əsərlərini nümunə göstərə bilərik.

Dəyərli bədii nümunələrimizdən olan böyük sənətkar İsa Hüseynovun Cəlil Məmmədquluzadənin əziz xatirəsinə həsr olunmuş "Kollu Koxa" əsərində demək olar ki, bütün əsər boyu çox maraqlı ləqəb bildirən antroponimlərdən istifadə olunmuşdur. İlk növbədə ləqəb dedikdə nə nəzərdə tutulur? Müəyyən bir səciyyəvi xasiyyətinə və ya başqalarından ayrılan əlamətinə görə şəxslərə verilən qeyri-rəsmi ad;ayamadır. İndi isə əsərdən bir nümunəyə diqqət yetirək: *"Cında qarı, Dingə Dəmir Həsir Haşım! ...-Bu adlarda nəsə axtarmayın, amma əlbəttə, qəribədir ki, bizim Qaracalarda uşaqları, yeniyetmələri çıxmaq şərti ilə, neçə adam varsa, bir o qədər də ləqəb var. Hamısını uydurub yaraşdıran da Koxadır. Daha doğrusu, Koxa idi. Daha yoxdur Koxa-kənddə deyil. İndi onun*

özünün də ləqəbi var: Kollu Koxa. Bu ləqəbi kim qoşub, Koxa bunu bilmir"[2,359]. Qaracalara ləqəb verən əsərin əvvəlindən haqqında məlumat verilən Kollu Koxa idi. Kollu Koxanın verdiyi ləqəblər reallığa nə dərəcədə uyğun idi. Ümumiyyətlə bu ləqəblər hansısa bir mahiyyət kəsb edirdimi?

Gəlin nəzər salaq.*"Niyə Dingə deyirəm mən bu ağsaqqala? Deyəmməzsən, çünki sənin fikrin ayrı yerdədi, Cavanşir, bunun dingəsi gözünə görükmür! Otuz ildi bu kişi Qaracalarda suçuluq eləyir. Qışın ayazında taxılın don suyundan başlayıb, ta bir də payızacan ayaqları suyun içindədi. Bir ildən çoxdur bu kişinin başında ağrı var. Gedir sənin yanına, xahiş eləyir ki, daha dözəmmirəm, qoy mənə ayrı naryad versinlər. Kişinin dərdini xəbər almaq əvəzinə hələ təəccüb də eləyirsən, deyirsən, nə iş istəyirsən, sənin ki sudu, lapadkadı, get lapadkada işlə. Bir balaca ürəyin yansa, öyrənib bilərsən ki, axır vaxtlar Dəmir kişinin bir ayağı həkimin yanında həkim dərman verir, sonra da, deyir, xeyri olmayacaq, peşəni dəyişməsən, deyir, dərmanın xeyri dəymiyəcək. Bu kişinin qoca anası var.Öz kəndiyin qocasını, qarısını tanıyırsansa, bilirsən ki, Dəmir kişinin anası Xallı arvad hələ rəhmətə getməyib. Xallı arvad tutub oğlunun əlindən, aparıb mollanın yanına ki, bəs, molla, həkimin dərmanı güc eləmir, oğlumun dərdinə çarə elə. Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına, baxıb gülsünlər, bədnəzər sovuşub getsin.... İndi bildinmi, niyə Dingə deyirəm mən Dəmir kişiyə ?!* [2,397] və yaxud digər bir epizoda keçid edək.

"Bilirsənmi niyə Cında qoymuşam Pəpə-Kökə nənəmizin adını? Onun nəvələriynən işim yoxdu, uzaqdadılar, əlim çatmır. Səndən xəbər alıram ki, Pəpə-Kökə nənə niyə dönüb Cında olub?! Çünki pəpəsini, kökəsini yeyib, özünüzün əliniz pəpəyə çatandan sonra onu lazımsız cında təki atıbsınız! İyirmi beş ildi çıxıbsan bu qara damdan. Uzağa getməyibsən. Burdaca, gözümüzün qabağındaca gəzirsən, sədrlik eləyirsən, de görüm bu iyirmi beş ildə bircə kərə başa salıbsanmı bu qara dama ki, görəsən Pəpə-Kökə nənəniz necə dolanır, dərdi-səri nədi?! Baş salmayıbsan! Çünki səndən ötrü bu saat bu qarıynan səhər-səhər evdən çıxanda çəkməni silib tulladığın cındanın heç bir tafoutu yoxdu! Çünki sənin sinəndə ürək əvəzində daş asılıb, Cavanşir! Özündən savayı heç kəs sənin vecinə deyil!" [2,396].

Bu bədii nümunələrin hər birində yer alan, xalq arasında insanlara verilən və xüsusi məna tutumuna malik ləqəblər onomostik vahid olaraq yalnız dilçilik sahəsinin deyil, eyni zamanda ədəbiyyatın da bədii təhlil obyektinə çevrilir. Məlum dilçilik sahəsi sözügedən elmlə ədəbiyyat arasında sərhədləri aradan qaldıraraq birinin digərinə transformasiya etməsinə şərait yaradır və körpü rolu oynayır.

Ədəbiyyat:

1. Afad Qurbanov. Müasir Azərbaycan dili. I cild, Bakı, 2010
2. İsa Muğanna. Seçilmiş əsərləri. VI cild, Bakı 2009

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

1. Qərbi Kaspi Universitetinin Elmi xəbərlər jurnalında əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr ingilis, azərbaycan, rus dillərində qəbul edilir.
3. Yazılar Microsoft Word yazı proqramında, (science@wcu.edu.az) ünvanına göndərilməlidir.Göndərilən məqalələrdə aşağıdakılar nəzərə alınmalıdır:
   * Məqalənin başlığı, müəllifin adı, ata adı, soyadı,
   * İş yeri,
   * Elektron ünvanı,
   * Xülasə və açar sözlər.
4. Məqalə sturuktur etibarilə xülasə, giriş, alt başlıq və ya başlıqlardan, nəticə və isifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmalıdır.
5. Məqalədə başlıq hər xülasədən əvvəl ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
6. Xülasə 100-150 söz aralığında olmaqla, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
7. Bütün məqalələrin orijinal dilindən asılı olmayaraq mütləq azərbaycan, rus və ingilis dillərində xülasələri və açar sözləri dərc edilməlidir.
8. Məqalədə UOT kodu göstərilməlidir.
9. Məqalə aşağıdakılardan ibarət olmalıdır:
   * Giriş,
   * Tədqiqat işinin müzakirəsi
   * Nəticələri
   * İstinad ədəbiyyatı rus dilində olduğu halda orijinal dili mötərizə içərisində göstərməklə yalnız latın əlifbası ilə verilməlidir.
10. Şəkil, rəsm, qrafik və cədvəllər çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.

TO THE ATTENTION OF AUTHORS!

1. The Journal of Western Caspian University accepts previously unpublished, research papers, original works and review articles written by the author in the field of research.
2. Articles are accepted in English, Azerbaijani, Russian languages.
3. Entries should be sent in Microsoft Word writing program to the address (science@wcu.edu.az). The following should be considered in the articles sent:
   *The title of the article, the name, father's name and last name of the author.
   *The occupation.
   *E-mail address.
   *Summary and key words.
4. The article must consist of introduction, sub-headings or headlines, conclusion and the list of used literature, by its structure.
5. The title of the article must be given above of every summary in the middle of the paper**, in bold** and capitalizing in three languages.
6. The summary must consist of 100-150 words and must be given in the original language and translated into two languages.
7. All three summaries must be the same in three languages.
8. The UDC code must be provided in article.
9. The article must consist of these:
   Introduction
   Description of research
   Conclusion
   The reference literature being in Russian, the source language must be indicated in brackets in Latin alphabet.
10. Pictures, drawing, graphics and tables must be in the text that clearly published. Captions must be written below the pictures, drawing and tables.

Məqalələr aşağıdakı ünvana göndərilir:
E-mail: science@wcu.edu.az;
Məqalələrin online qəbulu: journal.wcu.edu.az

Статьи направляются по адресу:
E-mail: science@wcu.edu.az;
Онлайн прием статей: journal.wcu.edu.az

Articles should be sending to the following address:
E-mail: science@wcu.edu.az;
Submit online: journal.wcu.edu.az

Formatı	70×100 $^{1}/_{16}$
Həcmi	F.ç.v. 13
Sayı	500

Qərbi Kaspi Universitetinin nəşriyyat-poliqrafiya mərkəzində yığılmış və çap olunmuşdur.